# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏN SƏKKİZİNCİ KİTAB

## İYUN 2018 - AVQUST 2018

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Qazaxıstan və Fransa respublikalarına səfəri, həmçinin Türkiyə, İtaliya və Tacikistan prezidentlərinin, Almaniya Federal Kanslerinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda, həmçinin dövlət başçısının Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Azadlıq meydanında təntənəli hərbi paradda nitqi, ölkənin enerji sistemində yaranmış vəziyyətlə əlaqədar keçirilmiş müşavirədə və digər mühüm tədbir və toplantılardakı çıxışları oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASI POLİS ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli polis əməkdaşları və veteranları!

Sizi Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm. Bu tarix yalnız ölkəmizin daxili işlər orqanları üçün deyil, bütünlükdə müstəqil Azərbaycan dövləti üçün əlamətdar hadisədir.

1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə ilk polis orqanları yaradılmış və bununla da Azərbaycan polisinin əsası qoyulmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçildikdən sonra Daxili İşlər Nazirliyi əməkdaşlarının vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi önəm vermişdir.

1991-ci ildə yenidən dövlət müstəqilliyini bərpa etmiş respublikamızda baş verən dağıdıcı proseslər, yaranmış hakimiyyət böhranı və idarəolunmaz vəziyyət dövlətçiliyin əsas sütunlarından olan polis orqanlarına da mənfi təsir göstərmişdir. Ölkədə cinayətkarlıq kəskin şəkildə artmış, kriminogen durum nəzarətdən çıxmışdı. Yalnız 1993-cü il iyunun 15-də xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə qayıtması dövlətçiliyimizi uçurumdan xilas etdi. Ulu öndərin rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili işlər orqanlarının fəaliyyətində əsaslı dönüş yaradıldı və onun sıraları dövlətinə və xalqına sədaqətli şəxsi heyətlə komplektləşdirildi.

Bu gün Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Ulu öndərin qoyduğu təməllər üzərində güclü dövlət qurulmuşdur.

Ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir, insan hüquqları ədalətli şəkildə qorunur.

Hazırda Azərbaycan polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində önəmli xidmətləri olan mühüm dövlət təsisatıdır.

Dövlət tərəfindən daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim kompleks tədbirlər həyata keçirilir və bu sahədə dövlət qayğısı gələcəkdə də davam etdiriləcək. Öz növbəsində, Azərbaycan polisi fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirməli, cinayətkarlığa qarşı mübarizəni daha böyük əzmlə və qətiyyətlə aparmalıdır.

Əminəm ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da vəzifələrini şərəflə yerinə yetirəcəkdir.

Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətimiz və cəmiyyətimiz üçün önəmli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyun 2018-ci il*

**BELARUS RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarusun milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün dost Belarus müstəqilliyin və suverenliyin möhkəmləndirilməsi, dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşdirilməsi yolunda uğurla irəliləyir. Ölkənin ardıcıl sosial-iqtisadi inkişafı seçilmiş yolun məqsədyönlü olmasının əməli təsdiqidir.

İki ölkənin qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirmək, dost xalqlarımızın rifahı naminə strateji tərəfdaşlığı dərinləşdirmək səylərini əks etdirən Azərbaycan–Belarus ikitərəfli münasibətlərinin yüksək səviyyəsi xüsusi məmnunluq doğurur.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün həmvətənlərinizə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2018-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Regional çağırışlara və terrorizmə qarşı mübarizədə, təhlükəsizlik məsələlərində, eləcə də iqtisadi sahədə ölkələrimiz yaxından və səmərəli əməkdaşlıq edir.

Enerji sahəsindəki əməkdaşlığımız xüsusilə əhəmiyyətlidir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən neft-qaz layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi məmnunluq doğurur. Bu yaxınlarda istismara verdiyimiz «Cənub Qaz Dəhlizi» isə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

Bununla yanaşı, ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıbdır. Biz Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunacağı, qaçqın və məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıdacağı günü səbirsizliklə gözləyirik. Buna görə də münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2018-ci il*

## ÖLKƏNİN ENERJİ SİSTEMİNDƏ YARANMIŞ VƏZİYYƏTLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ İŞTİRAK

*4 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də ölkənin enerji sistemində yaranmış vəziyyətlə əlaqədar keçirilən müşavirədə iştirak etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Mingəçevir İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində ölkəmizin enerji təchizatında ciddi problemlər yaranıb. Görülmüş operativ tədbirlər nəticəsində bir neçə saatdan sonra enerjinin verilməsi bərpa edilib. Səhər mənim sərəncamımla məsələni araşdırmaq üçün Dövlət Komissiyası yaradılıb və komissiya öz işinə başlayıbdır. Komissiya qarşısında bir neçə vəzifə qoyulubdur. Onların arasında əsas vəzifə məsələni araşdırmaq və qəzanın səbəblərini aşkar etməkdir. Komissiya günahkarları müəyyən etməli, onlara qarşı görüləcək tədbirlər haqqında təkliflər verməli və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamalıdır.

Dünən axşam saatlarında enerjinin verilməsi yenidən kəsildi. Yenə də görülmüş tədbirlər nəticəsində qısa müddət ərzində enerjinin verilməsi bərpa edildi. Mən bütün dövlət orqanlarına ciddi tapşırıq verdim ki, onların nümayəndələri bu vəziyyətlə bağlı vətəndaşlara kömək etsinlər və biz bu vəziyyətdən şərəflə çıxa bilək. Deyə bilərəm ki, bütün dövlət orqanları bu vəzifənin icrasında böyük peşəkarlıq göstərdilər. Onların çox uğurlu fəaliyyəti nəticəsində bu qəza, demək olar ki, aradan qaldırıldı. Baxmayaraq ki, vətəndaşlara böyük əziyyət verildi, amma heç bir ağır hadisə baş vermədi.

Fövqəladə Hallar Nazirliyi təxliyə işlərini tez və düzgün şəkildə aparmışdır. Liftlərdə qalmış və metroda olan vətəndaşlar təxliyə olundular. Xilasedicilər çox uğurla fəaliyyət göstərdilər.

Daxili işlər orqanları operativ şəkildə fəaliyyətə keçdilər. İlk növbədə, asayişin qorunub saxlanılması məsələləri gündəlikdə idi. Böyük təhlükə var idi, işıqforların işləməməsi nəticəsində şəhər nəqliyyatı idarəolunmaz vəziyyətə düşə bilərdi. Polis əməkdaşları yol kəsişmələrində uğurlu fəaliyyət göstərərək, yol hərəkətini tənzimləyə bildilər.

Onu da qeyd etməliyəm ki, Azərbaycan vətəndaşları bu məsələ ilə bağlı böyük məsuliyyət, böyük vətəndaş həmrəyliyi göstərdilər. Bütövlükdə Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bildi. Fürsətdən istifadə edərək, bütün Azərbaycan vətəndaşlarına göstərdikləri dəstəyə, anlayışa və vətəndaş həmrəyliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, vətəndaşlar bir-birlərinə kömək ediblər. Bu bir daha Azərbaycan cəmiyyətinin çox yetkin olduğunu və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyinin mövcudluğunu göstərir.

Nəqliyyat məsələləri tənzimləndi. Bakı Nəqliyyat Agentliyi dərhal operativ tədbirlər gördü, xətlərə yeni avtobuslar çıxarıldı, sərnişinlərə böyük diqqət və qayğı göstərildi. Bir sözlə, hesab edirəm ki, bütün dövlət qurumları bu ağır vəziyyətdə çox çevik fəaliyyət, böyük peşəkarlıq göstərdilər və biz bu vəziyyətdən az itkilərlə çıxa bildik.

Ancaq 2 dəfə baş vermiş qəza çox ciddi araşdırılmalıdır. Çünki son illər ərzində Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulub. Son 15 il ərzində Azərbaycanda onlarla yeni elektrik stansiyası istifadəyə verilib, 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilibdir. Bizim enerji potensialımız hazırda 6400 meqavata bərabərdir. Onun 2500 meqavatı, qeyd etdiyim kimi, son 15 il ərzində yaradılıb. Ölkəmizin bütün bölgələrində yeni elektrik stansiyaları tikilib – Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında.

Bölgələrdə su-elektrik stansiyaları yaradılıbdır. Yəni bu stansiyaların coğrafiyası göstərir ki, biz ölkəmizin bütün bölgələrində yeni stansiyalar tikərək, enerji sisteminin dayanıqlılığını təmin etmək üçün çalışırıq. Ancaq bir qəza nəticəsində, demək olar ki, bütün enerji sistemi sıradan çıxdı. Bu məsələ çox ciddi suallar yaradır. Bu məsələ çox ciddi araşdırılmalıdır. Bu qəza nəticəsində isti havada insanlara böyük əziyyət verildi, iqtisadiyyata böyük ziyan vuruldu. Düzdür, həm birinci, həm ikinci dəfə operativ tədbirlər nəticəsində enerjinin verilməsi bir neçə saat ərzində bərpa edildi. Ancaq bu qəzalar baş verməməli idi. Əgər baş versəydi belə, fəsadlara gətirib çıxarmamalı idi. İndi qəzalar olur, həm bu sahədə, həm başqa sahələrdə. Dünyanın hər hansı bir ölkəsində heç kim qəzadan sığortalı deyil. Ancaq qəza lokal xarakter daşımalıdır. Bir stansiyada baş vermiş qəza bütün enerji sistemimizə çox böyük zərbə vurdu. Ona görə çox ciddi araşdırmalar aparılmalıdır, günahkarlar məsuliyyətə cəlb edilməlidir. Bir daha qeyd etmək istəyirəm, elə bir tədbirlər planı hazırlanmalıdır ki, gələcəkdə biz bu qəzalardan və qəzaların törədə biləcəyi fəsadlardan özümüzü qoruya bilək.

* * *

**Y a q u b  E y y u b o v** (*Baş Nazirin birinci müavini, komissiyanın sədri*): Möhtərəm cənab Prezident!

Məruzə edirəm ki, Mingəçevirdə yerləşən «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinə məxsus «Azərbaycan İstilik Elektrik Stansiyası» Məhdud Məsuliyyətli Cəmiyyətin yarımstansiyalarının birində baş vermiş qəza ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq «Azərenerji»nin prezidenti Etibar Pirverdiyevlə iyulun 3-ü səhər saat 08-də Mingəçevir şəhərinə gedərək, hadisə yerinə birlikdə baxış keçirdik. Baxış zamanı müəyyən olundu ki, iyulun 3-ü saat 10:17 radələrində «Azərbaycan İstilik Elektrik Stansiyası»nın 330 kilovoltluq yarım-

stansiyasında cərəyan transformatorunda qəza nəticəsində orada olan təxminən 1000 kiloqrama qədər yağ ətrafa axmış, yaxınlıqdan keçən elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq, yanğına səbəb olmuşdur. Həmin kabellərin uzun illərdir istismar edilməsi yanğının intensivliyini bir qədər də artırmışdır. Qəza baş verən vaxtda bu yarımstansiyaya xidmət edən stansiyanın 6-cı blokunda iş dayanmış, lakin ora verilən qaz dayandırılmadığından burada da yanğın baş vermişdir. Hər iki yanğın söndürülmüşdür. Bütün bunların nəticəsində işlək vəziyyətdəki enerji blokları və hava xətlərində qəza açılışları olmuş, stansiyada gərginlik tam itmiş və respublikanın elektrik enerjisinin əsas ötürücülərindən olan birinci «Abşeron» elektrik hava xətti ilə elektrik cərəyanının verilişi tam dayanmış, stansiyanın avtomatika və idarəetmə sistemi pozulmuşdur. Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın rayonlarının elektrik enerjisi təminatında fasilə yaranmışdır.

Cənab Prezident, yaranmış vəziyyət ilkin təhlil edildikdən sonra baş vermiş qəza ilə bağlı iyulun 3-də Sizin tapşırığınız və sərəncamınızla yaradılmış Dövlət Komissiyasının ilk iclası keçirildi. İclasda qəzanın səbəbləri, nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlər müzakirə olundu və bununla əlaqədar müvafiq vəzifələr müəyyən edildi. İclasın sonunda – saat 19:00 radələrində enerji sistemində yenidən açılmalarla bağlı məlumat daxil oldu. Yaranmış vəziyyətlə bağlı «Azərenerji» ASC-nin baş dispetçer məntəqəsinə gedərək, enerji sisteminin yenidən dayanması səbəblərini araşdırmağa çalışdıq. Dispetçerlər burada problemin aradan qaldırılması ilə məşğul olmuş və elektrik enerjisinin verilişi bərpa edildikdən sonra Sizin tapşırığınızla, ilk növbədə, xüsusi həyati əhəmiyyətli obyektlərə – xəstəxanalara, metroya, aeroporta, Neft Şirkətinə, «Gəncə Det.Al» alüminium şirkətinə və digər bu kimi obyektlərə elektrik enerjisinin verilməsi təmin edildi. İyulun 4-ü saat 04 ra-

dələrində isə ölkə üzrə tələbata uyğun gücün əldə edilməsinə nail olundu. Rusiya və Gürcüstandan da əlavə elektrik enerjisi alındı.

Qəzanın səbəblərini daha dəqiq müəyyən etmək üçün ölkənin bu sahədə aparıcı mütəxəssislərindən, o cümlədən Energetika, Fövqəladə Hallar nazirliklərinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Neft və Sənaye Universitetinin mütəxəssislərindən ibarət ekspert komissiyası yaradılıb. Komissiyaya rəhbərlik Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun direktoru Nazim Məmmədova tapşırılıb. Komissiya işə başlayıb, bir həftə ərzində araşdırma aparılacaq və qurtarandan sonra nəticələr Sizə məruzə ediləcəkdir.

Cənab Prezident, icazənizlə, «Azərişıq» ASC-nin elektrik təchizat sistemində baş vermiş fasilə ilə əlaqədar bir sıra dövlət müəssisələrində yaranmış vəziyyətlə bağlı aşağıdakıları məruzə etmək istərdim. Neft Şirkəti üzrə – hadisə ilə əlaqədar Neft Emalı zavodunda bütün qurğular dayanıbdır. Hazırda katalitik krekinq qurğusundan başqa, digər emal qurğuları iş rejimlərində çalışır. Katalitik krekinq qurğusunun regenerator blokunda yaranmış problem isə qurğunun soyudulması və daxili hissənin yoxlanılmasından sonra dəqiq müəyyənləşdiriləcəkdir. İlkin ehtimala görə görüləcək təmir-bərpa işləri təxminən 8–10 gün çəkəcəkdir. Katalitik krekinq qurğusunun təmiri dövründə ölkənin avtomobil benzininə tələbatı zavodda mövcud olan 80 min tona qədər qalıq ehtiyat hesabına təmin ediləcəyi üçün təchizatla əlaqədar hər hansı bir problem gözlənilmir. Hadisə ilə əlaqədar neft və qazçıxarma idarələrində, birgə müəssisələrdə nəzərdə tutulandan təxminən 4,2 min ton neft, 1 milyon 135 min kubmetr qaz az hasil edilibdir. Neft Şirkətinin bütün müəssisələrində istehsalat sahələrinin normal iş rejiminə qaytarılması prosesi həyata keçirilir.

«Azərsu» üzrə – içməli su mənbələri, su emal qurğuları, su və kanalizasiya şəbəkələri sistemlərində qəza vaxtı dayanmalar olub. Əsas qurğuların mühafizə tədbirləri həyata keçirilib, təhlükəsizlik təmin edilib, sıradançıxmanın və subasma hal-

larının qarşısı alınıbdır. Elektrik kəsilməsindən dərhal sonra su təchizatı, kanalizasiya qurğuları və şəbəkə sistemlərinin işçi vəziyyəti yoxlanılıb, sıradan çıxmış hissələrin bərpası, magistral və şəbəkə xətlərinin qəzalı hissələrinin təmiri üçün təxirəsalınmaz tədbirlər görülübdür. Anbarlardakı mövcud su ehtiyatlarından səmərəli istifadə, həyati əhəmiyyətli obyektlərin dayanıqlı su təchizatının, eləcə də əhalinin minimum su təchizatının təmin olunması üçün 100-dən artıq sudaşıyan maşın cəlb edilibdir. Hazırda regionların su təchizatı tam təmin edilib, Bakı şəhərinin tələbatına uyğun olaraq şəbəkə sistemlərinin fasiləsiz su ilə təchizatı səviyyəsi 92-93 faiz, anbarlardakı su ehtiyatlarının həcmi isə 45–50 faizdir. Şəbəkə sistemlərinin hidravlik rejimlərinin pozulması nəticəsində baş vermiş qəzaların aradan qaldırılması, tələbata uyğun su təchizatı və su ehtiyatı iyulun 5-dək tam təmin ediləcəkdir.

Çıxışımın sonunda demək istəyirəm ki, «Azərişıq» ASC-nin verdiyi məlumata əsasən, hazırda respublika üzrə tələbat 3150 meqavat, paylayıcı şəbəkələrə verilən güc isə 2900 meqavatdır. Təxminən 250 meqavat çatmır. Bakı şəhəri 100 faiz enerji ilə təmin edilir. Bakıətrafı qəsəbələr, Xırdalan şəhəri və rayonlar isə 85 faiz.

**Etibar Pirverdiyev** *(«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti)*: Möhtərəm cənab Prezident!

İlk növbədə, Azərbaycan enerji sistemində yaranmış qəza vəziyyəti ilə əlaqədar olaraq, çox dərin narahatlığımızı bildirməklə yanaşı, Sizdən və eyni zamanda, respublikamızın enerji istehlakçılarından üzr istəyirəm. Həmçinin İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı vəziyyəti təcili olaraq nəzarətə götürdüyünüzə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Son 15 ildə energetika sektorunda Sizin rəhbərliyinizlə...

**İlham Əliyev:** Onu bilirik, son 15 il ərzində nələr görülüb. Sən de görək qəzanın səbəbləri nədir və nə üçün ölkəni qaranlıq bürümüşdü? Səbəblər nədir?

**E t i b a r  P i r v e r d i y e v:** İyulun 3-də və ondan əvvəlki vəziyyətlə bağlı məlumatı təqdim etmək istərdim. İyun ayının gündəlik elektrik istehsalını götürdükdə, ayın əvvəlində biz görürük ki, gündəlik istehlaka 50–55 milyon kVt/saat arasında enerji verilib. Son bir həftə ərzində isə bu rəqəm 70–75 milyona qalxıbdır. Təxminən 40 faiz birdən-birə...

**İ l h a m  Ə l i y e v:** Bu, qəzanın səbəbi ola bilməz. Bəziləri bunu isti hava ilə əlaqələndirirlər. Bizdən də daha isti ölkələr vardır. Orada belə qəzalar baş vermir. Baş verəndə də ölkələrin enerji sistemi çökmür. Yenə də deyirəm, qəza baş verə bilər. Qəzanın fəsadlarının aradan qaldırılması işləri də aparılmalıdır və aparılır. Ancaq bir qəzaya görə bütün ölkənin enerji sisteminin çökməsi – bu, yumşaq desək, böyük səhvdir. Bizim indi kifayət qədər enerji gücümüz vardır. Mən giriş sözümdə bunu qeyd etdim. Təkcə 15 il ərzində 2500 meqavat gücündə elektrik stansiyaları yaradılıbdır. Biz indi xarici ölkələrə elektrik enerjisi ixrac edirik. Ona görə isti havalarla bağlı istehlakın artması qəzanın səbəbi ola bilməz. Qəzanın səbəblərini komissiya araşdıracaq. Qeyd etdiyim kimi, bu məqsədlə komissiya yaradılıb. Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. Metroda qalanlar, qocalar, uşaqlar, qadınlar, xəstələr, liftlərdə qalanlar. İqtisadiyyata nə qədər böyük ziyan vurmusunuz. Təkcə Neft Şirkətinin indi burada deyilən ziyanını hesablasaq, görün ölkəyə nə qədər böyük iqtisadi ziyan dəyib. Mən bu sahəyə bu qədər investisiya ayırmışam. Dövlət İnvestisiya Proqramında hər il bu məqsədlə böyük vəsait ayrılır, yeni elektrik stansiyaları tikilir. İndi «Şimal-2» elektrik stansiyası tikilir. Son 15 il ərzində 30 stansiya tikilibdir. Elə bir sistem qurulmalı idi ki, bir qəzaya görə ölkənin enerji sistemi çökməsin. Nə üçün Bakıda, Sumqayıtda, qeyd etdiyim kimi, bölgələrdə istifadəyə verilmiş elektrik stansiyaları o qəza baş verəndən sonra fəaliyyətini dayandırdı?! Siz bunun səbəbləri haqqında danışmalısınız. Bunun izahatını siz ver-

məlisiniz. Yoxsa mənə verilən məlumat ki, havalar isti keçir, istehlak artır, bu məni qane edə bilməz, qətiyyən. Əyləşin.

Bir daha deyirəm, Yaqub Eyyubov, məsələni çox ciddi araşdırmaq lazımdır. Bütün komissiya üzvləri fəal işləməlidirlər. Qısa müddət ərzində həm birinci qəzanın səbəbləri, xüsusilə də ikinci qəzanın səbəbləri haqqında mənə məruzə edilməlidir.

**Yaqub Eyyubov:** Baş üstə.

**Kəmaləddin Heydərov** *(Fövqəladə Hallar naziri)*: Möhtərəm cənab Prezident, bildiyiniz kimi, iyulun 3-də saat 00:20 radələrində...

**İlham Əliyev:** Biz bunları bilirik, siz keçin mövzuya. Hansı işləri görmüsünüz?

**Kəmaləddin Heydərov:** Srağagün ilk hadisə zamanı mən özüm də oraya getdim. Şəxsən müşahidə etdiyim o idi ki, cərəyan açarı olan hissənin içərisindəki yağ dağılmış və qabağında olan kanallarda kabelləri yandırmışdır. Biz əvvəllər də «Azərenerji»yə göndərdiyimiz məktublarda qeyd etmişdik ki, bu kanalların üstü möhkəm bağlanmalı və açıq olmamalıdır, hər hansı bir qəza baş verərsə, o yağlar oraya tökülməsin. Təəssüflər olsun ki, təxminən bütün 63 açarın qabağındakı kanalların hamısının üstü möhkəmləndirilməmişdir. Biz komissiyanın üzvlərinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, yerli təhlükəsizlik orqanlarının əməkdaşları ilə birgə apardığımız müşahidəyə əsasən, gəldiyimiz qənaət budur ki, bizim əvvəllər göstərdiyimiz iradların heç birinə riayət olunmamış, ərazi quru otlardan təmizlənməmişdir. Soyutma qurğularının heç biri, demək olar ki, işləmir. Orada soyutma kanalı ilə – düzdür, indi deyirlər ki, bu çoxdanın problemidir – Mingəçevir gölünün dibindən alınan suyun temperaturu 12 dərəcə olmalı olduğu halda, qəza baş verən gün suyun temperaturu 28 dərəcə olub, dünən isə 26 dərəcə idi. Yəni bu, soyutma işlərinə maneçilik törədir.

Cənab Prezident, Siz çox düzgün qeyd etdiniz ki, oradakı hər hansı bir yarımstansiyada qəza olduğu halda, nəinki sistem

çökməməli, heç o stansiyanın digər bloklarında da bir şey olmamalıdır.

Elektrik xətlərində, digər yerlərdə hər hansı bir qəzanın baş verməsi bununla məşğul olan müvafiq qurumlar arasında rabitənin və operativ əlaqənin olmamasının nəticəsidir. Orada energetiklərlə söhbət etdik və soruşduq ki, niyə ikinci dəfə blok çökdü. Biz müşavirə keçirirdik və birdən-birə enerji kəsildi. Heç kim bizə məlumat verə bilmədi ki, niyə işləyən qurğu birdən-birə yatdı. Yəni biz digər qurumlarla birgə hərə öz kanalından istifadə edərək, qəzanın hansı tərəfdən olduğunu öyrənmək istədik. Biri dedi ki, Şirvan stansiyasında yükləmə çox olub və ona görə burada açılıb. Biri dedi ki, Bakı–Abşeron xəttində gərginlik çoxaldığına görə olub. Biz illər boyu yazdığımız məsələləri dünən Baş Prokurorluğa, eyni zamanda, Daxili İşlər Nazirliyinə təqdim etdik.

Cənab Prezident, mən orada müşahidə etdiyim məsələlərdə gördüyüm ən əsası odur ki, bu stansiya fiziki və mənəvi cəhətdən köhnədir. Vəsait ayırıb onu təmir etməzdən əvvəl, əgər imkan varsa, bu sahədə beynəlxalq təcrübəsi olan qurum əvvəlcə onu audit etməli və hansı vəziyyətdə olduğunu təyin etməlidir. Ondan sonra digər şirkətlər onun necə qurulmasını və ümumiyyətlə, ölkə üzrə bu sistemin bir-birinə maneçilik törətmədən, əksinə, bir-birinə dəstək verərək, işləməsi məsələsini ortaya qoymalıdır ki, hər hansı bir yarımstansiyada, hər hansı bir istilik elektrik və digər elektrik stansiyalarında qəza baş verdikdə ölkədə problem yaşanmasın.

**İlham Əliyev:** Yaxşı, əyləşin. Bu təklifləri təqdim edərsiniz, komissiyada baxılar və komissiyanın yekun rəyində mütləq öz əksini tapmalıdır.

**Kəmaləddin Heydərov:** Baş üstə.

**Ramil Usubov** (*Daxili İşlər naziri*): Hörmətli cənab Prezident! Hadisə baş verəndən dərhal sonra Sizin tapşırığınızı rəhbər tutaraq, göstəriş verdim ki, biz fövqəladə hallarda hansı hərəkəti etməliyik. Daxili İşlər Nazirliyi olaraq, digər

qurumlarla birlikdə asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər hazırladıq və həyata keçirməyə başladıq. Məruzə edirəm ki, təqribən 30 min nəfərin təxliyə olunmasında Fövqəladə Hallar Nazirliyi ilə birgə iştirak etdik və eyni zamanda, avtobusların vətəndaşlarımızı evlərinə aparmasında da yol polisi onları müşayiət etdi. Hərəkətin təhlükəsizliyi ilə bağlı Dövlət Yol Polisi ilə bərabər, Post Patrul Xidmətinin 150 nəfər əməkdaşını da Bakı şəhərində bu işə cəlb etdik və normal hərəkət təmin olundu.

Dövlət əhəmiyyətli obyektlərin, diplomatik korpusların yerləşdiyi ərazilərin qorunması da tərəfimizdən gücləndirildi. Məruzə edirəm ki, elektrik enerjisinin olmaması ilə bağlı bu 2 gündə elə bir ağır cinayət hadisəsi baş verməyib. Bu gün ölkəmizdə vəziyyət tam nəzarət altındadır. Təxribata bəzi çağırışlar olur, həmin adamları da biz müəyyənləşdiririk və qanun çərçivəsində onlar haqqında tədbir görülür.

**İ l h a m Ə l i y e v:** Səhiyyə naziri, xəstəxanalarda vəziyyət necə idi və bu gün necədir?

**O q t a y Ş i r ə l i y e v** (*Səhiyyə naziri*): Möhtərəm cənab Prezident! Baş verən qəzadan sonra biz daim bütün regionlarla əlaqə saxladıq. Siz bilirsiniz ki, demək olar, bizim bütün rayonlarda yeni xəstəxanalar tikilib və bütün müasir tibbi avadanlıqlarla təchiz olunub, hər yerdə generator sistemləri quraşdırılıbdır. Generatorlar işləyirdi, tibbi xidmət göstərilirdi. Bakı şəhərində nazirliyin əməkdaşları bu işə təhkim olunmuşdu. İlk növbədə, cərrahiyyə, əməliyyat blokları, reanimasiya tam tərkibdə işləyirdi. Bu 2 gün ərzində məsələ ilə bağlı bir ölüm hadisəsi də olmayıb. Təcili yardım tam gücü ilə işləyirdi. 2130 çağırış olub. Bunlardan 220 adam xəstəxanalara daxil olub, onlara tam həcmdə yardım göstərilibdir. Metronun hər stansiyasının qarşısında təcili yardım maşını təhkim olunmuşdu. Onlara cəmi 19 nəfər müraciət edib, o da gərginlikdən, əsəbdən. Müraciət edənlərə ilkin tibbi yardım göstərilib, 6 nəfər xəstəxanalara yerləşdirilibdir.

**İ l h a m Ə l i y e v:** «Azərsu», məruzə edin. Su təminatı ilə bağlı vəziyyət necədir?

**Q o r x m a z H ü s e y n o v** (*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri*): Möhtərəm cənab Prezident!

Hadisə baş verən kimi, biz mövcud su və kanalizasiya nasosxanalarında, su mənbələrində subasmasının qarşısının alınması üçün vacib tədbirlər gördük və bu qurğuların heç birində heç bir problem olmadı. Enerji kəsiləndən sonra su anbarlarındakı ehtiyatlarımızı, kanalizasiya-nasos stansiyalarına aparan xətlərdəki mövcud vəziyyəti qiymətləndirdik. Həmin ərazilərə əvvəlcə ehtiyat suların qənaətlə verilməsi rejimini müəyyənləşdirdik. Harada ki, nasos stansiyasına ehtiyac yoxdur, öz axınında, rejimində su verdik. Digər yerlərə suyun verilməsi üçün biz su maşınlarını işə cəlb etdik. Fövqəladə Hallar Nazirliyindən, Bakı Şəhər İcra Hakimiyyətindən, rayon icra hakimiyyətlərindən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən, öz maşınlarımızı, eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan su maşınlarını da bu işlərə cəlb etdik. Rayon icra hakimiyyətləri ilə birgə biz öz axını ilə su verə bilmədiyimiz yerlərdə əhalinin su təminatı ilə məşğul olduq. Hazırda suyun mənbələrdən verilişi tam bərpa edilib. Bakı şəhərinin 92-93 faizinə su veririk. Anbarlarda ehtiyatımız 45–50 faizdir. Sabah səhər saatlarında tam rejimə çıxacağıq.

**İ l h a m Ə l i y e v:** «Azərişıq». Bölgələrdə enerji təchizatı ilə bağlı vəziyyət necədir?

**B a l a b a b a R z a y e v** (*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri*): Möhtərəm cənab Prezident! Hazırda Bakı şəhəri 100 faiz, Bakıətrafı ərazilər 90 faiz, regionlar isə 85–90 faiz enerji ilə təmin olunur. Qeyd olunan ən mühüm obyektlərlə bağlı bizim tərəfimizdən qərargah yaradıldı. Ən böyük fasilə həyati vacib obyektlərdə birinci açılmada oldu.

**İ l h a m Ə l i y e v:** Nə qədər oldu?

**B a l a b a b a R z a y e v:** Təxminən 2 saat 40–50 dəqiqə. Dünənkində isə 30 dəqiqə. Rusiyadan alınan birinci 100 meqa-

vat ki, bizə Abşeron xətti ilə verildi, onunla xəstəxanalar, kanalizasiya və su təchizatı sistemi, bütün həyati vacib obyektlər, metro, aeroport – bunlar hamısı təmin olundu.

**İ l h a m  Ə l i y e v:** Bakı Metropoliteni. Məruzə edin, vəziyyət necədir?

**Z a u r  H ü s e y n o v** *(«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri):* Möhtərəm cənab Prezident! Ayın 2-də gərginlik itəndən sonra aşağıdakı fəsadlar yarandı: hərəkətdə olan 18 sərnişin qatarı dayandı – 9-u stansiyalarda, 9-u tunellərdə. Sərnişin qatarlarının, stansiyaların və tunellərin işıqları söndü, eskalatorlar və travalatorlar, ventilyasiya şaxtaları, əsaslı, yerli və çirkab su xaric qurğularının nasosları dayandı. Təqribən saat yarımdan sonra əsaslı su xaric qurğularında suyun səviyyəsi qalxdı. Metronun «Sahil», «Nizami» və «Nəsimi» stansiyalarında səviyyə kritik həddə çatmışdı.

Aşağıdakı tədbirlər görüldü: akkumulyatorlardan qidalanan qəza işıqları qoşuldu. Tunellərdə təxliyə əməliyyatları aparmaq üçün Metropoliten işçilərindən, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət qruplar təlimatlandırılaraq, tunellərə göndərildi. Birinci gün stansiyalarda və tunellərdə dayanan qatarlardan sərnişinlər təxliyə olundu. Ümumilikdə 154 nəfər sərnişin çıxarıldı. Xəsarət alan olmadı. Vəziyyətdən çıxmaq üçün «Nizami» və «Nəsimi» stansiyalarındakı su xaric qurğularından su öz axını ilə nisbətən az debiti olan su xaric qurğularına istiqamətləndirildi. Saat 14:10-da yüksək gərginlik verildikdən sonra xətlərdəki qatarlar depoya çıxarıldı. Saat 05:25-də təsdiq olunmuş qrafik üzrə qatarlar normal hərəkətə başladı. Ayın 3-də isə saat 18:47-də təkrarən elektrik enerjisi itəndə analoji fəsadlar yarandı və bu dəfə pik saata təsadüf etdiyinə görə 30 minə yaxın sərnişin təxliyə olundu. Bu gün iyulun 4-də saat 13:10-da Metropolitenin xətləri və stansiyaları yenidən sərnişindaşıma fəaliyyətinə başladı.

**V ü s a l K ə r i m l i** (*Bakı Nəqliyyat Agentliyinin baş direktoru*): Hörmətli cənab Prezident, məlum hadisədən sonra Bakı şəhərində bütün qarajlar gecə radələrində Metropolitenlə əlaqə saxlanıldıqdan sonra hazır vəziyyətə gətirildi. Ümumilikdə yay aylarında Bakı şəhərində 1600 avtobus fəaliyyət göstərirdisə, onun sayı 2100-ə çatdırıldı. Bakı şəhərinin əsas nəqliyyat qovşaqları və giriş-çıxışları ehtiyat avtobuslarla təmin olundu və əhalinin rahatlığı üçün tapşırığınıza əsasən, ödənişsiz fəaliyyət göstərməyə başladı. Nəqliyyat qovşaqlarında havanın isti olması nəzərə alınaraq, sərinləşdirici içkilər Bakı Nəqliyyat Agentliyi tərəfindən paylanılırdı. Bundan başqa, maarifləndirmə işlərində, avtoradio və sosial şəbəkələrdə insanların yol kəsişmələrində bir-birinə duyarlı olması məsələsi qaldırılmış və onlar da, qeyd etdiyiniz kimi, öz vətəndaşlıq borclarını çox yüksək səviyyədə yerinə yetirmişlər. Bu arada, bildiyiniz kimi, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzində də işıqforlarla əlaqə kəsilmiş, lakin elektrik enerjisi bərpa olunduqdan sonra işıqforların fəaliyyəti çox qısa zamanda yenidən təmin edilmişdir. İşıq olmadığı zaman Dövlət Yol Polisi tərəfindən bütün kəsişmələrdə dəstək və kömək göstərilmişdir.

**İ l h a m Ə l i y e v:** Fizika İnstitutunun direktoru, məlumatınız varmı?

**N a z i m M ə m m ə d o v** (*Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutunun direktoru*): Mən qısaca məlumat verə bilərəm. Artıq komissiyanın iş cədvəli təyin olunubdur. Bizim birinci iclasımız keçirilib, ikinci iclasımız saat 7-də Yaqub müəllimin yanında olacaqdır.

**İ l h a m Ə l i y e v:** İlkin hansısa bir məlumatınız varmı?

**N a z i m M ə m m ə d o v:** Mən indi istəməzdim onu deyim.

**İ l h a m Ə l i y e v:** Yaxşı, əyləşin.

**Z a k i r Q a r a l o v** (*Baş prokuror*): Möhtərəm cənab Prezident, baş vermiş qəza ilə bağlı verdiyiniz sərəncamın 3-cü bəndinin icrasına uyğun olaraq cinayət işi qaldırılıb. Cinayət işi yanğın təhlükəsizliyi qaydalarını pozma, vəzifədən sui-istifadə

etmə və səhlənkarlıq maddələri ilə qaldırılıbdır. Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birgə əmr imzalamaqla, istintaq-əməliyyat qrupu yaradılıb. Hazırda istintaq-əməliyyat qrupu hadisə yerində təxirəsalınmaz tədbirlər həyata keçirir. Hadisə yerinə baxış keçirilib, müvafiq sənədlər götürülüb və artıq hadisənin başvermə səbəbləri ilə bağlı dindirmələrə başlanılıbdır.

İclasdan əvvəl mənə verilən ilkin məlumata görə, həmin stansiyada generatorların gövdəsindəki hidrogen qazın soyudulması üçün normativ tələblərə əsasən, suyun hərarəti 12 dərəcə olmalı olduğu halda, ümumi soyutma sisteminin layihəyə uyğun yerinə yetirilməməsi nəticəsində 28,5 dərəcədə olubdur. Vaxtilə 1994-cü ildə müvafiq layihə işlənilmiş, Mingəçevir su anbarının altından kanalın çəkilməsi nəzərdə tutulurdu. Həmin məsələ icra olunmamışdır. Belə bir halda, gərginlik azalmaqla, cərəyan artmışdır.

Digər vacib məsələ, qəza baş vermiş cərəyan transformatorlarının istismar müddətini başa vurmasına baxmayaraq, müntəzəm olaraq texniki istismar qaydaları, uyğun təmir-bərpa işləri aparılmamışdır. Halbuki hər il orada bərpa işləri aparılır, ancaq mütəxəssislərimiz həmin bərpa işlərinin yetərli olmaması ilə bağlı ilkin rəylərini verirlər. Belə ki, 2012-ci il sentyabrın 28-də ildırım vurması nəticəsində zədələnmiş hava açarı müasir eleqaz tipli açarla əvəz olunsa da, onun mühafizə dövriyyəsindəki cərəyan transformatoru yenisi ilə əvəz olunmamış və təmir işləri aparılmamışdır. Nəticədə cərəyan transformatorunun gövdəsindəki yağın analizi aparılmamış, turşululuğu, nəmliyi, deşilmə gərginliyi və tangensi yoxlanılmamışdır. Bununla da qəza vaxtı cərəyan transformatorunun izolyasiyası normadan aşağı olduğuna görə zədələnmişdir. Son 3 ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən həm «Azərenerji»nin rəhbərliyinə, həm onun baş mühəndisinə yazılmış 6 tələbnamədə deyilir ki, orada yağ sızması mövcuddur, həm kabellərin odadavamlı izolyasiyası təmin olunmamış, ümumiyyətlə, baş verən yanğın haqqında məlumatın avtomatik

verilməsi ilə bağlı sistem qurulmamış və 6 mazut çəninin su ilə soyutma sistemi, ümumiyyətlə, quraşdırılmamışdır. Dəfələrlə bu məsələ qaldırılıb, amma 6 mazut çənində su ilə soyutma sistemi quraşdırılmayıb. Bütün bunlar qəzaya gətirib çıxarıbdır. Siz tamamilə düzgün sual verdiniz ki, nə səbəbə görə bir elektrik stansiyasında baş vermiş qəza lokallaşmır, bütövlükdə bizim energetika sistemi çökür? Mütəxəssislərin fikri ondan ibarətdir ki, «Azərenerji» tərəfindən «rele» mühafizə xidməti ölkə üzrə tam axıra qədər icra olunmayıb. Yəni bunu biz Sizə mütəxəssislərin əlavə rəylərini aldıqdan sonra təqdim edəcəyik. Müvafiq istintaq tədbirləri davam etdirilir və çox ciddi tədbirlərin görülməsi təmin ediləcəkdir.

**İ l h a m Ə l i y e v:** Kiminsə əlavə sözü var? Beləliklə, komissiyanın növbəti iclaslarında bütün bu məsələlər geniş müzakirə olunmalıdır. Bir daha demək istəyirəm ki, qəzanın səbəbləri araşdırılmalıdır. İndi ilkin məlumat var, amma gərək daha geniş məlumat əldə edilsin. Qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır. Bu çox ciddi faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə, ümumi sistemə bunun təsiri olmasın, yəni qəza lokal xarakter daşısın. Bu, hesab edirəm ki, komissiyanın işində əsas istiqamət olmalıdır. Tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planına bu gün bu müşavirədə səsləndirilən fikirlər də salınmalıdır, o cümlədən beynəlxalq auditin cəlb edilməsi məsələsi. Hesab edirəm ki, bu çox vacibdir. Həm də Mingəçevir İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır. Ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlili aparılmalıdır və təkliflər verilməlidir. Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməli və cəzalandırılmalıdır.

Fürsətdən istifadə edərək, bu vəziyyətdə bizə kömək göstərmiş Rusiya və Gürcüstan tərəfinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar belə bir vəziyyətdə bizə kömək göstərdilər.

Bildiyiniz kimi, Azərbaycan bu ölkələrlə sıx əlaqələr saxlayır, bizim dostluq əlaqələrimiz var və hər hansı bir qəza baş verdikdə biz bir-birimizə kömək göstəririk. Bu, hesab edirəm ki, çox önəmli amildir. Bir daha təşəkkürümü bildirmək istəyirəm.

Strateji obyektlərdə generatorların quraşdırılması məsələsinə də baxmaq lazımdır, ilk növbədə, xəstəxanalarda və metroda. İndi Səhiyyə naziri məruzə etdi ki, bütün xəstəxanalarda generatorlar işləyib. Məndə olan məlumata görə isə bu, həqiqətə uyğun deyil. Bəzi xəstəxanalarda generatorlar işləməyib – ya olmayıb, ya qoşulmayıb, ya da ki, işlək vəziyyətdə olmayıb. Ona görə siz ciddi təftiş aparmalı, bütün ölkə üzrə xəstəxanalarda generatorların mövcudluğu və onların işlək vəziyyətdə olması haqqında həm komissiyaya, həm də mənə məruzə etməlisiniz.

O ki qaldı Metropolitenə, ümumiyyətlə, bildiyimə görə, Metropolitendə generatorlar mövcud deyil. Hesab edirəm ki, bu da çox acınacaqlı faktdır. Tezliklə təkliflər verin ki, metronun bütün stansiyalarında generatorlar olsun və enerji ilə hər hansı bir problem yarandıqda insanlar əziyyət çəkməsinlər.

Hesab edirəm ki, komissiya öz işini tezliklə yekunlaşdıracaq və təkliflər hazırlayıb mənə təqdim edəcəkdir. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN 20 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ KONSTİTUSİYA MƏHKƏMƏSİNİN KOLLEKTİVİNƏ

Hörmətli Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşları!

Sizi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə təbrik edirəm.

Konstitusiya Məhkəməsinin yaradılmasının 20-ci ildönümü Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunduğu ilə təsadüf edir və bu iki mühüm tarix Azərbaycan xalqının güclü demokratik ənənələrə malik olmasını əyani şəkildə nümayiş etdirir.

Müstəqil Azərbaycanda konstitusionalizm ideyalarının inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu öndərin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan xalqının hüquqi, demokratik, dünyəvi dövlət qurmaq niyyətini bəyan etmiş və insan hüquqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi təsbit etmişdir.

Əsas Qanunun aliliyini təmin etmək məqsədilə 1998-ci ildə Konstitusiya Məhkəməsinin yaradılması Konstitusiya islahatlarının növbəti önəmli mərhələsi olmuşdur.

Konstitusiya Məhkəməsi ali Konstitusiya ədalət mühakiməsi orqanı kimi səmərəli fəaliyyəti ilə Azərbaycan Respublikasının hüquq sisteminin sabitliyinin təmin edilməsində, onun davamlı inkişafında, milli qanunvericiliyimizin müasir dünya hüquq sisteminə inteqrasiyasında, cəmiyyətdə hüquq mədəniyyətinin

daha da yüksəldilməsində əhəmiyyətli rol oynamış, insan hüquqlarının etibarlı təminatçısına çevrilmişdir.

Əminəm ki, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin fəal iştirakçısı olan Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə demokratik və hüquqi dəyərlərin inkişafına öz töhfəsini verməkdə davam edəcəkdir.

Bir daha Sizi təbrik edir və Konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmiş fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2018-ci il*

## FİNLANDİYA RESPUBLİKASININ XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ ANNE-MARİ VİROLAYNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiya Respublikasının Xarici Ticarət və İnkişaf naziri xanım Anne-Mari Virolaynenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Finlandiyanın Xarici Ticarət və İnkişaf naziri xanım Anne-Mari Virolaynenin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını və bunun üçün geniş potensialın mövcud olduğunu vurğuladı. Prezident İlham Əliyev nəqliyyat dəhlizi sahəsində də əməkdaşlığın önəm daşıdığını bildirərək qeyd etdi ki, Azərbaycan hazırda tərəfdaş və qonşu ölkələr arasında nəqliyyat bağlantısının yaradılması işinə fəal sürətdə investisiya qoyur və ölkəmiz mühüm Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizinə çevrilməkdədir. Şimal–Cənub nəqliyyat layihəsinin uğurlu icrasına başlanılıb. Azərbaycan bu sahəyə böyük həcmdə sərmayə qoyur. Dövlət başçısı iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından biznes sahəsində fəallığın artırılmasının vacibliyini də qeyd etdi. Azərbaycanda Finlandiyanın bir neçə şirkətinin çalışmasına toxunan Prezident İlham Əliyev bu şirkətlərin sayının daha da artırılmasının mümkün olduğunu diqqətə çatdırdı və bildirdi ki, Azərbaycanın iqtisadi inkişafı, perspektiv planlar, güclü iqtisadi infrastruktur digər xarici şirkətlər kimi, Finlandiya şirkətlərinin*

*də iqtisadiyyatımızın müxtəlif sahələrində fəal çalışmaları üçün yaxşı imkanlar yaradır.*

*Xarici Ticarət və İnkişaf naziri xanım Anne-Mari Virolaynen Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan Prezidenti ilə Finlandiya Prezidentinin Davosda keçirilmiş görüşünün məmnunluqla xatırlandığını bildirdi. Finlandiyanın Xarici Ticarət və İnkişaf naziri ölkəmizə səfər proqramının çoxməzmunlu olduğunu ifadə edərək, səfər zamanı məhsuldar görüşlər keçirəcəyinə ümidvar olduğunu söylədi. O, Bakının gözəlliyinin nümayəndə heyəti üzvlərində böyük təəssürat doğurduğunu qeyd etdi və paytaxtımızda tarixi arxitektura abidələrinin müasir binalarla gözəl vəhdət təşkil etdiyini vurğuladı. Xanım Anne-Mari Virolaynen bildirdi ki, ölkələrimiz ümumi tarixə malikdir və Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar vardır.*

*Görüşdə ölkələrimiz arasında energetika, tranzit, peşə təhsili, infrastruktur layihələrində Finlandiya şirkətlərinin iştirakı, iş adamları arasında ticarət əlaqələrinin artırılması, sərmayə qoyuluşu, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Finlandiya Prezidenti Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM GEBREYESUS İLƏ GÖRÜŞ

*5 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesusu qəbul etmişdir.*

*Dövlət başçısı Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesusun rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Ümumdünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Gebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlət başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluq hissi ilə qeyd etdi ki, hazırda Azərbaycanın hər bir şəhərində bütün lazımi tibbi xidmətləri əhatə edən ən müasir avadanlıqlarla təchiz olunmuş tibb ocaqları fəaliyyət göstərir. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına müsbət təsir göstərib. Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirdi.*

*Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus ilk növbədə, Prezident seçkilərində qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Tedros Adhanom Gebreyesus Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işləri diqqətə çatdırdı. Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru ölkəmizdə qaçqınlara və məcburi köçkünlərə göstərilən yüksək dövlət qayğısını da xüsusi vurğuladı və bildirdi ki, bu sahədə Azərbaycanın təcrübəsi bir çox Avropa ölkələrinə nümunə ola bilər.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA**

Hörmətli Andres Manuel Lopes Obrador!

Meksika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və daha da möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Meksika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyul 2018-ci il*

## İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL MÜŞAVİRİ YOHANN ŞNAYDER-AMMANNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohann Şnayder-Ammannın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İsveçrə Konfederasiyasının federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohann Şnayder-Ammann ölkəmizə səfərindən məmnunluğunu bildirərək qeyd etdi ki, gəlişlərində məqsəd Azərbaycanda gedən inkişaf prosesləri ilə tanış olmaqdan və ölkələrimiz arasında biznes əlaqələrinin daha da genişləndirilməsi ilə bağlı məsələləri müəyyənləşdirməkdən ibarətdir. Qonaq səfər çərçivəsində nümayəndə heyətinin Azərbaycanın «Bir kəmər – bir yol» layihəsində iştirakı ilə bağlı daha ətraflı məlumat almaqda maraqlı olduğunu dedi. Yohann Şnayder-Ammann İsveçrə ilə Azərbaycan arasında Dünya Bankı və Beynəlxalq Valyuta Fondu çərçivəsində də uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı.*

*Qonaq TANAP layihəsinin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdırdı. O, Prezident İlham Əliyevin hər il Davos İqtisadi Forumunda iştirakına görə minnətdarlığını bildirdi.*

*Ölkələrimiz arasında siyasi və iqtisadi sahədə əlaqələrin çox uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın*

*olduğunu nəzərə çatdırdı. Prezident İlham Əliyev müxtəlif sahələrdə biznes əlaqələrinin genişləndirilməsi üçün də yaxşı imkanların olduğunu və bu baxımdan ayrı-ayrı infrastruktur layihələrinin həyata keçirilməsi, qarşılıqlı investisiyaların qoyulması sahəsində yaxşı təcrübənin olduğunu vurğuladı. Yohann Şnayder-Ammann ilə Davosda görüşünü xatırladan Prezident İlham Əliyev bildirdi ki, onun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfəri əlaqələrimizin genişləndirilməsi işinə öz töhfəsini verəcək və əməkdaşlığımız bundan sonra da genişlənəcəkdir. Prezident İlham Əliyev əminliyini ifadə etdi ki, Azərbaycan iqtisadiyyatı gələcək illərdə daha da inkişaf edəcək, ölkəmiz xeyli sayda sənaye və infrastruktur layihələrinin həyata keçirilməsini planlaşdırır və Azərbaycan bu işlərdə İsveçrə şirkətlərinin iştirakında maraqlıdır.*

*Söhbət zamanı qeyd olundu ki, Bakıda keçirilən İsveçrə–Azərbaycan biznes-forumu və orada həm İsveçrədən, həm də Azərbaycandan böyük sayda biznes nümayəndələrinin iştirakı iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Görüşdə ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*9 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclası giriş nitqi ilə açdı.*

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz ilin 6 ayının yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq.

Deyə bilərəm ki, ilin 6 ayında qarşıda duran bütün vəzifələr uğurla icra edilib, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bilibdir. Bu il Azərbaycan həm iqtisadi, həm də beynəlxalq siyasət sahələrində uğurlar əldə edibdir.

---

* Nazırlяr Kabинetинин 2018-си илин bиринси yarıысынын sosиal-иqtиsadи инкишafынын yekunlarына vя qarшыda duran vяzиfяlяrя hяsr olunмуш иclasынda Иqtиsadиyyat nazиrи Şahin Mustafayev, Azяrbaycan Melиorasиya vя Su Tяsяrrцfatы Ачыq Sяhmdar Сяmиyyяtинин sяdrи Əhməd Əhmədzadə və «AzerGold» Qapalы Sяhmdar Сяmиyyяtинин sяdrи Zakir İbrahimov çıxış etdilər.

Aprel ayında keçirilmiş Prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir.

Seçkilərdə qazandığım inamlı qələbə göstərdi ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq. Seçkilərdən əvvəl keçirilmiş rəy sorğuları, seçkilər günü keçirilmiş «exit-poll»lar rəsmi nəticələrlə üst-üstə düşür. Bu bir daha onu göstərir ki, seçkilərdə Azərbaycan xalqının iradəsi tam öz əksini tapmışdır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirildi və Azərbaycan bütün dünyaya bir daha göstərdi ki, müasir, demokratik ölkədir. O ölkədir ki, burada bütün azadlıqlar təmin edilir.

Seçkilərə kölgə salmaq istəyənlər isə növbəti dəfə iflasa uğradılar. Onların sönük cəhdləri Azərbaycan cəmiyyəti tərəfindən qəbul edilmədi. Onların hərəkətləri cəmiyyət tərəfindən rədd edildi. Bunun bariz nümunəsi odur ki, seçkilərdən sonra keçirilmiş «etiraz mitinqinə» 1000 nəfərdən çox adam yığa bilməmişlər. Bu onların növbəti iflasıdır, bu bir daha onu göstərir ki, xalq bizim siyasətimizə alternativ siyasət görmür, onu qəbul etmir və bundan sonra da xalq bizim siyasətimizi dəstəkləyəcəkdir. Bizim siyasətimiz isə xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçib, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir.

Seçkilərdən sonra bir çox ölkələrin dövlət və hökumət başçıları mənə təbrik məktubları göndərmişlər. Onların arasında dünyanın bütün aparıcı ölkələrinin dövlət və hökumət başçıları vardır. Bu bir daha onu göstərir ki, beynəlxalq birlik Azərbaycana böyük hörmətlə, böyük inamla yanaşır və

Azərbaycanda gedən demokratik proseslər dünya birliyi, dünyanın aparıcı dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Xarici siyasətə gəldikdə, deyə bilərəm ki, bu ilin 6 ayında bu sahədə böyük işlər görülüb, Azərbaycan beynəlxalq əlaqələrini möhkəmləndirə bilibdir. Qonşu dövlətlərlə bizim ənənəvi dostluq, strateji tərəfdaşlıq əlaqələrimiz vardır. 6 ayda qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim bir neçə görüşüm olub. İlin ikinci yarısında da görüşlər nəzərdə tutulur. Azərbaycan müsəlman aləmində çox böyük hörmətə, nüfuza malik olan ölkədir. Keçən il elan olunmuş «İslam həmrəyliyi ili» bu əlaqələri daha da möhkəmləndirdi. Bildiyiniz kimi, bu il Naxçıvan «İslam mədəniyyətinin paytaxtı»dır. Müsəlman ölkələri ilə ənənəvi dostluq, qardaşlıq əlaqələri möhkəmlənibdir.

Biz indi Avropa İttifaqı ilə yeni saziş üzərində işləyirik. Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu, əlbəttə, onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir.

Deyə bilərəm ki, bu ilin birinci yarısında Amerika Birləşmiş Ştatları ilə əlaqələrimiz yeni mərhələyə qalxıbdır. Amerika Prezidenti cənab Donald Tramp aprel–may aylarında mənə 3 məktub ünvanlayıb. Seçkilərlə, ondan sonra Xalq Cümhuriyyətinin 100 illiyi və «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı ilə bağlı göndərilən məktublar ABŞ Hökumətinin Azərbaycana olan münasibətini, hörmətini göstərir. Məktublarda çox dəyərli sözlər ifadə edilir və biz çox şadıq ki, bu gün Amerika–Azərbaycan əlaqələri özünün əsl mahiyyətini əks etdirir. Əminəm ki, gələcək illərdə bu əlaqələr daha da möhkəmlənəcəkdir.

Beləliklə, apardığımız uğurlu xarici siyasət nəticəsində Azərbaycan, demək olar ki, bütün ölkələrlə, bütün güc mərkəzləri ilə çox səmərəli, işgüzar, bərabərhüquqlu münasibətlər qura bilibdir. Bu münasibətlər qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur. Beləliklə,

ölkəmizin uğurlu inkişafı üçün çox gözəl beynəlxalq mühit mövcuddur. Deyə bilərəm ki, bu mühiti biz yaratmışıq. Əminəm ki, bundan sonra da bu istiqamətdə ardıcıl siyasət aparacağıq.

Bu il Bakıda üzvlərinin sayına görə dünyanın ikinci böyük təşkilatının – «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirlərinin konfransı keçirildi. Bu tədbirdə də bizim siyasətimizə dəstək göstərildi. Gələn ildən Azərbaycan bu böyük mötəbər təşkilata sədrlik edəcək. Azərbaycanda Zirvə görüşü keçiriləcəkdir. Bu, ölkəmizə olan hörmətin təzahürüdür. Bu onu göstərir ki, bizim apardığımız siyasət böyük rəğbət doğurur və böyük hörmətə layiqdir.

Bu müsbət fonda baxın görün Ermənistanda nələr baş verir. 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi əslində Ermənistan dövlətçiliyinin iflasıdır. Əgər müstəqilliyinin 26 ilinin 20 ili bu hakimiyyət altında keçibsə, onda bu dövlətin hansı müsbət cəhətləri vardır?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğradı. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir. Haqq-ədalət öz yerini tapdı və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq, siyasi səhnədən qovuldu. Deyə bilərəm ki, bu rejimin çökməsində bizim də rolumuz olub, onu mən şişirtmək istəmirəm, bunu biz, necə deyərlər, öz adımıza çıxarmaq istəmirik. Ancaq o da həqiqətdir ki, bizim apardığımız siyasət nəticəsində Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edilib. Biz onlara

qarşı təcrid siyasətimizi uğurla aparmışıq və heç kimdən çəkinmədən mən bu barədə dəfələrlə Azərbaycan ictimaiyyətinə və xarici tərəfdaşlarıma demişəm. Nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq. Bu siyasət nəticəsində Ermənistan iqtisadi iflasa uğradı. Ermənistanın iqtisadi perspektivləri, demək olar ki, yoxdur. Bu ölkəyə investisiya qoymaq istəyən çətin ki, tapılsın. Bu ölkənin demoqrafik vəziyyəti acınacaqlıdır. Mən dəfələrlə demişəm ki, Ermənistandan hər il minimum 50–60 min insan köç edir. İndi bunu yeni hökumət təsdiqləyir. Yəni bu təcrid siyasətimiz öz rolunu oynadı, biz Ermənistanı bütün regional layihələrdən təcrid etdik. İqtisadi perspektivi olmayan ölkədə inkişaf da olmaz, sərmayə də qoyulmaz, insanların əhval-ruhiyyəsi də yaxşı səviyyədə ola bilməz.

Onu da qeyd etməliyəm ki, 2 il bundan əvvəlki aprel döyüşləri də Ermənistanın o çürük və laxlamış sütunlarını daha da sarsıtdı. Aprel döyüşləri Sarkisyan rejiminə elə böyük zərbə oldu ki, onlar 2 il ərzində bu zərbədən özlərinə gələ bilmədilər və əlbəttə, uzun illər yaratdıqları mif – guya onların ordusu güclü ordudur – darmadağın edildi. Biz bu mifi məhv etdik. Uzun illər ərzində təmas xəttində qurduqları «möhkəm istehkam»ı bir neçə gün ərzində darmadağın etdik və bu da Ermənistan cəmiyyətində böyük məyusluq yaratdı. Ona görə Ermənistanın başına gələn bu hadisələr labüd idi, məntiqli idi. Həm kriminal rejim tərəfindən aparılmış anti-milli siyasət, həm Azərbaycanın apardığı inamlı siyasət, o cümlədən bizim inkişaf dinamikamız bunun əsas səbəbkarı oldu. Çünki Ermənistan əhalisi yaxşı bilir ki, Azərbaycan hansı yüksək zirvəyə qalxa bilibdir: ölkə daxilindəki sabitlik, inkişaf, beynəlxalq əlaqələr, iqtisadi inkişaf, ordu quruculuğu, sosial məsələlərin həlli. Bizim aramızda yer-göy qədər fərq var və bu bir daha göstərdi ki, Ermənistanı bu ağır vəziyyətə salan onların işğalçı siyasətidir. Əgər işğal olmasaydı, Ermənistan da bizim təşəbbüsümüzlə icra edilən layihələrdə yer ala bilərdi. Onlar da başqa ölkələr kimi, bizim imkanlarımızdan

faydalana bilərdilər və əlbəttə ki, onların iqtisadi vəziyyəti bu gün yaxşı ola bilərdi. O kriminal, 20 il ərzində erməni xalqının qanını içən oğru rejimin siyasəti nəticəsində onlar bu vəziyyətə düşdülər. Ümid edirəm ki, Ermənistanın yeni hökuməti kriminal rejimin səhvlərini təkrarlamayacaq, münaqişənin həlli ilə bağlı konstruktiv mövqe tutacaq və münaqişə tezliklə həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir.

Münaqişənin həllinə gəldikdə isə bunun bir yolu var: işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra olunmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrdə açıq-aydın göstərilib ki–əgər kimsə bunu unudubsa, xatırlada bilərəm – Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə olacaqdır. Ona görə bu münaqişənin həlli bu qətnamələrin icrasından asılıdır və əlbəttə ki, Azərbaycan öz prinsipial siyasətini aparacaqdır.

Qeyd etdiyim kimi, beynəlxalq əlaqələrimiz möhkəmlənir, Azərbaycanın ərazi bütövlüyünə dəstək artır. Demək olar ki, bir çox ölkələrlə imzaladığımız sazişlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması tezisi öz əksini tapır. Əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatlarla da təmaslar əsnasında daim bu mövzu qaldırılır və bizim siyasətimiz böyük dəstək alır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Bu istiqamətdə çox böyük işlər görülüb. Xalqa bu barədə müntəzəm olaraq məlumatlar verilir, mənim hərbi hissələrə çoxsaylı səfərlərim mətbuat tərəfindən işıqlandırılır, əldə etdiyimiz texnikanın göstərilməsi müntəzəm olaraq təşkil edilir. Əlbəttə, bizim hərbi potensialımızın əyani sübutu ötən ay keçirilmiş hərbi paraddır. Paradda Azərbaycan Ordusu nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Bizim ordumuz maddi-texniki, silah, sursat, texnika ilə təchizat

baxımından aparıcı ordular sırasındadır və hərbi parad bunu göstərdi.

Ordumuzun döyüş qabiliyyəti çox yüksək səviyyədədir və bunu yaxın tarix göstərib. 2016-cı ilin aprel döyüşləri və qazandığımız böyük qələbə, 2018-ci ilin mayında Naxçıvan əməliyyatı və minlərlə hektar torpağın işğalçılardan azad edilməsi – bütün bunlar Azərbaycan Ordusunun döyüş qabiliyyətini göstərir. Qarşı tərəf bunu bilir və onların bu gün beynəlxalq təşkilatlara müraciəti əslində öz məğlubiyyətlərinin etirafıdır. Əgər səndə güclü ordu varsa, niyə beynəlxalq təşkilatlardan yardım istəyirsən? Niyə beynəlxalq təşkilatlara Azərbaycandan şikayətlər edirsən? Sən bu torpaqları xarici dövlətlərin dəstəyi ilə işğal etmisən. O vaxt Azərbaycanda anti-milli, satqın, fərarilər hakimiyyəti hökm sürürdü. Həmin o fərarilərin tör-töküntüləri bu gün də özlərini müxalifət adlandırırlar. O vaxt qaçıb gizlənmişlər, ölkəmizi bərbad vəziyyətə qoymuşlar, torpaqlarımızı satmışlar. AXC–Müsavat cütlüyü ən böyük xəyanətkardır. Bəlkə də Azərbaycanın çoxəsrlik tarixində bunlar qədər xəyanətkar, satqın olmamışdır. Bax, bu səbəblərdən o vaxt Ermənistan xarici dövlətlərin birbaşa iştirakı və dəstəyi ilə torpaqlarımızı zəbt etmişdir. Amma indi bizdən şikayət edir, beynəlxalq təşkilatlara müraciət edir ki, gəlin bizə kömək edin, yoxsa Azərbaycan bizi boğacaq. Torpaqlarımızdan çıx, onda rahat yaşaya bilərsən. Qorxu içində yaşayan ölkələr, insanlar daim stress içindədirlər. Bu onların psixoloji durumuna da mənfi təsir göstərir. Biz bunu indi görürük və daha da böyük fəsadlar ola bilər.

Azərbaycan isə ordu quruculuğu istiqamətində inamla irəliləyir. Biz hərbi paradda potensialımızın bir hissəsini göstərdik – həm say baxımından, həm silahların növü baxımından. Bizim böyük maliyyə ehtiyatlarımız imkan verir ki, istənilən hərbi texnikanı alaq və hazır vəziyyətə gətirək. Bu il büdcəmizdə edilən dəyişikliklər, dürüstləşmə eyni zamanda,

ordu xərclərinin artırılmasına istiqamətləndirilib və gələn il də bizim hərbi xərclərimiz çox yüksək səviyyədə olacaqdır.

Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, həm də güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani şəkildə sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruduq və böhrandan az itkilərlə çıxa bildik.

Bu ilin göstəriciləri isə onu deyir ki, əvvəlki illərdə də, bu il də aparılan islahatlar gözəl nəticələr verir. Mən bəzi rəqəmləri Azərbaycan ictimaiyyətinə çatdırmaq istərdim. Beləliklə, 6 ay ərzində ümumi daxili məhsul 1,3 faiz artıb. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorumuz 2 faiz artıb. Sənaye istehsalı 1 faiz artsa da, bu da məqbul rəqəmdir. Qeyri-neft sənayemiz 8,8 faiz artıb. Bu onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Kənd təsərrüfatı 7,6 faiz artıb. Xüsusilə bitkiçiliyi qeyd etmək istərdim. Bitkiçilik 14 faizdən çox artıbdır. 67 min yeni iş yeri yaradılıbdır. Onlardan 58 mini daimi iş yeridir. Ölkə iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulubdur. İnflyasiya cəmi 3 faizdir. Əhalinin pul gəlirləri 9,3 faiz artıbdır. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34 faiz, o cümlədən qeyri-neft ixracı 20 faiz artıbdır. Xarici ticarətin müsbət saldosu 4,2 milyard dollardır, əlbəttə ki, ilin sonuna qədər daha da artacaqdır. Bu çox böyük rəqəmdir, bir daha onu göstərir ki, makroiqtisadi sabitlik tam təmin edilir.

Bir sözlə, əsas iqtisadi göstəricilərimiz bundan ibarətdir. Əlavə edək ki, ilin əvvəlindən valyuta ehtiyatlarımız da artıb və bu gün ölkəmizin valyuta ehtiyatları 44,3 milyard dollar təşkil

edir. İlin sonuna qədər bu rəqəm daha da böyüyəcəkdir. Bu onu göstərir ki, biz çox inamla inkişaf edirik. İqtisadi inkişaf davam etdiriləcək. Sənaye, kənd təsərrüfatı sahələrində bu il böyük işlər görülübdür. Artıq gözəl nəticələr vardır. Bu barədə bir qədər sonra danışacağıq. Əminəm ki, ilin sonuna qədər yaxşı nəticələr olacaqdır. Beləliklə, ölkəmizin dinamik inkişafı təmin edilir.

Bu ilin birinci yarısında həm nəqliyyat, həm energetika sahələrində önəmli hadisələr baş veribdir. May ayında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilibdir. Bu çox böyük hadisədir. Deyə bilərəm ki, bu, keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda ikinci böyük hadisədir. Ələt limanı indi uğurla fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün bu limanın çox böyük əhəmiyyəti vardır.

«Cənub Qaz Dəhlizi»nin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu və bu, tarixi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, «Cənub Qaz Dəhlizi»nin 4 layihəsindən 3-ü artıq reallaşıb – «Şahdəniz-2», «Cənubi Qafqaz» boru kəməri və TANAP layihələri. 4-cü layihə – TAP qrafik üzrə icra edilir.

Bunlar bu ilin 6 ayında əldə edilmiş əsas nailiyyətlərdir. Əlbəttə, bütün nailiyyətlər haqqında danışmaq üçün bir neçə saat vaxt lazım olacaq. Biz iclasın sonrakı hissəsində həm görülmüş işlər, həm də vəzifələr haqqında danışacağıq.

* * *

**Ş a h i n  M u s t a f a y e v** (*İqtisadiyyat naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Yeni iqtisadi şəraitə uyğun həyata keçirilən rasional makroiqtisadi siyasət, aparılan köklü islahatlar, görülən sistemli tədbirlər qlobal və regional risklərin neytrallaşdırılmasına imkan yaradıb, valyuta ehtiyatlarımız maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsində əhəmiyyətli rol oynayıb, ölkəmizdə sosial proqramların icrası davam etdirilibdir.

Müəyyən etdiyiniz strateji xəttə əsaslanaraq, dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik, adekvat addımlar atılıb, kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirilib, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, iqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətlənib, qeyri-neft ixracı artıbdır.

Aparılan genişmiqyaslı iqtisadi islahatların nəticəsində bu ilin birinci yarısında ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb, inflyasiya birrəqəmli olmaqla, 3 faiz təşkil edibdir. İqtisadiyyatın şaxələndirilməsində xüsusi rolu olan qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artıma nail olunubdur.

Ötən 6 ayda dövlət büdcəsinin gəlirləri 9,8 milyard manat, xərcləri 9,5 milyard manat olub. Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə 4,1 milyard manat vəsait daxil olub ki, bu da 2017-ci ilin eyni dövrü ilə müqayisədə 275 milyon manat və ya 7,3 faiz çoxdur.

İqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 6,3 milyard manat əsas kapitala investisiya

yönəldilib. Əsas kapitala yönəldilən vəsaitlər qeyri-neft sektoru üzrə 22 faiz, qeyri-neft sənayesi üzrə isə 69 faiz artıbdır.

Əhalinin gəlirləri 9,3 faiz artmaqla, inflyasiyanı 6,3 faiz üstələyib. Orta aylıq əməkhaqqı illik müqayisədə 4 faiz yüksəlib, əhalinin sosial müdafiəsinə xüsusi diqqətiniz sayəsində dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda çalışanların əməkhaqqı, həmçinin pensiya və müavinətlər artıbdır.

Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik, Dünya Bankının «Doing Business» hesabatları və 2018-ci il inklüziv inkişaf indeksi üzrə ölkəmizin mövqeyinin yaxşılaşması, cənab Prezident, rəhbərliyinizlə aparılan məqsədyönlü və gələcək tərəqqiyə hesablanmış iqtisadi siyasətin, görülən genişmiqyaslı işlərin məntiqi nəticəsidir.

Bilavasitə təşəbbüskarı və müəllifi olduğunuz beynəlxalq və regional əhəmiyyətli strateji layihələrin reallaşdırılması Azərbaycanın dünyada söz sahibi olmasını və etibarlı tərəfdaş statusunu daha da möhkəmləndirir. Bu yaxınlarda rəsmi açılışı olmuş «Cənub Qaz Dəhlizi» və TANAP qlobal mənada dünyanın enerji xəritəsini dəyişən strateji layihələrdir.

Möhtərəm cənab Prezident, ölkənin sosial-iqtisadi inkişafına müstəsna töhfələr verən məqsədli dövlət proqramlarının uğurlu icrası əldə edilmiş nailiyyətlərin əsasını təşkil edir. Regionların sürətli inkişafını təmin edən dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, xüsusilə infrastrukturun və əhaliyə sosial xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilibdir.

İlin birinci yarısında xüsusi əhəmiyyətli infrastruktur layihələrini nəzərdə tutan dövlət investisiya proqramı 47 faiz icra edilibdir.

Bu dövrdə ayrılmış vəsait hesabına paytaxtda və regionlarda 200 min nəfər əhalinin yaşadığı 91 yaşayış məntəqəsini əhatə edən uzunluğu 250 kilometr olan 17 qəsəbə və kəndlərarası yollar tikilərək, istifadəyə verilibdir.

Aqrar sektorda meliorativ infrastrukturun daha da yaxşılaşdırılması tədbirləri çərçivəsində əkinəyararlı torpaq sahələrinə suvarma suyunun çatdırılması istiqamətində görüləcək işlər dövlət investisiya proqramında nəzərdə tutulmuş vəsait hesabına davam etdirilir.

Ölkədə qazlaşdırılma səviyyəsinin 95 faizə çatdırılması məqsədilə 42 rayonun 83 yaşayış məntəqəsinin qazlaşdırılması davam etdirilib, 29 yaşayış məntəqəsində işlər başa çatdırılıbdır. Şəhər və kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması çərçivəsində Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi, Şərur rayonu üzrə isə kompleksin birinci mərhələsi, Mingəçevir, Xızı şəhərlərinin və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemi, Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemi istifadəyə verilibdir.

Hesabat dövründə sosial layihələrin icrası davam etdirilib, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial infrastruktur obyektləri istifadəyə verilibdir. Mingəçevir «ASAN xidmət» Mərkəzinin açılışı olub, bu ilin sonunadək Şəki və İmişli «ASAN həyat» komplekslərinin tikintisi başa çatdırılacaqdır.

Bu ilin may ayında Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsində və tranzit imkanlarının genişləndirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Möhtərəm cənab Prezident, hazırda uğurla həyata keçirilən sənayeləşmə siyasətinizə uyğun olaraq, istehsal və emal müəssisələrinin, sənaye parkları və məhəllələrinin yaradılması davam etdirilir.

Sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11000-ə yaxın iş yeri yaradılıbdır. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 7 müəssisə fəaliyyət

göstərir, 2018-ci ilin sonunadək daha 7 müəssisə istifadəyə veriləcəkdir.

«Yaşıl iqtisadiyyat»ın inkişafında xüsusi əhəmiyyətə malik Balaxanı Sənaye Parkında fəaliyyət göstərən 5 müəssisədə 400-ə yaxın işçi çalışır. İkinci mərhələdə daha 5 istehsal sahəsinin tikintisi başlanacaqdır. Dünya Bankı ilə birgə həyata keçirilən «Bərk məişət tullantılarının vahid idarəçiliyi» layihəsi çərçivəsində Balaxanı poliqonunun müasir ekoloji-sanitar normalara uyğun bərpası başa çatdırılıbdır.

Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələrinin yaradılması işləri aparılır. İlin sonuna istifadəyə veriləcək Şpris zavodu daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanları da yaradacaqdır. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 İplik fabrikində 750 nəfər işlə təmin olunubdur.

Neftçala Sənaye Məhəlləsində 8 müəssisə artıq fəaliyyətə başlayıb, bu müəssisələrə 45 milyon manatdan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri yaradılıbdır.

Möhtərəm cənab Prezident, mart ayının sonunda Sizin və İran Prezidentinin iştirakı ilə Neftçala Sənaye Məhəlləsində açılmış «Xəzər» Avtomobil zavodunda ildə 10000 avtomobil istehsal olunacaq. Bu avtomobillər daxili bazarla yanaşı, bir sıra xarici ölkələrə də ixrac ediləcəkdir. Artıq 100-ə yaxın avtomobilin satışına başlanılıb, daha 200 avtomobil üçün sifariş qəbul edilibdir.

Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb, Hacıqabul və Sabirabad Sənaye məhəllələri ilin sonunadək istifadəyə veriləcəkdir. Tapşırığınıza uyğun olaraq, xalçaçılığın inkişafı məqsədilə 10 rayonda xalça emalatxanası istifadəyə verilib, daha 10 emalatxananın, 5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin və Sumqayıt Kimya Sənaye Parkında Əyirici-Boyaq fabrikinin tikintisi aparılır.

Ölkədə iqtisadi fəallığın artırılması, ixrac yönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib. Bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yerinin açılması imkanı yaradılıb. İnvestisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

İqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədilə 30 rayon üzrə 192 min hektar ərazidə ümumi dəyəri 1 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsait qoyulub, 111 milyon manat dövlət güzəştli krediti və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilibdir.

Aqroparklardan dördündə birinci mərhələ üzrə işlər başa çatdırılıb, ilin sonunadək 14 aqropark istifadəyə veriləcək, digərlərində isə işlər davam edir.

Artıq fəaliyyət göstərən aqropark və iri fermer təsərrüfatlarında 50 min hektardan artıq ərazidə müasir suvarma sistemlərinin tətbiqi nəticəsində buğda, arpa, dənlik qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri üzrə hər hektardan əldə edilmiş orta məhsuldarlıq ölkə üzrə müvafiq göstəricilərdən 2 dəfəyədək çoxdur.

İstehsalçıların texnikaya, suvarma avadanlıqlarına tələbatının ödənilməsi məqsədilə dövlət əsaslı vəsait qoyuluşu hesabına «Aqrolizinq» ASC-yə 160 milyon manat vəsait ayrılıbdır.

Sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi üçün layihələrinin ümumi dəyəri 468 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100

milyon manat güzəştli kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Bu kreditlər hesabına illik müqayisədə 3 dəfə çox olmaqla, 7000-dən artıq yeni iş yerinin açılması imkanı yaradılıbdır.

İri sahibkarlar tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsinin vacibliyi barədə verdiyiniz tapşırığa əsasən bu sahədə təşviq işləri aparılıb və şəkər tozu istehsalının yerli xammal təminatının artırılması məqsədilə 7000 hektar sahədə şəkər çuğunduru əkini üçün illik 3 faizlə 7 milyon manat güzəştli kredit verilib, 1500 fermerlə müqavilə bağlanılıb, bu müqavilələr üzrə 3600 nəfər işlə təmin olunubdur.

Sahibkarlıq sahəsində 6 ay ərzində cəmi 58 yoxlama keçirilib, sahibkarlara dövlət xidmətlərinin göstərilməsi sahəsində şəffaflığın və operativliyin təmin olunması məqsədilə «Lisenziyalar və icazələr» portalı yaradılıb, artıq portal vasitəsilə 180-dən çox elektron lisenziya verilibdir.

Dövlət vəsaitlərinin səmərəli və qənaətlə istifadəsi, şəffaflıq və aşkarlıq əsasında rəqabət mühitinin yaradılması nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə açıq satınalma tenderlərinin sayı 54 faiz, müsabiqə yolu ilə satınalmaların məbləği 23 faiz artıb, müsabiqə əsasında satınalmalar zamanı ehtimal olunan qiymətlərlə müqayisədə 117 milyon manat dövlət vəsaitinə qənaət edilibdir.

Tapşırığınıza əsasən, qeyri-neft ixracının artırılması məqsədilə dövlət dəstəyi tədbirləri davam etdirilib, indiyədək 15 ixrac missiyası təşkil olunub, ixracatçılar 11 önəmli beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, ilkin razılaşmalar və sifarişlər əldə olunub, ixrac müqavilələrı imzalanıb, ixrac təşviqinin ödənilməsi davam etdirilibdir.

Ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Rusiya, Çin, Birləşmiş Ərəb Əmirliklərində və Şərqi Avropada ticarət nümayəndələri fəaliyyət göstərir. Belarusda və Ukraynada Azərbaycan ticarət evləri açılıb, Çində «Şərab evi»nin,

Latviyada və Birləşmiş Ərəb Əmirliklərində ticarət evlərinin ilin sonunadək açılması planlaşdırılır. Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiyanın Həştərxan şəhərində Azərbaycan iş mərkəzi açılıbdır.

Xarici kütləvi informasiya vasitələrində sahəvi brendlərin reklamı kampaniyasına, «Made in Azerbaijan» brendinin təşviqinə başlanılıbdır.

Görülən işlərin nəticəsi olaraq, 2018-ci ilin ilk 5 ayında qeyri-neft ixracı 20 faiz, o cümlədən sənaye məhsulları 27 faiz, kənd təsərrüfatı məhsulları 22 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan subyektlərin sayı 34 faiz artıb, ixrac məhsullarının çeşidi genişləndirilibdir.

Hörmətli cənab Prezident, rəhbərliyinizlə həyata keçirilən davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələrini verir. İcazə verin, Sizi əmin edim ki, bu tədbirlərin uğurla davam etdirilməsi üçün bütün imkanlarımızı səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Əhməd Əhmədzadə** (*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri*): Möhtərəm cənab Prezident!

Ulu öndər Heydər Əliyev siyasətinin Sizin tərəfinizdən böyük uğurla davam etdirilməsi sayəsində iqtisadi cəhətdən güclü və qüdrətli bugünkü Azərbaycan yaranıb. Bunu bu günlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilən möhtəşəm hərbi parad bir daha sübut etdi.

Sizin diqqət və qayğınız sayəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı sahəsi də son 15 ildə böyük inkişaf yolu keçib. Belə ki, sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artıb, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, minlərlə kilometr suvarma kanallarının və

kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi, 2000-ə yaxın subartezian quyusunun qazılması hesabına su təminatı və meliorativ vəziyyəti yaxşılaşdırılmış torpaq sahələri xeyli artıb, yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib, sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilibdir.

Bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın coğrafiyasını dəyişən və ölkənin su təhlükəsizliyində strateji əhəmiyyət kəsb edən Taxtakörpü və Şəmkirçay kimi iri su anbarları mühüm rol oynayıb. Bu günə qədər bu anbarlara 3 milyard kubmetrə yaxın toplanmış su müxtəlif məqsədlər üçün istifadəçilərə verilibdir.

Möhtərəm cənab Prezident, Sizin cari ildə daha 100 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi barədə verdiyiniz tapşırıqların icrası olaraq, suvarma kanallarının, nasos stansiyalarının tikintisi, yenidən qurulması, bərpası işləri və digər meliorativ tədbirlər hazırda uğurla həyata keçirilir.

Taxtakörpü su anbarı zonasında Xızı, Siyəzən və Şabran rayonlarında ötən illərdə suvarma suyu ilə təmin edilmiş 22 min hektar yeni suvarılacaq torpaqlar hazırda aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilir. Cari ildə isə Şabran rayonunda 12 min hektar torpaq sahəsində meliorativ işlər başa çatdırılacaqdır. Hazırda «Şabran Aqropark»a məxsus 1738 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılıb, Xızı rayonunda isə 436 hektar sahədə salınmış zeytun və badam bağları suvarma suyu ilə təmin edilibdir.

Şəmkirçay su anbarı zonasında isə Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişməsində keçid qurğusunun və kanalın 5 kilometrlik hissəsinin, eləcə də Goranboy və Samux rayonlarının ərazilərində yaradılmış aqroparklara məxsus torpaq sahələrinə

suvarma suyunun verilməsi üçün boru kəmərinin və su hovuzunun tikintisi cari ildə başa çatdırılıbdır.

Sizin 2018-ci il iyunun 5-də Şəmkir–Samux–Goranboy magistral suvarma kanalından Goranboy rayonunun daha 8000 hektar və aqroparkın 4700 hektar torpaq sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirakınız, meliorasiya və su təsərrüfatı sahəsinə olan xüsusi diqqətiniz melioratorların məsuliyyətini daha da artırıbdır.

Gələcəkdə Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının ikinci növbəsinin son 14 kilometrlik hissəsinin tikintisi və onun əsas su mənbəyi olan Kür çayı üzərindəki nasos stansiyalarının suverme qabiliyyətinin artırılması ilə Goranboy rayonunun daha 10 min hektara yaxın torpaq sahəsinə suvarma suyunun çatdırılması mümkün olacaqdır.

Hörmətli cənab Prezident, Sizin müvafiq tapşırıqlarınızla Cəbrayıl rayonunun erməni qəsbkarlarının işğalından azad olunmuş Cocuq Mərcanlı kəndinin 400 hektar torpaq sahəsi, ona qonşu ərazidə yerləşən Füzuli rayonunun isə 280 hektar torpaq sahəsi Araz çayından suvarma suyu ilə təmin edilibdir.

Kür çayından Sabirabad rayonunun 16851 hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılması və yeni suvarılacaq torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün «H» kanalının və nasos stansiyasının tikintisi tamamlanıb, digər suvarma kanallarında tikinti işləri davam etdirilir. Bu layihənin icrası ilə Biləsuvar rayonunun 1600 hektar yeni torpaq sahələri də suvarma suyu ilə təmin ediləcəkdir. Neftçala rayonunun 12400 hektar əkin sahəsinin su təminatını yaxşılaşdırmaq üçün Neftçala magistral kanalının son 11 kilometrlik hissəsinin tikintisi başa çatdırılıb və hazırda nasos stansiyalarının hidromexaniki avadanlıqlarla təmin edilməsi işləri aparılır. Hacıqabul rayonunda meliorativ tədbirlər davam etdirilməklə 2700 hektar, Yuxarı Mil kanalının tikintisi işləri davam

etdirilərək, Ağcabədi rayonunda 1900 hektar yeni torpaq sahələri suvarma suyu ilə təmin olunacaqdır.

Sizin müvafiq sərəncamınızla ayrılmış vəsait hesabına cari ildə respublikanın 38 şəhər və rayonunun 248 yaşayış məntəqəsinin 8740 hektar torpaq sahəsini suvarma suyu və əhalini içməli su ilə təmin etmək üçün qazılacaq 300 subartezian quyusunun 175-ində qazma işləri tamamlanıb, qalanlarında isə iş ilin sonuna qədər başa çatdırılacaqdır.

Dünya Bankının krediti ilə respublikanın 5 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilib. Cari ilin sonuna qədər bu işlərin tamamlanması nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, Sizin bilavasitə rəhbərliyinizlə son illər regionlarda mütərəqqi texnologiyalara və suvarma texnikasının tətbiqinə əsaslanan aqroparkların, müasir heyvandarlıq komplekslərinin və iri fermer təsərrüfatlarının yaradılması kənd təsərrüfatının ekstensiv inkişafına nail olunmaqla, əhalinin ərzaq məhsulları ilə təmin edilməsində və ixrac potensiallı məhsul istehsalında mühüm əhəmiyyət kəsb edir.

2017-ci ildə Araz çayının 54 kilometr uzunluğunda yeni qolunu torpaq məcrada inşa etməklə, Saatlı, Biləsuvar və İmişli rayonlarında 40 min hektar yeni suvarılacaq torpaq sahələrinə suvarma su mənbəyi yaradılıb. Cari ildə həmin kanalı beton üzlüyə almaqla, bu rayonların əlavə olaraq 13 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi mümkün olub. Hazırda paylayıcı kanalların tikintisi işlərinə başlanılıbdır.

Abşeron yarımadasında zeytunçuluğun, badamçılığın və digər kənd təsərrüfatı bitkilərinin inkişafını təmin etmək üçün Abşeron magistral kanalında əsaslı təmir işləri davam etdirilir. Xəzər və Pirallahı rayonlarının ərazilərində yaradılmış aqroparklara məxsus 4000 hektar sahənin birinci mərhələdə 758 hektarı suvarma suyu ilə təmin edilib, 1226 hektar sahənin su təminatı

üçün nasos stansiyalarının, basqılı boru kəmərlərinin və su hovuzlarının tikintisi işlərinə başlanılıbdır.

Cari ildə «Qax Aqropark»ın 900 hektara yaxın, Şəki və Oğuz rayonları ərazisində yaradılmış aqroparkların qoz-fındıq bağları salınacaq 12 min hektar torpaq sahələrinin suvarma suyu ilə təmin olunması işləri davam etdirilir.

Möhtərəm cənab Prezident, Sizin ölkə ərazisində karxanaların fəaliyyətinin nizamlanması barədə verdiyiniz tapşırıqlarınızdan sonra müvafiq tədbirlərin görülməsi prosesinə başlanılıb. İnfrastruktur obyektlərinin, hidrotexniki qurğuların, kommunikasiya xətlərinin və yaşayış məntəqələrinin sel və daşqın sularından qorunması üçün çaylarda məcra bərpa və sahil mühafizə tədbirlərinin görülməsinə ehtiyac vardır.

Məlumat üçün bildirmək istəyirəm ki, tapşırığınıza əsasən, ölkənin mühüm strateji əhəmiyyətli Samur–Abşeron və Xanarx kanallarının Vəlvələçay, Qudyalçay və Qusarçay çayları ilə kəsişmə qurğularında karxanaların qanunsuz fəaliyyəti nəticəsində yaranmış qəzalı vəziyyətlərin aradan qaldırılması üzrə hazırda təxirəsalınmaz tədbirlər davam etdirilir.

Hörmətli cənab Prezident, ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılması, əkin sahələrinin dövriyyəyə verilməsi, normal suvarmanın təmin edilməsi, xüsusilə pambıqçılığın, taxılçılığın, tütünçülüyün, üzümçülüyün, baramaçılığın və heyvandarlığın inkişafı üçün qarşımızda qoyduğunuz mühüm vəzifələrin vaxtında və keyfiyyətlə icra edilməsi məqsədilə Səhmdar Cəmiyyəti tərəfindən bütün lazımi tədbirlər həyata keçirilir.

Cəmiyyətin bütün torpaqqazan texnikası (1640 ədəd) suvarma və kollektor-drenaj şəbəkələri üzərinə köçürülüb, şəbəkələrin təmiri üzrə plan-qrafik tərtib edilib, işlərin icrası ciddi nəzarətə götürülübdür.

İstismar tədbirlərinə ayrılmış vəsait hesabına 8200 kilometr suvarma kanalları, 1600 kilometr kollektor-drenaj şəbəkəsi və 2600 ədəd hidrotexniki qurğu təmir edilibdir.

2018-ci il iyul ayının 2-nə respublikanın su anbarlarında 15 milyard kubmetrdən artıq su yığılıb. Su anbarlarında toplanılmış su ehtiyatları və meliorativ sistemlərdə aparılan təmir-bərpa işləri kənd təsərrüfatı bitkilərinin normal suvarılmasına şərait yaradıb. İyulun 1-nə respublikanın rayonları üzrə 1 milyon 382 min hektar sahədə kənd təsərrüfatı bitkiləri orta hesabla 2 dəfəyə yaxın suvarılıb. Hazırda vegetasiya suvarmaları uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, Sizi əmin edirik ki, Cəmiyyətin kollektivi qarşıya qoyulmuş vəzifələri tam məsuliyyəti ilə dərk edərək, onların vaxtında və layiqincə yerinə yetirilməsi üçün bundan sonra da bütün bacarıq və imkanlarından istifadə edərək, daha səylə çalışacaqdır.

Diqqətinizə görə minnətdaram.

**Z a k i r  İ b r a h i m o v** (*«AzerGold» Qapalı Səhmdar Cəmiyyətin sədri*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Çıxışımı müstəqil Azərbaycanın banisi və qurucusu ulu öndər Heydər Əliyevin məşhur kəlamı ilə başlamaq istərdim: «Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur». Ümummilli liderin bu müdrik sözləri Azərbaycanın apardığı dövlət siyasətinin strateji xəttinə çevrilib. Ulu öndərin XX əsrin sonlarında başladığı və möhtərəm cənab Prezident, Sizin uğurla davam etdirdiyiniz neft strategiyası ölkəmizin inkişafına güclü təkan verdi. Neftin ixracından əldə edilən gəlir ölkəmizdə bütün sahələrin inkişafı üçün əlverişli şərait yaradıbdır.

Möhtərəm cənab Prezident, 2015-ci il 11 fevral tarixi Azərbaycanın əlvan metal sənayesi üçün dönüş nöqtəsi oldu. Məhz həmin tarixli sərəncamınızla əlvan metal filizi yataqlarının

öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadənin təmin olunması, habelə bu sahənin beynəlxalq standartlara uyğun, tam şəffaf və müasir şəkildə inkişafı məqsədi ilə «AzerGold» Qapalı Səhmdar Cəmiyyəti təsis edildi. 2016-cı ilin ikinci yarısında Cəmiyyət fəaliyyətə başladı və qısa müddət ərzində korporativ strukturu, maddi-texniki bazanı və işçi heyətini formalaşdırdı.

Zati-aliləri, Sizin müvafiq sərəncamınıza əsasən, Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələri, Köhnəmədən sahəsi və Kürəkçay hövzəsinə dair iştirak payları «AzerGold» QSC tərəfindən yerli banklardan cəlb edilmiş kredit vəsaiti hesabına alınıb və hazırda bu kredit öhdəliyi Cəmiyyət tərəfindən uğurla təşkil edilmiş qiymətlilərin satışından gələn daxilolmalar hesabına təmin olunur.

Cənab Prezident, dağ-mədən hasilat sahəsinin inkişafı istiqamətində «AzerGold» QSC-nin ilk hədəfi Daşkəsəndə yerləşən Çovdar qızıl mədəninin fəaliyyətinin bərpası, yerli əhalinin işlə təmin olunması və gəlirlərin formalaşdırılması olubdur.

Bu məqsədlə qısa müddət ərzində müxtəlif təyinatlı təmir-tikinti işləri təşkil edilib, mədənin fəaliyyəti bərpa olunub, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, işçilərin iş şəraiti təkmilləşdirilib, aktiv hasilat işlərinə başlanılıb və bu işlər bu gün də uğurla davam etdirilməkdədir. Hasilatın bərpası qiymətli metalların ixracını aktuallaşdırdı. Dünya metal birja bazarlarının tələblərini nəzərə alaraq, qiymətli metalların beynəlxalq standartlara uyğun saflaşdırılması üçün saflaşdırma şirkətləri hasilatçılar qarşısında texnoloji, ətraf mühit, şəffaflıq və digər parametrlər üzrə çox mürəkkəb şərtlər qoyur. Qürurla deyə bilərik ki, «AzerGold» QSC çoxsaylı audit və yoxlama prosedurlarını uğurla keçərək, bir sıra beynəlxalq saflaşdırma şirkətləri tərəfindən müsbət rəy alıb, daha əlverişli kommersiya

şərtləri təklif edən İsveçrənin dünyaca məşhur «Argor-Heraeus» şirkəti ilə 2017-ci ilin aprel ayında müqavilə imzalayıb və Çovdar qızıl mədənində hasil edilən qızıl və gümüşün ixracını həyata keçirməyə başlayıbdır.

2017-ci ilin aprel–dekabr ayları ərzində 60,3 min unsiya qızıl, 86,4 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 131,5 milyon manat, 2018-ci ilin birinci yarısında 20,7 min unsiya qızıl, 28,2 min unsiya gümüşün ixracı və beynəlxalq bazarlarda satışından 47,9 milyon manat, ümumilikdə isə 81,1 min unsiya qızılın, 114,6 min unsiya gümüşün satışı nəticəsində 178 milyon manatdan çox gəlir əldə edilibdir. Qazanılan yüksək göstəricilər 2017-ci ildə «Azer-Gold» QSC-ni qeyri-neft sektorunun sənaye məhsullarının ixracında lider mövqelərə yüksəltdi. Bu gəlirlərin hesabına Cəmiyyət dövlət büdcəsindən vəsait cəlb etmədən müxtəlif təyinatlı kapital və cari xərclərin qarşılanmasını təmin edib, habelə üzərində olan bank borcunun ödəmə planını üstələməklə, ciddi azaldılmasına nail olubdur. Bundan əlavə, əldə edilən gəlir hesabına yeni sahələrin inkişafına yönələn ilkin investisiya qoyuluşları da həyata keçirilibdir.

Zati-aliləri, Çovdar yatağında icra edilən və 2021-ci ildə başa çatacaq yerüstü filiz qatının istismarı dövründə ümumilikdə hasil ediləcək daha 129 min unsiya qızılın və 202 min unsiya gümüşün satışı nəticəsində ölkə iqtisadiyyatına 300 milyon manata yaxın məbləğdə gəlirin olması planlaşdırılır. Qiymətlilərin beynəlxalq bazarda satışı ilə yanaşı, yerli bazarda da Azərbaycanın qızıl və gümüşünün satışının həyata keçirilməsi və ixracdan asılılığının azaldılması üçün Cəmiyyət tərəfindən səylər göstərilməkdədir. Bu ildən etibarən Azərbaycan Respublikasının Dövlət Neft Fondu Cəmiyyətin hasil etdiyi qızılı alacaq və ölkənin qızıl ehtiyat fondu həm də Azərbaycan qızılı hesabına formalaşacaqdır.

2021-ci ildə hasilata başlanılması nəzərdə tutulan Çovdar yatağının yeraltı filiz qatının istismarına dair texniki-iqtisadi əsaslandırma sənədi beynəlxalq məsləhətçi şirkəti tərəfindən hazırlanır. İlkin hesablamalara əsasən, layihənin 6 illik istismarı çərçivəsində 400 milyon manatdan artıq gəlirin əldə edilməsi nəzərdə tutulub. Əlavə olaraq, yatağın ehtiyatlarının artırılması istiqamətində sahənin yaxın və uzaq ərazilərində fəal kəşfiyyat və tədqiqat işləri aparılır.

Balakən rayonu ərazisində yerləşən və mis, sink, gümüş, qızıl, qurğuşun ehtiyatlarına görə nəinki Azərbaycan, hətta Avropa üçün böyük strateji əhəmiyyətə malik Filizçay polimetal yatağı üzrə ilkin iqtisadi qiymətləndirmə sənədi nüfuzlu beynəlxalq məsləhətçi şirkəti tərəfindən hazırlanmaqdadır. Hesabatın cari ilin sonuna hazır olması və növbəti addım kimi metallurji, laborator, geotexniki, hidroloji və ekoloji tədqiqatların aparılması, sosial və ətraf mühitə təsirin qiymətləndirilməsi və texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması təşkil ediləcəkdir. Filizçay yatağının ən azı 12 illik istismarı nəticəsində ölkə iqtisadiyyatına ümumilikdə 3 milyard manata yaxın vəsaitin daxil olması və 2000-dən artıq iş yerinin açılması gözlənilir. Bundan başqa, Balakən rayonu ərazisində yerləşən Mazımçay yatağında ehtiyatların təsdiqi məqsədi ilə buruq-qazma işləri aparılır.

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Ortakənd sahəsində ən müasir avadanlıqların cəlb edilməsi ilə kompleks geofiziki tədqiqatlar nəticəsində mis, qızıl və digər əlvan metallar üzrə ilkin müsbət təzahürlər qeydə alınıb. Buruq-qazma işlərinin icrası və ehtiyatların hesablanması işlərinə başlanılıbdır.

Möhtərəm cənab Prezident, ölkə ərazisində yeni yataqların müəyyən edilməsi məqsədilə kəşfiyyat işləri aparılır. Belə ki, bu işlərin nəticəsində Göygöl inzibati rayonunda yerləşən Ağyoxuş perspektivli qızıl filizi sahəsi müəyyən edilib, aparılmış geofiziki işlər müsbət nəticə verib və 2018-ci ilin sonunadək

buruq-qazma işlərinin icrası və ehtiyatların hesablanması planlaşdırılıbdır. Eyni zamanda, Tülallar perspektivli qızıl filizi yatağının mövcud ehtiyatlarının təsdiq edilməsi və növbəti addım olaraq tədqiqat işlərinin başlanılması məqsədilə yataq üzrə ilkin fəaliyyət planı tərtib edilibdir.

Nəzərdə tutulan işlərin davamlılığını və vaxtında həyata keçirilməsini təmin etmək üçün maliyyələşmə mənbələri, o cümlədən potensial investorlar və strateji partnyorlarla əməkdaşlıq perspektivləri nəzərdən keçirilir.

Cənab Prezident, tapşırığınıza əsasən, «AzerGold» QSC Azərbaycan ərazisində mövcud perspektivli əlvan metal yataqlarının işlənilməsində və istismara verilməsində kompleks yanaşma tətbiq edir. Bu məqsədlə ölkənin əlvan metal hasilatına dair Yol Xəritəsi sənədinin hazırlanmasına başlanılıb. Sənəd sovet hakimiyyəti dövründən arxivlərdə mövcud məlumatların müasir standartlara uyğunlaşdırılmasını, o cümlədən rəqəmsal formata salınmasını, mineral ehtiyatların beynəlxalq normalar əsasında yenidən hesablanmasını, mədənlər üçün istismar mərhələləri üzrə fəaliyyət planının hazırlanmasını əhatə edəcəkdir. Rəqəmsallaşdırma yataqların iqtisadi və ekoloji cəhətdən daha dayanıqlı və səmərəli idarəçiliyinə töhfə verəcəkdir.

Yuxarıda adıçəkilən işlərin icrası məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər dövlət qurumları ilə əməkdaşlıq edilir.

Cənab Prezident, hazırda Cəmiyyətin fəaliyyətinin təşkili üçün 600-dən çox iş yeri yaradılıb. Bunlardan 286-sı daimi iş yeridir. İşçilərin yerli və xarici təlimlərdə iştirakı təmin edilir. Hazırda tədqiqat mərhələsində olan yeni layihələrin icrası və istismara verilməsi əlavə çoxsaylı yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır.

Cənab Prezident, Sizin göstərişinizə əsasən, Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Azərbaycan Respublikasının işğal altında olan ərazilərində əlvan metalların qeyri-qanuni hasilatı

ilə bağlı erməni və xarici şirkətlərin fəaliyyətinə hüquqi qiymətin verilməsi prosesinə başlanılıbdır.

Möhtərəm Prezident, Azərbaycan zəngin ölkədir və ölkəmizdə Yerin təkində olan metalların ümumi dəyəri ilkin hesablamalara əsasən, 150 milyard manatdan artıq təşkil edir. Biz inanırıq ki, Sizin rəhbərliyiniz ilə bu sərvətlərdən səmərəli istifadə insan kapitalının daha da inkişaf etdirilməsinə, milli iqtisadiyyatın güclənməsinə və xalqın rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

Zati-aliləri, məhz Sizin qayğınız və diqqətiniz sayəsində fəaliyyət göstərdiyimiz qısa dövr ərzində bu uğurları qazanmağa nail ola bilmişik. Apardığınız xarici və daxili siyasət, iqtisadi islahatlar ictimai-siyasi və sosial-iqtisadi sabitliyi təmin edir, Azərbaycanda fəaliyyət göstərən hər bir müəssisə kimi, bizim də fəaliyyətimiz üçün əlverişli şərait yaradır.

## YEKUN NİTQİ

Ötən 6 ayın göstəriciləri deməyə əsas verir ki, biz 2018-ci ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrə uğurla nail olacağıq. Bundan sonrakı illərdə Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf etməlidir. Bunu təmin etmək üçün, əlbəttə, islahatlar daha da dərinləşməlidir.

Son illər ərzində apardığımız islahatlar öz gözəl bəhrəsini verib. Əgər biz bu islahatları aparmasaydıq, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq hesab edirəm ki, indiki dövrdə biz bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin.

İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı daha inamla inkişaf etsin, qeyri-neft sektorumuza xarici sərmayə daha böyük həcmlə qoyulsun. Çünki bu sektora

xarici sərmayənin lazımi səviyyədə olmamasının əsas səbəbi qeyri-şəffaf vəziyyətdir. Qanunvericilikdə də əlavə tədbirlər görülməlidir, baxmayaraq ki, bizim qanunvericiliyimiz xarici sərmayənin cəlb edilməsi üçün çox əlverişlidir. Əgər belə olmasaydı, ölkə iqtisadiyyatına 230 milyard dollardan çox sərmayə qoyulmazdı. Ancaq müasir dövrün tələbləri diktə edir ki, islahatlar daha da dərinləşsin və şəffaflıq tam təmin edilsin.

Deyə bilərəm ki, son vaxtlar vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir. Bu sahələr bir-birinə bağlı olan sahələrdir və əlbəttə ki, islahatlar hər iki sahədə paralel olaraq aparılmalıdır və aparılır. Əminəm ki, görülmüş işlər nəticəsində yaxın gələcəkdə biz daha da böyük nəticələri görəcəyik. Vergi və gömrük orqanları dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə qalxmalıdır. Yəni sadə dillə desək, vəzifə bundan ibarətdir.

Əlbəttə ki, kadr dəyişikliyi aparılmalıdır və aparılır. Əminəm ki, bu öz bəhrəsini verəcək. Qabaqcıl ölkələrin təcrübəsi Azərbaycanda tətbiq edilməlidir. Bütün dövlət qurumları, eyni zamanda, sahibkarlar da bilməlidirlər ki, vergi və gömrük sistemlərində tam şəffaflıq təmin edilir, bərabər şərait yaradılır, qeyri-sağlam rəqabətə son qoyulur. Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir.

Sahibkarlar da öz tərəfindən bu işlərdə məsuliyyətlərini göstərməlidirlər. Vergidənyayınma hallarına son qoyulmalıdır. Bu, kiçik və böyük sahibkarlara aiddir. Hamı qanun qarşısında bərabər olmalıdır. Vergi və gömrük orqanlarının rəhbərliyi qarşısında mənim tapşırıqlarım bundan ibarətdir. Heç kimin heç bir güzəşti yoxdur, ola da bilməz. Hər bir sahibkar vergisini tam ödəməlidir və vergidən başqa, heç bir başqa ödəniş olmamalıdır. Mən bunu həm dövlət orqanlarına, həm də sahibkarlara deyirəm. Əgər belə hallar olarsa, dərhal birbaşa Prezident Administrasiyasına və

aidiyyəti qurumlara məlumat göndərilməlidir. Çünki biz bu sahədə tam sağlamlaşdırma siyasətimizi davam etdirib başa çatdırmalıyıq.

Sosial təminat sahəsində də ciddi islahatlar aparılmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi qarşısında belə vəzifələr qoyulub. Bu sahədə buraxılmış səhvlər, pozuntular tam aradan qaldırılmalıdır. Sosial ədalət tam bərqərar olmalıdır və şəffaflıq tam təmin edilməlidir. Dövlət bu sahəyə çox böyük diqqət göstərir və mən dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xüsusilə sosial cəhətdən az təmin edilmiş vətəndaş. Məhz buna görə biz ünvanlı sosial yardım sisteminə keçmişik. Məhz buna görə yüz minlərlə ailə dövlətdən bu təminatı alır. Ancaq bir çox hallarda vətəndaşların hüquqları pozulur, ədalətsizlik hökm sürür, yardıma ehtiyacı olan yardım almır, yardıma ehtiyacı olmayan yardımı alır və sonra o vəsaiti dövlət məmurları ilə bölüşür. Belə hallar kifayət qədər çoxdur, indi ciddi araşdırma aparılır. Sosial təminat sahəsində tam şəffaflıq təmin edilməli, sosial ədalət tam bərqərar olmalıdır.

Bununla bərabər, sosial sahənin şəffaflaşdırılması və beynəlxalq təcrübə əsasında fəaliyyət göstərməsi bizim iqtisadi inkişafımıza da böyük təkan verəcək. Çünki qeyri-formal məşğulluq Azərbaycanda kütləvi xarakter daşıyır. İndi hökumət də, nazirlik də bu məsələ ilə ciddi məşğul olur və biz buna son qoymalıyıq. Buna son qoymaq üçün mexanizmlər var, işlənilir və hesab edirəm ki, yaxın gələcəkdə böyük irəliləyiş olacaqdır. Biz qeyri-formal məşğulluqla bağlı çox ciddi addımlar atırıq və atacağıq. Əgər biz bu vəziyyətdən çıxa bilsək, bu, ölkə iqtisadiyyatına da böyük dəstək olacaqdır. Onu da qeyd etməliyəm ki, qeyri-formal məşğulluq, demək olar, bütün ölkələrdə mövcuddur. Baxır ki, ölkələr, hökumətlər bu vəziyyətlə necə mübarizə aparırlar. Azərbaycan qeyri-formal məşğulluğa qarşı çox ciddi tədbirlər görən bir ölkə olmalıdır. Əlbəttə ki, bunun həm inzibati, həm də institusional elementləri var və biz hər ikisindən istifadə etməliyik.

Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq. Amma əsas vəzifə ondan ibarətdir ki, bu yardım ədalətli bölünsün. Doğrudan da bu yardıma ehtiyacı olan bu yardımı alsın. İmkanlı adamlar, yaxud da ki, sosial yardıma ehtiyacı olmayanlar bu yardımdan məhrum edilməlidirlər. Onlar özləri bundan imtina etməlidirlər. Bu onların sosial məsuliyyətinin yüksək səviyyədə olmasını göstərər.

Əlbəttə ki, ağır vəziyyətdə yaşayan, hələ də işsiz olan vətəndaşlar üçün biz yeni şərait yaratmalıyıq. Azərbaycanda iş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. Mən giriş sözümdə dedim ki, 58 min yeni daimi iş yeri açılıb. Ancaq eyni zamanda, 20 mindən çox iş yeri bağlanılıbdır. Əgər bu rəqəmlərə baxsaq görərik ki, yenə də dinamika müsbətdir. Ancaq bağlanılmış iş yerlərinin təhlili aparılmalıdır. Hansı səbəblərə görə bu iş yerləri bağlanılıb, o iş yerlərini itirən vətəndaşlar hansı işlərlə təmin olunub və olunubmu, yoxsa yox?

Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz vardır. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, həm regionlarda məşğulluq probleminin həllini sürətləndirəcək, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcəkdir. Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait vardır. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaq, ailələrini saxlayacaq və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmalıdır. Aprel ayında formalaşmış yeni hökumət qarşısında bu vəzifə çox kəskin qoyulubdur. Bu xoşagəlməz hallara son qoyulmalıdır. Son illər ərzində böyük işlər görülüb və beynəlxalq təşkilatlar da bunu qeyd edir. Bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan daim irəliyə

gedir. Ancaq irəliləyiş olsa da, bu bizi qane edə bilməz. Azərbaycanda bu böyük sosial bəlanın kökü kəsilməlidir. Bunu etmək üçün də kifayət qədər imkanlar vardır. Həm güclü siyasi iradə, həm də indi bizim institusional mexanizmlərimiz vardır. Ən önəmlisi, kadr islahatı aparılır və aparılacaq. Hansı dövlət məmurları bu meyarlara uyğun gəlməyəcəklərsə, onlar işdən çıxarılacaqlar və bunu bütün dövlət məmurları bilsinlər.

Korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi mübarizə aparılacaq. Biz elə etməliyik ki, korrupsiya hallarının baş verməməsi üçün institusional mexanizmlər işə düşsün. Biz bəzi müsbət meyilləri də görürük. Misal üçün, ictimai xidmətlər sahəsində «ASAN xidmət» korrupsiyadan tam azad bir qurumdur. «ASAN xidmət»ə 20 milyondan çox müraciət olunub və vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxındır. Yəni bunu etmək mümkündür. Sadəcə, siyasi iradə olmalıdır, bu da var və çox ciddi tədbirlər görülməlidir, o cümlədən cəza tədbirləri görülür və görüləcəkdir. Ancaq onu da deməliyəm ki, bəzi hallarda inzibati cəza tədbirləri işləmir. Ona görə ən ciddi beynəlxalq təcrübə tətbiq edilməlidir. Dünyanın aparıcı ölkələrində bu sahədə hansı yollarla mübarizə aparılırsa, Azərbaycanda da həmin yollarla mübarizə aparılmalıdır. Əlbəttə ki, dövlət xərclərinə nəzarət gücləndirilməlidir. Müvafiq nazirliklərə göstəriş verilib, indi islahatlar aparılır və bütün dövlət qurumlarının rəhbərləri bunu bilsinlər və mənim tapşırıqlarıma əməl etsinlər.

Narahatlıq doğuran sahələrdən biri də inşaat sektorudur. Son illərdə bu sahədə böyük işlər görülüb. Azərbaycanın demək olar ki, bütün şəhərləri tikinti meydançasına çevrilibdir. Həm dövlət kapital qoyuluşu, həm özəl sektor tərəfindən qoyulan investisiyalar inşaat sektorunun inkişafına böyük təkan veribdir. Azərbaycanda inşaat materiallarının istehsalı ildən-ilə artır. Deyə bilərəm ki, biz bu gün özümüzü əsas inşaat materialları ilə təmin edə bilirik. İlk növbədə, ona görə ki, daxildə buna tələbat vardır. Çünki biz çox az miqdarda inşaat materiallarını xaricə satırıq. Qarşıya vəzifə

qoyulubdur ki, idxaldan asılılığımızı azaldaq və daxili bazarı yerli inşaat materialları ilə təmin edək. Yəni inşaat sektorunun inkişafı ümumi iqtisadi inkişafa təkan verir, məşğulluğu artırır. 2-3 il ərzində inşaat sektorunda müəyyən böhran yaranıb və bu, əmək bazarına da dərhal öz mənfi təsirini göstəribdir. Bu məsələlər bir-biri ilə sıx bağlı olan məsələlərdir. Bir daha demək istəyirəm ki, bu sahədə görülən işlər müsbətdir. Ancaq eyni zamanda, biz nəyi görürük? Bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına. Bəzən memarlıq baxımından çox eybəcər binalar tikilir. Buna son qoymaq üçün çox ciddi tədbirlər görülməlidir və qanunsuz tikililərə son qoyulmalıdır.

Qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaqlar. Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq, bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha demək istəyirəm ki, ilk növbədə, Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. O adamları ən ciddi cəzalar gözləyir. Çünki biz bu qədər səy göstəririk.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu təkcə biz demirik. Bunu, demək olar ki, Bakıya gələn bütün qərəzsiz xarici qonaqlar deyir. Sözün əsl mənasında, Bakı parlayan bir ulduzdur. Amma Bakı şəhərində elə yerlər də var ki, utanc gətirir. Binalar heç bir qaydaya riayət olunmadan biri-birinin yanında, ictimai yerlərdə, həyətlərdə tikilir. Bu binaların tikilməsinə kim icazə verir?! Yerli icra orqanları. Bu icazəni təmənnasızmı verir?! Əlbəttə ki, yox.

Biz paytaxtımızı parklar, bağlar, ictimai zonalar şəhərinə çevirmişik. İndi yadınıza salın, əvvəlki dövrlərdə qanunsuz tikilmiş, bir-birinin içinə girmiş binalar həm orada yaşayanlara, həm də şəhər əhalisinə nə qədər əziyyət verirdi. İndi biz təmizlənmiş və sakinləri köçürülmüş yerlərdə ictimai zonalar yaradırıq, orada binalar tikmirik. Bulvar 3 kilometrdən 16 kilometrədək uzadılıb, böyük ictimai zonadır. Böyük parklar salınıb. Heydər Əliyev sarayının arxasında gözəl park yaradılıb. Biz oradan vətəndaşları köçürəndə bəziləri deyirdilər, köçürürlər ki, binalar tikilsin. İndi ora gözəl bir parkdır. Azərbaycan Dram Teatrının arxasındakı «Sovetski» adlandırılan ərazidəki biabırçı mənzərə aradan götürülür. Yenə də deyirdilər ki, orada binalar tikilir. İndi orada yol qovşaqları tikilir, yol hərəkətinə nəfəs verilir, parklar salınır. Onlarla, yüzlərlə belə işlər göz qabağındadır. Vaxtilə bəzi cinayətkarlar tərəfindən qanunsuz zəbt edilmiş yerlərdə indi parklar yaradılır. Yusif Səfərov küçəsi ilə Babək prospektinin kəsişməsində vaxtilə böyük bir ərazi zəbt edilmişdi, istifadəsiz qalmışdı. İndi orada böyük parklar salırıq ki, insanlar gəlib dincəlsinlər, istirahət etsinlər. Heydər Əliyev Mərkəzinin qarşısında böyük ictimai zona yaradılıb. Vaxtilə orada işləməyən, dağılmış vəziyyətdə olan zavod yerləşirdi. Yəni biz bunu edirik. Ancaq götürüb ictimai yerdə, həyətdə, yaxud da ki, insanların istifadə etdiyi yerdə bina tikmək cinayətdir və bunu edən cavab verəcəkdir. Bir daha demək istəyirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan heç bir bina tikilə bilməz.

Son illərdə şəhər nəqliyyatı ilə bağlı böyük işlər görülüb. Yeni, çox komfortlu avtobuslar gətirilib və yeni avtobusların gətirilməsi nəzərdə tutulur. Bakı Nəqliyyat Agentliyi yaradılıb və bu sahədə pərakəndəliyi aradan qaldırmaq üçün struktur islahatları aparılıbdır. Bu gün Bakı Nəqliyyat Agentliyi şəhərin nəqliyyat sisteminə cavabdehlik daşıyan yeganə qurumdur. Bu agentliklə sıx əlaqədə işləyən bütün digər dövlət qurumları ona kömək göstərməlidir. Çünki bu sahədə də bir çox pozuntulara yol

verilmişdir. İndi dövlət vəsaiti hesabına parkinqlər tikilib, amma bu parkinqlər boşdur. Parkinqlərin yanında maşınlar qanunsuz dayanıb və heç kim də onlara demir ki, sən maşını niyə burada – parkinqlə üzbəüz saxlayırsan? Nədir ki, parkinqə gedib maşını saxlamaq ya əziyyətdir, ya da ki, pul vermək istəmir. Bəlkə də qanunsuz olaraq, az pul verib maşını burada saxlayır. Belə olan halda, biz şəhər nəqliyyatını necə tənzimləyək?! Dayanacağın yerində binalar tikirlər. Məndə o şəkillər vardır. Mən müşavirə keçirmişdim, çox ciddi tapşırıq vermişdim və ciddi iradlar bildirmişdim. Rayon icra hakimiyyətləri dayanacağın yerini zəbt edir, hasarlayır, o yeri satır və demək olar ki, şəhər nəqliyyatını iflic vəziyyətə salır. O səhvləri buraxan məmurlar işdən qovulub. Ancaq mən deyirəm ki, şəhər nəqliyyatı hamımız üçün rahat bir nəqliyyat olmalıdır. Şəhərsalma qaydaları elə qoyulmalıdır ki, şəhər nəqliyyatına əngəl törətməsin, əksinə, kömək göstərsin. Azərbaycanın əhalisi artır, Bakı böyüyür. Qonşu ölkələrdən fərqli olaraq, bizim əhalimiz müstəqillik dövründə 7 milyondan 10 milyona çatıb. Bu artım müqabilində biz gələcəkdə necə hərəkət edəcəyik? Biz insanların saatlarla tıxaclarda əziyyət çəkdikləri böyük meqapolislərin vəziyyətinə düşmək istəmirik. Biz burada yeni damarlar, yeni yollar açırıq. Amma hansısa yaramaz bir məmur pul naminə o yeri satır, orada da qanunsuz bina tikilir. Sonra da dövlət həmin binanın sökülməsi üçün böyük vəsait, kompensasiya verməlidir ki, qanunsuz tikən oradan çıxsın və yol açılsın. Ona görə çox ciddi tapşırıq verirəm, dövlət orqanları nəticə çıxarsın.

Əlbəttə, iqtisadi islahatları dərinləşdirmək üçün biz sahibkarlardan böyük fəaliyyət gözləyirik. Dövlət sahibkarlığın inkişafına böyük dəstək verir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlara 2,2 milyard manat güzəştli kreditlər verilibdir. Ancaq bu kreditlər hesabına ölkəmizdə 163 min yeni iş yeri yaradılıbdır. Bu il də 170 milyon manat güzəştli şərtlərlə kreditlərin verilməsi nəzərdə tutulur. Onun böyük hissəsi artıq 6 ayda verilib. Qalan hissə də veriləcəkdir. Sahibkarlara

metodiki tövsiyələr, məsləhətlər verilir. Biz xaricdə ticarət evlərinin açılması ilə sahibkarlara şərait yaradırıq ki, onlar öz ixrac imkanlarını genişləndirsinlər. Deyə bilərəm ki, bu gün Azərbaycan dövləti qeyri-neft məhsullarının ixracının artırılmasına sahibkarlardan daha çox çalışır. Sahibkarlar bir qədər passivdirlər. Elə bil maraqlı deyillər ki, xarici bazarlara çıxsınlar. Ona görə dövlət bütün bu işləri öz üzərinə götürüb. Mənim tapşırığımla bir çox sərgilər, təqdimatlar keçirilir, ticarət evləri açılır. Bu proses çox geniş vüsət alacaq. İndi bir neçə ticarət evi açılıb. Məncə, Azərbaycanın xaricdə onlarla ticarət evi açılmalıdır. Sahibkarlar da bu işlərdə fəal iştirak etsinlər, xüsusilə ixracla bağlı öz səylərini artırsınlar.

İnfrastruktur layihələri ilə bağlı Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün vəzifələr ilin sonuna qədər icra edilməlidir. Mən elektrik enerjisi ilə bağlı vəziyyət haqqında danışmaq istərdim. Bildiyiniz kimi, bu sahəyə son illərdə çox böyük diqqət göstərilib. Son 15 il ərzində 2500 meqavat yeni generasiya gücü yaradılıb. Əgər bu generasiya gücü yaradılmasaydı, biz bir neçə gün bundan əvvəl baş vermiş qəzadan belə çıxa bilməzdik. Daha çox vaxt aparacaqdı. Demək olar ki, 2003-cü ildə bizim enerji təsərrüfatımız tam köhnəlmişdi. Ancaq yeni elektrik stansiyalarının yaradılması və mövcud stansiyaların təmiri ilə bağlı atılan addımlar imkan verdi ki, biz enerji çatışmazlığını aradan götürək. Çünki biz o vaxt xaricdən elektrik enerjisi alırdıq. Çox böyük investisiyalar qoyuldu, bir çox müasir stansiyalar tikildi. Mövcud stansiyalarda, o cümlədən Mingəçevir İstilik Elektrik Stansiyasında bəzi təmir işləri aparıldı. Ancaq buna baxmayaraq, baş vermiş qəza göstərdi ki, bizim enerji təsərrüfatımızda çox böyük problemlər, qüsurlar vardır. Bir daha demək istəyirəm ki, bir qəzaya görə bütün enerji sistemi çökməməlidir. Qəza ola bilər, qəzanın müxtəlif səbəbləri ola bilər. Hətta ən inkişaf etmiş ölkələrdə, şəhərlərdə belə, qəzalar baş verir, böyük fəsadlara, insan itkisinə gətirib çıxarır. Biz bunu yaxın tarixdən bilirik. Onlarla insan belə hadisələrdə həlak olur. Ancaq bir lokal qəza ümumi

sistemin çökməsinə gətirib çıxarmamalıdır. Bunun heç bir izahatı ola bilməz, mən heç bir izahatı da qəbul etmirəm. Bu gün işləyən komissiya yaxın gələcəkdə öz rəyini verəcək. Mingəçevirə ekspertlər qrupu ezam edilib. Onlar da öz sözünü deyəcəklər. Biz qəzanın səbəblərini, əlbəttə ki, tam dəqiqliyi ilə bilməliyik. Nə üçün bu qəza bütün enerji sistemimizi belə vəziyyətə qoydu?! Biz bunun cavabını alacağıq. Ancaq ilkin məlumata görə, bunun səbəbi ondan ibarətdir ki – mən, əlbəttə, komissiyanın rəyini qabaqlamaq, məhz buna görə bu məsələ ilə bağlı öz fikrimi bildirmək istəmirəm – hətta son illər ərzində istifadəyə verilmiş stansiyalar da tam gücü ilə işləmir. Bunun səbəbi araşdırılmalıdır. Çox güman ki, bunların istismar dövründə səhvlər buraxılıb. Bütün işlərdə biz ədalətli olmalıyıq. Kimisə cəzalandıranda, kiməsə təşəkkür edəndə ədalət, dəqiq informasiya, təhlil olmalıdır. Bu qəza çox ciddi siqnaldır. Hazırda enerji sistemimizdə struktur islahatları ilə bağlı işlər aparılır. Belə göstəriş verilibdir. Bütün enerji təsərrüfatımızın təftişi məsələsi öz həllini tapır. Komissiyada bu məsələ müzakirə ediləcək, mənə təkliflər veriləcəkdir. Biz Azərbaycanın enerji sistemini ən müasir əsaslarla idarə etməliyik. Kifayət qədər enerji generasiya gücümüz vardır. Yarımstansiyalar tikilib və yenə də tikiləcəkdir. Artıq göstəriş verilib, həm Bakıda, həm bölgələrdə bu il və gələn il yeni yarımstansiyaların tikintisi təmin ediləcəkdir. Vaxtilə, sovet dönəmində tikilmiş enerji təsərrüfatının müasirləşdirilməsi üçün əlavə vəsait ayrılır. Biz vəsaiti ayırırıq, amma əsas məsələ ondadır ki, bu vəsaitdən səmərəli şəkildə istifadə edilsin və elə bir sistem qurulsun ki, enerji dayanıqlılığı təmin olunsun.

Digər infrastruktur layihələrinə gəldikdə, deyə bilərəm ki, ilin əvvəlində qarşıya vəzifə qoymuşduq ki, qazlaşdırılma bu ilin sonuna qədər 95 faizə çatacaq, biz buna nail olacağıq. İçməli su layihələrinin icrası, avtomobil yollarının tikintisi davam edir. Bu il plana görə 2000 kilometr yeni avtomobil yolu salınmalıdır və minimum 600 kənd yeni yollarla təmin edilməlidir. Deyə bilərəm ki, yol infrastrukturunun səviyyəsinə görə Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən,

Azərbaycan dünyada 36-cı yerdədir. Yəni bunu deyirəm ki, ictimaiyyət də bilsin, bu sahəyə böyük investisiyalar qoyulub və qoyulacaqdır.

Suvarma ilə bağlı qarşımıza qoyduğumuz rəqəm hesab edirəm ki, təmin olunacaq, 100 min hektar yeni torpaqlara su veriləcək və 300 subartezian quyusunun qazılması nəzərdə tutulur. Burada artıq deyildi ki, onlardan 175-i qazılıb istifadəyə verilibdir.

Sosial infrastrukturla bağlı bütün işlər plan üzrə gedir. Bu il 137 modul tipli məktəb tikilib istifadəyə verilməlidir. Bakı şəhərində 12 məktəb əsaslı təmir edilməlidir. 6 xəstəxana istifadəyə verilməlidir. Onlardan biri Naftalan şəhərində mənim iştirakımla açıldı və 5 şəhərdə – Qazax, Qobustan, Şəmkir, Quba, Goranboyda xəstəxanalar bu ilin sonuna qədər, ya da uzaq başı gələn ilin əvvəlində istifadəyə veriləcəkdir.

Bu il 2 Olimpiya İdman Mərkəzi açılmalıdır, ikisində isə tikinti işləri gedir. 4000 məcburi köçkün ailəsi yeni evlərlə təmin edilməlidir. Artıq Qobuda özəl sektor tərəfindən 1000-dən çox ailə üçün böyük şəhərcik açılıb, mən də orada iştirak etmişəm.

İnvestisiya təşviqi mexanizmi işə düşüb, bunun çox böyük əhəmiyyəti vardır. Təsəvvür edin, əgər biz bu sistemi tətbiq etməsəydik, 2,5 milyard manat sərmayəni özəl sektor qeyri-neft sektoruna qoymazdı. Məhz investisiya təşviqi sənədinin işə düşməsi nəticəsində 2,5 milyard manat dəyərində olan layihələr indi icra edilir. Bu, vaxtında atılmış addım idi, öz səmərəsini verir. Gələcəkdə bu sistem öz səmərəliliyini göstərəcəkdir.

Sənayenin inkişafı ilə bağlı yaxın gələcəkdə 2 böyük zavod işə düşəcək. Hər iki zavod Sumqayıtda yerləşir – Polimer zavodu və Azot Gübrələri zavodu. Bu zavodlar həm daxili bazarı tam təmin edəcək, idxaldan asılılıq aradan qaldırılacaq, həm də böyük ixrac imkanımız yaranacaqdır. Bu zavodların işə düşməsi müstəqillik dövründə sənaye sahəsində çox önəmli hadisə olacaqdır.

Sənaye parklarında rezidentlərin sayı 50-yə yaxınlaşır. Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərdi. Əgər biz bu parkları, orada investorlara yaxşı güzəştli şərtləri yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır. Bax, investisiya təşviqi sənədi 2,5 milyard manat sərmayə gətirir, sənaye parklarına isə 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Ondan 2,6 milyard dolları artıq qoyulub. Azərbaycanda avtomobil istehsalı başlanıb. Neftçalada ildə 10000 minik avtomobili istehsal ediləcək. Biz Gəncə Avtomobil zavodunda 10000-ci traktorun istifadəyə verilməsini qeyd etdik. Yəni əminəm ki, sənaye parklarının fəaliyyəti uğurlu olacaq. İndi bir neçə şəhərdə parklar yaradılır. Təkliflər verilməlidir ki, gələn il biz bu siyasəti hansı şəhərlərdə davam etdirə bilərik.

Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilibdir. Demək olar ki, biz texnika parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək, ancaq onun əsas hissəsi həll olunub. Qeyd etməliyəm ki, dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar. Bu məqsədlə böyük vəsait nəzərdə tutulur. Burada qeyd olundu, təkcə bu il 160 milyon manat dəyərində 5000-dən çox texnika alınacaq. Keçən il 10000 texnika alınmışdır. Ancaq bu sahədə bundan sonra şəffaflıq tam təmin edilməlidir. Kənd Təsərrüfatı Nazirliyi qarşısında bu vəzifə qoyulub. Bizim texnika parkımız tam təftiş edilməlidir. Yeni alınacaq texnika ilə bağlı çox dəqiq təkliflər verilməlidir. O texnika bizim kənd təsərrüfatının ümumi inkişaf dinamikasına uyğun olmalıdır və prioritetləri də özündə əks etdirməlidir.

Bir daha demək istəyirəm ki, kənd təsərrüfatı qarşısında duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir. Bəzilərində belə təsəvvür var ki, kənd təsərrüfatı, necə deyərlər,

elə ənənəvi qayda ilə inkişaf edə bilər. Bu qətiyyən belə deyil. Bu gün dünyada elə texnologiyalar var ki, məhsuldarlığı bir neçə dəfə artırır. Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə təminat texnologiyalarını Azərbaycana gətirməliyik. Elə müasir suvarma sistemləri var ki, hər qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini, nəhayət ki, tətbiq etməliyik. Baxmayaraq ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz tapşırıqlarımı vermişəm, elektron kənd təsərrüfatı sistemi Azərbaycanda istədiyimiz, yəni lazım olan formada mövcud deyil. Problemlər də məhz bundan qaynaqlanır. Ona görə ən müasir texnologiyalar tətbiq edilməlidir. Xarici mütəxəssislər cəlb edilməlidir. Bu istiqamətdə artıq işlər görülür. Biz hər bir qarış torpaqdan səmərəli istifadə etməliyik. Mən dəfələrlə demişəm, kənd təsərrüfatı Azərbaycanda müəyyən dövrdən sonra ancaq intensiv yollarla inkişaf edə bilər. Biz hazırda böyük meliorasiya tədbirlərini görürük ki, suvarılmayan daha böyük torpaqlara su gətirək. Biz buna nail olacağıq. Ancaq bizim torpaq, yəni ərazi imkanlarımız o qədər də geniş deyil. Ona görə ancaq səmərəli kənd təsərrüfatının inkişafı və yeni texnologiyaların tətbiqi nəticəsində biz istədiyimizə nail ola bilərik.

Aqroparkların yaradılması ilə bağlı məruzədə məlumat verildi. Qeyd etməliyəm ki, böyük fermer təsərrüfatlarının qurulması bu sahədə dönüş yaratdı. Bu yaxınlarda mənə aqroparkların fəaliyyəti ilə bağlı geniş məruzə edildi. 4 aqropark fəaliyyətdədir. Mən dördünün də açılışında olmuşam. 14 aqropark isə bu ilin sonuna qədər istifadəyə veriləcək. Bitkiçiliklə məşğul olan bu aqroparklarda məhsuldarlıq ən yüksək səviyyədədir – taxılçılıqda minimum 50 sentnerdir. Orta göstərici isə – bu gün hələ biçin gedir – hələlik 30 sentnerdir. Bu da əvvəlki dövrə nisbətən məqbul rəqəmdir. Ancaq Azərbaycanda orta məhsuldarlıq da ən yüksək səviyyədə olmalıdır.

Dövlət aqroparkların yaradılmasına çox böyük dəstək göstərir. Ancaq infrastruktur layihələrinə 200 milyon manatdan çox

investisiya qoyulub, sahibkarlara 100 milyon manatdan çox güzəştli şərtlərlə kreditlər verilibdir. Ölkə üzrə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu aqroparklara təqribən 1–1,5 milyard manat sərmayə qoyulacaqdır.

Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Agentliyin qarşısında çox ciddi vəzifələr qoyulub. Qida təhlükəsizliyi bu gün çox önəmli sahədir. Həm Azərbaycana gətirilən ərzaq məhsulları standartlara tam uyğun olmalıdır, həm də Azərbaycanda istehsal edilən məhsullar beynəlxalq standartlara uyğun olmalıdır. İxrac edəcəyimiz məhsullar da elə səviyyədə olmalıdır ki, ixracla bağlı problem olmasın. Bunun üçün Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti çox yüksək səviyyədə təşkil edilməlidir. İndi bu işlər gedir. Laborator tədqiqatlar, torpaqların təhlili, münbitliyi – bu işlər çox böyük dəqiqliklə aparılmalıdır və fermerlərə tövsiyə edilməlidir ki, hansı torpaqda hansı məhsul əkilsə, onun daha çox səmərəsi ola bilər.

Turizm sektorunun da inkişafı prioritetlər sırasındadır. Mənim qərarımla Dövlət Turizm Agentliyi yaradılıb. Məhz o məqsədlə ki, bu sahəyə daha böyük dövlət dəstəyi göstərilsin. Son illərdə turistlərin sayının artması çox müsbət haldır. Deyə bilərəm ki, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 6 ayında isə 10 faiz artıb. Mən bunu demişəm, bir daha demək istəyirəm ki, turizm ixrac sahəsidir. Çünki bu, ölkəmizə valyuta gətirir. Bu ilin 6 ayında xarici vətəndaşlar Azərbaycanda ancaq bank kartları ilə 513 milyon manat pul xərcləmişlər. Bu ancaq bank kartları ilə xərclənən pullardır və keçən illə müqayisədə 21 faiz çoxdur. Bu pullar xidmət sektoruna, iş yerlərinin yaradılmasına, ictimai obyektlərin fəaliyyətinə, ölkəmizin iqtisadiyyatına gedir və bizim makroiqtisadi sabitliyimizə müsbət təsir göstərir.

Bu il 3 «ASAN xidmət» Mərkəzinin açılışı nəzərdə tutulub. Onlardan biri – Mingəçevir «ASAN xidmət» Mərkəzi mənim iştirakımla açıldı. İmişli və Şəki şəhərlərində bu il 2 mərkəz

istifadəyə veriləcəkdir. 5 rayonda yeni mərkəzlərin tikintisi haqqında göstəriş verilibdir.

Görülmüş işlər sırasında böyük əhəmiyyət daşıyan dəmir yolu layihələridir. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi ilə biz, demək olar ki, Şərq–Qərb dəhlizini işə saldıq. Ələt limanının fəaliyyətə başlaması isə, demək olar ki, bu zənciri tamamladı. İndi biz digər layihələr üzərində işləyirik. Bakı–Yalama dəmir yolunun modernləşdirilməsi layihəsi icra edilir. Gələn ildən başlayaraq, biz Bakı–Astara yolunun modernləşdirilməsinə də başlamalıyıq. Beləliklə, biz Şimal–Cənub nəqliyyat dəhlizini daha da sürətləndirəcəyik. Düzdür, indi dəmir yolu var, yüklər gedir, ancaq sürət aşağıdır. Sürəti artırmaq üçün bu istiqamətdə işlər görüləcəkdir.

Bakı–Qəbələ dəmir yolunun tikintisi layihəsi icra edilir. Bu da turizmin inkişafına böyük dəstək olacaqdır. Bakı–Gəncə sürət qatarının xəttə buraxılması ilin sonuna qədər nəzərdə tutulur. Belə olan halda, hesab edirəm ki, vətəndaşlar Bakıdan Gəncəyə rahat, komfortlu qatarlarla getməyə üstünlük verəcəklər. Ən qabaqcıl firmaların sərnişin qatarları da alınır.

Şəhərətrafı dəmir yolunun tikintisi layihəsi uğurla icra edilir. Nəzərə alsaq ki, gələcəkdə Azərbaycan ərazisindən yükdaşımaların həcmi artacaq, hesab edirəm, Azərbaycanda vaqon və konteynerlərin istehsalı öz həllini tapmalıdır. Mən sahibkarlara müraciət edirəm ki, bu sahəyə diqqət göstərsinlər. Çünki bu çox gəlirli sahə olacaq, əsas bazarı da Azərbaycan olacaqdır. Çünki konteynerdaşımaları dəfələrlə artacaq. Bizdə isə konteyner çatışmır. Yükləri öz təşəbbüsümüzlə gətirmək üçün biz gərək konteyner parkına malik olaq. Ona görə konteynerlərin istehsalı həm sahibkarlar, həm də dövlətimiz üçün çox vacib məsələdir. Düşünürəm ki, sahibkarlar buna ciddi fikir verəcəklər.

Bu il neft-qaz sahəsində görülmüş işlər tarixi əhəmiyyət daşıyır. Həm «Cənub Qaz Dəhlizi»nin, həm TANAP layihəsinin istifadəyə verilməsi tarixi hadisələrdir. Bunlar dünyada da çox

böyük əks-səda yaradan layihələrdir. Deyə bilərəm ki, TANAP layihəsi əvvəlcə nəzərdə tutulmuş qoyulacaq sərmayədən daha ucuz başa gəldi. Biz TANAP layihəsinə başlayanda onun maliyyəsi 11 milyard dollardan çox nəzərdə tutulmuşdu. TANAP layihəsi 8 milyard dollara başa gəldi. Bu onu göstərir ki, Azərbaycan bu işlərə gör nə qədər məsuliyyətli yanaşır. Biz hər bir dollara, hər bir qəpiyə nəzarət edirik ki, bu böyük layihəni az xərclə icra edək. Görün biz burada nə qədər qənaət etdik.

SOCAR bu yaxınlarda yeni kontraktlar imzalayıb. Digər kontraktların imzalanması nəzərdə tutulur. Yəni bizim neft-qaz sektorumuza maraq azalmır, əksinə, artır. Çünki Azərbaycan çox sabit və güclü ölkədir. İndi bizim bütün neft infrastrukturumuz vardır. Biz 1994-cü ildə «Əsrin kontraktı»nı imzalayanda heç bir ixrac kəmərimiz yox idi. Bakı–Novorossiysk kəməri də sıradan çıxmışdı. Çox böyük vəsait qoyulubdur. Bu gün bizim Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP kimi layihələrimiz vardır. TAP layihəsi icra edilir. Əlbəttə, bütün bu infrastrukturu biz yaratmışıq. Əlbəttə, xarici şirkətlər Azərbaycanda bu sahəyə daha böyük maraqla vəsait qoyacaqlar və qoyurlar da.

Hesab edirəm ki, neft-qaz sahəsində görülmüş bütün işlər ən yüksək qiymətə layiqdir. Bu ilin sonuna qədər bu sahənin inkişafı ilə bağlı mənim hər hansı bir xüsusi tapşırığım yoxdur. Hər şey qrafik üzrə gedir.

İclasın sonunda bir daha Davos Dünya İqtisadi Forumunun hesablamalarını Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Son hesablamalara görə, Azərbaycan dünya miqyasında rəqabətqabliyyətliliyinə görə 35-ci yerdədir. Yol infrastrukturunun inkişafına görə 36-cı, inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü, ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı, xalqın iqtidara dəstəyinə görə isə dünya miqyasında 20-ci yerdədir.

Bu rəqəmlər əyani şəkildə göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb. Bu, əyani şəkildə göstərir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və biz elə etməliyik ki, ölkəmizin inkişafını dayanıqlı və daimi edək. Sağ olun.

**MONQOLUSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XALTMAAQİYN BATTULQAYA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Monqolustan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2018-ci il*

**MONTENEQRO PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLO CUKANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 iyul 2018-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyulun 10-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Türkiyə prezidentləri rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyulun 10-da rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə inam ifadə olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*10 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyulun 10-da təkbətək görüş başa çatdıqdan sonra işçi naharı çərçivəsində geniş tərkibdə görüşü olmuşdur.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*10 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 10-da mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Əziz qardaşım, hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram, ölkəmizə, öz Vətəninizə xoş gəlmisiniz!

Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm və gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Biz çox şadıq ki, Siz seçkilərdən sonra ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Dünən Türkiyədə Sizin andiçmə mərasiminiz keçirildi, bu gün isə Siz Azərbaycanda rəsmi səfərdəsiniz. Bu bir daha göstərir ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir. Sizin səfəriniz Türkiyə–Azərbaycan qardaşlığının nümunəsidir, bir daha bizim birliyimizi göstərir.

Türkiyə xalqı Sizə yenidən böyük etimad, dəstək göstərdi. Siz uzun illərdir ki, Türkiyənin inkişafı üçün çox böyük işlər görürsünüz. Sizin liderliyiniz ilə Türkiyə böyük və şərəfli yol

keçib, dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyə bu gün beynəlxalq məsələlərdə söz sahibidir. İqtisadi islahatlar uğurla aparılır. İqtisadi inkişafa görə Türkiyə dünya miqyasında ən qabaqcıl yerlərdədir. Sizin liderliyinizlə Türkiyədə sabitlik tam bərqərar olub.  Azərbaycan xalqını Türkiyənin uğurları çox sevindirir. Türkiyə–Azərbaycan əlaqələrinin bu səviyyəyə çatmasında bizim birgə səylərimiz də mühüm rol oynayır. Bizim aramızda şəxsi dostluq əlaqələri mövcuddur və bu əlaqələr ölkələrimizi bir-birinə daha sıx bağlayır. Bu gün Türkiyə–Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Biz bütün məsələlərdə bir yerdəyik, bütün beynəlxalq məsələlərdə bir-birimizi daim dəstəkləyirik, bir-birimizin yanındayıq. Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərir. Dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana ən böyük dəstək verən ölkə Türkiyədir.

Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız Ermənistan tərəfindən işğal edilib. Bu işğal nəticəsində xalqımız etnik təmizlənməyə məruz qalıb. Bu münaqişənin tezliklə həlli beynəlxalq hüquq normalarının bərpası demək olacaqdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Orada açıq-aydın göstərilir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icra edilməli, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.

Türkiyənin bu məsələ ilə bağlı mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və eyni zamanda, Türkiyə–Azərbaycan qardaşlığına, dostluğuna əsaslanır. Azərbaycan da öz növbəsində, bütün məsələlərdə daim Türkiyəni dəstəkləyir. Bizim birgə fəaliyyətimiz bundan sonra da davam etdiriləcəkdir.

Bu gün keçirdiyimiz görüş əsnasında bir çox məsələlər haqqında fikir mübadiləsi, gələcək planlar haqqında müzakirələr aparıldı, görülmüş işlər təhlil edildi. Bizim ticarət dövriyyəmiz artır və daha da artmalıdır. Qarşılıqlı sərmayə qoyuluşu davam edəcək. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 13,9

milyard dollar sərmayə qoyub. Türkiyə şirkətləri isə Azərbaycana 12 milyard dollardan çox vəsait yatırıb. Bu böyük rəqəmlər əslində bizim əlaqələrimizi göstərir. Çünki ancaq qardaş ölkələrə bu qədər böyük sərmayə qoyula bilər.

Bildiyiniz kimi, biz ölkələrimiz, xalqlarımız və dünya üçün böyük əhəmiyyət daşıyan enerji layihələrini birlikdə həyata keçiririk. Keçən ay Əskişəhərdə TANAP-ın açılışında bərabər olduq. Bu təbiidir və çox böyük məntiqə əsaslanır. Çünki TANAP layihəsinin təməlini biz 2012-ci ildə İstanbulda birlikdə qoyduq. Aramızda TANAP üzrə imzalanmış saziş artıq gerçəkləşdi və bu tarixi layihəyə start verildi.

«Cənub Qaz Dəhlizi» layihəsinin icrası uğurla başa çatır. TANAP layihəsinin başa çatması bu istiqamətdə atılan çox böyük addımdır. Bildiyiniz kimi, əvvəlki illərdə də digər böyük enerji layihələri birlikdə həyata keçirilib. Türkiyə və Azərbaycan Avrasiyanın enerji xəritəsini yenidən tərtib ediblər.

Nəqliyyatla bağlı layihələr həm ölkələrimizi gücləndirir, eyni zamanda, qitələr arasında sağlam bağlantı yaradır. Yəni bizim birgə səylərimiz nəinki ölkələrimiz, bütün bölgə və Avrasiya üçün böyük əhəmiyyət daşıyır. Türkiyə–Azərbaycan birliyi, dostluğu regional sabitliyə böyük fayda verir. Əminəm ki, Türkiyənin və Azərbaycanın birgə səyləri ilə bölgədə sülh yaranacaq. Türkiyənin hərbi potensialı çox güclüdür. Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır. Hərbi sahədə bizim əməkdaşlığımız çox uğurla davam edir. Bu il hərbçilərimiz arasında 7 hərbi təlim keçiriləcək, onlardan 3-ü artıq keçirilibdir. Azərbaycan Türkiyədən böyük sayda hərbi texnika alır. Ötən ay Azərbaycanda keçirilmiş hərbi paradda bu texnikanın bir hissəsi göstərildi.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Əlaqələrin təməlində xalqlarımızın, dövlətlərimizin birliyi, ortaq maraqları dayanır. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir.

Əziz qardaşım, Sizi bir daha salamlayıram. Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!
Dəyərli mətbuat nümayəndələri!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Əvvəlcə sizləri öz adımdan və nümayəndə heyətim adından ən səmimi duyğularla salamlayıram. İyunun 24-də keçirilən seçkilərdən sonra dünən Prezident kimi, and içdim. Məndən əvvəl deputat yoldaşlarımız and içdilər. Prezident kimi and içdikdən sonra ilk səfərimi bu səhər qardaş, dost Azərbaycana etmək vəzifəmi yerinə yetirmək istədim. İstər təkbətək, istərsə də nümayəndə heyətləri arasında görüşlərdə bu günə qədər harada idik və bundan sonra harada olmalıyıq – bunları müzakirə etmək, nəzərdən keçirmək imkanımız oldu.

Təbii ki, Azərbaycan ilə istər enerji sahəsindəki əlaqələrimiz, istərsə də müdafiə sənayesi istiqamətində addımlarımız çox böyük əhəmiyyət daşıyır. Bundan sonrakı prosesdə də TANAP layihəsi – bizim üçün, Azərbaycan üçün həyati əhəmiyyətli layihədir – təkcə Azərbaycan–Türkiyə deyil, eyni zamanda, Azərbaycan–Avropa bağlantısını qurmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu layihə bizi ciddi mənada maraqlandırır və bu, qardaşlığımızın bir təzahürü olaraq, eyni zamanda, strateji investisiya yatırılması baxımından da əhəmiyyətlidir. TANAP ilə əlaqədar Əskişəhərdə atdığımız addım həqiqətən də həyati bir addımdır. Bütün bunlardan başqa, Azərbaycanın sərmayə sahəsində Türkiyədəki «Əliağa» layihəsi həqiqətən, hər cür təqdirdən daha böyükdür. Bu layihə təməli qoyulduğu gündən get-gedə davam edən, böyüyən bir sərmayə olaraq özünü göstərir. İndi də, inşallah, bu sərmayəni daha da

genişləndirməklə və reallaşdırılmaqda olan bəzi layihələrin payızda açılışını etməklə bunları birlikdə həyata keçirəcəyik.

Təbii ki, bizim Türkiyə–Azərbaycan əlaqələrimiz «bir millət – iki dövlət» anlayışı əsasında inkişaf edir. Bu anlayışa bağlı olaraq əlaqələrimizi bu səviyyəyə çatdırdıq və irəliyə aparmaqda davam edəcəyik.

Gəldiyimiz andan etibarən göstərilən ev sahibliyinə görə şəxsən öz adımdan və nümayəndə heyətim adından ayrıca təşəkkür edirəm. Hazırda ikitərəfli ticarət dövriyyəmiz hər keçən gün artır. Yüksək səviyyəli səfərlər gündən-günə artaraq, davam edir. Bunlar aramızdakı qardaşlıq duyğularının nə qədər yüksək səviyyədə olduğunu göstərməsi baxımından çox vacibdir.

Müdafiə sənayesi sahəsində Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr də bu baxımdan əhəmiyyət daşıyır. Türkiyə müdafiə sənayesi sahəsində, bildiyiniz kimi, bundan 15 il əvvəl möhtac bir ölkə ikən, indi ehtiyaclarının böyük qismini artıq özü ödəyə bildiyi səviyyəyə gəlib – 20 faiz səviyyəsində ikən, hazırda 65 faizini özü ödəyən ölkəyə çevrilibdir. Bununla da müdafiə sənayesi sahəsində də ixracatı artıran bir Türkiyə vardır. Təbii ki, bunu qardaş ölkələrlə fərqli bir şəkildə bölüşmək istəyirik.

Digər bir məsələ ilə bağlı – xüsusilə Azərbaycanda FETÖ ilə mübarizəyə İlham qardaşımın verdiyi dəstəyə görə öz adımdan və millətim adından ona təşəkkür edirəm. Çünki onlar burada da özlərinə yer tapmağa cəhd göstərdilər. Bunun üçün hər vasitəyə əl atdılar. Fəqət, istər İlham qardaşımın bu məsələdə həssaslığı, istərsə də Azərbaycanın əleyhinə fəaliyyət göstərənlərə qarşı koordinasiyalı işimiz bir çox məsələnin ardıcıl həll olunmasını təmin etdi. Maarif Vəqfimiz ilə, inşallah, Azərbaycanın Təhsil Nazirliyinin birlikdə həyata keçirəcəyi fəaliyyətlə buradakı boşluğu da aradan qaldırmaq imkanı əldə edəcəyik.

Təbii ki, ikitərəfli ticarət məsələsində hədəfimiz mövcud rəqəmi 2-3 dəfə artırmaqdır. Digər bir məsələ isə Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etməkdir. Bu məsələni daim

diqqət mərkəzində saxlamışıq, bundan sonra da saxlamaqda qətiyyətliyik. Naxçıvanla ölkəmiz arasında quru yoldakı problemlər həll edilibdir. İndi yeni bir addım olaraq – bu məsələ ilə əlaqədar daha əvvəl də İlham qardaşımla danışmışdıq – lazım gələrsə dəmir yolu məsələsini də həll etməklə, aradakı bu əlaqələri daha yüksək səviyyəyə çatdırmaq hər iki ölkəyə əlavə güc verəcəkdir.

Həmçinin cənab Prezidentə gündəmə gətirdiyimiz səhiyyə sahəsində, Naxçıvanda yaşayan qardaşlarımıza xüsusilə Türkiyədə sərhədboyu bölgələrdəki tədris-müalicə ocaqlarında, dövlət xəstəxanalarında hər cür rahatlığı öz xalqımıza təmin etdiyimiz kimi, şərait yaratmaqla bağlı dəstək verəcəyimizi bildirdim. Bu məsələdə də birliyimizin, həmrəyliyimizin olmasının vacibliyinə inandığımı xüsusilə söylədim.

Bu axşam İlham qardaşım Brüsselə gedəcək, NATO Zirvə görüşündə iştirak edəcəkdir. Mən də sabah səhər Brüsselə gedirəm. Orada istər Xarici İşlər nazirlərimiz, istərsə də biz bir arada olmaqla, görüşlər keçirəcəyik. İstəyim odur ki, NATO Zirvə toplantısı ilə bağlı keçirəcəyimiz görüşlərdə də bəzi ortaq problemləri gündəmə gətirərək həll etməkdir.

Fürsətdən istifadə edərək, İlham qardaşımın timsalında bütün Azərbaycan xalqına öz adımdan və millətim adından ən səmimi hisslərlə salam, sevgi və ehtiramımı ifadə etmək istəyirəm. Bir daha sağlıqla qalın.

## BELÇİKA KRALLIĞINA SƏFƏR

*10 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin dəvəti ilə NATO-nun Zirvə toplantısında iştirak etmək üçün iyulun 10-da Belçika Krallığının paytaxtı Brüssel şəhərinə səfərə gəlmişdir.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ GÖRÜŞ

*Brüssel*

*11 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə görüşmüşdür.*

*Görüşdən sonra «Tərəfdaşlıq prioritetləri» sənədinin paraflanma mərasimi oldu.*

*Dövlətimizin başçısı Avropa İttifaqının mənzil-qərargahına gəldi.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk birgə foto çəkdirdilər.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verdi.*

*Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd etdi.*

*Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olundu.*

*Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Azərbaycan ilə Avropa İttifaqı arasında bu gün paraflanacaq «Tərəfdaşlıq prioritetləri» sənədini yüksək qiymətləndirdilər, bu sənədin Azərbaycan–Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını məmnuniyyətlə qeyd etdilər.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun iştirakı ilə «Tərəfdaşlıq prioritetləri» sənədinin paraflanması mərasimi oldu.*

*Sənədi Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Avropa Komissiyasının vitse-prezidenti, xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini parafladılar.*

*Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq, Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.*

*Tərəfdaşlıq və qarşılıqlı hörmətə əsaslanan sənəd, həmçinin Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətini, ölkəmizdə iqtisadi islahatlar gündəliyinin dəstəklənməsi istiqamətində görülən işlərə Avropa İttifaqının mümkün töhfəsini qeyd edir.*

*Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq–Qərb və Şimal–Cənub nəqliyyat və*

*enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. «Cənub Qaz Dəhlizi» layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.*

*Sənəddə Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıbdır.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*Brüssel*

*11 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin iyulun 11-də Brüsseldə görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin ölkəmizə səfərlərini və indiyədək keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev Bakıda Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısının çox uğurla keçirildiyini və yaxşı müzakirələrin aparıldığını bildirdi.*

*Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani dövlətimizin başçısına yenidən Prezident seçilməsi münasibətilə bir daha təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Məhəmməd Əşrəf Qani Azərbaycanın Əfqanıstana müxtəlif sahələrdə göstərdiyi davamlı dəstəyə, həmçinin ölkəmizin Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi etdiyinə görə bir daha minnətdarlığını bildirdi.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulandı.*

*Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Əfqanıstanda sülhün bərqərar edilməsi istiqamətində xüsusi rolu qeyd edildi.*

*Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## NATO-ya MÜTTƏFİQ VƏ TƏRƏFDAŞ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI ÜÇÜN TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*Brüssel*

*11 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə NATO-ya müttəfiq və tərəfdaş ölkələrin dövlət və hökumət başçıları üçün təşkil edilmiş qəbulda iştirak etmişdir.*

*Qəbuldan əvvəl birgə foto çəkdirildi.*

## BMT BAŞ KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ ROZMARİ DİKARLO İLƏ GÖRÜŞ

*Brüssel*

*12 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi. Həmçinin ATƏT-in həmsədr ölkələri nazirlərinin iyulun 11-də keçirilmiş görüşü barədə məlumat verildi və ətraflı fikir mübadiləsi aparıldı.*

## NATO-nun ƏFQANISTANDA QƏTİYYƏTLİ DƏSTƏK MİSSİYASI ÜZRƏ ŞİMALİ ATLANTİKA ŞURASININ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Brüssel*

*12 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə keçirilən NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmişdir.*

*Prezident İlham Əliyev Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak etmək üçün NATO-nun yeni mənzil-qərargahına gəldi.*

*Dövlətimizin başçısı burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bəkir İzzətbəyoviç ilə görüşdü.*

*Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bəkir İzzətbəyoviçi Türkiyənin NATO-dakı ofisinə çay süfrəsinə dəvət etdi.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Cənab baş katib, xanımlar və cənablar!

Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq, Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq, 120 nəfərə çatdırıbdır.

Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən «ASAN xidmət» Əfqanıstanda tətbiq olunur.

Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir. Ötən ilin oktyabr ayında Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə yüksək dərəcədə kömək edib.

Ötən il Azərbaycan «Asiyanın qəlbi – İstanbul prosesi»nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi edibdir.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, 1 milyondan çox soydaşına qarşı məlum acınacaqlı etnik təmizlənmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırılması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcəkdir.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya səfəri iyulun 12-də başa çatdı.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMMANUEL MAKRONA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Fransa əlaqələri zəngin ənənələrə malikdir. Biz bu ənənələrin qorunub saxlanılmasına, dostluq münasibətlərimizin daha da möhkəmləndirilməsinə, əməkdaşlığımızın davamlı və hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Siyasi, iqtisadi, mədəni əlaqələrimiz özünün dinamik inkişafı və əhatə genişliyi ilə səciyyələnir. Qarşılıqlı maraq kəsb edən bütün sahələrdə birgə səmərəli işimiz xüsusi məmnunluq doğurur.

Qarşılaşdığımız ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik. Biz Ermənistan tərəfindən torpaqlarımızın işğalına son qoyulmasını, münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həllini səbirsizliklə gözləyirik.

Bu əlamətdar gündə bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2018-ci il*

## RESPUBLİKANIN HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilmiş iclasda iştirak etmişdir.*

*Dövlət başçısı iclasda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

İyulun 3-də və iyulun 10-da Gəncə şəhərində törədilmiş qanlı cinayətlər dövlətçiliyimizə qarşı törədilmiş cinayətlərdir. Bu terror aktları nəticəsində 2 polis əməkdaşı həlak olub. Yaralanan vətəndaşlarımız da var, onlardan biri də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin.

Bu cinayətləri törədən terrorçu qruplaşma Azərbaycanda sabitliyi pozmaq istəyir. Cinayətlərin əsas məqsədi də bundan ibarətdir. Bu qanlı terror aktları cəmiyyətdə gərginlik yaratmaq və cəmiyyətimizi qorxutmaq məqsədilə və dini şüarlar altında törədilibdir. Bu özlüyündə islam dininə qarşı ən böyük cinayətdir. Çünki islam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan islam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunmuş, İslam Həmrəyliyi oyunları keçirilmişdir. Bu il Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» seçilmişdir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülmüşdü. Müsəlman ölkələrini

birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi, dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilibdir. Bir daha demək istəyirəm ki, bu cinayəti dinimizlə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayəti törədiblər. Bu cinayətkarlar müsəlman deyillər və bu cinayətlər cavabsız qalmır. Cinayətkarlar və onların arxasında dayananlar heç vaxt öz məkrli arzularına çata bilməyəcəklər. Azərbaycan dövləti və Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək. Bütün Azərbaycan xalqı bu qanlı cinayətləri birmənali olaraq pislədi və bu cinayətləri törədənlərə qarşı öz nifrətini ifadə etdi.

Azərbaycan dövləti isə öz üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Cinayətkar dəstə zərərsizləşdirilib, əməliyyat-axtarış işləri davam etdirilir. Bu cinayətlərdə əli olan bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar. Hüquq-mühafizə orqanları qarşısında bu vəzifə qoyulub, əminəm ki, biz buna nail olacağıq.

Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilib, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmayıb. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq–iqtidar birliyi vardır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm, bir daha demək istəyirəm, xalq–iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq–iqtidar birliyini heç bir qüvvə – nə xarici, nə daxili qüvvə sarsıda bilməz.

Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olubdur. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaqdır.

Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən müasir dövlətdir. Gündən-günə bizim gücümüz artır, gündən-günə bizim potensialımız güclənir – siyasi, diplomatik, iqtisadi, hərbi quruculuq, sosial sahələrdə, döyüş meydanlarında, idman meydançalarında. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıbdır. Ona görə bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər. Bizə qarşı çirkin qarayaxma, şər-böhtan kampaniyaları aparılır. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş Prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi.

Bizə qarşı müxtəlif xarici mərkəzlərdən idarə olunan media qaralama kampaniyası aparılır. Bunun da heç bir səmərəsi olmur. Özünü hüquq müdafiəçisi adlandıran bir neçə qeyri-hökumət təşkilatı Azərbaycana qarşı gecə-gündüz şər-böhtan kampaniyası aparır. Bunun da nə ölkə daxilində, nə də ki, xaricdə heç bir təsiri olmur. Bizim xarici əlaqələrimiz genişlənir. NATO-nun bu günlərdə keçirilmiş Zirvə görüşü bizim nə qədər yüksək hörmətə malik olduğumuzu bir daha sübut etdi. Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə malik ölkədir.

Bu cəhdlər əbəsdir. Bizim siyasətimizə, bizim iradəmizə şər qüvvələr heç cür təsir edə bilmir. Onların son addımları göstərir ki, terrordan başqa, əllərində bir şey qalmayıb. Bu da keçməyəcək, necə ki, əvvəlki illərdə keçməyib. Azərbaycan dövləti bu dəfə də öz gücünü göstərdi və bundan sonra da

göstərəcəkdir. Bütün cinayətkarlar məsuliyyətə cəlb olunacaqlar, məhkəmə qarşısında, ədalət qarşısında, xalq qarşısında cavab verəcəklər. Bunu təmin etmək üçün bizim kifayət qədər gücümüz, imkanlarımız vardır.

Cinayətlərdən sonra aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətkarların bir hissəsi saxlanılıbdır. Operativ əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Tam əminliklə deyə bilərəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcəkdir.

Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycan bundan sonra da inkişaf, tərəqqi yolu ilə gedəcək. Biz bundan sonra da öz siyasətimizi aparacağıq, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik.

* * *

*Sonra hüquq-mühafizə orqanlarının rəhbərləri törədilən cinayətlərlə bağlı həyata keçirilən əməliyyat-axtarış tədbirləri və atılacaq addımlar barədə dövlət başçısına məruzə etdilər.*

## İRAN İSLAM RESPUBLİKASININ SƏHİYYƏ, MÜALİCƏ VƏ TİBBİ TƏHSİL NAZİRİ HƏSƏN QAZİZADƏ HAŞİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil naziri Həsən Qazizadə Haşiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Həsən Qazizadə Haşimi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlət başçısına çatdırdı. O qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səyləri nəticəsində ölkələrimiz arasında ikitərəfli münasibətlər gündən-günə güclənir və möhkəmlənir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Prezident Həsən Ruhani ilə görüşlərini məmnunluqla xatırladaraq qeyd etdi ki, bu görüşlər zamanı səhiyyə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib və bununla bağlı işlərin həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verilibdir. Dövlətimizin başçısı İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil naziri Həsən Qazizadə Haşiminın Azərbaycana səfərinin ölkələrimizin səhiyyə sahəsində əməkdaşlığının genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Həsən Ruhaniyə çatdırmağı xahiş etdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Mastunq şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2018-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi və bütün Rusiya xalqını futbol üzrə XXI dünya çempionatının uğurla keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Dünya çempionatı idmanın bu ən populyar növünün bütün pərəstişkarları, milyonlarla azarkeşi üçün həqiqətən, unudulmaz idman bayramı oldu.

Rusiyada başa çatmış dünya birinciliyi idmanın xalqları yaxınlaşdıran, dostluğu və əməkdaşlığı möhkəmləndirən böyük qüvvə olmasını parlaq şəkildə nümayiş etdirməklə, haqlı olaraq çempionatlar tarixinə belə turnirlərin ideal təşkili, hazırlanması və keçirilməsi nümunəsi kimi daxil olacaqdır.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni uğurlar, bütün rusiyalılara isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2018-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMMANUEL MAKRONA**

Hörmətli cənab Prezident!

XXI dünya çempionatında Fransa futbolçularının möhtəşəm qələbəsi və dünya çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dünya birinciliyinin gərgin mübarizəsindən qalib çıxaraq, öz tarixində ikinci dəfə bu yüksək titulu qazanmış və azarkeşlərinə hədsiz sevinc bəxş etmiş Fransa yığmasının bütün üzvlərinə təbriklərimi yetirir, onlara yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2018-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ**

Hörmətli xanım Prezident!

Futbol üzrə XXI dünya çempionatında Xorvatiya yığma komandasının uğurlu çıxış edərək, bu mötəbər turnirin gümüş medalını qazanması münasibətilə Sizə və dost Xorvatiya xalqına təbriklərimi yetirirəm.

Dünya birinciliyinin bütün oyunlarında yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək, tarixində ən böyük müvəffəqiyyətə nail olmuş Xorvatiya futbolçularını ürəkdən təbrik edir, onlara yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2018-ci il*

**BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün belçikalılara öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Belçika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2018-ci il*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iyulun 18-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İtaliya Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İtaliya Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Sercio Mattarella Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İtaliya Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*İtaliya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Sercio Mattarellaya, İtaliya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və İtaliya prezidentləri rəsmi foto çəkdirdilər.*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə iyulun 18-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə iyulun 18-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər müzakirə olundu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə iyulun 18-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İtaliyanın Milan Politexnik Universiteti arasında Anlaşma Memorandu-mu»nu Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova və Milan Politexnik Universitetinin dizayn üzrə departamentinin rəhbəri Silvia Piardi imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə İtaliya Dövlət Dəmir Yolları arasında Anlaşma Memorandu-mu»nu «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qur-banov və İtaliya Dəmir Yolları Şirkətinin beynəlxalq inkişaf üzrə vitse-prezidenti Covanni Rokka imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında baytarlıq təbabəti üzrə Texniki Anlaşma»nı Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İtaliya Res-publikasının Təhsil, Universitetlər və Tədqiqat Nazirliyi ara-sında ali təhsil üzrə əməkdaşlıq barədə Birgə Bəyannamə»ni Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar.*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLA İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iyulun 18-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Bu səfər İtaliya Prezidentinin Azərbaycana ilk səfəridir. Bu səfər tarixi bir səfərdir. İlk dəfədir ki, İtaliya Prezidenti Azərbaycana səfər edir. Mənim dəvətimi qəbul etdiyiniz üçün Sizə minnətdaram. Əminəm ki, səfər çox uğurlu keçəcək və İtaliya–Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Bizim əlaqələrimiz çoxşaxəlidir, bir çox sahələri əhatə edir. Bu gün apardığımız danışıqlarda, keçirdiyimiz görüşlərdə bir çox məsələlər – regional inkişaf və regional təhlükəsizlik, Avropa İttifaqı–Azərbaycan əlaqələri, siyasi, iqtisadi ikitərəfli əlaqələrimiz – bir çox məsələlər müzakirə edildi və deyə bilərəm ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

İtaliya hazırda ATƏT-in sədridir. Biz ümid edirik və əminik ki, İtaliya ATƏT-in sədri kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacaqdır. Mən

cənab Prezidenti münaqişə ilə bağlı məlumatlandırdım, danışıqların hazırkı vəziyyəti ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapsın. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları – Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Xalqımıza qarşı hərbi cinayətlər törədilib. İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz məhv edilib. ATƏT işğal edilmiş bölgələrə 2 dəfə faktaraşdırıcı missiya göndəribdir. Bu missiyaların məruzələrində göstərilir ki, bütün tarixi abidələrimiz, infrastruktur obyektləri Ermənistan tərəfindən dağıdılıb. Münaqişənin həlli üçün hüquqi əsas vardır. BMT Təhlükəsizlik Şurası 25 il bundan əvvəl 4 qətnamə qəbul edibdir. Bu qətnamələrdə göstərilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrin icrası təmin edilməlidir. Əfsuslar olsun ki, Ermənistan uzun illərdir bu qətnamələrə məhəl qoymur, öz işğalçı siyasətini davam etdirir və status-kvonu saxlamaq istəyir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr ölkələri prezidentlər səviyyəsində dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bu mövqeni dəstəkləyirik və hesab edirik ki, tezliklə münaqişənin həlli üçün qəti addımlar atılmalıdır, Ermənistanın işğalçı qüvvələri bizim tarixi torpaqlarımızdan çıxarılmalıdır.

Bir həftə bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış «Tərəfdaşlığın prioritetləri» sənədində də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına bir daha Avropa İttifaqı tərəfindən dəstək göstərildi. Bir gün ondan sonra NATO Zirvə görüşü nəticəsində qəbul edilmiş Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü,

suverenliyi dəstəkləndi. Yəni heç kəs üçün sirr deyil ki, Ermənistan bizim tarixi torpaqlarımızı qanunsuz yollarla zəbt edib və bu torpaqlardan çıxmalıdır. Ancaq bundan sonra bölgədə sülh, əməkdaşlıq ola bilər və ancaq bundan sonra Cənubi Qafqazda geniş miqyasda əməkdaşlıq aparıla bilər.

Bu gün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. İtaliyanın bu məsələlərlə bağlı çox müsbət rolu və mövqeyi vardır. Ümid edirəm ki, yaxın gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq. Saziş üzərində iş aparılır və biz Avropa İttifaqına üzv ölkələrlə strateji tərəfdaşlıq bəyannamələri imzaladıq, qəbul etdik. 9 ölkə ilə, o cümlədən 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilibdir. Bu çox ciddi siyasi sənəddir, əslində bizim bir-birimizə olan münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir.

O ki qaldı ikitərəfli əlaqələrə, qeyd etdiyim kimi, biz strateji tərəfdaşıq, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri bunun bariz nümunəsidir. İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır. Azərbaycan böyük həcmdə neftini İtaliya istiqamətinə göndərir, enerji sahəsində çox gözəl əməkdaşlıq vardır. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq dərinləşəcəkdir. Azərbaycan tərəfdaş ölkələrlə birlikdə hazırda «Cənub Qaz Dəhlizi» layihəsini uğurla icra edir. Bu, 40 milyard dollar dəyərində olan layihədir, onun böyük hissəsi icra edilib. Bu il «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı Bakıda oldu. Onun böyük hissəsini təşkil edən TANAP layihəsinin Əskişəhərdə açılışı oldu. Yəni bu istiqamətdə işlər uğurla gedir və bu Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayır.

İtaliya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Bu gün açılacaq Polipropilen zavodunun inşasında İtaliya şirkəti fəal iştirak edib. Biz bu gün bu məsələ ilə bağlı da danışdıq və mən Prezident Mattarellaya dedim ki, İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır, biz onların səviyyəsini bilirik,

onlar çox yüksək texnologiyaya malik olan şirkətlərdir. Azərbaycanda inşaat sektorunda, kənd təsərrüfatı, ağır sənaye sahələrində bir çox layihələri icra ediblər və çox yüksək səviyyədə icra ediblər. Əlbəttə ki, keçirilən görüşlər və sabah iştirak edəcəyimiz İtaliya–Azərbaycan biznes-forumu qarşımızda yeni imkanlar açacaq. Çünki Azərbaycanın sürətli iqtisadi-sənaye inkişafı tələb edir ki, yeni texnologiyalar gətirilsin. Əlbəttə ki, ilk növbədə, biz bu texnologiyaları dost ölkələrdən gətirmək, əldə etmək istərdik.

Biz cənab Prezident Sercio Mattarella ilə bu gün mədəniyyət, təhsil sahələrində əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq və danışıqların sonunda belə bir qərara gəldik ki, bu gün gündəlikdə olan məsələlərlə bağlı bizim heç bir fikir ayrılığımız yoxdur. Bütün məsələlərlə bağlı fikirlərimiz üst-üstə düşür. Azərbaycan İtaliya üçün, İtaliya Azərbaycan üçün çox etibarlı tərəfdaşdır. Əminəm ki, bu səfərdən sonra əlaqələrimiz daha da möhkəmlənəcək və bundan sonra uzun illər ərzində biz çox səmərəli əməkdaşlıq edəcəyik.

Cənab Prezident, Sizi və bütün nümayəndə heyətini Azərbaycanda bir daha salamlayıram, xoş gəlmisiniz!

## İtaliya Prezidenti Sercio Mattarellanın bəyanatı

Cənab Prezident!

Mənə və məni müşayiət edən nümayəndə heyətinə göstərilən diqqət və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Eləcə də bu gün keçirdiyimiz təkbətək və geniş tərkibdə görüşlərə və orada deyilən sözlərə görə də Sizə bir daha təşəkkür edirəm.

Bildiyiniz kimi, mən İtaliyanın Azərbaycana səfər edən ilk Prezidentiyəm. Mən bundan çox böyük məmnunluq duyuram. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Azərbaycana gəlmişəm və dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Bu dəvət və bizim münasibətlərimiz ölkələrimiz arasında mükəmməl səviyyədə olan ikitərəfli əməkdaşlığımızın nəticəsidir. Bizim bu gün gündəliyimizdə olan məsələlər ikitərəfli münasibətlərimizi nəzərdə tutan bütün sahələri diqqətdə saxlayan məsələlərdir. Çünki İtaliya da Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab edir, xüsusilə də bu regionda. İtaliya qlobal səviyyədə də Azərbaycan ilə əməkdaşlığa əhəmiyyət verir. İtaliya Azərbaycanın dünyəviliyini və dini tolerantlığa olan hörmətini çox alqışlayır. Radikalizmdən doğan təhlükələrə qarşı Azərbaycanın gördüyü işləri İtaliya tərəfi dəstəkləyir.

Söhbətlərimiz zamanı, həmçinin terrorizm və qeyri-qanuni ticarət yollarına qarşı mübarizəyə dair fikir mübadiləsi apardıq və eyni fikirdəyik. Bizim strateji və kommersiya sahəsində olan əməkdaşlığımız barədə də geniş fikir mübadiləsi apardıq. Enerji sahəsi üzrə mükəmməl əməkdaşlığımızdan əlavə, digər sahələr üzrə də əməkdaşlığımızın mümkünlüyündən və onların önəmindən danışdıq. İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyətindən danışdıq. «Cənub Qaz Dəhlizi»ndə İtaliya tərəfinin və Azərbaycan tərəfinin səylərini qiymətləndirir və ümumi maraqlarda olan bu məsələlərin həll yolunu tapması üçün hər iki tərəfin çalışacağını bildiririk. Çünki «Cənub Qaz Dəhlizi» və eləcə də Xəzər dənizi regionu, Xəzər dənizinin qazı Avropa üçün çox önəmlidir. İtaliya Azərbaycanın öz iqtisadiyyatını şaxələndirməsinə çox böyük önəm verir və bunu alqışlayır. Biz ümid edirik ki, bu sahə üzrə və dostluq münasibətləri çərçivəsində İtaliya şirkətləri Azərbaycanda energetika sahəsindən başqa, digər sahələrdə də öz fəaliyyətini qura bilər.

Bundan əlavə, biz müdafiə sahəsində şirkətlərimizin əməkdaşlığı barədə danışdıq. Çünki biz inanırıq ki, İtaliyanın bu sahədə əldə etdiyi texnologiyalar Azərbaycanın iqtisadiyyatına öz töhfəsini verə bilər. Bildiyiniz kimi, sabah Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə İtaliya–Azərbaycan biznes-forumunda iştirak edəcəyik. Bu tədbirin mənim səfərim çərçivəsində keçirilməsi doğrudan da bizim əməkdaşlığımızın hərtərəfli

olmasını və xüsusilə iqtisadiyyat sahəsinin Azərbaycan və İtaliya münasibətlərində nə qədər önəm kəsb etdiyini bir daha göstərir.

Bizim münasibətlərimiz siyasi, iqtisadi, energetika baxımından təbii ki, ən əhəmiyyətli rola malikdir. Lakin bundan əlavə, Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində də əməkdaşlıq mövcuddur. Biz fikirləşirik ki, elmin və texnologiyanın hesabına hər iki dövlət arasında mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirə bilərik. Bu baxımdan qeyd etmək istəyirəm ki, mən Azərbaycanın önəmli universitetlərindən biri olan ADA Universitetində bu gün tələbələrin qarşısında çıxış edəcəyəm. Eləcə də İtaliya hökuməti tərəfindən verilən təqaüdlərin qalibi olan Azərbaycan tələbələrinə həmin təqaüdləri təqdim edəcəyəm.

Mən Milanda keçirilən «Ekspo» sərgisi zamanı Azərbaycan pavilyonunu bir daha xatırlatmaq istəyirəm. Çünki Azərbaycan pavilyonu öz möhtəşəmliyi ilə bütün ölkələrin diqqətini cəlb etmişdir. Bu xüsusda Heydər Əliyev Fonduna və onun prezidentinə həm bu pavilyonun hazırlanmasına, həm Romada restavrasiya işlərinin görülməsinə, həm də digər tədbirlərin keçirilməsinə görə öz təşəkkürümü bildirirəm.

Mən düşünürəm ki, biz gənc istedadlar arasında mübadilə aparmaqla da əməkdaşlığımıza əlavə töhfə verə bilərik. Bizim Azərbaycan ilə ikitərəfli və çoxşaxəli münasibətlərimiz bir az bundan öncə imzaladığımız sazişlərlə də bir daha özünü sübut edir. Mən demək istəyirəm ki, İtaliya tərəfi ATƏT-də sədrliyi çərçivəsində də Azərbaycana öz töhfəsini verəcəyini bir daha vurğulayır. İtaliya xüsusən regionda olan problemlərlə, həmçinin Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı ATƏT-ə sədrlik çərçivəsində öz dəstəyini göstərəcəkdir. Biz istəyirik ki, bu sahə üzrə danışıqların formatlarını dəyişmək əvəzinə, regionda təhlükəsizliyi təmin edə biləcək yeni danışıq yolları tapılsın. Çünki bizim fikrimizcə, bu münaqişənin həlli hərbi yolla deyil, siyasi yolla baş verməlidir. Bu həll yolu sabit, uzunmüddətli və beynəlxalq hüquq çərçivəsində olmalıdır.

Bir daha əlavə etmək istərdim ki, İtaliya Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sazişlə bağlı danışıqlarda çox fəal rol oynayır. Hesab edirik ki, bizim ümumi marağımızda olan prioritet məsələlərin daha da inkişaf etdirilməsi Avropa İttifaqı–Azərbaycan əməkdaşlığı çərçivəsində İtaliya–Azərbaycan münasibətlərinə töhfəsini verəcəkdir.

Cənab Prezident, mən, həmçinin Brüsseldə Qətiyyətli Dəstək sənədinin imzalanması ilə bağlı Sizi bir daha təbrik edirəm. Çünki mən hesab edirəm ki, bu, Azərbaycanın əldə etdiyi uğurlu nəticədir. Fikirləşirik ki, bu daha da inkişaf edəcəkdir. İtaliya NATO çərçivəsində əməkdaşlığına, xüsusən Əfqanıstanda göstərdiyi əməkdaşlığa görə Azərbaycana minnətdarlığını bildirir. Bildiyiniz kimi, İtaliya bu sahədə də öz xüsusi rolunu oynayır.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə əməkdaşlıq, eləcə də dostluq münasibətləri mövcuddur. İtaliya həmişə Azərbaycanın inkişafı üçün onun yanında olacaqdır.

Həm qonaqpərvərliyinizə, həm də xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm.

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «SOCAR POLYMER» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLMİŞ POLİPROPİLEN ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində «SOCAR Polymer» layihəsi çərçivəsində inşa edilmiş Polipropilen zavodunun açılışı mərasimində iştirak etmək üçün Sumqayıt şəhərinə gəlmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli İtaliya Prezidenti cənab Sercio Mattarella!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Sumqayıtda yeni böyük sənaye müəssisəsinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu mərasimdə bizimlə bərabər İtaliya Prezidenti cənab Sercio Mattarella da iştirak edir. Buna görə, cənab Prezident, Sizə minnətdaram. İtaliya Prezidentinin bu mərasimdə iştirakı müəssisənin əhəmiyyətini daha da artırır. Bu müəssisənin yaradılması İtaliya–Azərbaycan dostluğunun təzahürüdür. Çünki bu böyük sənaye müəssisəsi beynəlxalq əməkdaşlıq nəticəsində yaranıbdır. İtaliya şirkəti «Maire Tecnimont» bütün

inşaat işlərini yüksək səviyyədə aparıb və gözəl bir əsər yaradıbdır.

Polipropilen zavodunun, ilin sonunda isə Polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaqdır. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcəkdir. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır.

Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük. Ən yüksək texnologiyalara malik olan zavod bu gün fəaliyyət göstərir. Zavodda yüzlərlə iş yeri yaradılır, daha dəqiq desəm, 500-dən çox yeni iş yeri yaradılacaqdır. İdxaldan asılılıq tamamilə aradan götürülür, gözəl ixrac imkanlarımız yaradılır. Kadr hazırlığı çox yüksək səviyyədə öz həllini tapıbdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaqdır. Əminəm ki, zavodun fəaliyyəti nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri yaradılacaqdır. Çünki bu zavodda buraxılan xammaldan hazır məhsul istehsal olunacaq və Azərbaycan o məhsulun da idxalından asılılığı aradan götürəcəkdir. Yəni bu böyük sənaye müəssisəsinin timsalında biz siyasətimizi, aparılan işlərin nəticələrini görürük.

2015-ci ildə – mən o günü yaxşı xatırlayıram – zavodun təməli qoyulub və qısa müddət ərzində nəhəng sənaye müəssisəsi yaradılıb. Deyə bilərəm ki, Azərbaycanın müasir tarixində bu ölçüdə və bu səviyyədə sənaye müəssisəsi tikilməmişdir. Düzdür, bizim neft-qaz sektorunda böyük inşaat işlərimiz həyata keçirilmişdir – böyük platformalar, qazma qurğuları, ancaq qeyri-neft sektorunda bu zavod ən böyük sənaye müəssisəsidir və ən son texnologiyalara malikdir. Mən fürsətdən istifadə edərək, italiyalı tərəfdaşlarımıza bir daha öz

təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, onlar bundan sonra da Azərbaycanda uğurla fəaliyyət göstərəcəklər və belə böyük sənaye müəssisələrinin yaradılması gələcəkdə də aparılacaq, çünki buna böyük ehtiyac vardır.

Azərbaycan öz sənaye potensialını müasirləşdirir, gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir. Bu ilin 6 ayında qeyri-neft sənayemiz 8,8 faiz artıbdır. Bu, görülən işlərin nəticəsidir. Bu zavodun və ilin sonunda Polietilen zavodunun istifadəyə verilməsindən sonra bizim sənaye potensialımız daha da artacaqdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub və biz bu zavodun timsalında bunu görürük. Xarici banklar öz maliyyə dəstəyini göstərib. Zavodun fəaliyyətində ən müasir xarici texnologiyalar tətbiq olunacaq. Bu zavodun tikintisini məşhur İtaliya şirkəti təmin edibdir.

Bu gün Prezident Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri başlanıb. Bu, tarixi səfərdir, çünki ilk dəfədir ki, İtaliya Prezidenti Azərbaycana səfər edir. Səfər zamanı apardığımız danışıqlar və fikir mübadiləsi İtaliya–Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Biz dostuq. Bizi birləşdirən bir çox layihələr, ortaq maraqlar vardır. Bu gün bütün bu məsələlər müzakirə olundu. Sabah biz cənab Prezident Sercio Mattarella ilə birlikdə İtaliya və Azərbaycan iş adamları ilə görüşəcəyik, onlara da öz sözümüzü deyəcəyik. Əlbəttə, onlar da bütün bu hadisələri izləyir və görürlər ki, siyasi əlaqələr yüksək səviyyədədir. Beləliklə, biznes dairələri üçün çox gözəl imkanlar açılır. Əminəm ki, həm İtaliya, həm Azərbaycan şirkətləri bu imkanlardan istifadə edib ticarət dövriyyəsinin şaxələndirilməsi istiqamətində önəmli addımlar atacaqdır.

Bu gün mən artıq rəsmi danışıqlar zamanı qeyd etdim ki, İtaliya bizim üçün bir nömrəli ticarət tərəfdaşıdır. Bu, əlbəttə ki,

çox müsbət haldır. Amma biz istəyirik ki, ticarət əlaqələrimiz çoxşaxəli olsun, bir çox sahələri əhatə etsin və buna da nail olacağıq.

Bizim gələcək sənaye inkişafımızla bağlı planlarımız əminəm ki, həyata keçiriləcək. Bir çox yeni, ən yüksək texnologiyalara cavab verən sənaye müəssisələri yaradılacaqdır. Ona görə İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün gələcəkdə də geniş meydan, geniş imkanlar olacaqdır.

Mən İtaliya Prezidenti cənab Sercio Mattarellanı bir daha salamlayıram. Qeyd etməliyəm ki, bu müəssisə Sumqayıt şəhərində yaradılır. Sumqayıt şəhərinə ilk dəfədir ki, aparıcı Avropa dövlətinin Prezidenti gəlir. Bu, Sumqayıtın tarixi üçün də çox əhəmiyyətli məsələdir. Sumqayıt indi müasir sənaye şəhəridir. Cənubi Qafqazda Bakıdan sonra ikinci sənaye şəhəridir. Sumqayıt sovet vaxtında kimya sənayesi şəhəri kimi yaradılmışdır. Sumqayıtın çox ciddi ekoloji problemləri var idi. Mən cənab Prezidentə bu barədə məlumat verdim. Ekoloji vəziyyət, havanın çirklənməsi insanları çox narahat edirdi. Bütün bunlara son qoyuldu. Bu gün müasir müstəqil Azərbaycanda ən yüksək ekoloji standartlar təmin edilir və Sumqayıt indi ekoloji inkişaf baxımından ölkəmizin ən qabaqcıl yerlərində qərarlaşıb. Bu zavodun sumqayıtlılar üçün də böyük əhəmiyyəti olacaq. Sumqayıtda yaradılacaq böyük sənaye klasterində minlərlə, on minlərlə insan işləyəcək və beləliklə, şəhərin inkişafı da uğurla gedəcəkdir.

Bu zavodun açılışında İtaliya Prezidentinin iştirakı bizi fərəhləndirir. Bu doğrudan da gözəl hadisədir. Bu, əsl dostluq rəmzidir. Mən İtaliya Prezidentini və onunla bərabər mərasimdə iştirak etmək üçün gəlmiş bütün qonaqları salamlayıram. Zavoda uğurlar arzulayıram. Sağ olun.

## İtaliya Prezidenti Sercio Mattarellanın çıxışı

Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.

Cənab Prezident, mən bu rəsmi səfər çərçivəsində bu tədbirə qoşulmaqdan çox məmnunam. Belə tədbirlər İtaliya ilə Azərbaycan arasındakı münasibətlərin çox yüksək səviyyədə olduğunu göstərir. Bu eləcə də dövlətlər və xalqlar arasında dostluğun və səmimiyyətin bir işarəsidir.

Cənab Prezidentin dediyi kimi, sabah Azərbaycan–İtaliya biznes-forumu keçiriləcək. Biz ümid edirik ki, bu forum çərçivəsində yeni münasibətlərin əsaslarını qoya biləcəyik. Mən SOCAR-a və «Maire Tecnimont»a təşəkkürümü bildirirəm. Biz bu gün bu zavodun nə dərəcədə yüksək texnologiyaya malik olduğunu görürük. Təbiidir, biz burada görürük ki, texniki imkanlarından əlavə, müəssisənin infrastruktur kimi dizaynı da çox gözəldir. Bu çox əhəmiyyətli bir layihədir. Çünki ölkənin sənaye imkanlarını yüksək əlavə dəyər baxımından möhkəmləndirir. Həmçinin Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın nə dərəcədə yüksək potensiala malik olduğunu bir daha göstərir.

Bu gün səhər Prezidentlə görüşüm zamanı Xarici İşlər nazirlərimizin və bizi müşayiət edən nümayəndə heyətinin iştirakı ilə ölkələrimiz arasındakı ikitərəfli məhsuldar əməkdaşlıq barədə danışdıq. Bu gün bizim burada olmağımız və əlbəttə, bütün nümayəndə heyətlərinin – İtaliya şirkətlərinin və onların tərəfdaşlarının burada olması bu tədbirin yüksək səviyyəsini göstərir. Təbii ki, biz Sumqayıt şəhərini də qeyd etməliyik. Çünki o öz potensialı ilə bu tədbirin əhəmiyyətini xüsusi olaraq nümayiş etdirir. Təşəkkür edirəm.

* * *

**R ö v n ə q  A b d u l l a y e v** (*SOCAR-ın prezidenti)*: Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev!

İtaliya Respublikasının Prezidenti möhtərəm cənab Sercio Mattarella!

Hörmətli qonaqlar, dəyərli mərasim iştirakçıları!

Bu tarixi gündə bizlərə şərəf verib bu mərasimdə iştirak edən bütün qonaqlarımızı salamlamaqdan qürur hissi keçiririk.

İcazə verin, Azərbaycanın neft-kimya sənayesi üçün xüsusi əhəmiyyət kəsb edən belə bir gündə yanımızda olduqlarına, sevincimizi paylaşdıqlarına görə zati-aliləri cənab İlham Əliyevə və zati-aliləri cənab Sercio Mattarellaya neftçilər adından dərin təşəkkürümüzü, hörmət və ehtiramımızı bildirim.

«SOCAR Polymer» layihəsinin başlanğıcından işlərin gedişini diqqət mərkəzində saxlamış, dəyərli tövsiyələri ilə bizə daim dəstək vermiş möhtərəm Prezidentimiz cənab İlham Əliyevə məruzə etmək istəyirəm. Cənab Prezident, verdiyiniz tapşırıqlar vaxtında, ətraf mühit və təhlükəsizlik standartlarına tam əməl olunmaqla və yüksək keyfiyyətlə yerinə yetirilib.

SOCAR-ın emal zavodları vahid iqtisadi dəyər zəncirində bir-biri ilə sıx bağlıdır. Heydər Əliyev adına Neft Emalı zavodu, «Azərikimya» İstehsalat Birliyinin Sumqayıtdakı Etilen-Polietilen zavodu və «SOCAR Polymer» zavodunun bu istehsal prosesində inteqrasiyası nəzərdə tutulur. Sizi əmin etmək istəyirəm ki, bu istehsal zəncirinin genişləndirilməsi kompleksə daxil olan müəssisələrin işini daha da səmərəli edəcəkdir.

Möhtərəm cənab Prezident!

Zati-alinizə məruzə etmək istəyirəm ki, tikintinin pik vaxtında burada 3000 nəfərədək işçi çalışıb. İstismar zamanı isə zavodda 500 nəfər daimi işlə təmin olunacaqdır. Belə layihələrin iqtisadiyyatda xüsusi multiplikativ təsir yaratdığını nəzərə alsaq, deyə bilərik ki, aparılan işlər çox sayda kiçik və orta miqyaslı istehsalat müəssisələrinin, minlərlə yeni iş yerinin açılmasına səbəb olacaqdır.

«SOCAR Polymer» zavodunun inşası ölkəmizdə ilk dəfə layihə maliyyələşdirilməsi çərçivəsində həyata keçirilib. Mən yerli tərəfdaşlarımızın əməyini qeyd etmək və layihənin

səmərəliliyinə inanmış Rusiyanın «Qazprombank»ının rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Layihənin uğurla başa çatdırılması münasibətilə onları təbrik edirəm.

Mən bu gün italiyalı tərəfdaşımıza – layihənin baş podratçısı olan «Maire Tecnimont» şirkətinə, sahə podratçısı olan Türkiyənin «Ustay» şirkətinə, Niderlandın «Fluor» şirkətinə layihənin idarə edilməsində bizə dəstək verdiklərinə görə xüsusi təşəkkür etmək istəyirəm. «Maire Tecnimont» həyata keçirdiyimiz birgə layihələrdə özünü etibarlı tərəfdaş kimi təsdiq edib. Aparılan əməliyyatlarda nümayiş etdirdiyi yüksək peşəkarlıq və işgüzarlığı nəzərə alınaraq, «Maire Tecnimont»a Heydər Əliyev adına Neft Emalı zavodunda aparılan modernləşdirilmə işləri çərçivəsində tikiləcək 14 yeni qurğunun baş EPC podratçılığı həvalə olunub. «SOCAR Polymer»in əsas xammal təminatçısı olan «Azərikimya»nın yenidən qurulma layihəsində də baş EPC podratçısı – İtaliya şirkəti «Technip İtaly»dir. Əminəm ki, İtaliya şirkətləri ilə əməkdaşlığımız bundan sonra daha da genişlənəcəkdir.

Sonda layihənin həyata keçirilməsində əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə çox sağ olun.

**Fabrizio Di Amato** *(İtaliyanın «Maire Tecnimont» şirkətinin prezidenti)*: Hamınızı salamlayıram. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, İtaliya Respublikasının Prezidenti cənab Sercio Mattarellaya, SOCAR-ın prezidenti Rövnəq Abdullayevə çıxışlarına görə təşəkkürümü bildirirəm.

Bu gün biz «Maire Tecnimont» və «SOCAR Polymer» arasında əldə olunmuş əhəmiyyətli bir nəticəni qeyd edirik. Bu münasibətlə hər iki ölkənin yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə bu gün Sumqayıt şəhərində olmaqdan şərəf hissi duyuram.

SOCAR bizim şirkətin ən önəmli tərəfdaşlarından biridir. «SOCAR Polymer» isə şirkətimiz üçün uzunmüddətli əmək-

daşlıqda əvəzolunmaz tərəfdaşdır. Biz şirkətimizin imkanları və texnologiyası hesabına Azərbaycanın sənaye sahəsinin inkişafına verdiyimiz töhfədən dərin məmnunluq hissi duyuruq. Biz İtaliya vətəndaşı olaraq, dialoqa daim hazır olmalı və insani dəyərləri diqqətdən kənarda qoymamalıyıq. Biz eləcə də bu layihənin Azərbaycan iqtisadiyyatına verəcəyi töhfəni çox diqqətlə izləyirik. Bilirik ki, bu layihə hesabına «SOCAR Polymer» Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək. Bu nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır. Bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu layihə, bizim fikrimizcə, Azərbaycan hökuməti və eləcə də cəmiyyəti üçün mühüm mexanizmlərdən birini təşkil edir. «Maire Tecnimont» olaraq, bizim Azərbaycandakı əsas məqsədimiz digər şirkətləri də buraya cəlb edərək, əməkdaşlığımızı daha da məhsuldar etməkdir.

Biz bu zavodun tikintisində təhlükəsizlik baxımından bütün parametrləri nəzərə almaqla, işləri həyata keçirməyə çalışmışıq. Bütün işçi heyətə təşəkkürümü bildirirəm. Həmçinin azərbaycanlı və italiyalı işçilərdən əlavə, xarici tərəfdaşlarımıza da xüsusi təşəkkürümü bildirirəm. Çünki onlar bu layihənin reallaşmasında doğrudan da böyük rol oynayıblar. Bu, Azərbaycan ilə İtaliyanın sənaye sahəsində əməkdaşlığında çox böyük addımdır. Xüsusən vurğulamaq istəyirik ki, İtaliya ilə Azərbaycan və «Maire Tecnimont» ilə «SOCAR Polymer» arasında olan əməkdaşlıq başqa sahələrdə də davam edəcək. Bu, zavodun daha da inkişafına kömək göstərəcək. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu zavodun tikintisində işləyənlərin çoxu Azərbaycan vətəndaşıdır. Onlar çox gərgin işləyərək, bu layihəni həyata keçirmişlər.

Bu, Azərbaycan ilə İtaliya arasında texnologiya sahəsində əməkdaşlığın bir nümunəsidir. Ümid edirik ki, bu əməkdaşlıq

uzunmüddətli olacaq. «Maire Tecnimont» «SOCAR Polymer» ilə yanaşı, Azərbaycanda digər tərəfdaşlarla da əməkdaşlıq qurmaqda və bu əməkdaşlığın uzun müddət davam etməsində maraqlıdır. Bu, Azərbaycanın iqtisadiyyatının dayanıqlı şəkildə inkişafında böyük rol oynayacaq. Həmçinin xüsusi olaraq qeyd etmək istəyirəm ki, bizim Azərbaycanla əməkdaşlığımız təkcə sənaye sahəsində deyil, akademik sahədə də mövcuddur. Məsələn, biz Bakı Ali Neft Məktəbi ilə bir sıra təhsil proqramları həyata keçiririk. Bu təhsil proqramları çərçivəsində tələbələri ixtisasartırma kurslarına dəvət edir və yaxud İtaliya şirkətlərində təcrübə keçməyə imkan yaradırıq. Təbii ki, bu yolla biz həm ixtisasını artırmış mühəndislər yetişdiririk, həm də onlar İtaliya təcrübəsindən yararlanmış olurlar. Buna görə mən məmnunluq hissi duyuram. Sağ olun.

* * *

*Sonra «SOCAR Polymer» şirkətinin fəaliyyəti və burada həyata keçirilən layihələrdən bəhs edən qısa film nümayiş olundu.*

*Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella Polipropilen zavodunu işə saldılar.*

*Zavodda görülən işlərlə tanışlıq zamanı bildirildi ki, «SOCAR Polymer» layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. «SOCAR Polymer» şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan «SOCAR Polymer» zavodlarının təməli qoyulub və artıq Polipropilen zavodu istismara tam hazırdır. Yüksək sıxlıqlı polietilen istehsal edəcək zavodda isə son tamamlanma işləri görülür.*

*Hazırda ölkəmiz aşağı sıxlıqlı polietileni ixrac, yüksək sıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır.*

*«SOCAR Polymer» zavodları ildə 19 növ olmaqla, 184 min ton polipropilen və 12 növ olmaqla, 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu məhsullar sahibkarlıq subyektlərinin xammalla təchiz olunmasında əhəmiyyətli rol oynayacaq, respublikanın ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcəkdir. İstehsal edilən məhsulun nəql intensivliyi gündə təqribən 60 yük maşını təşkil edəcəkdir.*

*Polipropilen qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektron və elektrik cihazları və başqa bu kimi sektorlarda geniş çeşidli istehlak mallarının və dəstləşdirmə hissələrinin istehsalında istifadə olunan əsas ilkin materialdır. Polipropilen ticarət həcminə görə də ən vacib plastik məhsullardan sayılır. «Ekoloji cəhətdən təmiz» plastik adlandırılan polipropilen qida məhsullarının qablaşdırılması və tibb sənayesinə aid bütün sahələrdə istifadə oluna bilər.*

*«SOCAR Polymer»in Polipropilen zavodunda bazar araşdırmasına əsasən 3 növdə – homopolimer, zərbəyə davamlı so-polimer, statistiki so-polimer polipropilen məhsulları istehsal olunacaq. Qeyd edək ki, «SOCAR Polymer» Azərbaycanın neft-kimya sənayesində dövlət–özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkətdir. İnvestisiyaların 60 faizi Rusiyanın «Gazprombank», qalan hissəsi isə müvafiq olaraq «SOCAR», «Vitol», «Paşa Holdinq», «Gilan Holdinq» və «Azərsun Holdinq» tərəfindən təmin edilib. Layihə maliyyələşdirilməsi prinsipi əsasında 489 milyon dollar məbləğində əsas səhmdarın təminatı olmadan kredit alınıb. Bu prinsip əsasında maliyyələşdirilmə ölkə daxilində birinci dəfədir həyata keçirilir. Ümumi investisiya xərcləri 816 milyon dollar təşkil edir ki, bunun da 768 milyon dolları artıq xərclənib. Zavodların istismar dövründə 6,3 milyard dollar məbləğində gəlir proqnozlaşdırılır ki, bunun 30 faizi şirkətin xalis mənfəəti olacaqdır. Bu həmçinin ölkənin ümumi daxili məhsulunun*

*artmasına da kömək edəcəkdir. İlkin qiymətləndirmələrə görə, «SOCAR Polymer» zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 19 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 15 faiz artıracaqdır. İstismar müddətində zavodda 500 nəfər daimi iş yeri ilə təmin olunacaqdır.*

*Layihəni həyata keçirmək üçün İtaliyanın «Maire Tecnimont», Niderlandın «Fluor» şirkəti və digər şirkətlər cəlb edilib. Layihə çərçivəsində milli mühəndis kadrların ixtisaslarının artırılması təmin olunacaq. Bu məqsədə çatmaq üçün vahid layihə idarəetmə qrupu yaradılıb. «Fluor» şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib. Bundan başqa, ekoloji və sosial təsirlərin minimuma endirilməsi, zərərli maddələrin və maye tullantıların zərərsizləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Odur ki, beynəlxalq lisenziyalardan əldə edilən texnologiya əsasında fəaliyyət göstərəcək bu zavodlar istehsal prosesi və məhsulun keyfiyyəti baxımından ən yüksək beynəlxalq standartlara cavab verəcəkdir.*

*Biznes proseslərinin mərkəzləşdirilməsi məqsədilə «SOCAR Polymer» kadrların idarə olunması, maliyyə, istehsalat, texniki xidmət, keyfiyyətə nəzarət və təchizat-satınalma daxil olmaqla, şirkətin bütün struktur bölmələrini əhatə edən xüsusi sistem tətbiq edib. Personalın bilik və bacarıq səviyyəsini artırmaq məqsədilə ölkə daxilində və xaricdə təlim-hazırlıq kursları təşkil olunub. Bütün bunlar göstərir ki, sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Bu baxımdan innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabliyyətli sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrin qurulması xüsusi əhəmiyyət kəsb edir. Artıq böyük infrastruktur işlərinin həyata keçirildiyi, 17*

*sahibkarlıq subyektinə rezident statusunun verildiyi Sumqayıt Kimya Sənaye Parkına 2 milyard dollardan artıq investisiya yatırılıb və bu istiqamətdə mühüm tədbirlər görülməkdə davam edir.*

## İTALİYA RESPUBLİKASININ PREZİDENTİ SERCİO MATTARELLANI «HEYDƏR ƏLİYEV» ORDENİ İLƏ TƏLTİFETMƏ MƏRASİMİ

*18 iyul 2018-ci il*

*İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində iyulun 18-də «Heydər Əliyev» ordeni ilə təltifetmə mərasimi keçirilmişdir.*

*Mərasimdə İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycanın ali dövlət mükafatı olan «Heydər Əliyev» ordeni, qızı Laura Mattarellanın «Şöhrət» ordeni, İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Enzo Moavero Milanesinin isə «Dostluq» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları oxundu.*

*Sərəncamlarda deyilir ki, Prezident Sercio Mattarella Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə, Laura Mattarella ölkələrimizin humanitar əməkdaşlığının, Enzo Moavero Milanesi isə dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində xidmətlərinə görə ordenlərlə təltif olunurlar.*

*Dövlətimizin başçısı ordenləri təqdim etdi.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın «Xidmətlərinə görə» böyük lentlə birlikdə Böyük Xaç Kavaleri ordeni və Mehriban xanım Əliyevanın «Xidmətlərinə görə» Böyük Xaç Kavaleri ordeni ilə təltif edilmələri haqqında İtaliya Respublikası Prezidentinin – «Xidmətlərinə görə» ordenin rəhbərinin 2018-ci il iyulun 12-də imzaladığı sərəncamlar elan edildi.*

*İtaliya Prezidenti Sercio Mattarella ordenləri təqdim etdi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*18 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə iyulun 18-də rəsmi qəbul təşkil olunmuşdur.*

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və İtaliya Prezidentinin qızı Laura Mattarella rəsmi qəbulda iştirak etdilər.*

*Dövlət başçıları rəsmi qəbulda çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha salamlayıram!

Ölkəmizə xoş gəlmisiniz, cənab Prezident!

Məni və Mehriban Əliyevanı İtaliyanın yüksək ordenləri ilə təltif etdiyinizə görə minnətdarlığımı bildirirəm. Mən bunu Azərbaycan–İtaliya münasibətlərinin inkişafı istiqamətində fəaliyyətimizə verilən yüksək qiymət kimi dəyərləndirirəm.

İkitərəfli münasibətlərimizin tarixində ilk dəfədir ki, İtaliya Respublikasının Prezidenti Azərbaycana rəsmi səfərə gəlibdir. Əminəm ki, bu əlamətdar hadisə əlaqələrimizin inkişafında yeni bir səhifə açacaqdır. Bu gün Azərbaycan ilə İtaliya arasında əməkdaşlıq bütün istiqamətlərdə, o cümlədən siyasi sahədə uğurla inkişaf edir. Bu işdə müxtəlif səviyyəli qarşılıqlı səfərlər mühüm rol oynayır. Mən İtaliyaya etdiyim səfərləri və Sizinlə görüşümüzü məmnunluqla xatırlayıram. 2014-cü ildə Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında

strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin qəbul edilməsi əlaqələrimizi yüksək səviyyəyə qaldırıbdır.

İqtisadi sahədə əməkdaşlığımızı xüsusilə qeyd etmək istərdim. İtaliya Azərbaycanın ticarət tərəfdaşları arasında birinci yerdədir. 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi və Azərbaycandan İtaliyaya ixracın həcmi artıbdır. Uzun illərdir ki, energetika sahəsində əlaqələr mövcuddur. Azərbaycan bu sahədə fəaliyyət göstərən İtaliya şirkətləri ilə sıx əməkdaşlıq edir. Bu ilin may ayında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı nəticəsində energetika sahəsində Azərbaycan–İtaliya əlaqələri üçün yeni imkanlar açıla bilər. Azərbaycan nefti böyük həcmdə İtaliyaya nəql edilir. İtaliyanın neft idxalında Azərbaycan birinci yerdədir və ölkəmizin İtaliyanın xam neft idxalında payı 15 faiz təşkil edir. Bu gün isə açılışını etdiyimiz Polipropilen zavodu sənaye istehsalı sahəsində əməkdaşlığımızın gözəl nümunəsidir. Digər sahələrdə, o cümlədən infrastruktur, inşaat, nəqliyyat, kənd təsərrüfatı sahələrində də ölkələrimiz əməkdaşlıq edir.

Ölkələrimiz arasında zəngin tarixi-mədəni əlaqələr mövcuddur. Hələ XV əsrdə Azərbaycan Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi-diplomatik əlaqələr qurulmuş, 1469-cu ildən 1478-ci ilə kimi Venesiya Respublikasının Azərbaycanda səfirliyi fəaliyyət göstərmişdir. Həmin dövrdə Azərbaycan diplomatları Neapol Krallığında danışıqlar aparmışlar. Qeyd etməliyəm ki, 1972-ci ildə Bakı ilə Neapol qardaşlaşmış şəhərlər olmuşdur.

Mədəniyyət sahəsində əməkdaşlıq uğurla aparılır. 2012-ci ildə Romada dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı olub. Azərbaycan tərəfinin dəstəyi ilə Roma Forumunun bərpası işləri aparılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən birgə humanitar layihələr mədəniyyət sahəsində əlaqələrimizi daha da möhkəmləndirir.

Azərbaycan «Milan Ekspo»da 2015-ci ildə fəal iştirak edib və orada ayrıca pavilyon inşa etmiş ilk ölkələrdəndir. Bizim pavilyonu 3 milyon 200 min insan ziyarət edibdir.

Sabah Heydər Əliyev Mərkəzinin İtaliyanın Uffizi Qalereyası ilə birgə təşkil etdiyi sərginin açılışı nəzərdə tutulur. Bu sərgidə Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətainin və Şah Təhmasibin Uffizi Qalereyasında saxlanılan portretləri nümayiş etdiriləcək. Mən bu münasibətlə İtaliya tərəfinə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Azərbaycan regional əməkdaşlığın və təhlükəsizliyin təmin olunması işində fəal rol oynayır. Lakin Ermənistanın Azərbaycana qarşı 20 ildən artıqdır ki, davam edən təcavüzü bölgədə sülhün təmin olunması işinə böyük əngəllər törədir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi bu təcavüzün nəticəsində işğal olunub, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilibdir. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul edibdir. Əfsuslar olsun ki, Ermənistan bu günə kimi bunların heç birinə məhəl qoymur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Bir neçə gün əvvəl Azərbaycan ilə Avropa İttifaqı arasında paraflanmış «Tərəfdaşlıq prioritetləri» sənədində ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığının dəstəklənməsinə sadiqlik öz əksini tapıbdır. Bu yaxınlarda NATO-nun Brüsseldə keçirilmiş Zirvə toplantısının yekununda qəbul edilmiş Bəyannamədə müttəfiq dövlətlər Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə, eləcə də münaqişənin bu prinsiplər əsasında həllinə bir daha dəstək ifadə ediblər. Biz ümid edirik ki, ATƏT-in fəaliyyətdə olan sədri

İtaliya Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacaqdır.

## İtaliya Prezidenti Sercio Mattarellanın çıxışı

Cənab Prezident!

Xanım Birinci vitse-prezident!

Hökumət nümayəndələri!

Xanımlar və cənablar!

İtaliya və italyan xalqı haqqında səsləndirdiyiniz diqqət və hörmət dolu ifadələrə, mənə, qızıma və məni müşayiət edən nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə təşəkkür etmək istəyirəm.

Mən çox şadam ki, İtaliya Respublikası Prezidentinin Azərbaycan Respublikasına ilk rəsmi səfəri belə əhəmiyyətli dövrə təsadüf edir. Sizin və xanımınızın bizim ölkəyə etdiyiniz səfərlərə qarşılıq vermək üçün mənə şərait yaradan bu səfər Azərbaycan Xalq Cümhuriyyətinin ötən aylarda Roma şəhərində də 100 illiyinin qeyd edilməsindən sonra və İtaliyanın ATƏT-ə – dövlətlər arasında dialoq və sülh şəraitində əməkdaşlığa dəstək verilməsi məqsədilə yaradılmış təşkilata sədrliyi ərəfəsində həyata keçirilir.

Millətlər və xalqlar arasında qarşılıqlı etimad bütün dünyada qəbul edilən beynəlxalq hüquq prinsiplərinə hörmətlə birgə inkişafın əsasını təşkil edərək, dövlətlər arasında sabitliyin möhkəmlənməsi üçün lazımi şərait yaradan amildir. İtaliya və Azərbaycan 25 ildən çoxdur ki, diplomatik əlaqələr çərçivəsində qeyri-adi inkişafa malik münasibətlərin şahididir. Bu müddət ərzində gələcəkdə də hər bir sahədə əlaqələrimizin güclənməsinə yönəlmiş strateji tərəfdaşlığın toxumlarını səpməklə, iki ölkənin qarşılıqlı dostluq və tərəfdaşlığını genişləndirməyə imkan verən mədəni, siyasi-rəsmi və ticari-iqtisadi sahələrdə çox sıx mübadilə şəbəkəsi yaranıb. Qədim və dərin

köklərə söykənən qarşılıqlı əlaqələrimiz son onillikdə daha da intensivləşibdir.

Paytaxt Bakı şəhərindən çox da uzaq olmayan, keçmişin tarixi-memarlıq yaddaşının müasirliyin dinamik izində öz yerini tapdığı ərazidə Azərbaycan bu günədək bizə gəlib çatan latın dilində olan Şərq epiqraflarına sahibdir. Bu fakt qədim dövrlərdə belə, bu ərazinin Aralıq dənizi regionu üçün böyük strateji əhəmiyyət daşıdığını sübut edir. Ölkəmiz tərəfindən həyata keçirilən əhəmiyyətli qərarlardan qaynaqlanaraq, son onilliklərdə bu fakt özünü təsdiqləmişdir.

Azərbaycan heç bir halda öz ənənəvi mövqeyini dəyişmədən coğrafi və siyasi seçimlər səbəbindən hər zaman diqqət mərkəzində İtaliyanın da aid olduğu məhz böyük Aralıq dənizi ölkələrinə daha da yaxın olmağı seçdi.

Biz Azərbaycanın bu gününə və gələcəyinə Avropa İttifaqı ilə Azərbaycan arasında əhəmiyyətli əlaqələrin qurulması, Azərbaycan və Şimali Atlantika İttifaqı arasında mövcud məhsuldar əməkdaşlıqla möhkəmlənmiş yuxarıdakı seçim prizmasından baxırıq.

Qarşımızda duran mürəkkəb çətinliklər dinlər və mədəniyyətlər arasında sülh şəraitində birgəyaşayışı qorumağa ehtiyac olduğunu vurğulayan bir mühitdə regionda sabitliyin davamlılığına yönəlmiş əlaqələrin möhkəmləndirilməsinə şərait yaradır. Bu sahədə Azərbaycanın nümayiş etdirdiyi nümunə qiymətlidir.

Cənab Prezident, illərdir ki, ölkələrimiz çoxtərəfli və xüsusən də ikitərəfli əməkdaşlığımızda mühüm əhəmiyyətə malik energetika və sənaye sektorlarında uğurla əməkdaşlıq edir. Xüsusi məmnunluq hissi ilə qeyd etmək istərdim ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlər, iqtisadi cəhətdən mövcud əhəmiyyətli əlaqələr zəifləmədən və ya məhdudlaşmadan illər ərzində dərin mədəni və sosial dəyərlərlə zənginləşibdir.

Biz son illər ərzində azərbaycanlı tələbələrə verilən təhsil vizasının sayının 2 dəfədən çox artmasını xüsusi olaraq cəsarətli

addım hesab edirik. Belə inkişaf bizi fərəhləndirir. Biz fəal şəkildə Azərbaycanın gənc istedadlarını yetişdirməyi, onlara təhsil və gənclərimizlə təcrübə mübadiləsi imkanları yaratmaqla, gələcəkdə də həmin inkişafı davam etdirməyi düşünürük.

Mədəni sahədə əlaqələr hər iki tərəf üçün mühüm əhəmiyyət daşıyır. Ölkələrimizin elm və mədəniyyət qurumları arasında mövcud əməkdaşlığın bəhrəsi olan yüksək profilli və əhəmiyyətli layihələr vasitəsilə də İtaliya bu əlaqələri daha da dərinləşdirmək niyyətindədir.

Cənab Prezident, Azərbaycanın paytaxtı ziyarətçilərə mədəni və tarixi memarlıq baxımından bəşəriyyətin mədəni irsi çərçivəsində haqlı olaraq tanınan, cəlbedici və hərtərəfli fərqlilik nümayiş etdirir. Gənc və istedadlı xalqın əhəmiyyətli potensialı ilə birləşən varislik sülhə, dünyaya açıqlığa, dialoqa və tərəqqiyə əsaslanan gələcək qurmağa yönələn dəyərli bir irsi təşkil edir.

İtaliya Azərbaycanın səmimi, qətiyyətli və sadiq tərəfdaşı olmağa davam edəcəkdir.

## AZƏRBAYCAN–İTALİYA BİZNES- FORUMUNDA İŞTİRAK

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iyulun 19-da Bakıda Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan–İtaliya biznes-forumunda iştirak etmişlər.*

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və İtaliya Prezidentinin qızı Laura Mattarella da biznes-forumda iştirak etdilər.*

*Biznes-forumda Azərbaycan və İtaliya tərəfindən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik, sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamı iştirak etdi.*

*Dövlət başçıları biznes-forumda çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Dünən keçirdiyimiz görüşlərdə apardığımız müzakirələr zamanı bir daha gördük ki, İtaliya ilə Azərbaycan çox yaxın dost və tərəfdaş ölkələrdir. Bizim tərəfdaşlığımızın təməlində birgə maraqlar, beynəlxalq məsələlərə ortaq münasibət dayanır. Təsadüfi deyil ki, bir neçə

il bundan əvvəl İtaliya və Azərbaycan öz strateji tərəfdaşlığını rəsmən təsdiq etdilər, müvafiq Bəyannamə qəbul olundu.

Sizin Azərbaycana səfəriniz bir daha bizim strateji tərəfdaşlıq əlaqələrimizi təsdiqləyir. Dünən bir sıra məsələlər ətrafında çox açıq, səmimi fikir mübadiləsi aparıldı. Biz istəyirik ki, İtaliya–Azərbaycan əlaqələri bundan sonra da uğurla, sürətlə inkişaf etsin. Prezidentin səfəri bu əlaqələrin inkişafına çox güclü təkan verir. Əlbəttə ki, siyasi əlaqələr yüksək səviyyədə olduqda biznes dairələri də bunu dərhal görür, dərk edir və öz addımlarını atmağa başlayır. Bizim siyasi əlaqələrimiz – biz dünən də bu barədə cənab Prezidentlə fikir mübadiləsi apardıq – ən yüksək səviyyədədir. Deyə bilərəm ki, mükəmməldir, həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlıq çox müsbətdir.

Bu imkanlardan biznes dairələri də istifadə etməlidirlər və edirlər. Bunun bariz nümunəsi dünən birgə açdığımız Polipropilen zavodudur. Bu bizim birgə yaratdığımız gözəl müəssisədir. Mən cənab Prezident Sercio Mattarellaya dünən dedim ki, bu, İtaliyanın Azərbaycanda müasir texnoloji əsəridir. Əlbəttə, bu zavodun timsalında biz şirkətlər arasındakı əməkdaşlığı görürük. Biz istəyirik ki, bu əməkdaşlıq gələcəkdə dərinləşsin, genişlənsin, yeni layihələr icra edilsin. Azərbaycanın sənaye və iqtisadi inkişafı ilə bağlı planlar kifayət qədər çoxdur. Azərbaycanda çox sürətlə sənayeləşmə prosesi gedir. Bizə çox gözəl, etibarlı, sınanmış tərəfdaşlar lazımdır. İtaliya şirkətləri bu tərəfdaşlardandır. Çünki uzun illər Azərbaycanla bağlıdırlar, çox gözəl reputasiyaya və ən yüksək texnoloji imkanlara malikdirlər.

İqtisadi sahədəki gələcək əməkdaşlıq bir neçə istiqamət üzrə getməlidir. Biz İtaliya şirkətlərini Azərbaycana dəvət edirik, həm prezidentlər səviyyəsində, həm hökumət qurumları səviyyəsində. Hesab edirəm ki, bizim sənaye inkişafımızla bağlı olan gələcək layihələrdə İtaliya şirkətləri fəal iştirak edəcəklər. Biz şad olardıq ki, İtaliya şirkətləri Azərbaycana daha böyük həcmdə investisiya qoysunlar. Bunun üçün yaxşı imkanlar

vardır. Azərbaycana 250 milyard dollara yaxın xarici və yerli sərmayə qoyulub. Sərmayə iqlimi çox yaxşıdır və xarici sərmayə qanun çərçivəsində yüksək səviyyədə təmin edilir və qorunur.

İtaliya şirkətləri Azərbaycanın müxtəlif sahələrində podratçı, kontraktor kimi fəaliyyət göstərirlər. Hazırda biz bunu görürük. İnşaat, infrastruktur, ağır sənaye, kənd təsərrüfatı, emal sektorlarında belə əməkdaşlıq vardır. Ancaq bu, lazımi səviyyədə deyil. Biz bu səviyyəni qaldırmalıyıq və düşünürəm ki, biznes dairələri bu barədə bu gün danışacaqlar. Sərmayə qoyuluşu və podratçı kimi fəaliyyət, hesab edirəm ki, növbəti illər üçün əsas istiqamətlər olmalıdır.

Əlbəttə ki, İtaliya şirkətləri bilməlidir ki, bizim planlarımız nədən ibarətdir. Bizim planlarımız hər il dərc edilir, dövlət investisiya proqramı hər il icra edilir və bizim beşillik sosial-iqtisadi inkişaf planlarımız vardır. 2004-cü ildən başlayaraq, bu proqramlar dərc olunur, icra edilir və orada Azərbaycanda görüləcək bütün işlər göstərilir. Şəhərlər, hətta qəsəbələr, kəndlər üzrə infrastruktur layihələri, sosial obyektlərin tikintisi, texnoloji inkişafla bağlı hər şey orada göstərilir. Sadəcə olaraq, bu məlumatı əldə etmək lazımdır. Hesab edirəm ki, biznes-forum bu məlumatın təqdim edilməsində də müsbət rol oynayacaqdır.

Azərbaycanın ümumi iqtisadi inkişafı çox müsbətdir və uğurludur. Ticarət dövriyyəsinə gəldikdə, İtaliya Azərbaycan üçün birinci ticarət tərəfdaşıdır. Ancaq etiraf etməliyik ki, bunun təməlində xam neft amili dayanır. Çünki Azərbaycan ən çox xam nefti İtaliya istiqamətinə göndərir və beləliklə, ticarət dövriyyəsi böyük rəqəmlərlə ölçülür. Biz isə istəyirik ki, bizim ticarət dövriyyəmiz çoxşaxəli olsun. Biz həm İtaliyaya daha çox qeyri-neft məhsulları ixrac edə bilək, həm də İtaliyadan idxal edə bilək. Ona görə biz gələcəkdə ticarət dövriyyəsinin şaxələndirilməsi məsələlərinə də mütləq baxmalıyıq.

Azərbaycan son 15 ildə iqtisadi baxımdan çox uğurla inkişaf edib. Son 15 ildə iqtisadiyyat, yəni ümumi daxili məhsul 3,2

dəfə artıb. Bu, dünya miqyasında rekorddur. Hesab edirəm, bundan daha vacib məsələ odur ki, biz sosial məsələlərin həllində də yaxşı nəticələrə nail olmuşuq. Azərbaycanda işsizlik kəskin şəkildə aşağı düşüb və 5 faiz səviyyəsindədir. Yoxsulluq təxminən 50 faizdən 5,4 faizə enib. Bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. Yəni bütün bu göstəricilər makroiqtisadi vəziyyətin müsbət olduğunu göstərir. Dünyanın aparıcı beynəlxalq qurumları da Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. O cümlədən Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünya miqyasında 35-ci yerə layiq görüb. Hesab edirəm ki, bu çox gözəl göstəricidir. Digər hesablamalara görə, məsələn, həmin Davos Forumun infrastrukturun inkişafı ilə bağlı hesabatında Azərbaycan dünyada 26-cı yerdədir. Son illərdə çox böyük infrastruktur layihələri icra edilib və inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir.

Bildiyiniz kimi, biz böyük enerji layihələrini uğurla icra etmişik. Biz dənizləri birləşdiririk. Xəzər dənizini Qara dənizlə neft kəməri ilə birləşdirdik. Ondan sonra Xəzər dənizini Aralıq dənizi ilə neft kəməri ilə birləşdirdik. Bunlar tarixi layihələrdir. Biz Avrasiyanın enerji xəritəsini, demək olar ki, yenidən tərtib etmişik və bunu davam etdiririk. Hazırda isə biz «Cənub Qaz Dəhlizi» layihəsini uğurla icra edirik. Bu barədə qısa məlumat vermək istərdim. «Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir. Nəhəng «Şahdəniz» qaz yatağının işlənilməsinin ikinci fazası – bu layihə başa çatıb. «Cənubi Qafqaz» boru kəməri, hansı ki, Azərbaycan qazını Gürcüstan istiqamətinə göndərir. Trans–Anadolu qaz kəməri – TANAP, bu da Türkiyə ərazisindən çəkilən qaz kəməridir və Trans–Adriatik qaz kəməri – TAP. Bu 4 layihədən 3-ü artıq reallaşıb. Bu ilin may ayında Bakı şəhərində «Cənub Qaz Dəhlizi»nin, iyun ayında isə Türkiyədə TANAP layihəsinin rəsmi açılışları olub. Maliyyə

tutumu 40 milyard dollardan çox olan bu nəhəng layihə bir neçə ölkəni, bir çox şirkətləri birləşdirir və artıq başa çatmaq üzrədir. Beləliklə, yaxın zamanlarda Azərbaycan qazı Avropa İttifaqı məkanında öz yerini tutacaqdır.

Digər vacib istiqamət nəqliyyatla bağlıdır. Coğrafi cəhətdən bizim açıq dənizə çıxışımız yoxdur. Ancaq buna baxmayaraq, biz Azərbaycanda beynəlxalq nəqliyyat və logistika mərkəzini yaradırıq. Bunun üçün məqsədyönlü, çoxşaxəli iş aparılıb. Son 15 il ərzində Azərbaycanda 6 beynəlxalq aeroport tikilib. Azərbaycan daxilində dəmir yollarında təmir-bərpa işləri gedir. Xəzər hövzəsində ən böyük dəniz ticarət limanı bu ilin may ayında istifadəyə verilib. Onun hazırda yükaşırma qabiliyyəti 15 milyon tondur, gələcəkdə isə 25 milyon ton olacaqdır.

Son 15 il ərzində 15 min kilometr magistral yollar çəkilib. Bütün qonşu ölkələrlə bizi çox gözəl yeni yollar bağlayır. Keçən ilin oktyabrında Azərbaycanı Türkiyə ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib. Beləliklə, Asiyadan Avropaya və əks istiqamətə ən qısa yol Azərbaycan ərazisindən keçir. Əgər ənənəvi dəniz yolu 30–35 gün tələb edirsə, yeni Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə yüklər Asiyadan Avropaya cəmi 2 həftə ərzində daşınır. Biz görürük ki, bu yolla yükdaşımalar gündən-günə artır və bu çox etibarlı yeni bir nəqliyyat damarı olacaqdır.

Bununla paralel olaraq, Azərbaycan Şimal–Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır, üzvüdür. Biz bu sahəyə də böyük vəsait qoyuruq. Şimal–Cənub nəqliyyat dəhlizi hazırda fəaliyyətdədir. Azərbaycan ərazisində lazım olan bütün infrastruktur yaradılır. İndi yüklər Azərbaycan ərazisindən rahatlıqla daşınır. Gələcəkdə qonşu ölkələrdə əlavə vəsait qoyuluşu nəticəsində bu yolun yükaşırma qabiliyyəti daha da artacaqdır.

Bütün bu infrastruktur imkan verir ki, Azərbaycana bundan sonra da böyük həcmdə sərmayə qoyulsun. Çünki neft-qaz sektoruna qoyulacaq sərmayə üçün bütün neft-qaz kəmərləri var və

onun tikintisi davam etdirilir. Yeni sənaye müəssisələri ilə bağlı investisiyalar üçün nəqliyyat imkanları çox genişdir. Onu da qeyd etməliyəm ki, Azərbaycanın Xəzər hövzəsində ən böyük ticarət donanması, gözəl investisiya iqlimi vardır. İndi 200-dən çox gəmi Xəzər sularında yükdaşımalar aparır.

Azərbaycan çox sabit ölkədir, həm siyasi, həm də iqtisadi cəhətdən. Ona görə sərmayə qoyuluşu üçün də Azərbaycan çox əlverişlidir.

Əlbəttə, xarici qonaqlar hesab edə bilərlər ki, mən burada ölkəmizi tərifləməklə məşğulam. Mən bunu gizlətmirəm, edirəm və etməliyəm. Çünki hər bir dövlət başçısı çalışmalıdır ki, onun ölkəsini daha yaxından tanısınlar, daha çox vəsait qoysunlar. Ancaq bu tərif ədalətlidir. Mən tam həqiqəti qonaqlara çatdırıram və ümid edirəm ki, onlar mənim sözlərimdən sonra Azərbaycana daha da böyük həvəslə gələcək və işləyəcəklər.

Cənab Prezident, mən Sizə bir daha təşəkkürümü bildirirəm ki, Siz Azərbaycana səfər etmisiniz, bizə böyük şərəf vermisiniz. Dünən Sumqayıtda Polipropilen zavodunun açılışında iştirak etdiniz. Bu gün də bizimlə bərabər iş adamlarına öz sözünüzü deyəcəksiniz. Sağ olun.

## İtaliya Prezidenti Sercio Mattarellanın çıxışı

Cənab Prezident!

Cənab nazirlər, hökumət nümayəndələri, səlahiyyətli şəxslər, hörmətli iş adamları!

Prezident İlham Əliyevə dostluq münasibətləri ilə bağlı dediyi gözəl sözlərə və ətraflı məlumata görə təşəkkürümü bildirirəm.

Belə bir vaxtda Azərbaycana rəsmi səfərimin təşkil olunması bizim üçün çox önəmlidir. Çünki ölkələrimiz arasında nəinki dostluq əlaqələri, eləcə də ikitərəfli əməkdaşlıq baxımından çox yüksək səviyyədə inkişaf vardır. Lakin biz bu əlaqələri xüsusən də iqtisadi, siyasi, humanitar sahələrdə daha da inkişaf etdirmək istəyirik.

Bu günlərdə Prezident İlham Əliyevlə keçirdiyimiz görüşlər zamanı ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərin müsbət və daimi inkişafının şahidi olduq. İkitərəfli münasibətlərimizin əsas hissəsini iqtisadi əlaqələr təşkil edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən 25 ildə sosial, iqtisadi baxımdan qeyri-adi bir inkişaf dövrü yaşayıb. Bundan başqa, mən Bakı şəhərinin memarlıq baxımından inkişafından, müasir və qədim tikililərin gözəlliyindən təsirləndim. Bizim hazırda olduğumuz və Prezident Heydər Əliyevin adını daşıyan bu möhtəşəm bina buna bariz nümunədir. Bu əhəmiyyətli inkişaf prosesi İtaliyada da çox böyük marağa səbəb olub. Təkcə İtaliyada deyil, bütün dünyada marağa səbəb olub.

Bizim iqtisadiyyatlarımız bir-birini tamamlayır. İtaliya Azərbaycana yalnız ticari mübadilələrdə deyil, karbohidrogen sahəsindən əlavə, öz potensialının və iqtisadi sisteminin şaxələndirilməsində və sənaye proqramlarının inkişafında istinad edilən etibarlı bir tərəfdaş ola bilər. Şaxələndirmə Azərbaycanın əsas hədəflərindən biridir. Buna dəstək məqsədilə

İtaliya fərqli təcrübələrini, texnologiyalarını, bacarıq və qabiliyyətlərini Azərbaycana təqdim edə bilər.

Son illərdə italyan müəssisələri tərəfindən həyata keçirilən layihələrdən də göründüyü kimi, İtaliya enerji sahəsində, karbohidrogenlərin nəqlində və kimya sənayesində dünyada yüksək səviyyədə olan bir irsə malikdir. Son 10 ildə italyan müəssisələrinin və italyan texnologiyalarının Azərbaycanın neft sənayesinə verdiyi töhfə 5 milyard avrodan çoxdur. Dünən Prezident İlham Əliyevlə birlikdə Sumqayıtda Polipropilen zavodunun açılışında iştirak etdik. Bu zavodun inşası «Maire Tecnimont» şirkəti ilə «SOCAR Polymer»in layihəsi əsasında həyata keçirilib. Bu zavod Azərbaycana neft-kimya sənayesini inkişaf etdirməyə və öz ixrac potensialını artırmağa imkan yaradacaq. Bu, Azərbaycan hökumətinin yeni iş yerlərinin və yeni istehsal sahələrinin açılması kimi prioritet hesab etdiyi məsələlər üzrə çox vacib bir məqsəddir. İtaliyanın töhfəsi enerji sahəsindən başqa, digər sahələrdə də ola bilər. Belə ki, İtaliya ətraf mühitin qorunması, yenidən dəyərləndirilməsi, kənd təsərrüfatının inkişafı və emal sənayesinin transformasiyası, infrastruktur, nəqliyyat, logistika, tikinti kimi sahələrdə Azərbaycanın inkişafına töhfə verməyə hazırdır. Prezident İlham Əliyevlə dünənki rəsmi danışıqlardan sonra imzalanan bəzi sənədlər məhz bu sahəyə yönəlib. Milan Politexnik Universiteti ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında akademik əlaqələr çərçivəsində Bakıda İtaliya–Azərbaycan Dizayn Mərkəzinin yaradılması digər sahələrdə də olmasını arzuladığımız ikitərəfli əməkdaşlıq modelidir. Biz istərdik ki, bu modeldən digər əməkdaşlıq çərçivəsində də istifadə olunsun.

Bu forumda italyan şirkətlərinin geniş tərkibdə iştirakı bizim ölkədə kifayət qədər tanınan kiçik və orta tipli müəssisələrə də diqqət ayıraraq, əlaqələrimizi daha da strukturlaşdırmaq və genişləndirmək üçün iqtisadiyyatın bütün sahələrində əməkdaşlığımızın inkişafına nə qədər önəm verdiyimizin ən

bariz sübutudur. Mən bir daha kiçik və orta tipli müəssisələrin fəaliyyətini, onların Azərbaycana cəlb olunmasını xüsusi vurğulamaq istərdim. Ümid edirəm ki, dünən gün ərzində təşkil edilən görüşlər bu məqsədə müəyyən forma və dəqiqlik verə bildi. Çünki iqtisadiyyatlarımız arasında artan qarşılıqlı münasibətlər ikitərəfli iqtisadi əlaqələrin proqressiv balanslaşdırılması ilə bərabər şəkildə inkişaf etməlidir. 2017-ci ildə İtaliya ikitərəfli mübadilə və böyük miqdarda karbohidrogen idxalı vasitəsilə Azərbaycana əhəmiyyətli töhfə verib. Azərbaycan bizim neft üzrə birinci təchizatçımızdır. Biz bu ölkənin mütləq şəkildə ilk ticarət tərəfdaşı olmaqdan qürur duyuruq. Bütün bunlar hörmətə layiq nəticələrdir və xüsusilə də Azərbaycanda çox qiymətləndirilən italyan ixracı sahəsində geniş inkişafı əks etdirir. Burada İtaliyanın enerji ehtiyatlarının idxal tələbatı fonunda bir çox struktur aspektlərdən tarazlıq pozulur və hazırda iqtisadiyyatın inkişafının bərpa dövründə Azərbaycan inkişaf proqramları və iqtisadiyyatın şaxələndirilməsində İtaliyanın tərəfdaşlığına güvənə bilər. Dünənki görüşlərdə bu arzuya müəyyən bir forma verilərək, konkret olaraq səmərəli sahələr müzakirə edildi. Enerji, ətraf mühitin qorunması sahələrində yenidən dəyərləndirmə ilə bağlı layihələrə maraq göstərildi. Paris sazişləri ilə vurğulanan çoxtərəfli çərçivədə daha təmiz enerjilərə keçidi asanlaşdıraraq, birlikdə planetimiz üçün daha çox şey edə bilərik və etməliyik. Azərbaycan kimi xammalla zəngin olan ölkə üçün bu, sənaye dinamizmi və texnoloji innovasiyalar amili kimi qəbul edilməlidir. Bilirəm ki, Azərbaycan hökuməti iqtisadiyyatının şaxələndirilməsi və ölkənin müxtəlif regionlarının inkişafı üçün prioritet sahə olan kənd təsərrüfatına çox böyük önəm verir. Fikrimcə, bu, uzaqgörən bir seçimdir və İtaliya bu sahədə olan təcrübəsini və imkanlarını təklif edərək, bunu dəstəkləməyə hazırdır.

Çıxışımı yekunlaşdırmamışdan əvvəl logistika, nəqliyyat və infrastruktur sahələrini xatırlatmaq istəyirəm. Azərbaycanın mövqeyi strateji baxımdan çox önəmlidir. Belə ki, ölkəniz bundan uzunmüddətli şəkildə istifadə etməlidir. Məhz dünən bizim Dövlət

Dəmir Yolları ilə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti arasında mövcud olan marşrutların istifadəsi, dəmir yolu vasitələrinin, vaqonların tikintisi, yeni marşrutların inkişaf etdirilməsi üçün Əməkdaşlıq Memorandumu imzalandı. Bizim müəssisələr liman və infrastrukturlar üçün informasiya sahəsində uğurla fəaliyyət göstərir. Azərbaycan da Xəzər dənizi regionunda nəqliyyatın idarəetmə mərkəzini təşkil edir. Bu təşəbbüslərlə italyan mühəndisliyini, avtomobil yollarını, limanları, ümumilikdə infrastruktur sahəsini əks etdirən geniş bir işin əsasını qoyduq.

Cənab Prezident, bu gün biz münasibətlərimizə uzunmüddətli və strateji yanaşma ilə baxmalıyıq. Bizim müştərək iqtisadi maraqlarımız bizi ölkənizlə Avropa İttifaqı arasında olan əməkdaşlıqdan irəli gələn imkanlardan istifadə edərək, dialoqumuzu daha da inkişaf etdirərək, genişləndirməyə yönəldir. Məhz ötən günlərdə tərəfdaşlıq prioritetləri ilə bağlı danışıqların yekunlaşması ilə əhəmiyyətli irəliləyiş qeydə alındı. Strateji baxımdan regionda önəmli rola malik olan Azərbaycan Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi üçlüyünün iqtisadi potensialının inkişafında yeni bir səhifənin baş qəhrəmanı ola bilər. Biz tarixi dostluğumuz və tərəfdaşlığımızın potensialından istifadə edərək, dənizlərimiz arasında bu körpünü birlikdə tikməliyik. Çünki bu, istər indiki, istər gələcək münasibətimizə təsir edir. Mən xoş sözlərinizə görə Sizə bir daha təşəkkür edirəm.

* * *

*Sonra Azərbaycan–İtaliya biznes-forumu işini müzakirələrlə davam etdirdi.*

*Forumda çıxış edən İqtisadiyyat naziri Şahin Mustafayev İtaliya ilə əlaqələrin uğurla inkişaf etdiyini və strateji tərəfdaşlıq səviyyəsində olduğunu bildirdi. Nazir siyasi əlaqələrin uğurlu inkişafında dövlət başçılarının siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin böyük rolunu vurğuladı. Qeyd olundu ki, İtaliya Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. Belə ki, 2017-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsində İtaliya 21 faiz paya*

*malik olmaqla, birinci yerdə qərarlaşıb və bu ilin ilk 6 ayı ərzində də liderliyini qoruyub saxlayıbdır. Şahin Mustafayev ölkəmizdən İtaliyaya ixrac olunan məhsulların böyük hissəsinin enerji daşıyıcılarının təşkil etdiyini, qarşılıqlı ticarətin şaxələndirilməsi və qeyri-neft məhsullarının payının artırılması istiqamətində özəl sektorun iştirakı ilə keçirilən biznes-forumların, işgüzar görüşlərin önəmini qeyd etdi. İyulun 18-də Azərbaycan və İtaliya prezidentlərinin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında açılışı olan və İtaliyanın «Maire Tecnimont» şirkətinin podratçısı olduğu «SOCAR Polymer» layihəsi çərçivəsində inşa edilmiş Polipropilen zavodu uğurlu əməkdaşlığın bariz nümunəsidir. Şahin Mustafayev iki ölkə arasında enerji, kənd təsərrüfatı, turizm, İKT, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı, həm yerli, həm də İtaliyadan olan sahibkarları bu imkanlardan yararlanmağa və qarşılıqlı faydalı birgə layihələri həyata keçirməyə dəvət etdi.*

*İtaliyanın İqtisadi İnkişaf nazirinin müavini Mikele Ceraçi ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduğunu, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialı vurğuladı, enerji, nəqliyyat, infrastruktur, tikinti, sənaye, kənd təsərrüfatı, logistika və digər sahələrdə əməkdaşlığa dair fikirlərini bölüşdü.*

*İtaliya Sənaye Konfederasiyasının vitse-prezidenti Liçia Mattioli iqtisadi-ticari əlaqələr barədə danışdı, Azərbaycan və İtaliya şirkətləri arasında əməkdaşlığın genişləndirilməsində keçirilən görüşlərin və aparılan müzakirələrin əhəmiyyətini vurğuladı.*

*İtaliya Ticarət Agentliyinin baş direktoru Piercorco Borqocelli iş adamları arasında əlaqələrin genişləndirilməsi perspektivlərinə dair fikirlərini bildirdi, bu sahədə ikitərəfli görüşlərin və biznes-forumların rolunu qeyd etdi, belə tədbirlərin iqtisadi əməkdaşlığın inkişafına, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini diqqətə çatdırdı.*

*Biznes-forumda azərbaycanlı və italiyalı iş adamları əməkdaşlığa dair müzakirələr apardılar.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ ŞAH İSMAYIL XƏTAİYƏ HƏSR EDİLMİŞ SƏRGİ İLƏ TANIŞLIQ

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella iyulun 19-da Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının böyük oğlu, sərkərdəsi və şairi Şah İsmayıl Xətaiyə həsr edilmiş «Əbədiyyət xəzinəsi» adlı sərgi ilə tanış olmuşlar.*

*Sərgi Heydər Əliyev Fondu, Florensiyanın Uffizi Qalereyası, Heydər Əliyev Mərkəzi, İtaliyanın Mədəniyyət və Turizm Nazirliyi və İtaliyanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə təşkil edilibdir.*

*Uffizi Qalereyasının direktoru Hayke Şmidt məlumat verdi ki, sərgi tamaşaçını Şah İsmayılın və onun oğlu və varisi Şah Təhmasibin hakimiyyətdə olduqları dövrlərə aparır. Ədəbiyyat və incəsənətin çiçəklənmə dövrü onların hakimiyyətdə olduqları illərə təsadüf edir. Azərbaycanın milli mədəniyyətinin inkişafı üçün Şah İsmayıl əlverişli mühit yaradıb, I Şah Təhmasib isə bu mühiti qoruyub saxlayıbdır. Həmin illərdə dövlətçiliyin elmi və yaradıcı potensialı formalaşıb, Azərbaycan torpaqlarının Səfəvilər dövlətinin tərkibində birləşdirilməsi başa çatdırılıb, Azərbaycan dili dövlət işlərində üstün qüvvəyə malik olmağa başlayıb, Avropa ölkələri ilə geniş ticarət əlaqələri qurulubdur. Bütün bu amillər həmin dövrün incəsənət əsərlərində öz əksini tapıb. Sərginin eksponatları arasında Şah İsmayılın və Şah Təhmasibin möhürlərinin izləri, habelə Cənubi Azərbaycan vilayətlərindən birində iqtisadi işlərin normallaşdırılması*

*haqqında 1502-ci ildə çıxarılan fərmanın fotoşəkli də vardır. XV–XVI əsrlər Təbriz məktəbinin miniatürlərinin təsviri ilə videoproyeksiya, müasir sənətkarların Şah İsmayıla həsr edilmiş əsərləri, görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin «Şah İsmayıl» operasından səhnələrin fotoşəkilləri, o dövrün həyatından xəbər verən müasir interpretasiya kimi videoinstalyasiya – bütün bunları bugünkü ekspozisiya çərçivəsində görmək mümkündür. Lakin sərginin əsl kulminasiyası Şah İsmayılın və onun oğlu Şah Təhmasibin Florensiyanın Uffizi Qalereyasının ilk dəfə Azərbaycana gətirilən 2 orijinal portretidir. Kristofano Dell'Altissimonun müəllifi olduğu bu portretlər sərginin mərkəzi eksponatları olmaqla, bütün ekspozisiyanın ruhunu təşkil edir. Bu gün tamaşaçı bu möhtəşəm sənət əsərləri ilə tanış olmaq üçün gözəl imkana malikdir.*

*Sonra Heydər Əliyev Mərkəzində «Mini Azərbaycan» sərgisi ilə tanışlıq oldu. Bu sərgidə maket vasitəsilə Azərbaycanın tarixi və zəngin memarlıq nümunələrini görmək imkanı vardır.*

*Sərgidəki eksponatlardan biri də «Bakı Ekspo–2025»in ərazisinin maketidir. Burada 295 hektar ərazinin planı göstərilir. Sərgi ilə tanış olanlar, həmçinin Dövlət Bayrağı Meydanının, «Bakı Ağ şəhər»in, Heydər Əliyev Mərkəzinin, Ali Məhkəmənin, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının, Hökumət evinin, Azərbaycan Xalça Muzeyinin maketlərinə baxdılar.*

*Heydər Əliyev Mərkəzində müxtəlif mövzuları əhatə edən sərgilər fəaliyyət göstərir. Maraqla qarşılanan sərgilərdən biri də klassik avtomobillərin sərgisidir.*

*Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov bildirdi ki, Federasiyanın və Heydər Əliyev Mərkəzinin birgə layihəsi olan bu sərgidə avtomobilin yarandığı ilk dövrlərdən – XIX əsrin sonlarından başlayaraq, Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və keçmiş SSRİ-də istehsal olunmuş avtomobillər nümayiş etdirilir. Ziyarətçilər sərgini izləməklə, nəqliyyat vasitələrinin istehsalı tarixinə ekskursiya*

*edir, avtomobil sənayesinin ayrı-ayrı inkişaf mərhələləri ilə tanış olmaq imkanı qazanırlar. Bu sərgi həm də avtomobil həvəskarlarını bir araya toplayaraq, nostalji hisslər yaradır.*

*İtaliya Prezidenti Sercio Mattarella Heydər Əliyev Mərkəzindəki sərgilərlə tanışlıqdan məmnun qaldıqlarını diqqətə çatdırdı.*

## FRANSA RESPUBLİKASINA SƏFƏR

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə iyulun 19-da bu ölkəyə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportundan yüksəkvəzifəli şəxslər yola saldılar.*

# FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN İCRAÇI SƏDRİ TYERRİ DE MONTBRİAL İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşmüşdür.*

*Tyerri de Montbrial ümummilli lider Heydər Əliyev ilə Fransada və Azərbaycanda, Prezident İlham Əliyevlə Fransada keçirilən görüşləri məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı Fransa–Azərbaycan ikitərəfli münasibətləri, beynəlxalq və regional məsələlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparıldı.*

## «NAVAL» QRUPUNUN SƏDRİ VƏ BAŞ DİREKTORU ERVE GİYU İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə «Naval» qrupunun sədri və baş direktoru Erve Giyu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında hərbi sənaye sahəsində əməkdaşlıq haqqında müzakirələr aparıldı.*

*«Naval» qrupunun sədri və baş direktoru Erve Giyu rəhbərlik etdiyi şirkətin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev məlumata görə təşəkkürünü bildirdi.*

*Söhbət zamanı qeyd edildi ki, Azərbaycan ilə Fransa arasında hərbi-texniki sahədə əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı imkanlar var və hazırda Fransa tərəfi ilə konkret layihələr üzərində iş gedir.*

## FRANSA RESPUBLİKASI SENATININ SƏDRİ JERAR LARŞE İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə Fransa Respublikası Senatının Sədri Jerar Larşe ilə görüşmüşdür.*

*Senat binasının qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Senatın Sədri Jerar Larşe qarşıladı.*

*Dövlətimizin başçısı və Senatın Sədri Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev və Senatın Sədri Jerar Larşe birgə foto çəkdirdilər.*

*Jerar Larşe Azərbaycan Prezidenti İlham Əliyevi Fransa Senatında yenidən görməkdən məmnun olduğunu dedi. O belə səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Senatın Sədri, həmçinin Fransa ilə Azərbaycan arasında iqtisadi, siyasi, təhsil, mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlıqdan söz açdı. Bakıda Fransız liseyinin, Azərbaycan–Fransız Universitetinin fəaliyyət göstərdiyini xüsusi qeyd etdi. Bildirdi ki, bu, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.*

*Prezident İlham Əliyev Fransa Senatına növbəti dəfə gəlməkdən məmnunluğunu ifadə etdi. Qeyd etdi ki, bu gün Fransa ilə bütün səviyyələrdə aparılan dialoq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirdi ki, Azər-*

*baycan Fransanı özünə çox yaxın tərəfdaş, dost ölkə hesab edir və Azərbaycan bundan sonra da Fransa ilə mövcud olan əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır.*

*Görüşdə vurğulandı ki, Fransa ilə Azərbaycan arasında mövcud münasibətlər, burada aparılan müzakirələr Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanacaq sazişə öz müsbət töhfəsini verəcəkdir. Senatın Sədri Avropa İttifaqı ilə Azərbaycan arasında hərtərəfli sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu vurğuladı və bildirdi ki, Fransa bu sənədin imzalanmasında çox maraqlıdır.*

*Söhbət zamanı parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu qeyd edildi, bu əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin zəruriliyi vurğulandı. Fransa Senatında Fransa–Qafqaz Dostluq Qrupu çərçivəsində bir çox görüşlərin, qarşılıqlı səfərlərin keçirildiyi diqqətə çatdırıldı.*

*Görüşdə, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Senatın Sədri vurğuladı ki, Fransa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirmək niyyətindədir.*

*Sonra Prezident İlham Əliyev Senatın «Qızıl kitab»ını imzaladı.*

## TOTAL S.A. ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANE İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə Total S.A. şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə görüşmüşdür.*

*Görüşdə «Abşeron» qaz-kondensat yatağının işlənilməsi və inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Xəzərin Azərbaycan sektorundakı «Ümid–Babək» təbii qaz yataqlarının işlənilməsində Total S.A. şirkətinin iştirak etmə imkanları müzakirə olundu.*

## «AİRBUS» ŞİRKƏTİNİN AVRASİYA ÜZRƏ VİTSE-PREZİDENTİ SİLVER DELONAY İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə «Airbus» şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay ilə görüşmüşdür.*

*Görüşdə «Airbus» şirkəti ilə «Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı. «Azərsky» və «Spot-6» peyklərinin dünya bazarlarında uğurlu fəaliyyətindən məmnunluq bildirildi.*

*Azərbaycanın gələcəkdə «Airbus» şirkətindən daha yüksək yeni ayırdetmə peyklərini alması və peyklərlə bağlı texnologiyalar ətrafında müzakirələr aparıldı.*

## «SUEZ GROUP»UN BAŞ İCRAÇI DİREKTORU JAN LUİ ŞASSOD İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə «SUEZ Group»un baş icraçı direktoru Jan Lui Şassod ilə görüşmüşdür.*

*Görüşdə «SUEZ Group»un Bakı və Sumqayıt şəhərlərində içməli suyun təmizlənməsi üzrə bir neçə layihədə iştirakı müzakirə olundu. Azərbaycan əhalisinin artdığını diqqətə çatdıran Prezident İlham Əliyev bu layihələrin vacibliyinə toxundu, onların strateji əhəmiyyətini qeyd etdi.*

*Söhbət zamanı bu sahədə mövcud təkliflər nəzərdən keçirildi, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## «VİLMOTTE & ASSOCİÉS ARCHİTECTES» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU BORİNA ANDRİYE İLƏ GÖRÜŞ

*Paris*

*19 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Parisdə «Vilmotte & Associés Architectes» şirkətinin icraçı direktoru xanım Borina Andriye ilə görüşmüşdür.*

*«Vilmotte & Associés Architectes» şirkətinin icraçı direktoru Borina Andriye Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğuladı, şəhərin infrastrukturunun təkmilləşdirilməsini, yeni binaların, parkların tikilməsini yüksək qiymətləndirdi.*

*Söhbət zamanı Bakının inkişaf konsepsiyasının həyata keçirilməsində bu şirkətin iştirakının mümkünlüyü barədə fikir mübadiləsi aparıldı.*

## «THALES INTERNATIONAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə «Thales International» şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev «Thales International» şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə ötən görüşləri xatırlatdı. Dövlət başçısı «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Thales International» şirkəti arasında bu gün imzalanacaq 5 sənədin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın «Thales International» şirkəti ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirdi, şirkətin ölkəmizdə etibar qazandığını vurğuladı.*

*Rafael Eskinazi Azərbaycan ilə «Thales International» şirkəti arasında əməkdaşlığı yüksək qiymətləndirdiyini nəzərə çatdırdı, bu əlaqələrin genişləndirilməsi üçün səylərin davam etdiriləcəyini bildirdi. O, əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlərin nəzərdən keçirildiyini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə «Thales lnternational» şirkəti arasında uzun illərdir uğurlu əməkdaşlıq edildiyi məmnunluqla vurğulandı, müxtəlif layihələrin həyata keçirilməsi ilə bağlı çox yaxşı nəticələrin əldə olunduğu bildirildi.*

## «ROTHSCHİLD AND CO» ŞİRKƏTİNİN MÜŞAHİDƏ ŞURASININ SƏDRİ DEVİD DE ROTŞİLD İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə «Rothschild and Co» şirkətinin Müşahidə Şurasının sədri Devid de Rotşild ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə «Rothschild and Co» şirkəti arasında əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, bu əməkdaşlığın bank sektorunda, özəlləşdirmə sahəsində genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Devid de Rotşild babasının vaxtilə Azərbaycanda uğurlu fəaliyyət göstərdiyini, onun da bu ənənəni davam etdirmək niyyətində olduğunu bildirdi.*

## «IVECO FRANCE» ŞİRKƏTİNİN PREZİDENTİ SİLVAN BLEZ İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə «IVECO France» şirkətinin prezidenti, «IVECO Global Bus»ın rəhbəri Silvan Blez ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev «IVECO France» şirkətinin ekoloji baxımdan təmiz avtobuslarının Bakıda uğurla fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi, bu avtobusların şəhərimizin nəqliyyat infrastrukturunun inkişafında oynadığı rolu xüsusi vurğuladı. Dövlət başçısı «IVECO» avtobusları sayəsində Bakıda ictimai nəqliyyatla bağlı bir çox problemlərin həll olunduğunu dedi.*

*«IVECO France» şirkətinin prezidenti, «IVECO Global Bus»ın rəhbəri Silvan Blez Bakının nəqliyyat infrastrukturu sahəsində regionun aparıcı şəhəri olduğunu vurğuladı. Bildirdi ki, paytaxtda avtobus deposu beynəlxalq normalara uyğun təşkil olunub. O, şirkətinin avtobuslarının Bakının ictimai nəqliyyat infrastrukturunun müasirləşdirilməsində, həmçinin digər texnikasının kənd təsərrüfatı sahəsində aparıcı rol oynadığına ümid etdiyini bildirdi.*

## «CIFAL» QRUPUNUN PREZİDENTİ JİL REMİ İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə «CIFAL» qrupunun prezidenti Jil Remi ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Fransa işgüzar dairələrinin əməkdaşlığı, birgə layihələrin icrası, investisiya qoyuluşu məsələləri və digər sahələrdə əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «BOUYGUES TRAVAUX PUBLİCS» ŞİRKƏTİNİN BAŞ İCRAÇI KATİBİNİN MÜAVİNİ MARK ADLER İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə «Bouygues Travaux Publics» şirkətinin baş icraçı katibinin müavini Mark Adler ilə görüşmüşdür.*

*Fransanın Azərbaycanda fəaliyyət göstərən ən böyük şirkətlərindən biri olan «Bouygues Travaux Publics» şirkətinin baş icraçı katibinin müavini Mark Adler təmsil etdiyi qurumun ölkəmizdə nəqliyyat, inşaat, metro tikintisi sahələrində işləməkdə maraqlı olduğunu bildirdi.*

*Prezident İlham Əliyev bunu yüksək qiymətləndirdi və əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə etdi.*

## SADE ŞİRKƏTİNİN PREZİDENTİ PATRİK LÖLO İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşmüşdür.*

*Görüşdə SADE şirkətinin Azərbaycanda «Ağıllı şəhər» layihəsində və meliorasiya sahəsində fəaliyyətindən məmnunluq ifadə olundu. Patrik Lölo bildirdi ki, SADE Azərbaycanda fəaliyyətini bundan sonra da davam etdirmək niyyətindədir.*

*Prezident İlham Əliyev SADE şirkətinin Azərbaycanda fəaliyyətinin dəstəkləndiyini qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, meliorasiya sahəsi Azərbaycan üçün prioritet istiqamətlərdəndir.*

*Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olundu.*

## FRANSA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ FRANSUA DE RÜJİ İLƏ GÖRÜŞ

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Parisdə Fransa Respublikası Milli Assambleyasının Sədri Fransua de Rüji ilə görüşmüşdür.*

*Milli Assambleyanın binasının önündə dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Milli Assambleyanın Sədri Fransua de Rüji qarşıladı.*

*Dövlətimizin başçısı və Milli Assambleyanın Sədri Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra birgə foto çəkdirdilər.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Prezident İlham Əliyevin Fransaya bu səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Dövlətimizin başçısı Fransaya bu səfəri çərçivəsində bir çox şirkətlərin rəhbərləri ilə görüşlərini qeyd etdi, Azərbaycan ilə Fransa arasındakı uğurlu əməkdaşlığın həmin şirkətlərlə layihələrin həyata keçirilməsinə zəmin yaratdığını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Fransanın 15 şəhərinin qardaşlaşdığını qeyd etdi. Dövlət başçısı vurğuladı ki, bu, ölkələrimiz arasında münasibətlərin səviyyəsini göstərir və regionlar arasındakı təmasların inkişaf etməsinə imkanlar açır.*

*Görüşdə, həmçinin Azərbaycan–Fransa əlaqələrinin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı baxımından önəmi qeyd edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni sahələrdə münasibətlərin inkişafı, bu sahələrdə gələcək layihələrin reallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Fransada daha geniş tanıdılması istiqamətində işlərin genişləndirilməsinin zəruriliyi vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparıldı.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRONUN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*Paris*

*20 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə iyulun 20-də Parisdə Yelisey sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından nahar verilmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev Yelisey sarayına gəldi.*

*Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanda Fransız liseyinin və Azərbaycan–Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan–Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparıldı.*

*Vurğulandı ki, Fransanın aparıcı şirkətləri Azərbaycanda fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır.*

*Dövlətimizin başçısı bu səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli görüşlərin aparıldığını qeyd*

*etdi. Bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığı vurğulandı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərə malik müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaqdır. Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olundu, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra edildiyi vurğulandı. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olundu.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verdi. Ümidvarlıq ifadə olundu ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcəkdir.*

*Sonra sənədlərin imzalanması və mübadiləsi mərasimi oldu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 iyul 2018-ci il*

*Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından iyulun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə verilmiş nahardan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyəti və «SUEZ Group» arasında operativ təlim, «knou-hou» transfer və texniki yardım üzrə 2014-cü il tarixli Xidməti Müqaviləyə 2 nömrəli Əlavə, «Azərsu» ASC və «SUEZ Group» arasında Sumqayıt şəhərində suyun və su itkisinin idarə olunmasına dair Niyyət Sazişi imzalandı.*

*«Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində əməkdaşlıq fəaliyyətinə dair Çərçivə Sazişi imzalandı.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti və «Thales» şirkəti arasında mülki aviasiya sahəsində sənaye əməkdaşlığı haqqında Anlaşma Memorandumu», «Azərbaycan Hava Yolları» QSC və «Modern Construction Group», «Thales» şirkəti arasında Heydər Əliyev Beynəlxalq Aeroportu üçün radiolokasiya sisteminin quraşdırılması Müqaviləsi» imzalandı. «Azərbaycan Hava Yolları» QSC və «Thales» şirkəti arasında «Azərbaycan Hava Yolları» QSC-nin kibertəhlükəsizliyi üçün tam təhlilin hazırlanması Müqaviləsi», «Azərbaycan Hava Yolları» QSC və «Thales» şirkəti arasında «Azəraeronaviqasiya» Hava Hərəkəti İdarəsində kibertəhlükəsizliyin təmini üçün tam təhlilin hazırlanması Müqaviləsi» və «Azərbaycan Hava Yolları» QSC ilə «Thales» şirkəti arasında uçuş he-*

*yətləri üçün inteqrasiya edilmiş brifinq sisteminin yaradılması üzrə Niyyət Məktubu» imzalandı.*

**Səfər başa çatdı**

*Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə Fransa Respublikasına səfəri iyulun 20-də başa çatdı.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və daha da möhkəmləndirilməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2018-ci il*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLAS İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

Sizi Azərbaycanda salamlayır və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclasının işində sizə uğurlar arzulayıram.

25 ildən artıq bu formatda həyata keçirilən əməkdaşlıq müasir dövrdə beynəlxalq terrorçuluğun və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarının doğurduğu çağırış və təhdidlərə qarşı kollektiv mübarizənin səmərəliliyinin bariz nümunəsidir.

Ötən illər ərzində Daxili İşlər Nazirləri Şurası ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığa qarşı mübarizənin bütün istiqamətlərində mühüm işlər görmüş və qarşılıqlı fəaliyyəti təmin etmişdir. Bunun nəticəsində əməkdaşlıq potensialı, məlumat mübadiləsi və birgə tədbirlərin keçirilməsinin effektivliyi əhəmiyyətli dərəcədə artmışdır.

Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin, regionların və bütövlükdə dünyanın təhlükəsizliyinə təhdidlər artmaqda davam edir, bu təhdidlərin həyata keçirilmə forma və üsulları isə daha da mürəkkəb və təhlükəli xarakter alır. Bununla əlaqədar olaraq, daxili işlər orqanları daim qabaqlayıcı tədbirlər görməyə və vəziyyətə adekvat reaksiya verməyə hazır olmalıdır.

Bu məsələlərdə müvafiq beynəlxalq qurumlar, xüsusilə Azərbaycanın uğurla əməkdaşlıq etdiyi Beynəlxalq Kriminal Polis Təşkilatı – İnterpol xətti ilə əlaqələr olduqca vacibdir. Biz bu nüfuzlu beynəlxalq təşkilatın milli və beynəlxalq təhlü-

kəsizliyin təmin edilməsi ilə bağlı informasiya və texniki dəstəyini yüksək qiymətləndiririk.

Daxili İşlər Nazirləri Şurasının hazırkı iclasının Azərbaycan Xalq Cümhuriyyətinin, habelə Azərbaycan polisinin 100 illiyinin qeyd olunması ilə təsadüf etməsi əlamətdar haldır. Bu gün Azərbaycan bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasətə uyğun olaraq, güclü, müstəqil, demokratik və hüquqi dövlət kimi inkişaf etməkdədir. Daxili işlər orqanları ölkəmizdə sabitliyin və qanunçuluğun təmin edilməsinə mühüm töhfə verir, beynəlxalq terrorçuluğa və dini ekstremizmə qarşı ciddi mübarizə aparır. Bu işdə MDB iştirakçısı olan dövlətlərin tərəfdaş təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Əminəm ki, Daxili İşlər Nazirləri Şurasının iclası çərçivəsində məhsuldar fikir mübadiləsinin aparılması ölkələrimizin rifahı naminə mövcud əməkdaşlığın daha da möhkəmlənməsinə əlavə təkan verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2018-ci il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
ABDULLA YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2018-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Afina yaxınlığında tüğyan edən meşə yanğınları nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yunanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2018-ci il*

**PERU RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MARTİN VİZKARRA KORNEXOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2018-ci il*

**MƏRAKEŞ KRALI**
**ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Milli bayramınız – Taxt-Tac Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan–Mərakeş münasibətlərinin hərtərəfli inkişafı və daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2018-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEN BERSEYƏ**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İsveçrə arasındakı dostluq əlaqələrinin genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2018-ci il*

**BENİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PATRİS TALONA**

Hörmətli cənab Prezident!

Benin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2018-ci il*

## AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 iyul 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunaraq, bu yaxınlarda Brüsselə səfərini və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla keçirdiyi görüşünü məmnunluqla xatırladaraq söylədi ki, həmin səfər zamanı aparılan səmərəli danışıqlar və Azərbaycanla Avropa İttifaqı arasında «Tərəfdaşlıq prioritetləri» sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün önəmlidir. Prezident İlham Əliyev qeyd etdi ki, eyni zamanda, bu sənədin paraflanması Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha nümayiş etdirdi. Azərbaycan–Avropa İttifaqı əlaqələri gündəliyinin geniş olduğunu bildirən dövlətimizin başçısı əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır və bu təşkilat Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşlərinin və Brüsseldəki tədbirlərin çox yaxşı səviyyədə keçdiyindən məlumatlı olduqlarını vurğuladı. Toivo Klaar Avropa İttifaqı–Azərbaycan əlaqələrinin genişləndiyini qeyd edərək, əməkdaşlığın daha da*

*inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğunu dedi. Bu baxımdan qonaq Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, nəqliyyat, ticarət, turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

## QARABAĞ, İKİNCİ DÜNYA MÜHARİBƏLƏRİ, ÇERNOBIL ƏLİLLƏRİ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ MƏNZİLLƏRİN VƏ AVTOMOBİLLƏRİN VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*1 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, İkinci dünya müharibələri, Çernobıl əlilləri və şəhid ailələrinə mənzil və avtomobillərin verilməsi mərasimində iştirak etmişlər.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına məlumat verdi ki, nazirlik «ŞA-İnşaatçı» Mənzil Tikinti Kooperativi tərəfindən inşa olunan binadan ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə verilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.*

*Daimi qaz, su və işıqla təchiz edilmiş mənzillər yüksək səviyyədə təmir olunub, bütün zəruri avadanlıqlar, o cümlədən mətbəx mebeli ilə təmin edilib, kombi sistemi qurulubdur.*

*Sonra Prezident İlham Əliyev əlil və şəhid ailələrinin üzvləri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Lökbatan qəsəbəsində yeni inşa edilmiş yaşayış kompleksində Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 35 mənzil təqdim olunur. Dövlət bu mənzilləri satın alıb və sizə hədiyyə edir. Eyni zamanda, bu gün sizə 136 minik maşını da verilir. Bu da dövlət tərəfindən sizə verilən növbəti hədiyyədir.

Deməliyəm ki, son 20 il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil, 6000-dən çox minik maşını verilibdir. Yəni bu, dövlətin sizə olan qayğısının təzahürüdür və bu siyasət bu gün də davam etdirilir. Dediyim kimi, bu gün 35 mənzil verilir. Ancaq ilin sonuna qədər nəzərdə tutulan rəqəm əlavə 170 mənzil və fərdi evdir. Bununla belə, nəzərə alsaq ki, hələ də növbədə kifayət qədər insan var – təqribən 4000-ə yaxın insan növbədədir – mən əlavə vəsait ayıraraq, bu il minimum daha 300 mənzilin alınması ilə bağlı qərar qəbul edəcəyəm. Beləliklə, ehtiyac içində yaşayan 500-ə yaxın insan ilin sonuna qədər mənzillərlə təmin ediləcək. Biz çalışmalıyıq ki, bu proqramı tezliklə başa çatdıraq. Əlbəttə, buna nail olmaq üçün kifayət qədər maliyyə vəsaiti olmalıdır. Biz imkan daxilində bu vəsaiti təmin və təşkil edib sizə mənzilləri təqdim edəcəyik. Hələ də mənzillə təmin olunmayan şəhid ailələri, müharibə əlilləri mütləq mənzil alacaqlar.

Dövlət öz siyasətini aparır. Bu kateqoriyadan olan insanların məşğulluq problemləri də həll olunur. Bildiyiniz kimi, biz indi genişmiqyaslı özünüməşğulluq proqramının icrasına başlamışıq. Hər il ən azı 7000 ailə bu proqramla əhatə olunacaq. Hər bir ailəyə minimum 5000 manat dəyərində ləvazimat, vəsait, müxtəlif təyinatlı avadanlıqlar veriləcək ki, onlar öz biznesini, öz işini qura bilsinlər. Göstəriş verilibdir ki, müharibə əlilləri, şəhid ailələri də mütləq bu proqramla əhatə olunsunlar. Artıq bu işlər başlanıbdır, təlim kursları aparılır. Beləliklə, biz məşğulluq probleminin həllinə də çox ciddi töhfə vermiş olacağıq.

Dövlətimizin sosial siyasəti uğurla aparılır. Görülmüş işlər bunun bariz nümunəsidir. Dediyim rəqəmlər göstərir ki, dövlət həmişə sizin yanınızdadır. Eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün, qaçqın soydaşlarımız vardır. Onlar da dövlət tərəfindən qayğı ilə əhatə olunurlar. Son illərdə 100-ə yaxın qəsəbə salınıb. 300 minə yaxın köçkün evlərlə, mənzillərlə təmin edilib. Bu siyasət davam etdirilir. Bu il Qaradağ rayonunun Qobu qəsəbəsində 1000 mənzillik yeni köçkün qəsəbəsi salınıbdır. Orada da bütün infrastruktur, bütün lazımi məsələlər öz həllini tapıb. İlin sonuna qədər isə 4000 köçkün ailəsi, təqribən 20 min insan yeni mənzillərlə təmin ediləcək. Yəni biz ancaq bu layihələri nəzərə alsaq görərik ki, nə qədər böyük qayğı göstərilir və bu məqsədlərə çatmaq üçün dövlət nə qədər vəsait xərcləyir.

Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir. Biz imkan daxilində bu məsələləri həll edirik. Deyə bilərəm ki, işğaldan və etnik təmizləmədən əziyyət çəkmiş dövlətlər arasında Azərbaycanda bu sahədə görülən işlər ən yüksək səviyyədədir. Bunu beynəlxalq təşkilatlar da, BMT də qeyd edir və Azərbaycan təcrübəsi bir çox ölkələr üçün nümunə kimi göstərilir. Bəlkə də dünyada öz vətəndaşlarına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Bu bir daha bizim siyasətimizin niyyətini əks etdirir. Bu siyasət davam etdiriləcək. Bir daha demək istəyirəm ki, bu gün növbədə duran bu kateqoriyadan olan bütün insanlar imkan daxilində mənzillərlə, evlərlə, maşınlarla təmin ediləcəklər.

O ki qaldı bizim iqtisadi potensialımıza – çünki bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq – iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı

nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaqdır. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəldikdə isə, o həllin bir yolu var: ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Bunu tarix deyir, beynəlxalq hüquq deyir və bütün dünya dövlətləri ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Keçən ay Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış «Tərəfdaşlıq prioritetləri» sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı Azərbaycana çox böyük dəstək ifadə olunmuşdur. Bu bizim növbəti diplomatik qələbəmizdir. Keçən ay NATO-nun Zirvə görüşünün nəticəsi olaraq qəbul edilmiş Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilib. Yəni bunlar çox ciddi siyasi sənədlərdir, həqiqəti, beynəlxalq hüququ əks etdirən sənədlərdir, işğalçı ölkəyə göndərilən çox ciddi siqnallardır. Onlar bilsinlər ki, mötəbər beynəlxalq təşkilatlar bu məsələni diqqətdə saxlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həlli yalnız bu prinsiplər əsasında ola bilər və olmalıdır.

İşğalçı dövlət indi ağır günlər yaşayır. 20 il Ermənistana rəhbərlik etmiş kriminal xunta rejimi çökdü. Onların işğalçı siyasəti iflasa uğradı. Onların bu vəziyyətə düşməsinin əsas səbəbi işğal siyasətidir. Əgər işğal siyasəti olmasaydı, Ermənistan regional layihələrdən təcrid edilməyəcəkdi və beləliklə, bizim imkanlarımızdan faydalana bilərdi. Məhz işğalçılıq siyasətinə görə Ermənistan bu gün bu ağır, təcrid edilmiş vəziyyətdədir və iqtisadi inkişaf üçün heç bir perspektiv yoxdur. O vaxta qədər ki, Azərbaycanla münasibətlər normal-

laşmayacaq. Normallaşmanın da bir yolu var – işğalçı dövlət bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxmalıdır. Necə ki, dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurası 25 il əvvəl qətnamə qəbul edib və orada açıq-aydın göstərilir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə qalacaqdır. Münaqişənin həlli üçün yol, bax, bu yoldur.

Ermənistanın yeni hökuməti bunu yaxşı başa düşməlidir. Əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Düzdür, yeni hökumət indi daxili işlərlə daha çox məşğuldur, ancaq bildirməliyəm ki, onlar tərəfindən səslənən ziddiyyətli bəyanatlar həm bizdə, həm bu məsələ ilə məşğul olan ölkələrdə və beynəlxalq təşkilatlarda təəccüb doğurur. Çünki bir-birini təkzib edən bu bəyanatlar başa düşülən deyil. Bir tərəfdən deyirlər ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağın qondarma rejimi ilə danışıqlar aparmalıdır. Bu, ümumiyyətlə, qəbuledilməzdir və bu elə bir təklifdir ki, bu təklifi verən tərəf bəri başdan bilir ki, bu, qəbul edilməyəcək. Digər tərəfdən, bu təklif vasitəçilər tərəfindən də heç vaxt qəbul edilməyəcək. Üçüncü tərəfdən, o bəyanatdan bir müddət keçəndən sonra Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri görüşür və danışıqlara başlayır. Yəni tamamilə bir-birini təkzib edən, bir-birinə zidd olan yanaşmadır. Əlbəttə, biz başa düşürük, yeni hökumətə müəyyən qədər vaxt lazımdır ki, beynəlxalq münasibətlərdə mövcud olan praktikanı düzgün təhlil etsin. Ancaq bu bəyanatlar sülh prosesinə vurulmuş növbəti zərbələrdir və bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki onlar işğal siyasətini davam etdirmək fikrindədirlər. Hələlik biz belə qənaətə gələ bilərik.

Ermənistandan sülhə yönəlmiş çağırışlar da edilir, biz də bu çağırışları eşidirik. Əlbəttə, biz də sülh istəyirik, amma biz torpaqlarımızı istəyirik. Torpaqlarımız qayıtmayana qədər sülh olmayacaq və Ermənistanın yeni rəhbərliyi bunu çox yaxşı başa

düşməlidir. Sülh istəyirlərsə, erməni əsgəri torpaqlarımızdan çıxmalıdır. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Müharibədən əziyyət çəkmiş, həlak olmuş, əlil olmuş Azərbaycan vətəndaşları öz torpağında həlak olublar, əlil olublar, Ermənistan torpağında yox. Ona görə münaqişənin həllinin bir yolu var – işğalçı qüvvələr bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Onda bölgədə sülh yaranar. Onda Ermənistan ilə Azərbaycan arasında əlaqələr yarana bilər. Onda regionun geosiyasi vəziyyəti tamamilə dəyişə bilər və dayanıqlı sülh yarana bilər.

Biz bunu istəyirik. Dediyim kimi, münaqişənin tezliklə və mərhələli yollarla həlli torpaqlarımızın azad olunmasından asılıdır. Biz bunu tələb edirik və beynəlxalq hüquq da bunu tələb edir. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik, bütün vasitələrdən istifadə edib Ermənistanı daha da sarsıdacağıq. Çünki kriminal xunta rejiminin çökməsində Azərbaycanın rolu da az deyil. Onları çökdürən və uçuruma aparan birinci zərbə 2 il bundan əvvəl vurulub. Aprel döyüşləri onların çürümüş sütunlarını tamamilə sıradan çıxarıb və ondan sonra kriminal xunta rejimi uçuruma doğru getməyə başlayıb. Bunu heç kim unutmamalıdır. 2 il bundan əvvəl bu döyüşlər cəmi 4-5 gün davam etdi. Buna baxmayaraq, biz 2000 hektar torpağı işğalçılardan azad etdik və indi minlərlə hektar torpağa nəzarət edirik. Azərbaycan Ordusunun qüdrətini iyun ayında keçirilmiş hərbi paradda göstərdik. Azərbaycan Ordusu bu gün həm texniki təchizat, döyüş qabiliyyəti, həm də silah və sursat baxımından dünya miqyasında ən güclü ordular sırasındadır, nadir ölkələrdə bizim qədər imkan vardır. Bizim hərbi qələbələrimiz davam edir. Bu ilin may ayında uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11000 hektar torpaq işğalçılardan azad edilib. İndi oraya həyat qayıdır, əkin işləri aparılacaqdır.

Biz öz siyasətimizi davam etdirəcəyik, daha da güclü olmalıyıq. Bütün beynəlxalq təşkilatlar bizi beynəlxalq və siyasi müstəvidə dəstəkləyir. İqtisadi sahədə Ermənistanla Azərbaycan arasında yer-göy qədər fərq vardır. Həm hərbi paradda nümayiş olunan imkanlar, həm də döyüş meydanında göstərilən şücaət, qəhrəmanlıq göstərdi ki, kim kimdir və kim nəyə qadirdir. Biz bütün bu imkanlardan istifadə edirik və edəcəyik. Biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Bir daha demək istəyirəm, Ermənistan rəhbərliyi bilməlidir ki, sülh istəyirsə, torpaqlarımızdan öz xoşu ilə çıxmalıdır.

Sizə isə Azərbaycan dövləti bundan sonra da qayğı və diqqət göstərəcək. Buna əmin ola bilərsiniz. Biz əlimizdən gələni edəcəyik ki, bu gün növbədə duran şəhid ailələri, müharibə veteranları tez bir zamanda mənzillərlə, maşınlarla təmin olunsunlar.

Mən sizi ürəkdən təbrik edirəm, salamlayıram, sizə can-sağlığı, xoşbəxtlik arzulayıram.

* * *

*Prezident İlham Əliyev mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim etdi.*

*Ümumilikdə 136 vətəndaşa «Khazar LX» avtomobili verildi. Onlardan 110-u ərazi bütövlüyümüzün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə İkinci dünya müharibəsi və Çernobıl əlilləridir. «Khazar LX» avtomobilləri Neftçala Sənaye Parkında fəaliyyət göstərən «Azərmaş» MMC tərəfindən istehsal olunub. Sosial məsuliyyət prinsipləri çərçivəsində şirkət əlavə olaraq 3 avtomobil də təqdim etdi.*

*Prezident İlham Əliyev sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Əlillərə, müharibə veteranlarına*

*və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində Fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur. Bu gün Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, İkinci dünya müharibələri, Çernobıl əlilləri və şəhid ailələrinə mənzil və avtomobillərin verilməsi də Prezident İlham Əliyevin bu kateqoriyadan olan insanlara göstərdiyi dövlət qayğısının növbəti nümunəsidir.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

«Mi-8» helikopterinin Krasnoyarsk diyarında qəzaya uğraması nəticəsində insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 avqust 2018-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2018-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ XANIM HƏLİMƏ YAQUBA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sinqapur xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2018-ci il*

## BƏHREYN KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İBRAHİM YUSUF AL ABDULLA İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İbrahim Yusuf Al Abdullanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir İbrahim Yusuf Al Abdulla Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*İbrahim Yusuf Al Abdulla etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev İbrahim Yusuf Al Abdullanın səfirlik fəaliyyəti dövründə Azərbaycanın müxtəlif qurumlarının rəhbərləri ilə görüşəcəyinə və bu görüşlərin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.*

*İbrahim Yusuf Al Abdulla Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Bəhreyn Krallığında Azərbaycan xalqının son illər Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə əldə etdiyi uğurlar böyük maraqla izlənilir.*

*Səfir İbrahim Yusuf Al Abdulla ölkələrimiz arasında iqtisadi, ticari və mədəni əlaqələrin genişləndirilməsinin zəruri olduğunu bildirdi.*

*Azərbaycan ilə Bəhreyn arasında bir çox oxşar məqamların olduğunu deyən səfir vurğuladı ki, hər iki ölkə öz müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmləndirilməsi, eyni zamanda, siviliza-*

*siyalararası dialoqun təşviqi, sülh və əmin-amanlıq şəraitində yaşaması üçün bütün dünyada səylər göstərir.*

*İbrahim Yusuf Al Abdulla qeyd etdi ki, Azərbaycan Prezidentinin və Bəhreyn Kralının əlaqələrimizin inkişafı ilə bağlı göstərdikləri siyasi iradə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaradır. Beynəlxalq ictimaiyyətin bizim ölkələrimizə böyük etimadı vardır.*

*Səfir onu da bildirdi ki, Azərbaycan postsovet məkanında, Bəhreyn isə Yaxın Şərqdə aparıcı maliyyə mərkəzlərindən biridir və bu, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaradır.*

*Dövlətimizin başçısı siyasi əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu bildirərək, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini müxtəlif məsələlər, o cümlədən ölkələrimizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü məsələlərində dəstəklədiyini, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda həmrəylik göstərdiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın islam həmrəyliyi işinə böyük töhfə verdiyini və bunun İslam Əməkdaşlıq Təşkilatı tərəfindən yüksək qiymətləndirildiyini bildirərək, keçən il ölkəmizdə «İslam həmrəyliyi ili»nin elan olunduğunu və böyük müvəffəqiyyətlə IV İslam Həmrəyliyi oyunlarının keçirildiyini vurğuladı. Azərbaycanın müsəlman ölkələri arasında birliyin və qarşılıqlı dəstəyin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı. İqtisadi-ticari əlaqələrin, qarşılıqlı ixracatın genişləndirilməsinin vacibliyinə toxunan dövlət başçısı turizm sahəsində də böyük potensialın olduğunu və Bəhreyndən Azərbaycana gələn turistlərin sayının durmadan artdığını qeyd etdi.*

*Dövlətimizin başçısı Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Bəhreynin Kralına çatdırmağı xahiş etdi.*

## ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD ŞƏRİF ANİS İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Şərif Anisin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Məhəmməd Şərif Anis Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Məhəmməd Şərif Anis etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Şri-Lanka arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirərək, beynəlxalq təşkilatlarda ölkələrimizin bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə etdi.*

*İqtisadi sahədə əlaqələrin inkişafının önəmini qeyd edən dövlət başçısı bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev Məhəmməd Şərif Anisin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində vəzifələrin müəyyənləşdirilməsi üçün Azərbaycanın müvafiq qurumları ilə səmərəli görüşlər keçirəcəyinə və qarşılıqlı səfərlərin təşkil olunacağına əminliyini bildirdi.*

*Məhəmməd Şərif Anis Şri-Lanka Prezidenti Maytripala Sirisenanın və Şri-Lankanın Baş Naziri Ranil Vikramasinqxenin salamlarını dövlət başçısına çatdırdı. Səfir ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsinin önəminə*

*toxunaraq, ticarət və sənaye sahələrində əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

*Azərbaycanın regionda ən gözəl turizm məkanlarından biri olduğunu qeyd edən səfir bu sahədə Şri-Lanka ilə Azərbaycan arasında əməkdaşlığın qurulması üçün geniş imkanların olduğunu və qarşılıqlı investisiya sahəsində imkanların araşdırılmasının zəruriliyini bildirdi.*

*Prezident İlham Əliyev Məhəmməd Şərif Anisin ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu dedi.*

*Dövlət başçısı İlham Əliyev Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenanın və Şri-Lankanın Baş Naziri Ranil Vikramasinqxenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şri-Lanka Prezidentinə və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

# KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KİM HEN CUN İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kim Hen Cunun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Kim Hen Cun Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kim Hen Cun etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı gələcək illərdə ölkələrimiz arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsinin və əməkdaşlığın möhkəmləndirilməsinin zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT və «Qoşulmama Hərəkatı»nda fəal əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirərək, bu il Azərbaycanda «Qoşulmama Hərəkatı»nın Xarici İşlər nazirləri səviyyəsində konfransının keçirildiyini və tədbir çərçivəsində Koreya Xalq Demokratik Respublikasının Xarici İşlər naziri ilə görüşünü məmnunluqla xatırlatdı. Azərbaycanın gələn il bu təşkilatın sammitinə ev sahibliyi edəcəyini nəzərə çatdıran dövlət başçısı ikitərəfli münasibətlərimizin müxtəlif formatlarda bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Səfir Kim Hen Cun ilk növbədə, Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Inın və Koreya Xalq Demokratik Respublikası Ali Xalq Yığıncağı Rəyasət He-*

*yətinin Sədrinin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir Koreya Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin tarixi ənənələrə söykəndiyini qeyd edərək, ikitərəfli münasibətlərimizin əsasının rəhbər Kim İr Sen və xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğuladı. Səfir qeyd etdi ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra onun suverenliyini ilk tanıyan ölkələrdən biri Koreya Xalq Demokratik Respublikası olub və bu illərdə əlaqələrimiz inkişaf edibdir.*

*Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Inın və Koreya Xalq Demokratik Respublikası Ali Xalq Yığıncağı Rəyasət Heyətinin Sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen Ina və Koreya Xalq Demokratik Respublikası Ali Xalq Yığıncağı Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Emoməli Rəhmona, Tacikistan Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Tacikistan prezidentləri rəsmi foto çəkdirdilər.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da təkbətək görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Emoməli Şərifoviç! Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Sizin səfərinizə çox sevinirəm. Əminəm ki, səfər ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək. Biz gündəliyimizdə duran mühüm məsələləri, regional əməkdaşlıq məsələlərini müzakirə edəcəyik. Ölkələrimizi daha da yaxınlaşdırmaq üçün çox iş görməliyik. Səfəriniz ərəfəsində nümayəndə heyətlərimiz çox fəal iş görüblər, ticari-iqtisadi inkişaf, nəqliyyat infrastrukturu ilə bağlı bir çox məsələləri müzakirə ediblər. Əməkdaşlığı gücləndirmək üçün yaxşı zəmin vardır. Əlbəttə, bu gün biz bunu mütləq müzakirə edəcəyik. Həmçinin bu gün bizim uğurla irəliləməyimiz üçün hüquqi baza yaradacaq xeyli sənəd imzalanacaq və bunların arasında çox mühüm sənəd olan prezidentlərin Birgə Bəyanatının imzalanmasını qeyd etmək istərdim.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfər məhsuldar olacaq. Biz həm Tacikistanda, həm Azərbaycanda, həm də beynəlxalq müstəvidə tez-tez görüşürük. Əlbəttə ki, gündəlikdə duran məsələləri ətraflı müzakirə etmək üçün yaranan bu imkan münasibətlərimizə yeni impuls verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**E m o m ə l i R ə h m o n:** İlham Heydər oğlu, dəvətə görə çox sağ olun. Biz dost Azərbaycanın sosial-iqtisadi inkişafına,

beynəlxalq arenada uğurlarına səmimi-qəlbdən sevinirik. Tacikistan Azərbaycanla çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət verir. Tacikistan–Azərbaycan qarşılıqlı əlaqələrin bütün formatlarda dinamik inkişafı sevindiricidir. Əminəm ki, bizim bugünkü görüş bütün əsas məsələlər üzrə qarşılıqlı münasibətlərimizə yeni impuls verəcəkdir. Sağ olun.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da təkbətək görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident! Hörmətli qonaqlar! Emoməli Şərifoviçi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Sizi yenidən görməyə çox şadam. Bizim bu gün ikitərəfli münasibətlərin gündəliyini ətraflı müzakirə etmək imkanımız oldu, regional əməkdaşlıq məsələlərinə toxunduq. Bu gün nümayəndə heyətlərinin iştirakı ilə işimizi davam etdirəcəyik.

Biz Sizi Azərbaycanda görməyimizə çox şadıq. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verəcək. Biz beynəlxalq arenada çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Tacikistan və Azərbaycan iştirak etdiyimiz beynəlxalq təşkilatlarda ənənəvi olaraq bir-birini dəstəkləyir və bu dəstək ölkələrimiz üçün çox əhəmiyyətlidir.

Biz bu gün qarşılıqlı iqtisadi fəaliyyəti də müzakirə edəcəyik. Artıq nümayəndə heyətlərinin üzvləri fəal iş aparıblar. Sizin səfəriniz ərəfəsində səfərlə bağlı materialları hazırlamaq və iqtisadi layihələr, o cümlədən nəqliyyat, ölkələrimizin sənayesinin inkişafına dair layihələr üzrə vacib qərarlar qəbul etmək üçün ölkələrimizin rəsmi təmsilçilərinin bir neçə görüşü keçirilib. Biz bu haqda artıq danışmışıq və daha geniş tərkibdə bu məsələləri müzakirə edəcəyik.

Əlbəttə ki, münasibətlərimizin vacib hissəsini humanitar sahədə əməkdaşlıq təşkil edir. Burada biz xalqlarımız arasında ənənəvi əlaqələrə istinad edirik. Bu əlaqələr bugünkü münasibətlər üçün yaxşı təməldir. Düşünürəm ki, qarşıdakı illərdə biz, həmçinin xalqlarımızın daim sıx təmasda olması məqsədilə ölkələrimizdə mütəmadi mədəni tədbirlər keçirmək üçün iş aparmalıyıq. Münasibətlərimizin gündəliyi çox genişdir. Biz mütəmadi görüşürük, səfərlər, beynəlxalq xarakterli tədbirlər çərçivəsində vacib məsələləri müzakirə edirik. Şadıq ki, bu gün dostluq münasibətləri uğurla inkişaf edir. Mən bir daha Sizi səmimi-qəlbdən salamlayıram və Azərbaycanda vaxtınızı yaxşı keçirməyi arzulayıram.

**E m o m ə l i R ə h m o n:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu və əziz azərbaycanlı dostlar! Biz bugünkü görüşümüzə çox şadıq. İlk növbədə, dost Azərbaycana rəsmi səfərə dəvətə, səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığımızı bildirmək istərdim.

Tacikistan Respublikası xalqlarımız arasında tarixi mədəni birliyə və çoxəsrlik ənənələrə əsaslanan dostluq əlaqələrini yüksək dəyərləndirir. Qeyd etməyə şadam ki, bu gün Tacikistan–Azərbaycan münasibətləri getdikcə inkişaf edir. Biz qarşılıqlı maraq doğuran əməkdaşlığımızın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətimizin genişləndirilməsində və dərinləşdirilməsində maraqlıyıq. Əminəm ki, bu gün əldə edəcəyimiz razılaşmalar çoxşaxəli tərəfdaşlığımızı yeni məzmunla zənginləşdirəcək, daha yüksək və keyfiyyətli səviyyəyə çıxaracaqdır.

Hörmətli İlham Heydər oğlu, müstəqillik illərində öz sosial-iqtisadi inkişafında böyük uğurlar əldə edən Azərbaycanın beynəlxalq arenada mövqeyi ardıcıl surətdə möhkəmlənir. Ölkənin uğurunun parlaq nümunəsi onun paytaxtının simasının ildən-ilə dəyişməsidir. Mən görüş zamanı bu barədə danışdım. Bakı bu gün haqlı olaraq dünyanın ən gözəl və müasir şəhərlərindən biri sayılır. Bütün bu nailiyyətlər Sizin cəmiyyət

tərəfindən daha çox və hərtərəfli dəstəklənən uğurlu dövlət siyasətinizlə əlaqədardır. Səmimi-qəlbdən Sizə uğurlar və Azərbaycan xalqının rifahı naminə nailiyyətlər arzulayıram.

Azərbaycan Qafqaz regionunda bizim üçün mühüm tərəfdaşdır. Məmnuniyyətlə Tacikistan–Azərbaycan münasibətlərinin uğurla genişləndirilməsi meylini qeyd etmək istərdim. Dostluq və əməkdaşlıq barədə müqaviləyə əsaslanaraq, ötən illər ərzində biz münasibətlərimizin sanballı müqavilə-hüquq bazasını formalaşdırmışıq. Bu baza bu gün, demək olar ki, əməkdaşlığın bütün sahələrini əhatə edir. Bu gün ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə yönələn ikitərəfli sənədlərin yeni paketi imzalanacaqdır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə avqustun 10-da geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Birgə Bəyanatı imzaladılar.*

*«Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum»u AZPROMO-nun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev və Tacikistanın İnvestisiya və Dövlət Əmlakının İdarəedilməsi üzrə Dövlət Komitəsinin sədri Farrux Xamralizoda imzaladılar.*

*«Azərbaycan Sənaye Korporasiyası» ilə «Tacik Alüminium Kompaniyası» (TALKO) Dövlət Unitar Müəssisəsi arasında Anlaşma Memorandumu»nu «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Kamran Nəbizadə və «Tacik Alüminium Kompaniyası» Dövlət Unitar Müəssisəsinin Direktorlar Şurasının sədri Kabir Şerali imzaladılar.*

*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti ilə Tacikistan Respublikası Hökuməti yanında Televiziya və Radio Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum»u «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov və Tacikistan*

*Respublikası Hökuməti yanında Televiziya və Radio Komitəsinin sədri Maxmadsaid Şoxiyon imzaladılar.*

*«SOCAR və TALKO şirkətləri arasında neft koksunun təchizatı haqqında Anlaşma Memorandumu»nu SOCAR-ın prezidenti Rövnəq Abdullayev və «Tacik Alüminium Kompaniyası» Dövlət Unitar Müəssisəsinin Direktorlar Şurasının sədri Kabir Şerali imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin sərhəd qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təlimi haqqında Saziş»i Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev və Tacikistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, Sərhəd Qoşunlarının komandanı Rəcəbəli Rəhmonəli imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Tacikistanın Qida Təhlükəsizliyi üzrə Komitəsinin sədri Farxod Kamolzoda imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılmasına dair Protokol»u Azərbaycanın Təhsil naziri Ceyhun Bayramov və Tacikistanın Təhsil və Elm naziri Nuriddin Said imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Tacikistanın İqtisadi İnkişaf və Ticarət naziri Nematcon Hikmatullozoda imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye və yeni texnologiyalar sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqti-*

*sadiyyat naziri Şahin Mustafayev və Tacikistanın Sənaye və Yeni Texnologiyalar naziri Şavkat Bobozoda imzaladılar.*

*«Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Tacikistan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Baş prokuroru Zakir Qaralov və Tacikistanın Baş prokuroru Yusif Rəhmon imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2019–2020-ci illər üzrə Əməkdaşlıq Proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Tacikistanın Xarici İşlər naziri Muxriddin Sirociddin imzaladılar.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon avqustun 10-da sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Emoməli Şərifoviç, Sizi Azərbaycanda bir daha səmimiqəlbdən salamlayıram. Tacikistan Prezidentinin Azərbaycana səfəri ölkələrimizin ikitərəfli münasibətlərində mühüm hadisədir. Biz həm Tacikistanda, həm Azərbaycanda tez-tez görüşürük. Təmaslar mütəmadi xarakter daşıyır. Beynəlxalq tədbirlər çərçivəsində də həmişə söhbət edib vacib məsələləri müzakirə etməyə vaxt tapırıq. Lakin rəsmi səfər məsələlərin müzakirəsi və həlli üçün tamam başqa formatdır, tamam başqa səviyyədir.

İlk növbədə qeyd etmək istərdim ki, biz Prezident Emoməli Şərifoviç Rəhmonun rəhbərliyi ilə Tacikistanın uğurlu inkişafını çox diqqətlə izləyirik. Tacikistan sosial-iqtisadi inkişaf məsələlərini uğurla həll edir. Ölkənizin beynəlxalq nüfuzu artır. Siz dayanıqlı, sabit inkişafa, mühüm sosial məsələlərin həllinə yönələn vacib qlobal təşəbbüslərlə çıxış edirsiniz. Tacikistanda ictimai-siyasi sabitlik mövcuddur. Bu, davamlı inkişaf üçün

əsas amildir. Biz Sizin uğurlarınıza sevinirik və əminik ki, Tacikistan bundan sonra da Sizin müdrik rəhbərliyinizlə inkişaf və tərəqqi yolu ilə gedəcək.

Bu gün biz həm üzbəüz söhbət zamanı, həm də nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli gündəliyin mühüm məsələlərini, regional problematika məsələlərini müzakirə etdik. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Bu nəticələr ölkələrimiz arasında qarşılıqlı sosial-iqtisadi fəaliyyətdə mütləq özünü göstərəcək və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Bu gün bir çox mühüm sənədlər imzalanıb. Həmin sənədlər bizim münasibətlərimiz üçün mühüm hüquqi baza yaradıb və bu sənədlər nəticəyə hədəflənib. Düşünürəm ki, əldə etdiyimiz razılaşmaların uğurlu icrası əmtəə dövriyyəsinin xeyli artmasına və bir çox istiqamətlər üzrə işimizin fəallaşmasına gətirib çıxaracaqdır. Əlbəttə ki, indicə imzalanan sənədlər arasında Tacikistan və Azərbaycan prezidentlərinin Birgə Bəyanatını xüsusi qeyd etmək istərdim. Bu, ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən olduqca fundamental vacib siyasi sənəddir. Bu sənəd ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyəsini qeyd edir. Bu sənəddə iqtisadi və humanitar əməkdaşlıq, nəqliyyat, təhlükəsizliyin möhkəmləndirilməsi sahələrində mühüm məsələlərin əsas prioritetləri əksini tapıb. Sənəddə ölkələrimizi narahat edən vacib məsələlər də əks olunub. Azərbaycan Tacikistanın BMT-də irəli sürdüyü və gələcək onilliyin – 2018–2028-ci illərin «Su – dayanıqlı inkişaf üçün» tezisi ilə bağlı onilliyin olmasına dair təşəbbüsünü fəal dəstəkləyir. Bu çox mühüm təşəbbüsdür və indicə imzalanan Birgə Bəyanatda əksini tapıbdır.

Tacikistana Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı mövqeyinə görə də minnətdarlığımı bildirmək istərdim. Bəyanatın mətnində yazılıb ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in qərarlarına uyğun

şəkildə həll olunmalıdır. Bütün Azərbaycan xalqı adından belə ədalətli mövqeyə görə minnətdarlıq bildirmək istərdim. Bu həm dost mövqeyidir, həm də ədalətli mövqedir. Çünki uzun illərdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri Ermənistanın işğalı altındadır və Ermənistan BMT Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər bu kimi aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrini yerinə yetirmir. Vaxtilə onların hamısı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul ediblər və belə bir nöqteyi-nəzərdən çıxış ediblər ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Bu gün biz ticarət, iqtisadiyyat, nəqliyyat sahələrində qarşılıqlı fəaliyyət məsələlərini fəal müzakirə etdik, bu istiqamətdə ölkələrimizin sənayesinin güclü artımına təkan verəcək ciddi razılaşmalar əldə etdik. Biz bir daha nə qədər qarşılıqlı şəkildə bağlı olduğumuzu və kooperasiya ilə əlaqədar məsələləri nə dərəcədə həll edə biləcəyimizi gördük. Bu həm alüminium təchizatı sahəsində əməkdaşlıq məsələsinə, həm neft koksunun təchizatı ilə bağlı imzalanan Memoranduma, həm də bir çox digər məsələlərə aiddir. Bu sadəcə, ticari-iqtisadi razılaşmalar deyil, bu, iqtisadi sahədə uzun illər üçün münasibətlərin inamlı inkişafını müəyyən edəcək layihələrdir və yüzlərlə yeni iş yeri yaratmağa imkan verəcəkdir.

Mən Tacikistan Prezidentini Azərbaycanın öz tərəfdaşları ilə birgə reallaşdırdığı və o cümlədən Tacikistandan, həmçinin Mərkəzi Asiyanın digər ölkələrindən Azərbaycan ərazisindən keçməklə, ixrac üçün tamamilə yeni imkanlar açan nəqliyyat layihələri haqqında ətraflı məlumatlandırdım. Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, eləcə də Ələtdə böyük ticarət limanının tikintisi bu dəhlizin yüklərin ixracı üçün istifadəsinə tamamilə yeni imkanlar açır. Təbii ki, biz Tacikistandan yüklərin artacağına ümid bəsləyirik və bu barədə

razılaşmalar əldə olunubdur. Biz Azərbaycan ərazisindən keçməklə, beynəlxalq bazara çıxarılacaq tranzit yüklərin əhəmiyyətli dərəcədə dəfələrlə artmasını gözləyirik. Biz humanitar əməkdaşlıq, təhsil, mədəniyyət sahələri, kənd təsərrüfatı ilə bağlı məsələləri müzakirə etdik və sıx qarşılıqlı fəaliyyət məsələlərinin işlənib hazırlanması üçün xüsusi nümayəndə heyətlərinin göndərilməsini razılaşdırdıq. Başqa sözlə, müzakirə etdiyimiz bütün məsələlər üzrə bizim aramızda tam anlaşma mövcuddur və əminəm ki, bütün bu məsələlər reallaşdırılacaqdır. Çünki bunların hamısı konkret nəticələrə hədəflənib. Əminəm ki, Tacikistan Prezidentinin Azərbaycana səfərinin nəticələri ölkələrimiz arasında qardaşlıq münasibətlərinin gələcəkdə də möhkəmləndirilməsində mühüm rol oynayacaqdır. Bir daha xoş gəlmisiniz, hörmətli cənab Prezident!

## Tacikistan Prezidenti Emoməli Rəhmonun bəyanatı

Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, əziz dostlar!

Dost Azərbaycan torpağında rəsmi səfərdə olmaq və Azərbaycan xalqının səmimi sevincini duymaq mənim üçün xoşdur. Azərbaycan Tacikistanın xarici siyasət strategiyasında mühüm yerlərdən birini tutur və biz Tacikistan–Azərbaycan əməkdaşlığının gələcəkdə də inkişafında və möhkəmlənməsində maraqlıyıq.

Bu gün bizim siyasi dialoqumuz çərçivəsində həm ikitərəfli, həm də regional və beynəlxalq xarakterli məsələlərin geniş spektri üzrə konstruktiv və maraq doğuran fikir mübadiləsi aparıldı. İlham Heydər oğlu ilə mən belə bir fikrə gəldik ki, bütün istiqamətlər üzrə sıx əməkdaşlıq üçün mövcud imkanlardan daha da geniş istifadə olunması vacibdir. Bu barədə indicə İlham Heydər oğlu sizə məlumat verdi. Öl-

kələrimiz arasında əmtəə dövriyyəsinin artırılması məsələləri və iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığımızın istiqamətlərinin genişləndirilməsi diqqət mərkəzində oldu. Bu cəhətdən biz ticari-iqtisadi əməkdaşlıq üzrə iki ölkənin dövlətlərarası qarşılıqlı fəaliyyət mexanizmi kimi, hökumətlərarası birgə Komissiyanın mühüm rolunu qeyd etdik. Biz o fikirdə həmrəy olduq ki, komissiya çərçivəsində əldə olunmuş razılaşmaların dəqiq yerinə yetirilməsi və imzalanan dövlətlərarası sənədlərin reallaşdırılması bizim ticari-iqtisadi münasibətlərimizin gələcək inkişafının amilidir. Biz hesab edirik ki, bugünkü razılaşmalar sənaye, energetika, nəqliyyat, aqrar sektor və turizm kimi iqtisadiyyatın baza sektorlarında uzunmüddətli əməkdaşlıq formalarının inkişafına təkan verəcək. Belə fikir bildirildi ki, ikitərəfli əmtəə dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və əmtəə nomenklaturası strukturunun təkmilləşdirilməsi üçün qarşılıqlı maraq doğuran bütün istiqamətlərdə ikitərəfli əməkdaşlığı fəallaşdırmaq və yaxşılaşdırmaq zəruridir. Bu səfərin gedişində ikitərəfli əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsi üzrə işləri davam etdirdik. Danışıqların nəticələrinə görə bu gün imzaladığımız sənədlər zamanın tələbidir və əməkdaşlığın əsas sahələrini əhatə edir.

Ənənəvi qarşılıqlı anlaşma mühitində keçən danışıqların gedişində biz BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional birliklər çərçivəsində də qarşılıqlı fəaliyyətimizin perspektivlərini müzakirə etdik. Biz ölkələrimizin ümumi mövqedən çıxış etdiyi Əfqanıstan problemini müzakirə etdik. Biz Əfqanıstanda sülhün və sabitliyin dirçəldilməsi məqsədlərinə sadiqliyimizi təsdiq etdik, həmçinin beynəlxalq terrorizm, ekstremizm, radikal dini ideologiya, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, digər çağırışlar və təhlükəsizliyin təhdidləri ilə mübarizədə gələcəkdə də əməkdaşlığı inkişaf etdirməyə tərəfdar olduğumuzu bildirdik.

Xüsusilə qeyd etmək istərdim ki, bütün bu məsələlər üzrə bizim mövqelərimiz üst-üstə düşür. Bu da həmin istiqamətdə əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün yaxşı təməldir. Biz Cənubi Qafqazda cərəyan edən proseslər üzrə fikir mübadiləsi də apardıq. Biz mövcud ziddiyyətlərin və münaqişələrin hamılıqla tanınan beynəlxalq norma və meyarlar çərçivəsində sülh yolu ilə həlli prinsipinə qəti sadiqliyimizi ifadə edirik. Bizim əqidəmizə görə, siyasi-diplomatik dialoq Dağlıq Qarabağ kimi çətin problemin həllində ən konstruktiv yoldur.

Mədəni humanitar əlaqələrin inkişafı məsələlərinə müvafiq diqqət ayrıldı. Təhsil, elm, mədəniyyət, incəsənət, turizm və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi qeyd olundu. Bütövlükdə demək istərdim ki, biz baş tutan dialoqdan razı qaldıq. Əminəm ki, bugünkü danışıqların nəticələri ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Bunlar son 10 ildə ilbəil yeni praktik məzmunla zənginləşən uğurlu qarşılıqlı fəaliyyət üçün əlavə şərait və zəmin yaradır. İmkandan istifadə edərək, qeyd etmək istərdim ki, Tacikistan öz tərəfindən xalqlarımızın rifahı naminə bizim dövlətlərarası münasibətlərimizin hərtərəfli inkişaf etməsi, möhkəmlənməsi üçün var qüvvəsini sərf edəcək. Əminəm ki, bu gün gördüyümüz iş bizim çoxşaxəli tərəfdaşlığımızın daha yüksək artım mərhələsinə keçməsinə təkan verəcəkdir.

Bizim konstruktiv dövlətlərarası dialoqumuzun davamı üçün mən Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlunu onun üçün münasib vaxtda Tacikistana rəsmi səfərə dəvət etdim.

Hörmətli İlham Heydər oğlu, bir daha Sizə və Sizin simanızda qardaş Azərbaycan xalqına səmimi qəbula və ənənəvi Azərbaycan qonaqpərvərliyinə görə təşəkkür edirəm.

Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından avqustun 10-da Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun şərəfinə rəsmi ziyafət verilmişdir.*

**İlham Əliyev:** Çox hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bir daha bizim əziz qonaqlarımızı Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Bu gün ölkələrimiz arasındakı münasibətlərin tarixində əlamətdar gündür. Tacikistan Prezidentinin Azərbaycana rəsmi səfəri münasibətlərimizin inkişafında mühüm mərhələdir. Səfər çox uğurlu keçir. Biz bu gün ikitərəfli münasibətlərin gündəliyində duran bir çox məsələlərlə bağlı ətraflı danışıqlar, fikir mübadiləsi apardıq. Əməkdaşlığın möhkəmlənməsinə, qarşılıqlı fəaliyyətin genişlənməsinə ölkələrimizin sadiq olduğunu bir daha təsdiq etdik və ticari-iqtisadi münasibətlərin möhkəmləndirilməsi üçün mühüm yolları müəyyənləşdirdik. Siz hamınız sənədlərin imzalanması mərasimində iştirak etmisiniz. Təkcə bu sənədlərin siyahısı münasibətlərimizin səviyyəsini xarakterizə edir. Bu gün imzalanan sənədlər xeyli fəaliyyət sahəsini əhatə edir. Əminəm ki, bunların hamısı vaxtında icra ediləcək və bu da bizim münasibətlərimiz üçün daha möhkəm təməl yaradacaqdır.

Biz bu gün Tacikistanın hörmətli Prezidenti ilə Birgə Bəyanat imzaladıq. Bu bizim iradəmizi, qarşılıqlı fəaliyyətə yönələn səylərimizi, beynəlxalq vəziyyətlə bağlı məsələlərdə ümumi yanaşmanı, həmçinin Tacikistanın siyasəti çərçivəsində BMT-

də su ehtiyatları ilə bağlı irəli sürdüyü çox mühüm təşəbbüslərə Azərbaycanın dəstəyini əks etdirən olduqca vacib siyasi sənəddir. Biz bu bəyanatda mahiyyət etibarilə münasibətlərimizin inkişafının əsas yollarını müəyyən etdik. Mən çox şadam ki, belə bir bəyanat bizim gələcək fəaliyyətimizin təməli olacaqdır.

Bu gün sənaye kooperasiyası ilə bağlı məsələlərə çox vaxt sərf etdik. Qəbul edilən qərarlar əminəm ki, qısa müddətdə çox yaxşı nəticələr verəcək. Nəticə yeni istehsalatların, istehsalat güclərinin, sənaye kooperasiyasının, yüzlərlə yeni iş yerinin yaradılmasına hədəflənəcək. Bu qərarlar bizim sənaye müəssisələrimiz arasında tamamilə yeni kooperasiya sistemi yaradacaq, ölkələrimizin nəqliyyat infrastrukturunu daha da çox yükləyəcəkdir. Başqa sözlə desək, səfərin nəticələri çox səmərəli olacaq və yaxın zamanda biz bunu konkret rəqəmlərdə hiss edəcəyik.

Bu gün biz Tacikistanın hörmətli Prezidenti ilə, əlbəttə ki, bizi qane etməyən əmtəə dövriyyəsinin səviyyəsi barədə fikir mübadiləsi apardıq. Amma həyata keçirilən tədbirlər və imzalanan sənədlər bizə qısa müddət ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsini bir neçə dəfə artırmağa imkan verəcəkdir.

Bu gün biz nəqliyyat infrastrukturumuzun inteqrasiyası, sənaye istehsalında kooperasiya, xarici bazara çıxış ilə bağlı mühüm qərarlara gəlirik. Sizin bildiyiniz kimi, Azərbaycan son zamanlar nəqliyyat infrastrukturunun olduqca şaxələnmiş sistemini yaradıb. Biz böyük sərmayələr yatıraraq, yeni nəqliyyat yolları yaratmışıq. Asiya ilə Avropa arasında ən qısa yol bu gün Azərbaycandan keçir. Avtomobil yollarının, yeni aeroportların, Xəzərdə iri ticarət limanının inşasına da sərmayələr qoyulub. Biz bütün bunları dostlarımıza, Mərkəzi Asiyadakı tərəfdaşlarımıza təqdim edirik. Əlbəttə ki, biz bu gün Tacikistan Prezidenti ilə bu məsələləri də ətraflı müzakirə etdik.

Səfər ölkələrimizin əməkdaşlığı dərinləşdirməyə meyilli olduğunu göstərir, ticari-iqtisadi sahədə perspektivlər açır. Biz

həmçinin sərmayələrlə bağlı məsələyə toxunduq və yaxın vaxtlarda Tacikistana sərmayə məsələlərinin öyrənilməsi üzrə konkret missiya göndəriləcək. Həmçinin kənd təsərrüfatının, turizmin inkişafı ilə bağlı məsələləri müzakirə etdik. Belə demək olarsa, diqqətimizdən kənarda qalan çox az sahələr oldu. Bütün bunlar dövlətlərimizin qarşılıqlı fəaliyyəti möhkəmləndirməkdə çox güclü siyasi iradəsinin olduğunu göstərir.

Biz Emoməli Şərifoviç Rəhmonun rəhbərliyi ilə Tacikistanın uğurlu inkişafını çox diqqətlə izləyirik. Bu gün Tacikistan sabit ictimai-siyasi şəraitə malik ölkədir. Bu, inkişaf üçün olduqca mühüm amildir. Xüsusən biz görəndə ki, Mərkəzi Asiya regionunda, bizim regionda və Yaxın Şərqdə sabitlik pozulur, qan axıdılır, yeni münaqişələr başlanır, köhnə münaqişələr öz həllini tapmır, əlbəttə ki, Tacikistanda sülhün hökm sürməsi, vətəndaş həmrəyliyi, ictimai-siyasi sabitlik – bütün bunlar Sizin ölkənizin dayanıqlı inkişafının rəhnidir. Əlbəttə ki, burada əsas rol Tacikistan Prezidenti Emoməli Şərifoviç Rəhmona məxsusdur. O hələ Tacikistanın müstəqil dövlət kimi, erkən dirçəliş mərhələlərində vətəndaş müharibəsinin qarşısının alınmasında, sülh şəraitinin, rifah və inkişafın yaranmasında böyük rol oynayıb. Əlbəttə, biz nəticələri Tacikistanın sosial-iqtisadi inkişafında görürük. Biz sizin uğurlarınıza sevinirik və əminik ki, Prezidentin sosial-iqtisadi inkişafa, Tacikistanın dünyəvi və regional məsələlərdə rolunun və əhəmiyyətinin artmasına yönələn kursu uğurla davam etdiriləcəkdir. Biz isə sizin dostlarınız kimi, uğurlarınızı müşahidə edəcək və sevinəcəyik, öz tərəfimizdən həm Azərbaycanın, həm də Tacikistanın gələcəkdə də uğurlu inkişafı və rifahı üçün səylərimizi əsirgəməyəcəyik.

* * *

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dost Azərbaycana rəsmi səfərə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Prezident Emoməli Rəhmon nümayəndə*

*heyətinə göstərilən qonaqpərvərliyə və diqqətə görə dövlətimizin başçısına və Azərbaycan xalqına təşəkkür etdi. Azərbaycanda bir neçə dəfə səfərdə olduğunu xatırladan Tacikistan dövlətinin başçısı budəfəki səfərinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı. Qeyd etdi ki, səfərin çox yaxşı nəticələri var və ölkələrimiz arasında tarixin sınağından çıxmış əlaqələr əməkdaşlıq haqqında yeni sazişlərlə bu gün daha da möhkəmləndirildi. Tacikistan Prezidenti vurğuladı ki, səfər çərçivəsində aparılan konstruktiv və səmimi danışıqlar bir daha sübut etdi ki, dövlətlərarası münasibətləri və çoxplanlı əməkdaşlığı tez bir zamanda daha yüksək səviyyəyə qaldırmaq üçün bütün zəruri imkanlar vardır. Emoməli Rəhmon Azərbaycan dövlətinin başçısı ilə ənənəvi görüşlərin iki ölkə arasında bütün formatlarda uğurlu qarşılıqlı fəaliyyəti daha da dərinləşdirmək üçün çox vacib olduğunu bildirdi.*

**Emoməli Rəhmon:** Azərbaycanın incəsənət xadimləri çıxış edəndə, televiziyada, yaxud radioda veriliş gedəndə və Azərbaycan musiqisi, mahnısı eşidiləndə dərhal bizdə – Tacikistanda bunu öz sənəti kimi qəbul edirlər. Onlar buna çox diqqətlə yanaşırlar. Biz uğurlarınıza sevinirik. Mən bu hissləri sözlərlə ifadə edə bilmirəm. Mən bunun canlı şahidiyəm. Münasibətlərimizin ilk günündən görürəm ki, təkcə paytaxt Bakının deyil, bütün Azərbaycanın siması dəyişir. Mən Qəbələdə, digər sənaye regionlarında olmuşam. İnkişaf göz qabağındadır. Bilirsiniz, Bakı mirvaridir, dünya səviyyəli şəhərdir.

*Azərbaycanın inkişafının Prezident İlham Əliyevin böyük səyləri nəticəsində əldə olunduğunu qeyd edən Tacikistan Prezidenti vurğuladı ki, qədim tarixi, mədəniyyəti, sivilizasiyası olan Azərbaycan xalqı bu uğurlara layiqdir və Tacikistanda ölkəmizin nailiyyətlərinə sevinirlər.*

## ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da ABŞ Konqresi Nümayəndələr Palatasının Kəşfiyyat üzrə Daimi Xüsusi Komitəsinin sədri Devin Nunesin başçılıq etdiyi və Komitənin üzvü Rik Kravfordun daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi bildirildi. ABŞ Konqresi Nümayəndələr Palatasının Kəşfiyyat üzrə Daimi Xüsusi Komitəsinin sədri Devin Nunesin Azərbaycana səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlara fəal dəstək verdiyi qeyd edildi, ölkələrimizin beynəlxalq terrorizmə qarşı mübarizədə səylərinin bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

*Görüşdə regional təhlükəsizlik, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QAZAXISTAN RESPUBLİKASINA SƏFƏR

*12 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstanın Aktau şəhərinə səfərə gəlmişdir.*

*Aktau Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Qazaxıstanın Energetika naziri Kanat Bozumbayev və digər rəsmi şəxslər qarşıladılar.*

## XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT BAŞÇILARININ V ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Aktau*

*12 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmişdir.*

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.*

*Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısını açıq elan edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev «Xəzər Günü» ilə eyni vaxtda keçirilən sammitin əhəmiyyətindən danışdı.*

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısında çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Nursultan Abişoviç!

Hörmətli dövlət başçıları!

Hörmətli sammit iştirakçıları!

İlk növbədə, göstərilən qonaqpərvərliyə və V Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Nursultan Abişoviç Nazarbayevə təşəkkürümü bildirirəm.

Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf edir. Ölkələrimiz arasın-

da ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir.

Azərbaycan Xəzəryanı ölkələr arasında əməkdaşlığın hüquqi bazasının yaradılmasında fəal iştirak edib. 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə toplantısı ölkələrimiz arasında sıx əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm töhfəsini veribdir. Həmin Zirvə toplantısında regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyan «Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş» imzalanıbdır. Orada ilk dəfə konseptual olaraq suverenlik və balıqçılıq zonaları yüksək səviyyədə razılaşdırılıbdır. Sammitdə, həmçinin Xəzəryanı dövlətlərin Xəzər dənizində əməkdaşlığının əsas prinsipləri razılaşdırılıbdır. Bu prinsiplər dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörməti, Xəzərin sülh, mehriban qonşuluq və dostluq zonasına çevrilməsini ehtiva edir. Qeyd edilməlidir ki, həmin prinsiplər bu gün imzalanacaq «Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya»da da öz əksini tapıbdır. Konvensiya fundamental normativ sənəd kimi, Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyən edir.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi onun dibinin və səthinin beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq tərəflər arasında sektorlara bölünməsi prosesinin başa çatdırılmasına kömək edəcəkdir. Bu kontekstdə Azərbaycan, Qazaxıstan və Rusiya arasında imzalanmış sazişlərin böyük əhəmiyyət daşıdığını xüsusi qeyd etmək istərdim.

Bununla yanaşı, Azərbaycan «Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası»nın və onun protokollarının, eləcə də «Xəzər dənizində su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında Saziş»in razılaşdırılması prosesində də fəal iştirak edibdir. Bu istiqamətdə aparılan beştərəfli qarşılıqlı fəaliyyətin mühüm nə-

ticəsi kimi, cari il iyulun 20-də Moskva şəhərində Xəzəryanı dövlətlər arasında Çərçivə Konvensiyasının Transsərhəd kontekstdə ətraf mühitə təsirinin qiymətləndirilməsinə dair Protokolunun imzalanmasını yüksək dəyərləndiririk.

Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, onun bioresurslarının mühafizəsi və artırılması ölkəmiz üçün prioritet məsələlərdən biridir. Son illər Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Xəzər dənizinin çirklənmədən qorunması məqsədilə mövcud sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə irimiqyaslı layihələr icra edilir.

Müstəqillik dövründə Azərbaycanın həyata keçirdiyi neft-qaz əməliyyatları da ən yüksək beynəlxalq ekoloji standartlara cavab verir. Azərbaycan Dövlət Neft Şirkəti SOCAR neft-qaz əməliyyatları zamanı İSO Beynəlxalq Standartlaşma Təşkilatının tələblərinə uyğun idarəetmə sistemi qurmuş və sertifikatlaşdırmışdır. Bu istiqamətdə həyata keçirilən layihələr Dünya Bankı Ekspert Şurası tərəfindən 2 dəfə «Ali mükafat»a layiq görülübdür. 2015-ci ildən etibarən Azərbaycanda neft-qaz əməliyyatları aparan bütün şirkətlər üçün ən müasir avadanlıqlarla təchiz edilmiş Tullantıların İdarə Edilməsi Mərkəzi yaradılıbdır. Neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur. Azərbaycan infrastrukturun inkişafına böyük önəm verir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə görə Azərbaycan dünyada infrastrukturun inkişafı səviyyəsi üzrə 26-cı, rəqabətqabliyyətlilik indeksi üzrə isə 35-ci yerləri tutur.

Nəqliyyat sektoruna çoxmilyardlıq investisiyanın qoyulması Azərbaycanı Avrasiyanın mühüm nəqliyyat və logistik mərkəzlərindən birinə çevirib. Azərbaycan Xəzəryanı ölkələr üçün mühüm tranzit rolu oynayır və bu rol ildən-ilə artmaqdadır. 2017-ci ilin oktyabr ayında Bakıda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı olubdur. Bu layihə Asiya ilə Avropanın dəmir

yollarını birləşdirir. Ötən il bu marşrutla 191, cari ilin 6 ayı ərzində isə 1400-ə yaxın konteyner daşınıbdır. İlin sonunadək 4000-ə yaxın konteynerin daşınması planlaşdırılır. Biz qarşıdakı illərdə bu marşrutla yükdaşımaların dəfələrlə artmasını gözləyirik.

Azərbaycan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında və inkişafında da mühüm rol oynayır. Biz bu layihəyə böyük əhəmiyyət veririk. Azərbaycan ərazisində bu layihənin reallaşması üçün bütün işlər başa çatdırılıbdır.

Ötən il Şimal–Cənub marşrutu üzrə Azərbaycan ərazisindən 1700 ton, bu ilin yalnız 7 ayı ərzində isə 175 000 ton yük daşınıbdır. Bu isə yükdaşıma həcminin ötən illə müqayisədə təqribən 100 dəfədən çox artması deməkdir.

Azərbaycan Xəzərdə 260-dan çox gəmisi olan donanmaya malikdir. Bu gəmilərin bir hissəsi yüklərin fasiləsiz tranzitinin təmin edilməsi işində əsas rol oynayır.

2013-cü ildə Azərbaycanda ən müasir texnoloji standartlara cavab verən Gəmiqayırma zavodu istifadəyə verilibdir. Bu zavodda bütün növ gəmilər, o cümlədən yük gəmiləri, tankerlər, hərbi gəmilər, neft-qaz əməliyyatlarında istifadə edilən gəmilər istehsal oluna bilər. İndiyədək onlarca gəmi tikilərək istifadəyə verilib, 100-ə yaxın gəmi isə təmir edilibdir. 2017-ci ildə istifadəyə verilmiş 400 milyon ABŞ dollarına yaxın dəyərində «Xankəndi» gəmisi dünyada ən yüksək beynəlxalq standartlara uyğun şəkildə inşa edilmiş bu cür mövcud 10 gəmidən biridir. Hesab edirəm ki, Xəzəryanı ölkələr bu zavodun imkanlarından istifadə edə bilər.

Bu ilin may ayında Azərbaycanda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası başa çatıb. Limanın yükaşırma qabiliyyəti 15 milyon tondur. Tranzit yüklərin həcmi artarsa, qısa müddət ərzində limanın imkanları 25 milyon tona çatdırıla bilər. Ələt limanının inşası Azərbaycanın Xəzərdə nəqliyyat-logistik infrastrukturun inkişafına verdiyi növbəti töhfələrdən biridir.

Azərbaycan Xəzəryanı ölkələrin sərhəd və gömrük xidmətləri arasında əməkdaşlığın möhkəmlənməsi işində də fəal rol oynayır. Biz qaçaqmalçılıq, narkotrafik və digər qanunsuz fəaliyyətlərlə mübarizədə fəal və səmərəli iş aparırıq.

Ölkəmizin Sərhəd Xidməti Xəzəryanı dövlətlərin müvafiq qurumları ilə ikitərəfli və çoxtərəfli formatlarda sıx əməkdaşlıq edir. Dənizdə qanunsuz fəaliyyətin profilaktikası və aradan qaldırılması üzrə birgə tədbirlər həyata keçirilir.

Azərbaycan regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işinə öz dəyərli töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti regional təhlükəsizlik üçün böyük təhdid doğurur. Ermənistanın işğalı nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının təxminən 20 faizi işğal olunub, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Ermənistan tərəfindən xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıbdır. Bir çox aparıcı beynəlxalq təşkilatlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar və qətnamələr qəbul ediblər. Bu sənədlər münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. BMT Təhlükəsizlik Şurası 20 ildən artıqdır ki, münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Bu qətnamələr öz qüvvəsini itirməyib. Lakin Ermənistan bu qətnamələrə əməl etmir, beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozur. Ermənistan işğal olunmuş torpaqlarda qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirməyə çalışır. Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycan xalqının çoxsaylı tarixi, memarlıq və dini abidələrini məhv edibdir. İşğal edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı 7 digər rayon tarixi və əzəli Azərbaycan torpağıdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın bütün dünya ölkələri

tərəfindən tanınmış ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Çıxışımın sonunda əminliyimi bildirmək istərdim ki, sammitdə qəbul edilən qərarlar Xəzəryanı ölkələr arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, Xəzər regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

* * *

*Sammitdə çıxış edən İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov Zirvə görüşünün əhəmiyyətinə toxunaraq, onun Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafına daha da güclü təkan verəcəyini, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin dərinləşməsinə xidmət edəcəyini bildirdilər.*

## «XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYA»NIN İMZALANMASI MƏRASİMİ

*Aktau*

*12 avqust 2018-ci il*

*Qazaxıstanın Aktau şəhərində avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya»nı Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov imzaladılar.*

*Bundan əlavə, Xəzəryanı dövlətlərin müvafiq qurumlarının rəhbərləri tərəfindən bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər – «Xəzər dənizində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol», «Xəzəryanı dövlətlərin hökumətləri arasında ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş», «Xəzəryanı dövlətlərin hökumətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Saziş», «Xəzər dənizində insidentlərin qarşısının alınması haqqında Saziş» və «Sərhəd Xidməti idarələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri haqqında Protokol» imzalandı.*

## V ZİRVƏ TOPLANTISINDA MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Aktau*

*12 avqust 2018-ci il*

*Qazaxıstanın Aktau şəhərində avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış etmişlər.*

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sammitin qarşılıqlı anlaşma və mehriban şəraitdə keçdiyini qeyd edərək, Konvensiyanın imzalanmasını görülən işin kulminasiyası adlandırdı.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Nursultan Abişeviç!

Hörmətli dövlət başçıları!

İlk növbədə, göstərilən qonaqpərvərliyə, səmimi qəbula və sammitin yüksək səviyyədə təşkilinə görə Nursultan Abişoviç Nazarbayevə bir daha təşəkkürümü bildirmək istərdim.

«Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya»nın imzalanması tarixi əhəmiyyətli sənəddir. Azərbaycan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv işləyib və digər Xəzəryanı ölkələr kimi, bu sənədin imzalanmasına öz töhfəsini veribdir. Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyənləşdirən bu mühüm sənədi bu gün imzaladığımız üçün

həmkarlarıma fəal işlərinə görə təşəkkürümü bildirmək istərdim.

Konvensiya imzalanana qədər də bizim ikitərəfli və çoxtərəfli münasibətlərimiz Xəzərdə sabitliyin və təhlükəsizliyin qarantı idi. Xəzəryanı ölkələr arasında yüksək səviyyədə əməkdaşlıq, etimad və qarşılıqlı fəaliyyət mövcuddur və bu da təhlükəsizliyin və sabitliyin başlıca qarantıdır.

Bu gün Xəzərdə təhlükəsizlik və sabitlik bizim imzaladığımız Konvensiya ilə müəyyən olunur. Təbii ki, bu, Xəzəryanı ölkələrin sıx qarşılıqlı fəaliyyəti, iqtisadi, nəqliyyat xarakterli məsələlərin, xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına kömək edəcək məsələlərin həlli üçün geniş perspektivlər açır.

Azərbaycan Xəzərdə ekoloji vəziyyətin yaxşılaşmasına fəal və böyük töhfə verir. Hökumətimizin gördüyü tədbirlər xüsusən, neft-qaz əməliyyatlarının həyata keçirildiyi zaman Xəzər dənizinin çirklənməsinin qarşısını almağa hədəflənib. Mən artıq sammitdə bu barədə danışmışam və bir daha demək istəyirəm ki, Azərbaycanın müstəqillik dövründə həyata keçirdiyi bütün neft-qaz əməliyyatları İSO beynəlxalq standartlarına uyğundur.

Gələn il biz Xəzərdə neft çıxarılmasının 70 illiyini qeyd edəcəyik, bu da dəniz yataqlarından neftin ilk hasilatı idi. Əlbəttə, əvvəlki illərdə Xəzərin neft-qaz ehtiyatlarının istismarı zamanı Xəzərin ekologiyasına müəyyən dərəcədə ziyan dəyib. Lakin bu gün ölkəmiz mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf, ekoloji sabitlik zonasına çevrilsin.

Azərbaycan nəqliyyat infrastrukturuna fəal surətdə sərmayə yatırır və reallaşdırdığımız layihələr bu gün bizə Xəzəri mühüm nəqliyyat arteriyası kimi nəzərdən keçirməyə imkan verir. Azərbaycanın Qazaxıstana və Türkmənistana öz tranzit xidmətlərini təqdim etdiyi Şərq–Qərb dəhlizi, Azərbaycandan keçməklə, İran və Rusiya arasında tranzitin reallaşdırıldığı Şimal–Cənub dəhlizi – bunlar iqtisadi əməkdaşlığı möhkəmləndirən, yeni iş yerləri yaradan, bizi bir-birimizə ya-

xınlaşdıran, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə şərait yaradan layihələrdir.

Bu gün mən iclasda qeyd etdim ki, bu il İranla Rusiya arasında Şimal–Cənub dəhlizi üzrə yükdaşımaları 100 dəfədən çox artıb. Azərbaycan ərazisində bu istiqamətdə bütün işlər başa çatıb və biz yük axınının artmasını gözləyirik. Eynilə, Azərbaycan Avropa və Asiya dəmir yollarını birləşdirən layihəni həyata keçirib və bu dəhlizlə də yük axınının xeyli artmasını gözləyirik. Bütün bunlar ölkələrimiz üçün əlavə imkanlardır. Bu, iqtisadi rifahdır, bu, ölkələrimizin dünya miqyaslı mühüm tranzit qovşağa çevrilməsidir.

Əlbəttə, bugünkü imzalanma mərasimi qarşımızda yeni perspektivlər açır. Biz əməkdaşlığı davam etdirmək niyyətindəyik. Azərbaycan bütün Xəzəryanı ölkələrlə çox sıx etimada, qarşılıqlı, bərabərhüquqlu maraqların nəzərə alınmasına, ərazi bütövlüyünə hörmətə və bütün ölkələrin suverenliyinə əsaslanan münasibətlərə malikdir. Bütün Azərbaycan xalqı adından gələcəkdə ölkələrimizin uğurlu inkişafında böyük rol oynayacaq bu mühüm sənədi, nəhayət, imzaladığımız üçün böyük məmnunluğumu ifadə etmək istərdim. Sağ olun.

* * *

*İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov «Xəzərin hüquqi statusuna dair Konvensiya»nın imzalanmasının əhəmiyyətinə toxunaraq, onun ölkələrimiz arasında gələcək əməkdaşlığa daha mühüm töhfələr verəcəyini bildirdilər.*

*Sonda dövlət başçıları birgə foto çəkdirdilər.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Aktau*

*12 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

**Nursultan Nazarbayev:** Sizin Aktauya gəlişinizlə bağlı sevincimizi bildiririk. İndi dəniz vasitəsilə biz daha çox yaxın olduq.

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkəsində nəqliyyat sahəsində görülən işləri diqqətə çatdıraraq, Kurık və Lyanyunqan limanlarının açıldığını bildirdi. Asiyadan Avropaya yüklərin tranziti ilə bağlı Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı:*

– Bugünkü görüş və nəhayət, bu Konvensiyanın imzalanması çox mühüm hadisədir. Xatırlayıram, Heydər Əliyev bunun üzərində çox güclü işləyib. Düşünürəm ki, indi o bizim, nəhayət, bu Konvensiyanı imzalamağımıza, bu çox mühüm məsələni həll etdiyimizə görə çox şad olardı. Mən Sizə böyük uğurlar arzulayıram.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Nursultan Abişoviç! Qardaş Qazaxıstan torpağında yenidən olmağımdan çox şadam. Mən birinci dəfə deyil ki, Aktaudayam və ilk növbədə, Sizi böyük nailiyyətlər, dəyişikliklər münasibətilə təbrik etmək istəyirəm. Şəhər dəyişib – müasirləşib, xeyli müasir binalar var,

infrastruktur, aeroport. Belə ki, bu, Qazaxıstan regionlarının dinamik inkişafının göstəricisidir. Əlbəttə, bu region həm coğrafi, həm tarixi, həm də sizin burada həyata keçirdiyiniz infrastruktur layihələri baxımından bizə çox yaxındır. Kurık limanının açılışı münasibətilə təbriklərimi çatdırıram. Əlbəttə ki, bunlar bizə daha sıx inteqrasiya etməyə imkan yaradacaq. Bilirsiniz ki, biz may ayında Ələt limanını açdıq. Yəni bütöv nəqliyyat inteqrasiyası baş verdi. Əlbəttə, bir-birimizin tranzit imkanlarından istifadə iqtisadi və siyasi nöqteyi-nəzərdən çox səmərəli olacaqdır. Xəzər çox mühüm nəqliyyat arteriyasına çevrilib və bu gün Konvensiyanın imzalanması tarixi xarakterli sənəddir.

Bir çox mürəkkəb məsələlər üzrə konsensusun əldə edilməsində Sizin rolunuzu xüsusi qeyd etmək istərdim. Xəzərin bundan sonra da regionda sabitləşdirici rol oynaması üçün biz Konvensiyanın bütün müddəalarının yerinə yetirilməsinə səy göstərəcəyik. Bizim ikitərəfli münasibətlərimizə gəlincə, onlar çox dinamik inkişaf edir. Biz Sizin keçənilki səfərinizi xatırlayırıq. Nəticələr yaxşıdır, fəal əməkdaşlığın davam etdirilməsinə ümid edirik.

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*Aktau*

*12 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Aktauda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin həyata keçirdiyi birgə iqtisadi layihələrin yaxşı nəticələr verdiyi vurğulandı. Enerji, nəqliyyat və infrastruktur sahələrində, həmçinin Şimal–Cənub nəqliyyat dəhlizi üzrə əməkdaşlığın uğurla həyata keçirildiyi qeyd olundu.*

*Prezidentlər Xəzəryanı dövlətlərin dövlət başçılarının Qazaxıstanda keçirilən V Zirvə toplantısının və «Xəzərin hüquqi statusuna dair Konvensiya»nın əhəmiyyətini vurğulayaraq, onun gələcəkdə Xəzəryanı ölkələr arasında əməkdaşlığı daha da möhkəmləndirəcəyinə aminliklərini ifadə etdilər.*

*Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT BAŞÇILARININ KÖRPƏ NƏRƏ BALIQLARININ XƏZƏR DƏNİZİNƏ BURAXILMASI MƏRASİMİNDƏ İŞTİRAK

*Aktau*

*12 avqust 2018-ci il*

*Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısından sonra Aktau şəhərinin dəniz sahilində gəzintiyə çıxmışlar.*

*Gəzintidən sonra prezidentlər körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması mərasimində iştirak etdilər.*

## V ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Aktau*

*12 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Aktauda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin adından Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı iştirakçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri avqustun 12-də başa çatdı.*

## ABŞERON LOGİSTİKA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*13 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunmuş Abşeron Logistika Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin fəaliyyəti ilə tanış oldu.*

*Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev görülən işlər barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə, vaxta qənaəti və xərclərin azalmasını təmin edir.*

*Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək, logistik xidmət göstərməyə başlayacaq. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb. Bu mərhələnin yekunlaşmasından sonra Logistika Mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafı logistik inkişafına, həmçinin ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verəcəkdir.*

*Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.*

*Logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq. Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini təmin etməkdir. Bunun üçün bütün xidmətlər «vahid pəncərə» sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilibdir.*

*Bildirildi ki, Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnika xidmət göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilibdir. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilibdir.*

*Mərkəzdə 6-sı qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometr uzunluğunda dəmir yolu xətti vardır. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunacaqdır.*

*Abşeron Logistika Mərkəzinin əsrlərboyu mədəniyyətləri və qitələri birləşdirən tarixi İpək yolunun mərkəzində yerləşən paytaxtımızın Lökbatan qəsəbəsi ərazisində inşa edilməsi xüsusilə əhəmiyyətlidir. Mərkəzin ərazisi ticarət, logistika və sənaye zonalarının kəsişməsində və nəqliyyat şəbəkələrinin mərkəzində yerləşir. Bu müəssisənin «Meyvəli» MMC-yə, Bakı Baş Gömrük İdarəsinə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, «Sədərək» və «Binə» ticarət mərkəzlərinə, həmçinin digər biznes strukturlarına yaxınlıqda yaradılması onun iqtisadi əhəmiyyətini daha da artırır. Təxmini hesablamalara görə gün ərzində 750–800 yük maşını şəhər mərkəzində yerləşən stansiyalardan boşalan yükləri şəhərdaxili anbar və tikinti materialları bazarlarına daşıyır. Bu yüklərin şəhərdəki məntəqələrə, inşaat materialları mağazalarına və bazalarına çatdırıl-*

*ması paytaxtda nəqliyyatın hərəkətində sıxlıq və digər problemlər yaradır. Logistika Mərkəzinin yaradılması bu problemi həll etməklə yanaşı, həm də Bakının ekoloji durumunu daha da sağlamlaşdıracaq. Belə ki, Bakıətrafı dəmir yolu stansiyalarından Abşeron Logistika Mərkəzinə yönəldiləcək yüklərin həcminin 0,8 milyon ton olacağı ehtimal edilir. Beləliklə də Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən Abşeron Logistika Mərkəzinə yönəldiləcəkdir. Bu da orta hesabla 125 min yük avtomobili deməkdir.*

*Bu mühüm infrastruktur obyektinin Bakı–Tbilisi–Qars, İran–Astara–Bakı, Rusiya–Yalama–Ələt dəmir yolu marşrutları ilə əlaqəsi vardır. Bakı–Tbilisi–Qars dəmir yolu tam gücü ilə fəaliyyətə başladıqdan sonra bu mərkəz vasitəsilə qonşu ölkələrlə idxal-ixrac əməliyyatlarını, eləcə də Azərbaycan ərazisindən multimodal yükdaşımalarını daha çevik yerinə yetirməyə imkan yaranacaqdır.*

*Mərkəzin fəaliyyəti ilə tanış olan dövlət başçısı kollektivə uğurlar arzuladı.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

Genuya şəhəri yaxınlığında avtomobil körpüsünün uçması nəticəsində insanların həlak olması və itkin düşməsi xəbəri bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İtaliya xalqına öz adımızdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı veririk.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2018-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–İndoneziya əlaqələrinin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2018-ci il*

**QABON RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Qabon Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2018-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Əfqanıstan əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və daha da möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2018-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qurucusu olduğunuz partiyanın yenidən sədri seçilməyiniz partiya üzvlərinin Sizə olan sonsuz inam və etimadının aşkar təzahürü, Türkiyənin inkişafı və rifahı naminə göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir.

Bu gün Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətləri hərtərəfli inkişaf edir və regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına, inkişafa töhfələr verir.

Qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji tərəfdaşlığımızı səciyyələndirən mühüm məqamlardır. Əminəm ki, birgə səylərimizlə Azərbaycan–Türkiyə müttəfiqliyi və qardaşlığı bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Yeni Azərbaycan Partiyasının sədri**

Bakı, *18 avqust 2018-ci il*

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ**
**BAŞ KATİBİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ANTONİO QUTERREŞƏ**

Hörmətli cənab Baş katib!

Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibi, görkəmli siyasi xadim Kofi Annanın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Kofi Annan uzun illər Birləşmiş Millətlər Təşkilatına rəhbərlik edərək, dünyada sülhün və sabitliyin qorunub saxlanılması, qlobal təhdidlərin və təhlükələrin qarşısının alınması, davamlı inkişafın təmin edilməsi işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası ilə BMT arasında əməkdaşlığın bütün istiqamətlərdə dərinləşməsində Kofi Annanın xüsusi xidmətləri olmuşdur.

Bu ağır itki ilə əlaqədar Sizə və başçılıq etdiyiniz təşkilatın əməkdaşlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2018-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İMRAN XANA**

Hörmətli cənab Baş Nazir!

Pakistan İslam Respublikasının Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Pakistanı dost və qardaş xalqlarımızın iradəsindən qaynaqlanan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri birləşdirir. Ümidvaram ki, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2018-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban mərasimi uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi və əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən islam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır. Bu mübarək bayram bütün dünya müsəlmanlarının mənəvi və ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir.

Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqı əsrlərboyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub saxlayıbdır. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, uca Yaradana şükranlarını bildirir, ölkəmizdə və dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün dualar edirlər.

Bayram günləri müsəlmanlarımız Allah və din yolunda öz müqəddəs borcunu yerinə yetirir, qurbanlar kəsilir, imkansızlara və ehtiyacı olanlara yardımlar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hər belə bayram cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilir.

İnanıram ki, bu mübarək bayram müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə xalqımızın qəhrəmanlıq və fədakarlıq qüdrətini artıracaq, ölkəmizdə vətəndaş sülhünü və milli-mənəvi həmrəyliyi daha da gücləndirəcəkdir.

Əziz bacı və qardaşlarım!

Kəsdiyiniz qurbanların Allah tərəfindən qəbul olunması arzusu ilə bir daha hər birinizə möhkəm cansağlığı, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2018-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RAM NAT KOVİNDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş irimiqyaslı daşqınlar nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2018-ci il*

**UKRAYNA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB PETRO POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Ukraynanı ənənəvi dostluq əlaqələri birləşdirir. Dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi bu ənənəni özündə bariz şəkildə əks etdirir.

İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı və daha da dərinləşməsi ölkələrimizin və xalqlarımızın rifahına yeni töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2018-ci il*

## İSLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BERQLİND ASQEYRSDOTTİR İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də İslandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Berqlind Asqeyrsdottirin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Berqlind Asqeyrsdottir Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xanım Berqlind Asqeyrsdottir etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Berqlind Asqeyrsdottirin ölkəmizdə müvafiq qurumların rəhbərləri ilə mütəmadi olaraq görüşəcəyinə və iki ölkə arasında əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlar aparacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev siyasi sahədə əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq qurumlarda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Eyni zamanda, dövlətimizin başçısı ticarət və turizm sahələrində də əlaqələrin qurulmasının mümkünlüyünü vurğulayaraq, İslandiyada və Azərbaycanda gözəl turizm məkanlarının olmasının bunun üçün yaxşı imkan yaratdığını diqqətə çatdırdı.*

*Səfir Berqlind Asqeyrsdottir paytaxtımıza gəlişindən məmnunluğunu bildirərək qeyd etdi ki, Bakı çox füsunkar və cazibədar bir şəhərdir. Səfir paytaxtımızın arxitekturasının onda çox dərin təəssürat yaratdığını bildirdi. Diplomat futbol üzrə İs-*

*landiya milli komandasının qapıçısı Hannes Tur Halldorssonun Azərbaycanın «Qarabağ» klubuna keçdiyini vurğulayaraq, bu qapıçının dünya çempionatında məşhurlaşdığını nəzərə çatdırdı və bildirdi ki, onun «Qarabağ» komandasına keçməsi islandiyalılar arasında Azərbaycana böyük maraq doğurubdur.*

*Səfir Berqlind Asqeyrsdottir ölkələrimiz arasında əlaqələrin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd edərək, müxtəlif sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirdi.*

## BENİN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İSSİRADJOU GOMİNA İBRAHİM İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İssiradjou Gomina İbrahimin etimadnaməsini qəbul etmişdir.*

*Səfir İssiradjou Gomina İbrahim Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*İssiradjou Gomina İbrahim etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycanla Benin arasında münasibətlərin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini qeyd edərək, səfir İssiradjou Gomina İbrahimin Azərbaycanda bununla bağlı səmərəli görüşlər keçirəcəyinə əminliyini ifadə etdi və bildirdi ki, bu baxımdan xalqlarımızın bir-birinə daha da yaxınlaşması, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi önəmlidir.*

*Səfir İssiradjou Gomina İbrahim Azərbaycana gəlişindən böyük məmnunluq hissi keçirdiyini qeyd edərək, bundan əvvəlki diplomatik fəaliyyəti dövründə Azərbaycan haqqında məlumatlarla yaxından tanış olduğunu vurğuladı. Səfir «Qoşulmama Hərəkatı»nın nazirlər konfransının ölkəmizdə yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, orada iştirak etdiyini bildirdi.*

*İssiradjou Gomina İbrahim ölkələrimiz arasında təhsil və kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün yaxşı imkanların mövcud olduğunu qeyd etdi.*

*Səfir Azərbaycan Prezidentinə fəaliyyətində yeni-yeni uğurlar və dost Azərbaycan xalqına firavanlıq arzuladı.*

## VYETNAM SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NQO DUK MANH İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Nqo Duk Manhın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Nqo Duk Manh Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Nqo Duk Manh etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Vyetnam arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdiyini vurğulayaraq, həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlərin bu münasibətlərin möhkəmlənməsində mühüm rol oynadığını qeyd etdi. Əlaqələrimizin zəngin ənənələrə malik olduğunu bildirən Prezident İlham Əliyev hələ sovetlər dövründə Vyetnamdan xeyli sayda tələbənin Azərbaycanda təhsil aldığını və özünün Vyetnama uğurlu səfəri zamanı həmin insanlarla görüşməsini məmnunluqla xatırlatdı. Dövlət başçısı siyasi sahədə beynəlxalq qurumlar çərçivəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini deyərək, iqtisadi və ticari sahələrdə də əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Səfir Nqo Duk Manh Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanqın salamlarını dövlətimizin başçısına çatdırdı. O, vaxtilə Azərbaycanda təhsil aldığını məmnunluqla qeyd edərək, Prezident İlham Əliyevin Vyetnama səfəri zamanı Azərbaycanın vyetnamlı məzunları ilə birlikdə dövlətimizin*

*başçısı ilə keçirdikləri görüşün onlarda dərin təəssürat hissi doğurduğunu dedi. Səfir Azərbaycanda özünü evindəki kimi hiss etdiyini deyərək, Vyetnam Sosialist Respublikasının ölkəmizdə Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmasından şərəf hissi duyduğunu bildirdi və qeyd etdi ki, əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.*

*Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanqın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vyetnam Prezidentinə çatdırmağı xahiş etdi.*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Moldovanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bağlayır. Əminəm ki, ikitərəfli əlaqələrin və ölkələrimiz üçün qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın daha da genişlənməsinə və dərinləşməsinə yönəlmiş səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Moldova xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2018-ci il*

## XƏTAİ RAYONUNDA SALINMIŞ İDMAN-ƏYLƏNCƏ PARK KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*24 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 24-də paytaxtın Xətai rayonunda salınmış idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olmuşlar.*

*İdman-əyləncə park kompleksi Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrini əhatə edən ərazidə salınıbdır.*

*Görülən işlərlə tanışlıq zamanı Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılmış idman-əyləncə park kompleksi barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, yeni park kompleksinin ümumi sahəsi 36833 kvadratmetrdir. Parkın salındığı ərazi geoloji araşdırmalar nəticəsində aşkar edilən neft və mərmər tozu tullantılarından təmizlənib, torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıbdır. İdman-əyləncə park kompleksində təbii daşlardan və metaldan düzəldilən heykəllər landşaftla vəhdət təşkil edir. Buradakı heykəllər xüsusi dizayn və üslubu ilə fərqlənir. Parkda müxtəlif daş heykəllər, o cümlədən ürək formasında heykəllər və «Love» kompozisiyası quraşdırılıb. Park kompleksinin ərazisində örtülü şahmat pavilyonu da vardır. Bundan başqa, 2 futbol, voleybol, həndbol və basketbol oyunları üçün universal idman və trenajor meydançaları qurulubdur. Burada kafe də fəaliyyət göstərəcəkdir.*

*Qeyd edildi ki, idman-əyləncə park kompleksi ilə 2016-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsilə yaradılan «Sevirəm» parkını asfaltlanmış sahə, avtodayanacaqlar və müasir metal körpü birləşdirir.*

*Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeniləri yaradılır. Bu istirahət məkanlarında idmanın təbliğinə və vətəndaşlarımızın fiziki sağlamlığına xüsusi diqqət yetirilir. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.*

*Yeni parkların və istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir. Bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Müasir üslubda, orijinal dizaynda qurulmuş bu idman-əyləncə park kompleksinin istifadəyə verilməsi ilə paytaxtın gəzməli yerlərinə daha bir ünvan əlavə olundu. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ANGELA MERKELİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*25 avqust 2018-ci il*

*Azərbaycan Respublikasına səfərə gələn Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin avqustun 25-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Almaniyanın Federal Kanslerinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Federal Kansleri Angela Merkeli qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Almaniyanın Federal Kanslerinə raport verdi.*

*Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Almaniyanın Federal Kansleri Azərbaycan əsgərlərini salamladı.*

*Almaniya Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Federal Kansler Angela Merkelə, Almaniya Federativ Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniyanın Federal Kansleri Angela Merkelin qarşısından keçdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkel rəsmi foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel Xəzərin mənzərəsini seyr etdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*25 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə avqustun 25-də geniş tərkibdə görüşü keçirilmişdir.*

*Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri görüşdə çıxış etdilər.*

**İlham Əliyev:** Hörmətli xanım Federal Kansler!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram! Ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu olacaq və Almaniya–Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir.

Biz Sizinlə dəfələrlə görüşmüşük, aramızda siyasi dialoq fəal şəkildə aparılır və çox şadam ki, bu gün Siz Azərbaycandasınız. Bu, tarixi bir səfərdir.

İkitərəfli əlaqələrimizin gündəliyi çox genişdir – siyasi, iqtisadi, ticari əlaqələr, regional məsələlər – yəni bütün bu məsələləri bu gün müzakirə edəcəyik. Əminəm ki, səfəriniz əlaqələrimizə yeni təkan verəcəkdir.

Bir daha xoş gəlmisiniz!

**Angela Merkel:** Hörmətli cənab Prezident!

Hörmətli Azərbaycan tərəfinin nümayəndələri!

Mən çox şadam ki, Azərbaycandayam. Biz artıq bir neçə dəfə görüşmüşük. Amma mən ilk dəfədir ki, bu ölkəyə səfər edirəm.

Bizim çoxtərəfli münasibətlərimiz vardır. Biz artıq beynəlxalq təşkilatlar, beynəlxalq görüşlər çərçivəsində dəfələrlə görüşmüşük və mən hesab edirəm ki, bu səfər bizim münasibətlərimizə yeni təkan verəcəkdir.

Biz həm də mədəniyyət sahəsində əlaqələrimizi genişləndirə bilərik. Azərbaycanda ilk alman koloniyasının yaradılmasından 200 il keçir. Bəzi insanların bu barədə heç məlumatı belə, yoxdur.

İqtisadi əlaqələrimizi genişləndirə bilərik. Azərbaycan bu regionda Almaniyanın ən böyük ticarət tərəfdaşıdır.

Biz yəqin ki, bəzi kritik məqamlara da toxunacağıq. Bu da insan hüquqları və humanitar vəziyyətdir.

Bu regiona çox mane olan məsələ barədə də danışacağıq. Bu da Dağlıq Qarabağ münaqişəsidir və biz Almaniya tərəfindən onun həllinə dəstək olmaq istərdik.

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ANGELA MERKEL İLƏ MƏTBUAT KONFRANSINDA İŞTİRAK

*25 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin avqustun 25-də mətbuat konfransı keçirilmişdir.*

*Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel mətbuat konfransında çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanım Federal Kansler!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, hörmətli xanım Kansler, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Bu, Almaniya Kanslerinin Azərbaycana ilk səfəridir, bu, tarixi bir səfərdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər nəticəsində Almaniya–Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək, bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir.

Bu gün biz gündəlikdə duran bir çox məsələləri çox açıq, konstruktiv şəkildə müzakirə etdik. Əminəm ki, aparılan danışıqlar, keçirilmiş fikir mübadiləsi gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır.

Mən xanım Kanslerə regional təhlükəsizlik məsələləri, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verdim. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində 1 milyondan

çox azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edibdir. Bu qətnamələrdə göstərilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur, onları icra etmir. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır.

Biz bu gün digər məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Aramızda olan ticarət dövriyyəsi artır. Bu gün biz Almaniya və Azərbaycan biznes dairələrinin nümayəndələri ilə görüşəcəyik. Almaniyadan olan şirkətlər Azərbaycanda bir çox layihələrdə iştirak edirlər və əminəm ki, bu səfərdən sonra onların buradakı fəaliyyəti daha da genişlənəcək, buna böyük imkanlar vardır. Azərbaycan indi iqtisadi şaxələndirmə siyasətini uğurla aparır, çox böyük sərmayələr qoyulur, sərmayə iqlimi də çox müsbətdir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur ki, bunun da təxminən yarısı xarici sərmayədir.

Enerji təhlükəsizliyi məsələləri, əlbəttə ki, diqqət mərkəzindədir. Azərbaycan bu sahədə öz rolunu oynayır və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir. Xüsusilə «Cənub Qaz Dəhlizi»nin yaradılması tarixi hadisə kimi qəbul edilir. Bu çox böyük, genişmiqyaslı layihədir, 40 milyard dollar sərmayə tələb edən layihədir və uğurla icra edilir. Bu ilin may ayında Bakıda «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı olubdur.

Biz xanım Kanslerlə demokratiya, insan haqlarının qorunması ilə də bağlı fikir mübadiləsi apardıq və bu sahədə əməkdaşlığımızı davam etdirmək fikrindəyik. Avropa İttifaqı–Azərbaycan əlaqələri müzakirə edildi, biz bu əlaqələrin inkişafından çox razıyıq. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri sənədi imzalanıb və böyük saziş üzərində çox konstruktiv iş aparılır. Ümid edirəm ki, danışıqlar

yaxın zamanlarda uğurla başa çatacaq və Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üçün yeni dövr başlanacaqdır.

Bir sözlə, bu gün bu və digər məsələlər, o cümlədən regional vəziyyətlə bağlı məsələlər də müzakirə edildi. Bu göstərir ki, aramızda olan münasibətlər doğrudan da səmimidir, dostluq münasibətləridir və səfərin də bu münasibətlərin möhkəmlənməsində çox böyük rolu olacaqdır.

Hörmətli xanım Kansler, bir daha xoş gəlmisiniz!

## Almaniyanın Federal Kansleri
## Angela Merkelin çıxışı

Hörmətli cənab Prezident!

Sizə bu səmimi qəbula, bugünkü çox intensiv diskussiyaya görə təşəkkür edirəm. Bu, Federal Kansler kimi, mənim Azərbaycana ilk səfərimdir və ilk imkan idi ki, ölkələrimiz arasında münasibətləri burada açıq şəkildə müzakirə edək, əməkdaşlığımızı davam və inkişaf etdirək.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyini qeyd edir. Azərbaycan artıq ənənələri olan bir dövlətdir.

Bizim ikitərəfli münasibətlərimiz onunla xarakterizə olunur ki, bu regionda Azərbaycanın simasında ən böyük, ən vacib ticarət tərəfdaşımız vardır. Azərbaycanda Xarici Ticarət Palatamız var, burada 150 alman müəssisəsi fəaliyyət göstərir. Azərbaycan da öz növbəsində, iqtisadiyyatın şaxələndirilməsinin həyata keçirilməsində maraqlıdır və Almaniya bu sahədə öz ciddi töhfəsini verə bilər. Bu gün birgə biznes-forum da buna xidmət edəcək və orada detallar barədə danışacağıq.

Azərbaycan Avropa İttifaqının enerji şaxələndirilməsində də güclü bir amildir və «Cənub Qaz Dəhlizi»nin açılması Avropanın enerji təminatında böyük rol oynayacaqdır. Biz Azərbaycanda Bakı–Tbilisi–Qars dəmir yolunun açılmasını yüksək qiymətləndiririk. Bu, Avropa ilə ticarət əlaqələrini genişləndirəcək, mübadilə aparılmasını yaxşılaşdıracaqdır.

Biz Azərbaycanın daxili vəziyyəti, insan hüquqları barədə çox açıq şəkildə söhbət etdik. Bütün məsələlərdə həmişə tam eyni mövqe olmasa da, biz dünyəvi dövlətin qurulmasının, açıq demokratik şəraitin yaradılmasının vacib və arzuedilən olduğu barədə danışdıq.

Dağlıq Qarabağ məsələsi haqqında açıq danışdıq. Mən bir daha vurğuladım ki, Almaniya bu münaqişənin həllində maraqlıdır və biz buna Minsk qrupu çərçivəsində öz töhfəmizi verəcəyik. Ermənistanda yeni hökumətin qurulması faktı bəlkə də bu sahədə vəziyyətin yaxşılaşdırılmasına, danışıqlara təkan verilməsinə səbəb ola bilər və Almaniya da burada iştirak edə bilər. Biz regionun təhlükəsizliyi haqqında da danışdıq. Azərbaycanın coğrafi vəziyyəti çox maraqlıdır, yəni bir tərəfdən Rusiya, bir tərəfdən İranla əhatə olunub, Türkiyə ilə əlaqələri vardır. Biz bu fikirdəyik ki, bu regionda mövcud olan bütün münaqişələr sülh, danışıqlar yolu ilə həll edilməlidir.

Bizim bundan sonrakı dialoqumuzun intensivləşdirilməsi üçün şərait və əsaslar vardır. Bəzən fərqli fikirlər olanda da danışmaq, fikir mübadiləsi aparmaq və qarşı tərəfin fikrinə də diqqətlə qulaq asmaq lazımdır. Ona görə mən Sizə müzakirələr üçün təşəkkür edirəm, çox sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyev və Federal Kansler Angela Merkel jurnalistlərin suallarını cavablandırdılar.*

**M i x a e l a K ü f n e r** *(«Deutsche Uelle»)*: **Prezident Əliyev, Siz münasibətlərdə inkişafdan danışdınız. Bu yaxınlarda müxalifət lideri İlqar Məmmədov azadlığa buraxılıb. Araşdırma aparan bir çox jurnalist, o cümlədən Əfqan Muxtarlı həbsdə qalır. Buna görə Avropa Şurası Sizi tənqid edir. İndicə istinad etdiyiniz kimi, Almaniya və Avropa İttifaqı ilə belə sıx iqtisadi əməkdaşlıqla, Siz Avropa Şurasında Əfqanıstan kimi, özünüz üzərinizə götürdüyünüz**

**öhdəlikdən irəli gələrək, bir daha insan hüquqları standartlarına doğru addımlar atmağa başlayacaqsınızmı? Söhbət zamanı Almaniya Kansleri bu konkret hallarla bağlı Sizinlə danışdımı?**

**Xanım Federal Kansler, Siz burada Avropa dəyərlərini də təmsil edirsiniz, bu hazırda Brüsseldə də qızğın müzakirə mövzusudur. Bu kontekstdə Siz tərəfdaş Azərbaycanı hansı standartlara uyğun ölçürsünüz? Siz xatırlatdınız ki, Almaniya Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fəaliyyətini artıracaqdır. Bəlkə konkret ifadə edəsiniz, bu necə olacaqdır? Əlbəttə, münaqişəni yox, münaqişənin həllini nəzərdə tuturam.**

**İ l h a m  Ə l i y e v:** İlk növbədə, onu qeyd etməliyəm ki, Azərbaycan demokratik dəyərlərə sadiq ölkədir. Azərbaycanda bütün demokratik təsisatlar mövcuddur, bütün azadlıqlar, o cümlədən söz və mətbuat azadlığı təmin edilir. Azərbaycanda yüzlərlə mətbu orqan fəaliyyət göstərir ki, onların arasında müxalifət mətbuatı da kifayət qədər çoxdur. Yəni Azərbaycanda heç kim tənqidə, fərqli baxışa görə təqib olunmur, heç kim cəzalandırılmır. Azərbaycanda sərbəst toplaşma azadlığı da təmin edilir və istənilən siyasi qüvvə bu imkanlardan istifadə edə bilər.

Bildiyiniz kimi, bu il Azərbaycanda Prezident seçkiləri keçirildi. Seçkilər ərəfəsində və seçkilərdən sonra müxalifət bir çox aksiya, mitinqlər keçirdi – azad, sərbəst şəkildə, heç bir maneəsiz. O başqa məsələdir ki, o aksiyalara 1000 nəfərdən çox adam gəlməmişdir. Bu da yəqin ki, müxalifətin hansı hörmətə malik olduğunu göstərir, ancaq heç bir məhdudiyyət qoyulmur.

Azərbaycan demokratik dəyərlərə, insan haqlarına sadiqdir. Avropa Şurası təkcə Azərbaycanı yox, bir çox ölkələri tənqid edir. Biz bu tənqidə normal yanaşırıq. Əgər tənqid əsaslıdırsa, biz nəticə çıxarırıq. Əgər biz hesab ediriksə, bu tənqid əsassızdır, qərəzlidir, ikili standartlara əsaslanır, əlbəttə, öz sözümüzü deyirik, açıq şəkildə bildiririk. Mən də giriş sözümdə qeyd etdim ki, xanım

Kanslerlə insan haqları, demokratik inkişafla bağlı məsələlər açıq, konstruktiv şəkildə müzakirə edildi və bu məsələlər bundan sonra da müzakirə olunacaqdır.

Bizim gündəliyimiz çox genişdir və müzakirə olunan bütün məsələlər eyni əhəmiyyət daşıyır – energetika, nəqliyyat, ticarət, regional təhlükəsizlik, o cümlədən demokratik inkişaf. Avropa İttifaqı ilə Azərbaycan arasında bu gün müzakirə olunan yeni sazişdə də demokratik məsələlərə geniş yer ayrılır. Yəni biz bu yola şüurlu şəkildə getmişik, heç kim bizi məcbur etməyib. Azərbaycan müasir, demokratik ölkə kimi, bundan sonra da uğurla inkişaf edəcək, bizim siyasi və iqtisadi islahatlarımız bir-birini tamamlayaraq, Azərbaycanı daha da yüksək səviyyəyə qaldıracaqdır.

**A n g e l a M e r k e l:** Bizim üçün demokratik dəyərlərdə heç bir dərəcələnmə yoxdur. Bizim demokratik dəyərlərin nə olduğu barədə aydın təsəvvürümüz vardır. Bu diskussiya həm ikitərəfli, həm də Avropa Şurası çərçivəsində aparılır. Mən arzu edərdim ki, Azərbaycan seçkilərin təşkilində də dialoq aparsın. Bu məsələləri biz bu gün ətraflı müzakirə etdik, standartlarımız həmişə eynidir, perspektivdən dəyərləndirilir.

Biz Dağlıq Qarabağ məsələsi ilə bağlı Minsk qrupunda fəaliyyətimizi davam etdirəcəyik. Mən bu dəfə hər iki ölkəyə səfər etdim və bununla da məsələnin təcili və necə həll olunması barədə bir daha aydın təsəvvür yarandı. Biz səylərimizi artıracağıq və bütün tərəflər də iştirak etməlidir ki, bir həll yolu tapılsın və biz buna töhfəmizi verəcəyik.

**E l ş ə n R ü s t ə m o v** (*1news.az*): **Ermənistan Azərbaycan torpaqlarını uzun illərdir ki, işğal altında saxlayır və xalqımıza qarşı hərbi cinayətlər törədibdir. Ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilən dəhşətli soyqırımı nəticəsində 600-dən çox dinc sakin, o cümlədən 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin təxminən 20 faizi işğal olunub. 1 milyondan çox soydaşımız qaçqın və məcburi**

**köçkün vəziyyətinə düşüb. Onların əmlakları, evləri talan edilib, dağıdılıb və bu insanların fundamental insan haqları kobud şəkildə pozulubdur. BMT Təhlükəsizlik Şurası Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin Ermənistan onlara məhəl qoymur və onları icra etmir. Nə üçün bu günə qədər Ermənistana qarşı sanksiyalar tətbiq edilməyibdir?**

**A n g e l a M e r k e l:** Bir qədər əvvəl dediyim kimi, biz həll yolunun axtarılması üzərində işləyirik. Mən çox şadam ki, hazırda heç olmasa müəyyən sakitlik vardır. Yəni hazırda insanlar orada zərər çəkmirlər və əlbəttə, Almaniya BMT Təhlükəsizlik Şurasının qərarları əsasında səylərini davam etdirəcək və aidiyyəti regionlarda insanların vəziyyətinin yaxşılaşması üçün məsələnin həllini tapmağa çalışacaqdır.

**K r i s t i a n V i l p** *(RTL/n-tv)*: **Mənim sualım həm cənab Prezidentə, həm də xanım Kanslerə ünvanlanıb. Cənab Prezident, Siz Azərbaycandan Avropaya uzanan qaz kəməri – «Cənub Qaz Dəhlizi»ndən danışdınız. Siz bu kəmərin ötürücülük qabiliyyətinin artırılmasını və Xəzər dənizi vasitəsilə Türkmənistana qədər uzadılmasını dəstəkləyirsinizmi? Xanım Federal Kansler, Siz bu məsələni necə görürsünüz? Aktual vəziyyətlə bağlı digər bir sualı da xanım Kanslerə ünvanlamaq istərdim. İtaliya hədələmişdir ki, əgər İtaliyaya gələn qaçqınlar Avropa İttifaqı miqyasında paylanmasalar, Avropa İttifaqına ödənişləri azaldacaqdır. Siz bu məsələni necə görürsünüz? Bu hansı nəticələri doğuracaqdır? Qaçqınlar mövzusundan danışmışkən, Siz Almaniyada «Öhdəlik ili» ilə əlaqədar ölkədəki qaçqınlar haqqında nə düşünürsünüz?**

**İ l h a m Ə l i y e v:** «Cənub Qaz Dəhlizi» ilə bağlı Azərbaycanda bütün işlər qrafik üzrə gedir. «Cənub Qaz Dəhlizi» nəhəng beynəlxalq layihədir, 4 layihədən ibarətdir – «Şahdəniz-2» qaz-kondensat yatağının işlənməsi, Azərbaycan qazını

Gürcüstan üzərindən daşıyan «Cənubi Qafqaz» boru kəməri, Azərbaycan qazını Türkiyəyə daşıyan TANAP və sonuncu, dördüncü hissə isə TAP-dır – Trans–Adriatik kəməri. 4 hissənin 3-ü artıq reallaşıb və TANAP-ın açılışı bu ilin iyun ayında baş verib. Qalan hissənin tikintisi prosesi gedir, ümid edirəm ki, burada da heç bir problem olmayacaq və vaxtında – yəni 2020-ci ildə Azərbaycan qazı 3500 kilometrlik boru xətti ilə Avropa bazarına çıxarılacaqdır. Beləliklə, Avrasiyanın enerji xəritəsinə çox dəyərli bir töhfə veriləcəkdir. Bununla Azərbaycan qarşısında duran enerji təhlükəsizliyi ilə bağlı olan bütün məsələləri həll etmiş olur. Çünki əvvəlki illərdə tikilən Bakı–Tbilisi–Ceyhan neft kəməri Azərbaycan neftini Aralıq dənizinə çatdırır. Qara dənizə aparan Bakı–Supsa kəməri bizim təşəbbüsümüzlə tikilib, Bakı–Ərzurum qaz kəməri çəkilib və bu dördüncü layihə ilə biz qarşımızda duran bütün vəzifələri icra edirik.

Azərbaycanın tranzit imkanlarına və bizim münasibətimizə gəlincə, əlbəttə, hər bir ölkə istəyər ki, onun ərazisindən daha çox yük keçsin. Hazırda biz Türkmənistan neftini Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə dünya bazarlarına çatdırırıq və eyni zamanda, Orta Asiyanın quru yüklərini Azərbaycan ərazisindən yeni istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə çıxarırıq. Ancaq, əlbəttə ki, Trans–Xəzər kəmərinin tikintisi daha çox qazın sahibi üçün maraqlı olmalıdır, tranzit ölkələr burada təşəbbüs göstərməməlidir. Necə ki, biz qazın sahibi kimi, 3500 kilometrlik kəmərin tikintisinə start verdik, böyük maliyyə vəsaiti ayırdıq. Ona görə də əgər Xəzərin şərq hissəsində öz qazını Azərbaycan üzərindən dünya bazarına çıxarmaq qərarı olarsa, biz, əlbəttə ki, buna çox maraqla baxa bilərik və onda öz qərarımızı da verə bilərik. Ancaq bu qərar bizim yox, qarşı tərəfin olmalıdır.

**A n g e l a  M e r k e l:** Bilirsiniz ki, Brüsseldə hazırda qaçqınların Avropada bölüşdürülməsi ilə bağlı müzakirələr aparılır. Bütün ölkələr öz fikirlərini bildirir. Avqustun sonunadək

vaxtımız var və ümid edirəm ki, bu vaxt ərzində biz uğur qazanacağıq. Bu danışıqlar heç də asan deyil. İkinci sualınıza dair deyim ki, biz danışıqları davam etdiririk, bütün mövqelərlə tanış olmağa hazırıq və prinsipial məsələlər haqqında qərar da bundan sonra veriləcəkdir.

**S e v i l M i k a y ı l o v a** («*Trend» İnformasiya Agentliyi*): **Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin təxminən 70 faizi Azərbaycanın payına düşür. Hazırda Azərbaycanda iqtisadi sahədə çox ciddi islahatlar aparılır, iqtisadiyyatın şaxələndirilməsinə xüsusi diqqət göstərilir, sənaye, qeyri-neft sənayesi, kənd təsərrüfatı, infrastruktur, İKT, turizm sahələri sürətlə inkişaf edir. Bu gün Siz və Prezident İlham Əliyev Almaniya biznesmenləri ilə də görüşəcəksiniz. Sizcə, qeyd etdiyim sahələrlə bağlı Almaniya iş adamları Azərbaycanda hansı işləri görmək istərdilər və hansı planları vardır?**

**A n g e l a M e r k e l:** Mən buraya işgüzar nümayəndə heyəti ilə birgə gəlmişəm. Qeyd edə bilərəm ki, şirkətlər tərəfindən müxtəlif təkliflər, tikinti və infrastruktur sahələrində, eləcə də tikinti materialları sahəsində layihələr vardır. Biz aqrar sahədə, kənd təsərrüfatı maşınlarının texnologiyası, eləcə də rəqəmsallaşdırılma və təhsil sahələrində fəaliyyət göstərə bilərik.

Bundan başqa, təhlükəsizliklə bağlı sənədlərin – pasportların, şəxsiyyət vəsiqələrinin və banknotların hazırlanması sahəsində də alman şirkəti iştirak edir. Burada çox böyük, geniş seçim vardır. Biz Azərbaycanın istədiyi bütün sahələrdə iştirak edə bilərik. Qeyd etdiyim kimi, Azərbaycanda artıq 150 müəssisəmiz fəaliyyət göstərir. Biz digər alman şirkətlərini dəvət edirik ki, onlar da burada iştirak etsinlər.

## İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*25 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin avqustun 25-də Heydər Əliyev Mərkəzində iş adamları ilə görüşləri olmuşdur.*

*Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri görüşdə çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanım Kansler, hörmətli qonaqlar!

Sizi bir daha salamlayıram, bu gün biz Sizinlə çox geniş fikir mübadiləsi apardıq, bir çox məsələlər, o cümlədən iqtisadi ticarət sahəsində əməkdaşlıq müzakirə olundu. Bu gün biz iş adamlarının iştirakı ilə görüşümüzü davam etdiririk. Qeyd etməliyəm ki, Almaniyadan olan şirkətlər Azərbaycanda uzun illərdir fəaliyyət göstərir, onlar bir çox sahələrdə işləyib, müxtəlif layihələr icra ediblər. Yalnız dövlət vəsaiti hesabına Almaniya şirkətləri dəyəri 1 milyard dollardan çox layihələr icra edib və əminəm ki, gələcəkdə bu rəqəm daha da artacaqdır.

Alman şirkətləri Azərbaycanda yaxşı tanınır, onların keyfiyyəti, texnologiyaları bizim ölkəmizə çox böyük fayda verir. Azərbaycan indi müasirləşmə dövrünü yaşayır, iqtisadi şaxələndirmə bizim əsas prioritetimizdir. Bütövlükdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Son 15 il ərzində 3 dəfədən çox artıb, ölkəmizin makroiqtisadi vəziyyəti sabitdir, xarici borc ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir, işsizlik 5 faiz səviyyəsindədir. Son 15 il ərzində

Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur. Davos - Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb və bu onu göstərir ki, iqtisadi şaxələndirmə siyasəti Azərbaycanda uğurla aparılır. Biz böyük neft-qaz resurslarına malikik, onları ixrac edirik, amma əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə, əlbəttə ki, Almaniyadan olan şirkətlər bizə kömək göstərə bilər.

Hazırda kənd təsərrüfatının inkişafı, turizm, informasiya-kommunikasiya sektoru, infrastruktur layihələri, o cümlədən dəmir yollarının modernləşdirilməsi, inşaat sektoru və digər sahələr prioritetlər sırasındadır. Əminəm ki, bu gün keçiriləcək söhbət nəticəsində yeni kontraktlar imzalanacaq, yeni əməkdaşlıq formatı yaradılacaqdır.

Beləliklə, Sizi bir daha salamlayıram və əminəm ki, səfərinizin son hissəsi də uğurlu olacaqdır.

## Almaniyanın Federal Kansleri Angela Merkelin çıxışı

Biz bu gün ikitərəfli münasibətlər haqqında, eləcə də Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri haqqında fikir mübadiləsi apardıq. Azərbaycanın geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətləri barədə də danışdıq.

Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Bu binadan da gördüyümüz kimi, Azərbaycan çox sürətli inkişafa nail olub. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi yaxşı faktdır. Alman iqtisadiyyatının da geniş şaxəli olması burada yaxşı partnyorluq üçün əsas yaradır. Azərbaycanda alman Xarici Ticarət Palatası vardır, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir. Prezident də qeyd etdi ki, ölkə iqtisadiyyatının inkişafına töhfə

vermək üçün digər müəssisələr də ürəklə dəvət olunur. Bizim bunda böyük marağımız vardır.

Azərbaycan dünyəvi bir dövlətdir. Biz bu barədə danışdıq. Bu gün Azərbaycan dünyəvi müsəlman dövlətidir. Baxmayaraq ki, biz bu gün dünyanın bir çox ölkələrində islamlaşmanın daha da güclənməsi trendlərini müşahidə edirik.

Azərbaycanın iqtisadiyyatı üçün bu uğurların böyük əhəmiyyəti vardır. Almaniya bu sahədə yaxşı partnyor ola bilər. Mən çox şadam ki, yaranmış bu imkandan istifadə edib sizi dinləyə biləcəyik. Biz istəyirik ki, iqtisadiyyat nümayəndələri çıxış etsinlər, öz fikirlərini bildirsinlər. Nə qədər konkret danışılsa, alman iqtisadiyyatından nümayəndələr bir o qədər çox söz deyə bilərlər. Burada İqtisadiyyat Nazirliyindən Dövlət katibi iştirak edir. Nazir müavini və Dövlət katibi Azərbaycan tərəfindən deyilənləri qeyd edərək, Almaniya tərəfindən görüləsi işlər haqqında fikirlərini sonra paylaşacaqlar.

## ŞAMAXI RAYONUNA SƏFƏR

*26 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Şamaxı rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı rayonunda ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıbdır.*

*Ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda son vaxtlar yenidən qurulma və abadlıq işləri aparılıb, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilibdir.*

### Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird-yerlik Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird-yerlik Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbin yeni binasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı məktəbin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan da əhalisinin savadlılığı baxımından dünyanın bir çox inkişaf etmiş ölkələri ilə müqayisə olunur. Dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi diqqət çəkir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı müstəsna əhəmiyyət daşıyır. 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bununla da ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıbdır.*

*Təhsil naziri Ceyhun Bayramov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdilər ki, Meysəri kənd tam orta məktəbin binası ötən əsrin 50-ci illərində inşa edilib. O dövrdən sonra heç vaxt təmir olunmayan məktəb artıq müasir tələblərə cavab vermirdi və tədris üçün yararsız vəziyyətə düşmüşdür. Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət, bu sahədə həyata keçirdiyi islahatlar Meysəri kənd tam orta məktəbin həyatında da mühüm rol oynadı. 2016-cı ildə məktəb üçün yeni binanın inşasına başlanıldı. Məktəb binası artıq istifadəyə hazırdır və burada inşaat işləri yüksək səviyyədə yerinə yetirilib. Müasir və işıqlı sinif otaqlarının*

*olduğu məktəbdə təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün şərait yaradılıb. Məktəbin kitabxanası dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq, şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Akt zalında isə məktəbin həyatı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsinə hər cür imkan vardır. Məktəbdə əyani vasitələrlə təchiz olunmuş fənn kabinetləri yaradılıb. Xarici dil otaqlarının, kimya, fizika və biologiya üzrə fənn kabinetlərinin olduğu məktəbdə informatika kabineti kompüter avadanlığı ilə təchiz edilib. Məktəbin hərbi kabinetində şagirdlərin hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıbdır.*

*Meysəri kənd tam orta məktəbi üçün yeni binanın inşası son illərdə təhsil sahəsində qazanılan uğurların təməlində Azərbaycanın yeni təhsil modelinin dayandığını bir daha təsdiqləyir. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və həyata keçirilməyə başlanıbdır. Azərbaycanda yüzlərlə məktəb binasının tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi nəhəng təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıb. Ən əsası isə milli dəyərlər üzərində qurulan təhsil modeli gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını qarşıya əsas məqsəd qoyub və buna nail olubdur.*

## «Şirvan şərabları» MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da Meysəri kəndində «Şirvan şərabları» MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak etmişlər.*

*Azərbaycanda həyata keçirilən məqsədyönlü uğurlu siyasət nəticəsində iqtisadiyyatın sürətli inkişafı ölkədə işgüzar fəallığın yüksəldilməsinə, neft sektoru ilə yanaşı, qeyri-neft sektoru-*

*nun da dinamik inkişafına, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini, maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin edibdir. Prezident İlham Əliyevin hazırda intensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönələn siyasəti, həyata keçirilən dövlət dəstəyi tədbirləri öz uğurlu nəticəsini verir. Bu, kənd təsərrüfatı məhsulları istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Üzümçülüklə bağlı həyata keçirilən tədbirlər də bunun əyani ifadəsidir.*

*Şamaxıda vaxtilə üzümçülük böyük şöhrət qazanmışdı. Ötən əsrin 70–80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Sonradan Sovet İttifaqının dağılması, keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaşanan gərginlik, baxımsızlıq iqtisadiyyatın digər sahələri kimi, üzümçülüyü də, demək olar ki, sıradan çıxarmışdı. Hazırda bu gəlirli sahənin bərpası və yenidən inkişaf etdirilməsi diqqət mərkəzindədir. Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanmış və qəbul edilmiş «2012–2020-ci illərdə Azərbaycanda üzümçülüyün inkişafına dair Dövlət Proqramı» bu sahənin yenidən dirçəldilməsində mühüm rol oynayır. Bu Dövlət Proqramı üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətini də gücləndirib, yeni üzümçülük təsərrüfatlarının yaradılmasına müsbət təsir göstəribdir. İri aqrar rayonlardan olan Şamaxıda kənd təsərrüfatının bu sahəsinə xüsusi önəm verilir. Bu istiqamətdə «Şirvan şərabları» MMC-nin gördüyü işlər təqdirəlayiqdir.*

*«Şirvan şərabları» MMC-nin icraçı direktoru Ceyhun Soltanov dövlət başçısına və xanımına kompleks barədə məlumat verdi. Bildirildi ki, üzümçülük və şərabçılıq kompleksinin ümumi sahəsi 310 hektardır. Kompleksin ərazisində sahəsi 4398 kvadratmetr olan Şərab zavodu müasir texnologiya ilə inşa edilib və Fransanın «Pera» şirkətinin avadanlıqları ilə təchiz olunubdur. Müəssisənin hədəfi illik 1,4 milyon litr şərab isteh-*

*salına nail olmaqdır. Həmçinin regionun turizm potensialını da nəzərə alaraq, kompleksə turist turlarının təşkil olunması və nəticədə ölkəmizdə şərabçılıq turizminə də töhfə vermək müəssisənin qarşıya qoyduğu məqsədlərdəndir. Bu məqsədlə ərazidə Şərab Muzeyi və restoran binası, terras istifadəyə verilib, qonaqlar üçün avtodayanacaq və qonaq evi tikilibdir. Uşaqlar üçün əyləncə zonası da yaradılıb. Kompleksin girişində yük və minik avtomobilləri üçün nəzarət-buraxılış məntəqələri vardır. Ərazidə anqar binası, texnika üçün avtoyuma və yanacaqdoldurma məntəqəsi, mağaza və zavodun maşınları üçün avtodayanacaq tikilib. Çayın üzərində minik maşınları və piyadalar üçün körpü inşa olunub. Əraziyə uzaq məsafədən su, işıq, qaz xətləri çəkilib, yağış sularının axıdılması üçün xüsusi borular və avtomat suvarma sistemləri, təhlükəsizlik-müşahidə kameraları quraşdırılıb. Zavodun işçi heyəti üçün ofis, yeməkxana və yataqxana binası inşa olunubdur.*

*Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə üzümçülüyün inkişafına xüsusi diqqət göstərilirdi. Bunun nəticəsi idi ki, 1984-cü ildə respublikanın büdcə gəlirlərinin 40 faizə yaxını üzümçülük və şərabçılığın hesabına təmin edilirdi. Həmin dövrdə 254 min hektar üzüm bağlarından 2 milyon 164 min ton məhsul yığılmışdı. Bu, SSRİ-də istehsal olunan üzümün 30 faizinə bərabər idi. Həmin dövrdə Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. 26 min hektar üzüm plantasiyası olan rayonda ildə orta hesabla 240 min tondan çox üzüm yığılırdı.*

*Müəssisənin istehsal prosesi ilə tanış olan dövlət başçısına məlumat verildi ki, Şamaxıda üzümçülüyün inkişafına yenə xüsusi diqqət göstərilir. 2014-cü ildə üzüm bağlarının salınması və orqanik bioşərab istehsalı məqsədilə yaradılmış «Şirvan şərabları» MMC-nin fəaliyyəti bu sahədə diqqəti cəlb edir.*

*Fransız texnoloq Jan Montane bildirdi ki, 2015-ci ildə 40 hektar sahədə fransız sortlarından ibarət 100 min ting əkilməklə, ilk üzüm bağı salınıb. 1 il sonra – 2016-cı ildə daha 40 hektar*

*sahədə Azərbaycan, gürcü və fransız sortlarından ibarət 100 min ting əkilib. İlk məhsul ötən il götürülüb. 233379 ton üzüm yığılıb, bu məhsuldan 142900 litr üzüm şirəsi sıxılıb və «Meysəri» markası ilə «Sədəf», «Mərcan» və «Məxməri» adlı şərablar istehsal olunubdur.*

*Bildirildi ki, 2017-ci ildə 40 hektardan çox, bu il isə 35 hektardan çox sahədə növbəti üzüm bağları salınıb. Gələn il daha 44 hektar sahədə yeni bağların salınması və üzüm sahələrinin 200 hektara çatdırılması nəzərdə tutulub. Üzümlüklərin 40 faizini ağ, 60 faizini isə qırmızı üzüm sortları təşkil edəcək. Hazırda müəssisədə Meysəri kəndi və ətraf ərazilərin 200-dək sakini işlə təmin olunub. Kompleksin ərazisində yaşıllıq zolağı salınıb, 1000-dən çox müxtəlif növ ağac və kollar əkilib, süni göl yaradılıb. Müəssisəyə məxsus üzüm əkini üçün relyef baxımından əlverişsiz olan 34 hektardan çox sahədə müxtəlif meyvə ağacları əkilibdir.*

**İ l h a m Ə l i y e v:** Şadam ki, Şamaxı rayonunda üzümçülük geniş vüsət alıb. Gözəl üzüm bağları salınıb, vətəndaşlar işlə təmin olunublar. Yəni ölkəmizdə kənd təsərrüfatı ilə bağlı aparılan siyasət, bax, bu yeni salınmış üzüm bağlarında özünü göstərir. Bu məni çox sevindirir. Çünki Şamaxı rayonu ənənəvi üzümçülük diyarıdır. Burada üzümçülüyün çox böyük ənənələri vardır. Sovet dövründə də ulu öndər Heydər Əliyev dəfələrlə Şamaxı rayonunda olmuş, üzümçülüklə bağlı lazımi tapşırıqlar, göstərişlər vermişdir. O vaxt Azərbaycanda 2 milyon ton üzüm yığılırdı. Ondan sonra əfsuslar olsun ki, üzüm bağları qırıldı və üzümçülüyü biz, demək olar, itirirdik. İndi isə bərpa edirik. Bu, Şamaxı rayonunda birinci üzüm təsərrüfatı deyil. Keçən il mən Şamaxıda olarkən böyük üzüm bağlarında aparılan işlərlə tanış oldum. Bu gün Şərab zavodunun fəaliyyətə başlaması, üzüm bağlarının salınması, əlbəttə ki, çox əlamətdar hadisələrdir.

Azərbaycanda üzümçülüyün çox gözəl gələcəyi vardır. Şamaxı rayonu Azərbaycanda üzümçülüyün mərkəzi olmalıdır.

Qədim zamanlarda da belə olub, indi də biz Şamaxının üzümçülük şöhrətini bərpa edirik.

Çox gözəl Şərab zavodu istifadəyə verilib. Fransız texnologiyaları ilə işləyən zavoddur. Burada ən müasir avadanlıqlar quraşdırılıb, istehsal olunan ixrac yönümlü şərablar Azərbaycanın ixrac potensialını artıracaq. Biz indi müxtəlif ölkələrdə Azərbaycan şərab evlərini yaradırıq. Burada istehsal olunan şərablar ölkəmizə xeyir gətirəcək.

Üzümçülük əməktutumlu kənd təsərrüfatı sahəsidir. Mənə verilən məlumata görə, 300 hektarda salınmış üzüm bağlarında 200-ə yaxın insan işlə təmin olunub. Bu kəndin sakinləridir. Mənə verilən məlumata görə, kənddə işsizliklə bağlı problemlər aradan götürülüb. Bizim əsas məqsədimiz də odur ki, iş yerləri yaradılsın, insanlara yaxşı maaş verilsin. Hər bir vətəndaş halal zəhməti ilə öz həyatını qursun, ailəsini saxlasın və firavan yaşasın.

Üzümçülük çox gəlirli sahədir və mənə verilən məlumata görə, burada işləyənlərin əmək haqları da kifayət qədər yaxşı səviyyədədir. Bu təsərrüfat genişləndikcə daha çox işçi qüvvəsi lazım olacaq, daha çox əməkhaqqı veriləcək. Beləliklə, Şamaxı nəinki Azərbaycanın, regionun önəmli üzümçülük mərkəzlərindən birinə çevriləcəkdir.

Bütövlükdə Şamaxı rayonunun inkişafı ilə bağlı mənim tərəfimdən bir çox sərəncamlar verilibdir. Mən Şamaxı rayonunda tez-tez oluram, keçən il də olmuşam. Bu mənim Prezident kimi, Şamaxıya yeddinci səfərimdir. Rayonun sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görülüb. Keçən il Şamaxı şəhərində içməli su layihəsinin açılışını qeyd etdik. Bu məsələ öz həllini tapdı. Ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb. Qazlaşdırılmayan təsərrüfatlar da yaxın zamanlarda qazla təmin ediləcək. Elektrik enerjisi ilə bağlı problemlər həll olunur. Kənd yolları salınır. Növbəti sərəncam yaxın günlərdə imzalanacaq. Keçən dəfə Şamaxıda olarkən biz böyük kənd yolunun açılışını qeyd etdik.

Şamaxı rayonunda Diaqnostika Mərkəzi, Mərkəzi Rayon Xəstəxanası, Olimpiya İdman Kompleksi, Mədəniyyət Mərkəzi, 40-dan çox məktəb tikilib, təmir edilibdir. Nəinki Azərbaycanın, bütün islam aləminin önəmli məbədi olan Şamaxı Cümə məscidi mənim təşəbbüsümlə əsaslı şəkildə təmir edilib. Demək olar ki, yenidən qurulubdur. Bu məscid 743-cü ildə tikilib və bizim milli sərvətimizdir. Bütün islam aləminin sərvətidir və mən beynəlxalq tədbirlərdə dəfələrlə bu barədə məlumat vermişəm.

Keçən dəfə burada olarkən Dəmirçi kənd məscidinin təmirdən sonra açılışını qeyd etdik. İndi Şamaxıdan Lahıca, Dəmirçi kəndinə yol açılır. Biz keçən il bu yolu açdıq, indi Dəmirçidən Lahıca açacağıq. Yəni o, turizm marşrutudur. İndi Lahıca getmək üçün Bakıdan gələnlər daha çox Şamaxıdan keçəcəklər və beləliklə, gələcəklər, istirahət edəcəklər, bu bağlara baxacaqlar, zavoda gedəcəklər. Şamaxıda hotellər tikilib. Şamaxı Azərbaycanın ən inkişaf etmiş rayonlarından biridir. Bu da təbiidir, çünki Şamaxının çox qədim tarixi vardır. Qədim xəritələrdə Şamaxının adı vardır. Qədim mədəniyyət, incəsənət mərkəzidir. Azərbaycanın çox dəyərli diyarıdır. Mən şadam ki, görülən işlər öz nəticəsini verir.

Baxın, Bakı–Şamaxı yolu indi genişləndirilir. İlk mərhələdə gözəl yol saldıq. Çünki əvvəlki yol bərbad vəziyyətdə idi. Sonra göstəriş verdim ki, dördzolaqlı yol olsun. İndi də onun böyük hissəsi artıq istifadəyə verilib. Bütün bunlar böyük maliyyə tələb edir. Dövlət tərəfindən vəsait qoyulur. Bax, bu gün məktəbin açılışı özlüyündə böyük bir hadisədir. Meysəri kəndində gözəl məktəb, infrastruktur layihələri, kənd təsərrüfatı, aqroparklar açılıb. İndi 42 min hektarda – Şamaxı və Hacıqabul rayonlarının ərazisində böyük taxılçılıq təsərrüfatı yaradılıb. 42 min hektarda! Orada nə qədər insan işləyir. İndi yeni sahələr dövriyyəyə buraxılır. Bax, bu işlərdə bizim siyasətimiz özünü göstərir. Mən bu gözəl təsərrüfatın yaradılması münasibətilə sizi təbrik edirəm, sizə uğurlar

arzulayıram. Yaxşı işləyin ki, işiniz yaxşı getsin və xalqımız daha da yaxşı yaşasın.

**Z a h i r Ə l i y e v** *(müəssisənin işçisi)*: Möhtərəm Prezident, hörmətli Mehriban xanım! İcazə verin, Sizi kollektivimiz adından və kənd camaatı adından salamlayım. Qədim Şamaxı şəhərinə, bizim Meysəri kəndinə xoş gəlmisiniz!

Hamıya bəlli olduğu kimi, möhtərəm Prezident, uğurlu siyasətiniz, xalqımıza qayğı və diqqətiniz sayəsində respublikamızda işsizliyin səviyyəsi minimuma endirilib. Bunun bariz nümunəsidir ki, biz bu gün burada üzüm plantasiyasında dayanmışıq. Kəndimizdə «Şirvan şərabları» müəssisəsi fəaliyyət göstərir. Bütün bunlara görə kollektivimiz və kəndimizin sakinləri adından Sizə minnətdarlığımızı bildiririk.

Möhtərəm Prezident, onu da qeyd etmək istəyirəm ki, 2-3 il bundan əvvəl kəndimizdən digər rayonlara, şəhərlərə, paytaxtımıza gedib kirayədə qalaraq, ailəsini dolandıran insanlar var idi.

**İ l h a m Ə l i y e v:** İşləyirdilər orada.

**Z a h i r Ə l i y e v:** Bəli, möhtərəm Prezident, artıq bu gün kəndimizdə işləməyən ailə yoxdur. Allah Sizdən razı olsun, çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, çox gözəl, mən bu təsərrüfatın genişləndirilməsi ilə bağlı tapşırıq vermişəm. İndi yeni bağlar salınacaq, əkin sahələri böyüyəcək, burada iş çox olacaqdır. Azərbaycanda əhali artır və hər bir yeni doğulan uşaq üçün gələcəkdə iş yeri olmalıdır və kənd təsərrüfatını belə genişləndirməklə, biz buna nail olacağıq.

Əlbəttə, Şamaxının – mən qeyd etdim, bir daha demək istəyirəm – çox böyük turizm potensialı vardır. Şamaxının qədim abidələri, təbiəti, havası və belə gözəl məkanları turistləri cəlb edir. Bura turizm mərkəzi olacaqdır. Buradakı Şərab evi, mağaza kiçik olsa da, istirahət zonası turistləri cəlb edəcək, xüsusilə də xarici turistləri. Gələcəklər, pul xərcləyəcəklər, kəndlilərdən məhsul alacaqlar. Beləliklə, işlər daha da yaxşı gedəcəkdir.

**Z a h i r  Ə l i y e v:** Çox sağ olun, sayənizdə cənab Prezident.
**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## ŞAMAXI RAYONUNDA HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ İNŞA EDİLMİŞ DƏMİRÇİ ARXEOLOGİYA MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*26 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Dəmirçi Arxeologiya Muzeyinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı muzeyin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın hər bir guşəsi maddi mədəniyyət abidələri ilə zəngindir. Bu gün respublikamızın bir sıra bölgələrində aparılan genişmiqyaslı arxeoloji tədqiqatlar nəticəsində bir çox maddi mədəniyyət nümunələri üzə çıxarılıb, bu da Azərbaycan tarixinin qədimliyini bir daha sübut edir. Bu abidələrin qorunub-saxlanılması və yeni nəsillərə ötürülməsi də mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə Tarix-Diyarşünaslıq, həmçinin Arxeologiya muzeyləri önəmli rol oynayır. Ölkəmizdə mədəniyyətin bütün sahələrinə göstərilən qayğı muzey işinin təşkili və bu sahədə yeni innovasiyaların tətbiq olunması baxımından da diqqət çəkir. Şamaxı rayonunun Dəmirçi kəndində yeni inşa olunmuş Arxeologiya Muzeyi də qədim maddi mədəniyyət abidələrinin qorunmasına xidmət etməklə, özündə bu prinsipləri nümayiş etdirir.*

*Şamaxı rayonunun ən qədim kəndlərindən olan Dəmirçinin tarixi XV əsrə gedib çıxır. İsmayıllı rayonunun Əhən kəndindən gələn dəmirçi ailələri mövsümi işlə əlaqədar burada müvəqqəti,*

*sonralar isə daimi məskən salmışlar. Sakinlərin məşğuliyyəti ilə əlaqədar kəndin də adı dəyişib və Dəmirçi olubdur. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bu kəndin iqlimi mülayim, yayı sərindir. Kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, «Azərxalça» ASC-nin guşəsi, suvenir mağazası və ABAD dükanları, avtomobil dayanacağı yaradılıb, «Qala» və bulaq kompleksi inşa edilibdir. Dövlət başçısının göstərişi ilə ölkəmizin ən qədim dini məbədlərindən olan kənd məscidi əsaslı şəkildə yenidən qurulub. Xatırladaq ki, Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ötən ilin oktyabrında Dəmirçi kəndinə səfərləri çərçivəsində kənd məscidinin yenidənqurmadan sonrakı vəziyyəti və burada yaradılan turizm infrastrukturu ilə tanış olublar.*

*Muzeydə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, muzey binasının inşasına bu ilin fevralında başlanılıb. Yüksək səviyyədə həyata keçirilən tikinti işləri avqustda başa çatdırılıb. Birmərtəbəli bina açıq və qapalı ekspozisiya zallarından, 2 yardımçı otaqdan ibarətdir. Buradakı açıq muzey xüsusilə diqqəti cəlb edir.*

*Bildirildi ki, Dəmirçi–Lahıc yolunun çəkilişi zamanı kəndin 4-cü kilometrliyində Gədəli yaylağı adlanan ərazidə 3 hektar sahədə Son Antik və erkən orta əsrlərə aid nekropol aşkar edilib. Tədqiqat zamanı yer səthindən təqribən 50–80 santimetr dərinlikdə 30-dək daş qutu qəbirləri, qala divarları və yeraltı anbarlar aşkarlanıb. Kvadrat formasında olan qəbirlərin hamısının divarları çaydaşı və əhəngdaşından ibarət olan qaya parçalarından hörülüb, üstü isə sal daşlarla qapanıbdır. Qəbirlərdə skeletlər bükülmüş vəziyyətdə sol böyrü üstə başı əsasən şimal-şərq istiqamətində aşkar olunub. Həmin daş qutu qəbirlərdə alban dövrünə aid kifayət qədər zəngin maddi mədəniyyət nümunələri qeydə alınıb. Tapıntılar arasında saxsı və çini məmulatlar sayca üstünlük təşkil edir. Daş qutu qəbirlərdə*

*metal nümunələrə, o cümlədən silah və bıçaqlara, eləcə də tunc bəzək əşyalarına daha çox rast gəlinir. Bəzi qəbirlərdə skeletin başının altında gümüş cam üzə çıxıb. Elmi cəhətdən çox mühüm tapıntılardan biri həmin camların içərisində skeletin başı altındakı parça qalıqlarıdır. Bu da Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan ən qədim parça nümunəsi hesab olunur. Bir qəbirdə skeletin yanında qılınc və xəncər də qoyulub. Bu tapıntılar həmin qəbrin ən azı sərkərdə və camaat arasında xüsusi nüfuz sahibi olan hərbçiyə aid olduğunu ehtimal etməyə əsas verir.*

*Diqqətə çatdırıldı ki, muzeyin sərgi zalında ümumilikdə 7 bölmə yaradılıb. Burada Şamaxı rayonu ərazisində, həmçinin Dəmirçi kəndində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələri, nadir daş alətlər, əkinçilik mədəniyyətinə aid əmək alətləri, soyuq silahlar, mis, bürünc, gümüş sikkələr, aqlay materiallardan su boruları, qədim gil məmulatı və digər qiymətli tapıntılar, məişət əşyaları nümayiş olunur. Bu eksponatlar muzeyə gələn turistlərdə böyük maraq doğuracaq, onlara ölkəmizin tarixi ilə daha yaxından tanış olmaq imkanı yaradacaqdır. Muzey, həmçinin bölgə tarixinin müxtəlif dövrlərini araşdırmaq baxımından da mühüm əhəmiyyətə malikdir.*

## «Şamaxı Safari» parkı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da «Şamaxı Safari» parkında olmuşlar.*

*«Azər Ekov» MMC-nin direktoru Tofiq Həsənov park haqqında məlumat verdi. Bildirildi ki, «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tapşırıqlara uyğun olaraq, vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunda Pirqulu adlanan dağ-meşə massivində 620 hektar ərazinin*

*hüdudları içərisində 480 hektarlıq sahə beynəlxalq standartlara uyğun formada çəpərlənib. İstifadəyə verildiyi vaxt parkda 790 baş heyvan – nəcib maral, lan və muflon kimi genetik qiymətli heyvanlar var idi. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı hazırda 1000-i ötübdür.*

*Məlumat verildi ki, Təhsil Nazirliyi ilə əldə olunan razılığa əsasən, sentyabrdan başlayaraq, hər həftəsonu məktəblilər üçün Safari parka turlar təşkil ediləcək. Ərazini gəzmək məktəblilər üçün ödənişsiz olacaq. Turist qəbulu üçün də hazırlıqlar tamamlanmaq üzrədir. Oktyabrdan etibarən turistlərin buraya səfərləri təşkil olunacaq. Həm məktəblilər, həm də turistlər parkda vəhşi heyvanları seyr edə, onların şəkillərini çəkə və ətraflı məlumat ala biləcəklər.*

*Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Heyvanlar üçün çoxsaylı təbii daldalanacaqlar düzəldilib. Onların qidalanmasına da diqqət yetirilir.*

*Qeyd edək ki, «Şamaxı Safari» parkı 2017-ci il oktyabrın 2-də yaradılıb. Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda yaradılan şəraitlə yaxından tanış olmuşlar.*

## İSMAYILLI RAYONUNA SƏFƏR

*26 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Şamaxıya səfərini başa çatdıraraq, İsmayıllı rayonuna gəlmiş, Muğanlı–İsmayıllı–Mingə–Keyvəndi–Şəbiyan–Bəhliyan avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına xüsusi diqqət yetirilir. Belə yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsir göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, həmçinin nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasətin bəhrəsini isə hər bir vətəndaş öz həyatında hiss edir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, uzunluğu 9 kilometr, hərəkət hissəsinin eni isə 6 metr olan yol 4-cü texniki dərəcəyə aiddir. İki hərəkət zolaqlı yola asfalt-beton örtüyü çəkilib. Yol üzərində suötürücü borular, siqnal dirəkləri, yol nişanı və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilibdir.*

*Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Belə layihələrin icrası ümumilikdə kənd və qəsəbələrin sosial-iqtisadi inkişafına töhfə verərək, sakinlərin rahat və təhlükəsiz gediş-gəlişini təmin edir. Avtomobil yolunun inşası 1200 əhalisi olan 4 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edəcəkdir. Bütün bunlar bir daha sübut edir ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də kənd və qəsəbələri birləşdirən yeni yolların salınması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulmasıdır.*

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da İsmayıllıda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmişdir.*

*Dövlət başçısı ulu öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov abidənin ətrafında, o cümlədən rayonda görülən abadlıq işləri, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.*

## AZZA AQRO MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da İsmayıllı rayonunun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən AZZA AQRO MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, ölkədə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkədə mal-*

*qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə yeni heyvandarlıq kompleksləri yaradılır. Respublikada ət və süd məhsullarına olan tələbatın yerli istehsal hesabına tam ödənilməsi məqsədilə dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 264,1 milyon manat olan 49,9 min başlıq 27 müasir cins heyvandarlıq kompleksinin yaradılmasına 111,7 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən 9 heyvandarlıq kompleksinin yaradılmasına ümumi dəyəri 68,4 milyon manat olan investisiya təşviqi sənədi verilib ki, nəticədə qənaət olunmuş 746 min manat vəsait sahibkarlar tərəfindən həmin layihələrin icrasına yönəldilibdir. Ölkədə müasir heyvandarlıq komplekslərinin yaradılması nəticəsində xaricdən yüksək məhsuldar cins heyvanlar gətirilərək, əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının daha yüksək səviyyədə ödənilməsi təmin edilir. 2009-cu ildən indiyədək ölkəyə «Aqrolizinq» ASC vasitəsilə 29,9 min baş yüksək məhsuldarlığa malik cins heyvanlar gətirilib. Ölkədə 2017-ci ildə ət istehsalı ötən illə müqayisədə artaraq 133000 ton olub. Yeni yaradılan heyvandarlıq təsərrüfatlarından biri də İsmayıllı rayonunun Keyvəndi kəndi ərazisində istifadəyə verilən AZZA AQRO MMC-nin müasir heyvandarlıq kompleksidir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Zöhrab Aslanov kompleksdə görülən işlərlə bağlı dövlət başçısına məlumat verdilər.*

*Şahin Mustafayev dövlətin güzəştli kreditləri hesabına yaradılan heyvandarlıq kompleksləri barədə danışarkən qeyd etdi ki, indiyə qədər yaradılan cins heyvandarlıq komplekslərinin sayı 27-yə çatıb. Bu müəssisələrin illik istehsal gücü 150000 ton süd və 6000 ton ət təşkil edir. Bu il istifadəyə verilməsi nəzərdə tutulan 4 heyvandarlıq kompleksində isə 6600 cins heyvan saxlanılacaq.*

*Bildirildi ki, müasir texnologiyaların tətbiqinə əsaslanan kompleksin birinci mərhələsi üzrə işlərin görülməsinə 9,5 mil-*

*yon manat investisiya qoyulub ki, bunun da 3,5 milyon manatı İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılıb. Bundan əlavə, kompleksə İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi verilib və nəticədə xeyli vəsaitə qənaət olunubdur. Kompleksin tərkibinə 1000 başlıq ferma binaları, doğum, sağım və buzovluq bölmələri, yem istehsalı sahəsi, əkinçilik təsərrüfatı və digər köməkçi sahələr daxildir.*

*Prezident İlham Əliyevə «Aqrolizinq» ASC vasitəsilə ilkin olaraq gətirilmiş «Holstein Friesian» cinsindən olan inəklər, kompleksdə yeni doğulmuş buzovlar, İsveçin «DeLaval» şirkətinin ferma və sağım sistemi avadanlıqları, Almaniya və Hollandiya istehsalı olan kənd təsərrüfatı texnika və aqreqatları haqqında ətraflı məlumat verildi.*

*Qeyd edildi ki, kompleksə gətirilmiş 99 baş «Holstein Friesian» cinsindən olan boğaz düyədən əlavə, bu ilin sentyabr və noyabr aylarında 201 baş cins düyənin gətirilməsi və gələcəkdə heyvanların baş sayının 1600-ə çatdırılması nəzərdə tutulur. Heyvandarlıq kompleksində bu sahədə dünya liderlərindən olan İsveçin «DeLaval» şirkətinin ferma və sağım sistemi avadanlıqları quraşdırılıb. Bu sistem hər bir cins heyvana fərdi yanaşmaqla, onların yaşı, çəkisi, yem rasionu, süd verimi, sağlamlıq vəziyyəti və digər məlumatları xüsusi çiplərdə toplayaraq, kompleksin səmərəli idarə olunmasına imkan verir. Belə ki, heyvanların yemlənməsi və sağılması zamanı çiplər vasitəsilə yığılan məlumatlar xüsusi proqramda toplanılaraq, hər bir heyvan üzrə gündəlik yem norması müəyyən olunur, sağlamlıq vəziyyəti təhlil edilir. Sistemin daha bir xüsusiyyəti hər bir cins heyvan üçün qüvvəli yemin müəyyən olunmuş vaxtda və miqdarda avtomatlaşdırılmış qaydada verilməsidir. Ferma binalarında quraşdırılmış pərdələr havanın temperaturuna, rütubətlilik səviyyəsinə və günəşin düşmə bucağına görə avtomatik olaraq tənzimlənir. Bundan başqa, fermaların daxili temperaturunun tənzimlənməsi məqsədilə su ilə sərin-*

*ləşdirilən avtomatik idarə olunan pərlər quraşdırılıb. Bütün bunlar cins heyvanların südünün kəmiyyət və keyfiyyətinin artırılmasına imkan verir.*

*Diqqətə çatdırıldı ki, heyvandarlığın inkişaf etdirilməsi, heyvandarlıq məhsullarının həcminin artırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun maya dəyərinin aşağı salınmasında mühüm məsələlərdən biri də yerli istehsal hesabına davamlı yem bazasının yaradılmasıdır. Bu məqsədlə kompleks tərəfindən qüvvəli və qaba yemə olan tələbatın ödənilməsi üçün cari ildə 500 hektar sahədə arpa və yonca əkilib, 2,1 min ton silos ehtiyatı yaradılıbdır. Gələcəkdə əkin sahələrinin 800 hektara çatdırılması nəticəsində kompleksin yem tələbatının tam daxili imkanlar hesabına təmin edilməsi, eləcə də ət və süd məhsullarının emalı sahələrinin yaradılması nəzərdə tutulur. Belə ki, kompleksin daha mənfəətlə fəaliyyət göstərməsi məqsədilə gündəlik emal gücü 10 ton süd və 1 ton ət olan emal sahələrində istehsal ediləcək ekoloji təmiz məhsullar AZZA brendi adı altında şirkətə məxsus mağazalar şəbəkəsində satışa çıxarılacaqdır.*

*Qeyd olundu ki, layihənin icrası nəticəsində 14 nəfər işlə təmin olunub. Gələcəkdə iş yerlərinin 70-ə çatdırılması nəzərdə tutulur.*

## «Azərxalça» ASC-nin İsmayıllı filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verdi.*

*Qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi önəm verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib. «Azərxalça» ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdur. Artıq Horadiz, Şəmkir, Quba və Xaçmazda müəssisələr dövlət başçısının iştirakı ilə istifadəyə verilibdir.*

*Bu müəssisələri materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 18 milyon dollar olan Əyirici-Boyaq fabrikinın, Horadiz, Şəmkir, Quba və Xaçmazda 5 regional yun və boyaq tədarükü məntəqəsinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanılıb. 2019-cu ildə əlavə olaraq, 10 şəhər və rayonda belə müəssisələrin tikintisi nəzərdə tutulub. Artıq istifadəyə tam hazır olan «Azərxalça» ASC-nin İsmayıllı filialı da bu sırada mühüm yerlərdən birini tutur.*

*Məlumat verildi ki, müəssisənin binasının inşasına 2016-cı ildə başlanılıb. Tikinti işləri yüksək keyfiyyətlə yerinə yetirilib. Filialın ümumi sahəsi 1253 kvadratmetr olan binasında 150 toxucunun və 12 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir.*

**İlham Əliyev:** Çox gözəl bir gündür, Xalça fabrikinin açılışı münasibətilə sizi təbrik edirəm.

**Xalçaçı:** Çox sağ olun, biz də Sizə təşəkkür edirik.

**İlham Əliyev:** Çox şadam ki, belə gözəl müəssisə yaradılıb və qadınlar işlə təmin olunublar.

**X a l ç a ç ı:** Çox sağ olun. Bu gündən gözəl xalçalar toxuyacağıq. Biz 10 rayon üzrə birinci yeri tutmuşuq, bundan sonra da çalışacağıq. Bizi medalla təltif etmisiniz, Sizə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Bəli, təltif etmişəm. İsmayıllının çox böyük ənənələri vardır.

**X a l ç a ç ı:** Bəli, biz birinci yerə çıxmışıq, xalçaçılar adından Sizə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Yaxşı işləmisiniz ki, birinci yerə layiq görülmüsünüz.

**X a l ç a ç ı:** Çox sağ olun. Sizin sayənizdə bizim hər şəraitimiz vardır. Sizə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. İsmayıllı rayonunun xalçaçılıq ənənələri çox zəngindir, qədimdir. Çox yaxşı ki, siz bu sənəti yaşatmısınız, yaşadırsınız. Gərək gələcək nəsil də bu sənəti mənimsəsin. Yəni xalçaçılıq sənəti bizim milli sərvətimizdir. Azərbaycan xalçaları dünya miqyasında tanınır və dünyanın aparıcı muzeylərində təqdim olunur.

Biz xalçaçılığın inkişafı ilə bağlı çox ciddi tədbirlər görürük. Bölgələrdə xalça fabriklərinin yaradılması bu işlərin bir hissəsidir. Bu, son müddət ərzində açılan sayca 5-ci fabrikdir. İlin sonuna qədər daha 5 fabrik açılacaq. Ümumiyyətlə, nəzərdə tutulur ki, ölkəmizdə 30 Xalça fabriki yaradılacaq və minlərlə insan, xüsusilə qadınlar işlə təmin olunacaqlar. Bu fabriklərdə də çalışanlar qadınlardır. Biz qadınlar üçün iş yerləri yaradırıq. Burada istehsal olunan, toxunan xalçalar həm ölkə daxilində, həm də xaricdə satılacaq və beləliklə, Azərbaycan öz ixrac məhsullarını dünyaya daha da geniş formada təqdim edəcəkdir. Xalçaçılıq sənətinin gələcəkdə yaşaması üçün sizin əməyiniz, zəhmətiniz, istedadınız əsas rol oynayır. Mənə verilən məlumata görə, bu fabrikdə 150-yə yaxın insan işlə təmin olunub. Gələcəkdə işlər yaxşı gedərsə, bu fabriki böyütmək də olar ki, işə daha çox qadın cəlb olunsun.

Dövlət daim sizi dəstəkləyəcək. Bütün avadanlıqlar, dəzgahlar, iplər – hamısı dövlət tərəfindən təmin olunur. Yaxın

aylarda, yəqin ki, gələn il Azərbaycanda Əyirici-Boyaq fabriki də işə düşəcək. Ondan sonra, ümumiyyətlə, xaricdən heç bir material gətirməyə ehtiyac qalmayacaq. Deməli, iplərdən tutmuş, boyalara qədər bütün materiallar Azərbaycanda istehsal olunacaqdır. Azərbaycanda xalçaçılığın çox böyük tarixi və çox böyük gələcəyi vardır. «Azərxalça» müəssisəsinin yaradılması məhz bu məqsədi güdürdü. Mənim qoyduğum vəzifələr, verdiyim tapşırıqlar yerinə yetirilir və İsmayıllı rayonundakı Xalça fabriki bunu bir daha göstərir. Sizi ürəkdən təbrik edirəm.

**X a l ç a ç ı l a r:** Çox sağ olun.

* * *

*Prezident İlham Əliyev toxunmuş xalçanı kəsdi.*

*Dövlət başçısı müəssisənin kollektivi ilə söhbəti davam etdirərək, onlara işlərində uğurlar arzuladı.*

*Emalatxanada müxtəlifölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağsu, İsmayıllı, Qobustan, Şamaxı, Ağdaş, Göyçay, Hacıqabul, Kürdəmir, Salyan, Ucar, Zərdab, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarının kəndlərində toxunan orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilibdir.*

*Qeyd olundu ki, müəssisədə çalışan toxucular İsmayıllı şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarına cəlb edilib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatını*

*alacaqlar. Xalça-satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı da həyata keçiriləcəkdir.*

**«Azərişıq» ASC-nin yenidən qurulan 110/35/10 kilovoltluq «İsmayıllı» yarımstansiyasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da İsmayıllı rayonunda yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik «İsmayıllı» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev Prezident İlham Əliyevə müəssisənin fəaliyyəti barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb. Bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. İsmayıllı rayonunda da energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchizatı prioritet məsələlərdən olubdur. İsmayıllı Elektrik Şəbəkəsinin xidməti ərazisində son 3 ildə aparılan geniş tikinti, təmir və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, inkişafda olan turizm, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, 3 kəndin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla da İsmayıllı Elektrik Şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər ciddi şəkildə azalıbdır.*

*Diqqətə çatdırıldı ki, bu sahədə işlər hazırda da davam etdirilir. Yaxın perspektivdə 110/10 kilovoltluq «Qubaxəlilli» yarımstansiyasının yenidən qurularaq, 110/35/10 kilovoltluq gər-*

*ginlik sinfinə keçirilməsi, 35/10 kilovoltluq «Ağçay» yarımstansiyasının tikilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq «İsmayıllı» yarımstansiyasını işə saldı.*

*«İsmayıllı» yarımstansiyası istismar müddətini başa vurduğundan müasir üslubda tamamilə yenidən qurulub. Bu yarımstansiya vasitəsilə İsmayıllı şəhərinin və ətraf 14 yaşayış məntəqəsinin, 35 kilovoltluq Basqal və 35 kilovoltluq İvanovka hava xətlərinin üzərində olan 35/10 kilovoltluq «Girdimançay», «Zərgəran», «Yeni Basqal» və «İvanovka» yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiya elektron tipli «rele» mühafizəsi və avtomatik sistemlərlə təchiz edilib, məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulubdur. Ümumiyyətlə, 22148 abonentin elektrik enerjisi ilə təmin edilməsi 110/35/10 kilovoltluq «İsmayıllı» yarımstansiyası vasitəsilə yerinə yetirilir.*

*Bildirildi ki, rayonun Topçu, Buynuz, Sumağallı, Çayqovuşan, İstisu, Qalacıq kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yaradılan obyektlərin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün 110/35/10 kilovoltluq 10 MVA gücündə «Topçu» yarımstansiyası inşa edilib. Bu yarımstansiyadan çıxan 10 kilovoltluq hava xətləri vasitəsilə təxminən 1200 abonentin elektrik təchizatı həyata keçirilir. Yarımstansiyanın fəaliyyətə başlaması üçün işlər davam etdirilir. İsmayıllı rayonunun Basqal qəsəbəsi və ətraf kəndlərin elektrik təchizatının yaxşılaşdırılması məqsədilə 35/10 kilovoltluq 2,5 MVA gücündə «Yeni Basqal» yarımstansiyası da inşa edilib və istismara verilibdir. Yarımstansiyanı qidalandıran 35 kilovoltluq «Basqal» hava xəttinin 2,3 kilometrlik hissəsi əsaslı təmir olunub, 5,5 kilometrlik hissəsi isə yeni çəkilibdir.*

*Qeyd olundu ki, İsmayıllı Elektrik Şəbəkəsində 23403 abonent mövcuddur. Onlardan 21382-si əhali, 2021-i isə qeyri-əhali qrupuna aiddir.*

## Kürdmaşı–Kəlbənd–Girk avtomobil yolunun əsaslı təmir və bərpadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Qaraməryəm–İsmayıllı–Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı–Kəlbənd–Girk avtomobil yolunun əsaslı təmir və bərpadan sonra açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yol barədə dövlət başçısına məlumat verdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda mühüm yol-nəqliyyat layihələri həyata keçirilir. Nəticədə həm ölkə əhəmiyyətli, həm də şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulur. Bu işlərin həcmi və coğrafiyası getdikcə daha da genişlənir. Bütün bu işlər ilk növbədə, vətəndaşların rahatlığını, nəqliyyatın və piyadaların təhlükəsizliyini təmin etmək, həmçinin ölkəmizdə nəqliyyat sahəsinin inkişafına dəstək vermək məqsədi daşıyır. Belə layihələr eyni zamanda, Azərbaycanda reallaşdırılan sosial-iqtisadi inkişafın uğurla davam etdiyini göstərir. Müasir yol layihələrinin icrası ümumilikdə regionların iqtisadiyyatına da töhfə verir, fermerlərin məhsullarını daha rahat və tez daşıması üçün əlverişli şərait yaradır.*

*Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidentinin bu il imzaladığı sərəncama əsasən, 1000 nəfər əhalisi olan 2 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm–İsmayıllı–Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı–Kəlbənd–Girk avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə vəsait ayrılıb. Uzunluğu 14 kilometr olan yol 4-cü texniki dərəcəlidir. Hərəkət hissəsinin eni 6 metr olan yol 2 hərəkət zolaqlıdır. Yolboyu suötürücü borular quraşdırılıb, siqnal*

*dirəkləri, yol nişanı və göstərici lövhələr qoyulub, yol cizgi xətləri çəkilib, biraşırımlı körpü tikilibdir.*

*Bu yolun inşası 2 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır. Dövlət başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq, Azərbaycanda beynəlxalq və respublika əhəmiyyətli yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm işlər görülübdür.*

*Son illərdə yol infrastrukturunun yenilənməsi sahəsində icra olunmuş layihələr kənd və qəsəbələrarası yolları əhatə edib. Azərbaycanda yeni-yeni kənd yollarının inşası, mövcud yolların ən müasir səviyyəyə çatdırılması ilk növbədə, əhalinin sosial məsələlərinin həlli baxımından olduqca vacib əhəmiyyətə malikdir. Bununla yanaşı, bütün bunlar ölkəmizin iqtisadi potensialının səviyyəsindən də xəbər verir.*

## «Buta Qrup» MMC tərəfindən yaradılmış aqroparkın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da İsmayıllı rayonunda «Buta Qrup» MMC tərəfindən yaradılmış aqroparkın açılışında iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Bəşir Quliyev aqroparkda görülən işlər barədə dövlət başçısına ətraflı məlumat verdilər.*

*Son illərdə Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər və icra olunan dövlət proqramları nəticəsində dövlət tərəfindən hərtərəfli dəstək alan sahibkarlar yeni zavod, fabrik və digər istehsal müəssisələri yaradırlar. Bununla da ölkəmizin iqtisadi potensialı artır, özəl sektor inkişaf edir və ən əsası işsizlik problemi aradan qaldırılır. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə*

*bağlı tapşırığına uyğun olaraq ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Dövlət başçısının yürütdüyü uğurlu aqrar siyasət, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yaradılan infrastruktur, suvarma və irriqasiya sistemləri, maliyyə dəstəyi və subsidiyalar, aqrar sektora vergi güzəştləri kəndliyə son illərdə bol məhsul yetişdirməsi üçün geniş imkanlar yaradıb. Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı müvafiq fərmanla aqroparkların yaradılması məhz bu problemlərin aradan qaldırılmasına yönəldilib. Aqroparklar fermer təsərrüfatlarının idarə olunmasının mütərəqqi aqrar-sənaye üsuluna keçidinin inteqrasiyasını, məhsuldarlığın artırılması və saxlanma şəraitinə görə itkilərin azaldılmasını, ixrac coğrafiyasının genişləndirilməsini və «Made in Azerbaijan» brendi ilə xarici bazarlara stabil və etibarlı çıxışını təmin etməyə əlverişli şərait yaradır. Bundan başqa, ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da böyük əhəmiyyətə malik aqroparkların yaradılması rayonların iqtisadi imkanlarını artırmaqla yanaşı, yeni iş yerlərinin yaranmasına da səbəb olur. İndiyə qədər aqroparkların yaradılması üçün dövlət dəstəyi hesabına infrastruktur, o cümlədən su, elektrik, qaz və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 218 milyon manatdan çox investisiya qoyulub. Ümumi dəyəri 457 milyon manatdan çox olan 17 aqroparkın yaradılmasına dövlət tərəfindən 111,2 milyon manat güzəştli kredit ayrılıb və 15 aqropark üzrə dəyəri 563,5 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilibdir. Artıq 4 aqroparkda birinci mərhələ üzrə işlər başa çatdırılıb. Yeni aqroparklardan biri də İsmayıllı rayonunun Kürdmaşı kəndində «Buta Qrup» MMC tərəfindən yaradılmış aqroparkdır.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Bildirildi ki, ümumi dəyəri 22 milyon manat olan aqroparkın yaradılmasına birinci mərhələdə 7,7 milyon manat investisiya qoyulub. Bunun 1,9 milyon manatı İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılıb. Ərazisi 602*

*hektar olan aqroparkın tərkibinə əkinçilik təsərrüfatı, soyuducu anbar kompleksi, istehsal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidlənməsi və paketlənməsi sahələri daxildir. Aqroparkda cari ildə 120 hektar buğda, 120 hektar kartof və 96 hektar qarğıdalı əkilib. Əkin sahələrinin davamlı və keyfiyyətli su təminatının həyata keçirilməsi üçün 2 su anbarı inşa edilib, su və elektrik xətləri çəkilib, ilkin olaraq 90 hektar sahədə müasir pivot suvarma sistemi qurulub, müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınıbdır.*

*Prezident İlham Əliyevə aqroparkda kartof tədarükü və çeşidləmə prosesi, kompleksin elektron idarəetmə sistemi barədə məlumat verildi.*

*Qeyd olundu ki, aqroparkın 3000 ton tutumu olan soyuducu anbar kompleksi məhsulların uzun müddət keyfiyyətli və itkisiz saxlanılmasına imkan verir. Anbarda gücü saatda 15 ton çeşidləmə və gücü saatda 10 ton olan paketləmə xətləri quraşdırılıb. Bu avadanlıq hesabına sahədən yığılan ekoloji təmiz məhsullar ölçülərinə görə çeşidləndikdən sonra paketlənərək, aqroparkın soyuducu anbar kompleksində saxlanılır və əsasən qeyri-mövsüm dövründə satışa çıxarılır. Kartofçuluq üzrə ixtisaslaşan aqroparkda il ərzində təqribən 2,7 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunaraq, «İsmayıllı tərəvəzləri» brendi altında yerli və xarici bazarlarda satışa çıxarılacaqdır.*

*Bildirildi ki, aqroparkda Almaniyadan və Hollandiyadan gətirilmiş super elit və elit toxumlardan ölkəmizin müxtəlif regionlarının iqlim şəraiti və torpaq strukturuna uyğun yüksək-keyfiyyətli toxumların yetişdirilməsi nəzərdə tutulur. Növbəli əkin sisteminin tətbiqi, eləcə də düzgün aqrotexniki qaydalara riayət olunmaqla, aqroparkda yüksəkkeyfiyyətli kartof sortları əkilir ki, bu sortlar üzrə hər hektara orta məhsuldarlıq 45–50 ton təşkil edir.*

*Respublika üzrə ötən il 2016-cı illə müqayisədə kartof istehsalı 1,3 faiz artaraq 914 min ton, ixracı 51 faiz artaraq 57,7 min ton, idxalı isə 11,7 faiz azalaraq 168,8 min ton təşkil edib. Gələcəkdə*

*aqroparkda məhsul istehsalının 3 dəfə artırılması, soyuducu anbar kompleksinin 15 min tona çatdırılması və bitki yağları istehsalı sahəsinin yaradılması nəzərdə tutulur. Layihənin icrası nəticəsində 24 nəfər işlə təmin olunubdur.*

*Hazırda ölkənin 30 rayonu üzrə 192 min hektar ərazidə dəyəri 1,4 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu il istifadəyə verilmiş aqroparkların sayının 14-ə çatdırılması planlaşdırılır.*

## LAHIC QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ TAM ORTA MƏKTƏB BİNASININ AÇILIŞI MƏRASİMİ

*İsmayıllı*

*26 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da İsmayıllı rayonunun Lahıc qəsəbəsinə gələrək, burda yeni inşa olunmuş tam orta məktəb binasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Lahıc qəsəbəsi ölkəmizin ən qədim yaşayış məskənlərindən biridir. Tarixi erkən orta əsrlərə gedib çıxan bu qəsəbə nadir arxitekturası ilə diqqəti cəlb edir. Bu gün Lahıc Tarix-Mədəniyyət Qoruğunda 90-dan çox tarixi abidə, o cümlədən 5 məscid, 3 hamam, 60-dan artıq yaşayış evi, həmçinin körpü və su dəyirmanı, qəbirüstü daşlar, bir neçə sənətkarlıq emalatxanası və ictimai bulaqlar qorunur. Lahıcda 100-dən çox sənət növü və peşə yaşadılır və inkişaf etdirilir. Bütün bunlar turistlərin diqqətini çəkir. Bu ilin 8 ayında qəsəbəyə 45 min turist gəlib. Son illərdə qəsəbənin inkişafı ilə bağlı bir sıra tədbirlər görülüb, sosial layihələr icra olunubdur. Bu layihələrdən biri də Lahıcda 400 şagird-yerlik tam orta məktəb binasının inşasıdır. Məktəbdə yaradılan şərait göstərir ki, dövlət başçımızın təhsilə göstərdiyi diqqət nəticəsində bu sahə tamamilə yeni və keyfiyyətli mərhələyə qədəm qoyub. Son illərdə müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub, mövcud təhsil müəssisələri isə günün tələbləri səviyyəsində*

*yenidən qurulubdur. Təqdirəlayiq haldır ki, bu proses bölgələri də əhatə edibdir.*

*Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, Lahıc qəsəbəsində tam orta məktəb binası 1928-ci ildə inşa edilmişdi. Məktəb 130 şagird üçün nəzərdə tutulmasına baxmayaraq, burada 232 şagird təhsil alırdı. Binanın mövcud vəziyyəti müasir dövrün tələblərinə uyğun deyildi, eyni zamanda, qəsəbə əhalisinin sayının artması və ətraf kəndlərdə tam orta məktəbin olmaması bu təhsil müəssisəsində şagird sıxlığı yaratmışdı. Dövlət başçısının ötən il imzaladığı sərəncama əsasən, Lahıcda 400 şagird-yerlik yeni ümumtəhsil məktəbinin tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə vəsait ayrıldı. Üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilibdir. Müxtəlif fənn kabinetləri və laboratoriyaların yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Burada idman zalı və 175 yerlik akt zalı da yaradılıb. Videomüşahidə sisteminin quraşdırıldığı məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilibdir.*

*Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.*

## Yeni salınmış Dəmirçi–Lahıc avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da yeni salınmış Dəmirçi–Lahıc avtomobil yolunun açılışında iştirak etmişlər.*

*Dövlət başçısına və xanımına yolun göstəriciləri barədə məlumat verildi.*

*Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biri də yol infrastrukturunun yenilənməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsidir. Yeni, müasir avtomobil yollarının tikintisi, mövcud yolların isə yenidən qurulması işləri ildən-ilə genişlənir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında bu sahəyə xüsusi yer ayrılır. Son illərdə yol infrastrukturunun inkişafı istiqamətində icra edilən layihələr yolların müasir səviyyəyə çatmasına hərtərəfli imkan yaradıb. Digər mühüm məqam respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası və yenidən qurulması işlərinin geniş vüsət almasıdır. Bu layihələr bütün bölgələri əhatə edir. Yeni salınmış Dəmirçi–Lahıc avtomobil yolu bunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmiri və yenidən qurulması ümumilikdə bölgələrimizin sosial-iqtisadi, turizm, kənd təsərrüfatı potensialını gücləndirir. Bütün bu tədbirlərin əsas məqsədi vətəndaşların gündəlik həyatını asanlaşdırmaq və daha da yaxşılaşdırmaqdır.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Şamaxı rayonunun Dəmirçi kəndini İsmayıllı rayonunun Lahıc qəsəbəsi ilə birləşdirən yolun uzunluğu 22 kilometrdir. Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına əsasən, Şamaxı rayonunun 1 və İsmayıllı rayonunun 4 yaşayış məntəqəsini əhatə edən Dəmirçi–Lahıc yolunun tikintisinə Prezidentin ehtiyat fondundan 3 milyon, dövlət büdcəsinin*

*investisiya xərclərindən isə 13,7 milyon manat olmaqla, Avtomobil Yolları Dövlət Agentliyinə ümumilikdə 16,7 milyon manat ayrılıbdır. Bu vəsait hesabına Dəmirçi–Lahıc avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla, 4-cü texniki dərəcəyə uyğun qurulub. Yolun hərəkət hissəsinin eni 6 metr, çiyinlər də daxil olmaqla, yol yatağının eni isə 8–10 metrdir. Yol üzərində ümumi uzunluğu 210 metr olan müxtəlif diametrli suötürücü borular qoyulub. Avtomobil yolunda nəqliyyat vasitələrinin normal hərəkətinin təmin edilməsi üçün müvafiq yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, həmçinin avtobus dayanacaqları tikilibdir.*

*Dəmirçi–Lahıc avtomobil yolunun tikintisi sakinlərin rahat gediş-gəlişini təmin etmək, yük və sərnişindaşımanı asanlaşdırmaqla yanaşı, turistlərin hər iki rayonun turizm bölgələrinə daha qısa və abad yolla getməsinə imkan yaradacaqdır.*

## LAHIC QƏSƏBƏSİNƏ TƏBİİ QAZIN VERİLMƏSİ MƏRASİMİNDƏ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*26 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı əvvəlcə Lahıc qəsəbəsinin sakinləri ilə görüşdülər.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi salamlayıram. Çox şadam ki, Lahıc qəsəbəsinə gəlmişəm. Çoxdan gəlmək istəyirdim. Əvvəllər dəfələrlə olmuşam, siz də bunu yaxşı bilirsiniz. Amma Prezident kimi, ilk səfərimdir. İstəyirdim əliboş gəlməyim. Ona görə bir az vaxt apardı. Ancaq bu səfər ərəfəsində Lahıc qəsəbəsində çox önəmli hadisələr baş verib. Birincisi, biz bu gün Dəmirçi–Lahıc avtomobil yolunun açılışını qeyd etdik. Bu, hesab edirəm ki, tarixi bir layihədir. Lahıc qəsəbəsini Şamaxı rayonu ilə birləşdirir. Əvvəlki yol keçilməz idi. Heç yük maşını ilə getmək mümkün deyildi. İndi isə mən özüm bu yolla gəlmişəm. Çox rahat, gözəl, təhlükəsiz yoldur. Bakıdan Lahıca gələn turistlər üçün də, vətəndaşlar üçün də çox rahat bir yoldur. Həm daha qısadır, həm də təhlükəsizdir.

Keçən il mən Dəmirçi kəndində olarkən, kəndin inkişafı ilə bağlı göstərişlər vermişdim. Bu gün orada Tarix Muzeyinin açılışını qeyd etdik. Dəmirçi kəndi Lahıc qəsəbəsi ilə tarixən bağlı olan bir kənddir, indi gediş-gəliş də çox rahat olacaqdır.

Lahıc qəsəbəsinin təhsil məsələlərinin həlli də diqqət mərkəzindədir. Bilirəm, belə təklif də olub ki, yeni məktəb tikilsin. Keçən il sərəncam verildi və bu gün biz bu məktəbin açılışını etdik. Gözəl, 400 şagird-yerlik məktəbdir. Hazırda burada təxminən 200-dən çox şagird oxuyur. Amma gələcəkdə əhali artacaq, uşaqların da sayı artacaqdır. Elə məktəb tikdik ki, gələcəkdə də Lahıc qəsəbəsinin ehtiyacını tam ödəsin.

Əlbəttə ki, Lahıc qəsəbəsinə təbii qazın çəkilişi də tarixi layihədir. Siz yaxşı bilirsiniz ki, qaz xətlərini çəkmək çox çətin məsələdir, həm maliyyə baxımından, həm texniki baxımdan. Ancaq Lahıcın Azərbaycanda xüsusi yerini nəzərə alaraq, biz bu böyük layihəni də icra etdik. İndi biz təbii qazın verilməsini sizinlə birlikdə qeyd edəcəyik.

Bir daha demək istəyirəm, mən bu gün gəlmişəm ki, bu tədbirlərdə iştirak edim və sizinlə görüşüm. Şadam ki, Lahıc sakinlərinin xahişləri tam yerinə yetirilib. Əgər əlavə xahişlər olarsa, siz mənə deyin, biz onları da həll edərik ki, bu tarixi, qədim qəsəbə öz inkişafını bundan sonra da təmin etsin.

Lahıc tarixi bir yerdir, qədim yaşayış diyarıdır. Burada yaşayan insanlar çox istedadlı insanlardır. Sizin misgərlik sənətiniz, digər sahələrdə fəaliyyətiniz lahıclıların nə qədər istedadlı olduğunu göstərir. Eyni zamanda, Lahıcdan bir çox görkəmli şəxsiyyətlər – alimlər, ziyalılar, ictimai xadimlər olub, bu gün də vardır. Lahıc çox dəyərli insanlar yetişdirib. Hesab edirəm ki, təhsil məsələsində də siz ön sıralardasınız. Mənə indi məlumat verildi ki, Lahıc məktəbini bitirən şagirdlər Azərbaycanın ali məktəblərinə yüksək ballarla daxil olurlar. Bu onu göstərir ki, qəsəbənin çox dərin kökləri, mədəniyyəti vardır. Bu mədəniyyət özünü göstərir. Çünki Lahıc nəinki Azərbaycanda, bizim regionumuzda unikal yaşayış yeridir. Təsadüfi deyil ki, Lahıca minlərlə, on minlərlə turist gəlir. İndi Şamaxı–Lahıc yolu ilə daha da çox gələcəklər. Əminəm ki, turistlərin axını daha da artacaqdır. Bu qəsəbənin özəlliyi ondadır ki, burada çox nadir memarlıq ansamblı mövcuddur.

İndi Lahıcın memarlığı, küçələri, binaları özlüyündə bir milli sərvətdir. Burada işləyən, yaşayan insanların əl işləri də, əlbəttə ki, bu qəsəbəni dünya səviyyəsində təqdim edir. Təsadüfi deyil ki, dünyanın aparıcı televiziya kanallarında Lahıcla bağlı verilişlər gedib və bu gün də gedir. Həm «Euronyus», həm başqa aparıcı televiziya kanallarında, qonşu ölkələrin kanallarında indi çox gözəl reportajlar verilir. Bu da Azərbaycanın şöhrətini daha da artırır və Lahıca gələcək turistlərin də sayını artırır.

Turizm Azərbaycanda prioritet istiqamətlərdən biridir. Mənə verilən məlumata görə, Lahıcda hotellər tikilir, bir hotel indi məktəbin önündə inşa edilir. Mən bunu da alqışlayıram. Bax, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 7 ayında 9 faiz artıb və bu proses davam edir. Hər gələn turist xidmət sektorunun inkişafına xidmət göstərir. Mən istəyirəm ki, hər bir yerdə, ölkəmizin hər bir guşəsində insanlar daha da yaxşı yaşasınlar, onların həyat səviyyəsi yüksəlsin, dolanışıq yaxşı olsun. Ona görə biz bütün lazımi infrastruktur layihələrini icra edirik, o cümlədən İsmayıllı rayonunda. Mən dünən İsmayıllı rayonunun bəzi obyektlərinin açılışında olmuşam. Həm yeni heyvandarlıq kompleksi, aqropark, yarımstansiya, yollar – bütün bunlar İsmayıllı rayonunun inkişafına xidmət göstərir. İsmayıllı rayonunda qazlaşdırılmanın səviyyəsi 75 faizdir. Biz içməli su layihəsini icra etmişik, İsmayıllı şəhərinin içməli su problemi həll olunub. Bir çox kənd yolları salınıb. Dünən istifadəyə verdiyimiz yarımstansiya nəinki İsmayıllı rayonuna, qonşu rayonlara da enerji ötürür. İndi yarımstansiya ancaq 40 faiz gücü ilə işləyir. İsmayıllı rayonunun gələcək inkişafı üçün bizdə bütün enerji təsərrüfatı mövcuddur.

Dünən mən Xalça fabrikinin açılışında iştirak etmişəm. Orada 150 qadın işlə təmin olunub, xalçaçılıq sənətini yaşadır, yaxşı maaş alır. Bu gün Azərbaycan reallıqları budur. Ən ucqar yerdə infrastruktur yaradılır, təhsil müəssisələri tikilir, yollar, qaz xətləri çəkilir ki, insanlar rahat yaşasınlar. Əminəm ki, yolun, qazın çəkilişindən sonra Lahıca gələn qonaqların – həm

Azərbaycan vətəndaşlarının, həm də xarici vətəndaşların sayı qat-qat artacaqdır.

Mən şadam ki, bu gün sizinlə birlikdəyəm. Mən lahıclılarla müxtəlif sərgilərdə dəfələrlə görüşmüşəm – Bakıda Heydər Əliyev Fondunun tədbirlərində, xarici ölkələrdə lahıclılar öz sənətini nümayiş etdirirlər. Hər dəfə də onlar məni dəvət edəndə deyirdim ki, gələcəyəm. Amma istəmirdim ki, əliboş gəlim. Sizi bir daha təbrik edirəm.

* * *

**H i k m ə t H a q v e r d i l i** *(Lahıc qəsəbə tam orta məktəbinin direktoru, Əməkdar müəllim*): Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, Lahıca xoş gəlmisiniz! Sizi bütün lahıclılar adından salamlayıram. Bu əziz günlərdə bizimlə bir yerdə olduğunuza görə Sizə və Mehriban xanıma öz minnətdarlığımızı bildiririk. Bu gün Lahıcda möcüzələr baş verir. Lahıc və lahıclılar üç böyük tarixi hadisəni yaşayırlar. İlk növbədə, qazlaşdırılmadan danışmaq istəyirəm. Bizim ağlımıza gəlməzdi ki, nə vaxtsa Lahıcda qaz olacaq. Bu gün Lahıca və ona bitişik 4 kəndə qaz verildi. Bu Sizin insanlara qayğınızın, dövlətimizin artan qüdrətinin bariz təcəssümüdür. Bundan sonra insanlarımız evlərində mavi qazla isinəcək, evlərə rahatlıq gələcək.

Mübaliğəsiz deyə bilərəm ki, Siz və Mehriban xanım insanlığın, xeyirxahlığın, Vətənə və milli dövlətçiliyə xidmətin bariz nümunəsisiniz. Biz hamımız Sizin səfərlərinizi, görüşlərinizi diqqətlə izləyirik. Siz ötən il Dəmirçi kəndində səfərdə olarkən qeyd etdiniz ki, həmin kəndin sakinlərinin Lahıcda qohumları yaşayır, buradan Lahıca qədər yol çəkiləcək. Bu gün artıq bu yol çəkilib. Bu yolda addımlayan hər kəs Sizə dualar edəcək.

Məktəb binası 1928-ci ildə tikilmişdi. 90 ildən sonra Lahıcda müasir tələblərə cavab verən yeni məktəb tikildi. Mən bir məktəb direktoru kimi deyə bilərəm ki, Lahıc məktəbinin şöhrəti çox böyükdür. Bu şöhrət bundan sonra da artacaq. Məktəbə ayaq qoyan hər bir şəxs dövlətimizin, öz Prezidentinin qayğısını həmişə hiss edəcək və onlar dövlətimizə həmişə sədaqətli vətəndaşlar olacaqlar.

Möhtərəm Prezident, Mehriban xanım, Sizin sayənizdə Lahıc beynəlxalq aləmə çıxıb. Lahıc misgərlik sənətinin UNESKO-nun mədəni irs siyahısına daxil edilməsini biz lahıclılar Mehriban xanımın müstəsna xidməti kimi dəyərləndiririk. Lahıc sənətkarları, bütün lahıclılar adından Sizə minnətdarlığımı bildirirəm. Mehriban xanım, Sizi ad gününüz münasibətilə bütün lahıclılar adından təbrik edirik. Siz insanlara daim sevinc, xoşbəxtlik bəxş edirsiniz. Biz Sizin fəaliyyətinizi daim izləyirik. Siz həmişə xeyirxah işlərdə, xeyirxah tədbirlərdə iştirak edirsiniz. Bu Sizi fərqləndirən cəhətlərdəndir. Siz bu əziz gündə – ad gününüzdə biz lahıclılarla bir yerdəsiniz. Bu Sizin böyüklüyünüzü, insanlara bağlılığınızı göstərir.

Möhtərəm Prezident, Sizin və Mehriban xanımın siyasəti nəticəsində Azərbaycan bütün dünyaya işıq saçır. Biz fəxr edirik ki, belə bir ölkənin vətəndaşıyıq. Biz fəxr edirik ki, Sizin kimi qüdrətli, xalqını sevən, Vətəninə, kökünə bağlı olan rəhbərlərimiz vardır. Sizi, Mehriban xanımı, ailənizin hər bir üzvünü bütün lahıclılar adından səmimi-qəlbdən təbrik edirəm, cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Hüseynağa Kamilzadə** (*qəsəbə sakini*): Cənab Prezident, çox böyük təşəkkürümü bildirirəm ki, böyüklük etmisiniz. Biz çox çətin vəziyyətlər keçirmişik, piyada gedib-gəlirdik, balaca bir yol var idi. Mərhum atanız – Allah ona rəhmət eləsin –

İsmayıllıda bir tədbirdə idi, mən də o tədbirin iştirakçısı idim. O vaxt oradan Lahıca gedəndə ona dedilər ki, Siz Siyasi Büronun üzvüsünüz, oraya getmək təhlükəlidir. O da həmin iclasda göstəriş verdi ki, 1 ildən sonra bütün nəqliyyat növləri Lahıca hərəkət edə bilsinlər. Çox diqqətli idi. Bir müddət sonra, bildiyiniz kimi, işlə əlaqədar onu Moskvaya apardılar. Həmin nazir hər həftənin şənbə günü burada olurdu. Bir neçə dəfə bizim evimizdə də qonaq olmuşdu. Söhbət edirdi ki, ulu öndər Heydər Əliyev çox diqqətli insandır. Moskvada olmağına baxmayaraq, vaxtaşırı danışanda soruşurdu ki, Lahıcın yolu nə yerdədir? İndi Sizdə onun diqqəti vardır. Allah ona qəni-qəni rəhmət eləsin. Bizim lahıclılar heç vaxt yaxşılığı unutmurlar. O körpüdən keçən hər bir kəs ona rəhmət oxuyub, salavat çevirir.

Sizin xidmətiniz isə göz qabağındadır. Çox böyük xidmətləriniz var və bu, əvəzedilməzdir. Allahdan Sizə, hörmətli Mehriban xanıma uzun ömür, cansağlığı arzu edirəm. Ən azı bundan 100 il sonra da bir yerdə yaşamağı arzulayıram.

**İ l h a m Ə l i y e v:** Bir daha demək istəyirəm ki, Lahıcın Azərbaycan tarixində xüsusi yeri vardır. Bugünkü müstəqil Azərbaycanı dünyada təqdim edən, öndə gedən qəsəbələrdən biridir. İndi dünya bilir ki, Lahıc kimi gözəl təbiətli bir yer var, burada gözəl insanlar yaşayırlar. On minlərlə insan gəlib sizinlə görüşəcək və Lahıcı tanıyacaqdır.

* * *

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev İsmayıllı rayonuna, o cümlədən Lahıc qəsəbəsinə təbii qaz xəttinin çəkilməsi ilə bağlı görülən işlər barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin təsdiq etdiyi və uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair 2014–2018-ci illəri*

*əhatə edən Dövlət Proqramının əsas müddəalarında biri də ölkə ərazisinin tam qazlaşdırılmasıdır. Hazırda «Azəriqaz» İstehsalat Birliyinin qarşısına qoyduğu əsas hədəflərdən biri də çətin relyefə malik ərazilərin qazlaşdırılmasıdır və bu sırada İsmayıllı rayonunun Lahıc qəsəbəsi mühüm yer tutur. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunan qəsəbənin qazlaşdırılması son illərdə bu sahədə əldə edilən mühüm nailiyyətlərdən biridir. Belə ki, dövlət başçısının ucqar kənd və qəsəbələrin qazlaşdırılması barədə tapşırığına uyğun olaraq, Lahıc qəsəbəsi və bu xətt boyunca yerləşən kəndlər də daxil olmaqla, qazlaşdırılma işləri həyata keçirilibdir.*

**Rövnəq Abdullayev:** Cənab Prezident, 27 yaşayış məntəqəsinin qazla təmin olunmasından sonra indi 2297 qəsəbə mərkəzləşdirilmiş qazla təmin olunub.

**İlham Əliyev:** Qazlaşdırılma neçə faizə çatıb?

**Rövnəq Abdullayev:** Cənab Prezident, bu proqram çərçivəsində qaz şəbəkələrinin uzunluğu 10500 kilometrdən 45500 kilometrə çatıb. Qazlaşdırılma sahəsi arta-arta gedir. Bu gün ölkə üzrə qazlaşdırılma səviyyəsi 95 faizdir.

**İlham Əliyev:** Amma İsmayıllı rayonunda 75 faizdir.

**Rövnəq Abdullayev:** Bu, rayondakı dağlara görədir.

**İlham Əliyev:** Ona görə mən tapşırıram, məşğul olun. Biz gərək qazlaşdırılmanı artıraq. Dünən icra başçısı mənə dedi ki, yaxın günlərdə 5 kəndin qazlaşdırılması həyata keçiriləcəkdir.

**Mirdaməd Sadıqov** (*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı):*Bu gün qazla təmin edilən kəndlər də daxil olmaqla.

**Rövnəq Abdullayev:** Cənab Prezident, 720 min abonentimiz var idi. Dövlət Proqramının icrasından sonra artıq 2 milyon 140 min abonent vardır.

**İlham Əliyev: 3** dəfə artıb.

**R ö v n ə q A b d u l l a y e v:** Bəli. Əgər itkilər 2010-cu ildə 16-17 faiz idisə, yeni sistemlərin qurulmasından sonra itkilər azalıb və hazırda 5,5 faizə enib. Cənab Prezident, Lahıca qazı 19 kilometr kənardakı qazpaylayıcı məntəqədən çəkmişik. Bununla bərabər, Qaraqaya, Gəndob, Namazgah kəndləri də qazlaşdırılıb. Lahıcın daxilində ümumilikdə 39 min metr uzunluğunda boru xətti çəkilibdir.

**İ l h a m Ə l i y e v:** Bütün evlərə qaz çəkilibdir?

**R ö v n ə q A b d u l l a y e v**: Cənab Prezident, Sizin göstərişinizlə fərq qoymadan bütün evlərə, bütün obyektlərə qaz çəkilib. Relyefin xüsusiyyətlərinə, iqlim şəraitinə görə burada qaz çəkilişinin çətinlikləri vardır. Qaz xətti dağlıq ərazilərdən, qayalıqlardan keçdiyinə görə bəzən borular əllə daşınıbdır.

**İ l h a m Ə l i y e v:** Bu həm texniki cəhətdən çətin işdir, həm də çox maliyyə vəsaiti tələb edir. Ancaq artıq bunu etmişik.

* * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Lahıc qəsəbəsinə təbii qazın verilməsinin rəmzi olan məşəli alovlandırdılar.*

*Daha sonra dövlət başçısı və xanımı Lahıc icma evində yaradılan şəraitlə tanış oldular.*

**N ə z ə r Ə l i y e v** (*qəsəbə sakini, misgər*): Cənab Prezident, Sizə son dərəcə minnətdarıq. Bizim üçün yaratdığınız bu şəraitə, bizə yaşatdığınız sevincə görə bütün sakinlərimiz adından Sizə minnətdarlığımızı bildiririk. Bu il nəvəm Fərrux məktəbə gedəcək, o gözəl məktəbə görə də çox sağ olun. Sizə dünyalar qədər təşəkkür edirik. Sizin gəlişinizə çox sevinirik.

*Rayon mərkəzindən 36 kilometr məsafədə yerləşən Lahıcda əhalinin əsas məşğuliyyəti sənətkarlıqdır. Qəsəbə icmasının təklifi ilə Kənd Təsərrüfatı Nazirliyinin Azərbaycan kənd investisiya layihəsi çərçivəsində Lahıcda ümumi sahəsi 428 kvadratmetr olan icma evi tikilib. Burada sənətkarlara yaradıcılıqla*

*məşğul olmaqla yanaşı, öz əsərlərini satmaq üçün də şərait yaradılıb. Azərbaycan kənd investisiya layihəsinin üstünlükləri kənd icmalarının infrastruktur problemlərini həll etməklə məhdudlaşmır. Layihə icma üzvlərinin müasir biznes fəaliyyəti üçün vacib olan birgə fəaliyyət, layihələrin və biznes-planların hazırlanması bacarıqlarına yiyələnmələrinə şərait yaradır.*

*Dövlət başçısının diqqət və qayğısı sayəsində ölkəmizdə müşahidə olunan inkişaf bölgələrimizin, hər bir kəndin, qəsəbənin simasında hiss olunur. Bu gün İsmayıllıda həyata keçirilən layihələr zəngin tarixə malik Lahıc qəsəbəsini də əhatə edib. Girdiman çayının sahilində, dağlar qoynunda yerləşən Lahıc Azərbaycanın ən məşhur sənətkarlıq mərkəzlərindən biridir. Lahıc sənətkarlarının misdən döymə üsulu ilə hazırladıqları silahlar və qablar çox məşhurdur. Qəsəbədəki emalatxana və mağazaların, demək olar ki, hamısı mərkəzi küçə boyunca yerləşir və bu ərazi turistlərin ən çox gəldiyi yerlərdəndir.*

*Lahıc sənət növlərinin çoxluğuna və sənətkarlarının sayına görə təkcə Şirvan elində, yaxud da Azərbaycanda deyil, eləcə də Yaxın Şərqdə tanınıb. Vaxtilə Lahıcda 123 sənət növü olub. Hazırda bu sənət növlərinin yaşadılması və gələcək nəsillərə ötürülməsi diqqət mərkəzində saxlanılır. Mütəmadi olaraq turist izdihamının yaşandığı qəsəbə yollarında nadir sənət nümunələrinin satışı həyata keçirilir.*

*Lahıc qəsəbəsini gəzən Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sənətkarlıq emalatxanalarında oldular, sakinlərlə görüşüb söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.*

*Qəsəbə sakinləri dövlət başçısını və xanımını böyük sevinc və coşğu ilə qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qəsəbə sakini misgər Nəzər Əliyevin evində oldular.*

*Ailə üzvləri dövlət başçısını və xanımını böyük sevinc hissi ilə qarşıladılar.*

**A i l ə  ü z v l ə r i:** Xoş gəlmisiniz! Mehriban xanım, Sizi ad gününüz münasibətilə təbrik edirik.

**M e h r i b a n  Ə l i y e v a:** Xoş gördük. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Söz vermişdim ki, gələcəyəm. Lahıca da gəldim, evinizə də gəldim.

**A i l ə  ü z v l ə r i:** Çox sağ olun, böyük xoşbəxtlikdir. Həmişə siz gələsiniz. Allah köməyiniz olsun.

# BAKI BULVARINDA YENİDƏN BƏRPA EDİLMİŞ «QU QUŞLARI» FƏVVARƏ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən «Qu quşları» fəvvarə kompleksinin açılışında iştirak etmişlər.*

*Bakı Bulvarındakı «Qu quşları» fəvvarəsi ötən əsrin 60-cı illərində qurulub. 60–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilib, o cümlədən Bakıda memarlıq kompleksləri və paytaxtın simasını dəyişən binalar inşa edilibdir. Dənizkənarı park da hamının diqqətini cəlb edən gözəl məkana çevrilib. Azneft dairəsi ərazisində qurulan «Qu quşları» fəvvarəsi sakinlərin və şəhərimizin qonaqlarının sevimli məkanlarından biri kimi tanınır.*

*Dahi şair Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin «Yeddi gözəl» poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə sakinlərin çox xoşuna gəlir və necə deyərlər, paytaxtın «əfsanəvi» məkanına çevrilir.*

*«Qu quşları» fəvvarəsinin kompozisiyası bir neçə dəfə işlənilib. Keçən əsrin 60-cı illərinin əvvəllərində 7 qu quşundan və hovuzdan ibarət olan kompozisiyaya 80-ci illərdə yeni çalarlar əlavə edildi. 90-cı illərin əvvəllərində ölkədə hökm sürən xaos*

*və baxımsızlıq səbəbindən bir çox digər ictimai obyektlər kimi, bu ansambl da bərbad vəziyyətə düşdü.*

*2007-ci ildə Dənizkənarı Bulvar yenidən qurularkən, onun yerində mərmər fəvvarə kompleksi yaradıldı. Lakin tarixi qu quşları ilə məşhurlaşan fəvvarə üçün hər zaman bir nostalji var idi.*

*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi və tarixi siması özünə qaytarıldı. Təkcə paytaxt əhalisinin deyil, ölkəmizə gələn çoxsaylı turistlərin xoşladığı və baş çəkdiyi bu məkan gözəlləşən Bakının görkəminə daha bir xoş ovqat gətirdi. Bu ansamblın yenidən öz tarixi simasını bərpa etməsi nəticəsində bütün dünyada məşhur olan Bakı Bulvarının siması daha da gözəlləşdi.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlət başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya burada görülən işlər barədə məlumat verdi.*

*Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində heykəltəraş Murad Sücəddinov tərəfindən 7 qu quşu heykəli hazırlanıbdır. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, tarixi ənənələrin qorunması ideyasına söykənən layihə üzərində işlər yüksək səviyyədə həyata keçirilib. Vacib məqamlardan biri də odur ki, qu quşları ötən əsrin 60-cı illərində olduğu kimi, hər biri fərqli ölçüdə və fərqli hərəkəti təsvir edərkən hazırlanıb. Fəvvarələr qurularkən işıqlandırmaya xüsusi diqqət yetirilibdir.*

*İndi bu məkan həm yerli sakinlər, həm də turistlər üçün yeni istirahət yeri olmaqla yanaşı, keçmişdə çox sevilən bulvarın bu hissəsində yaşanan xatirələri də canlandıracaqdır.*

*Dövlət başçısı və xanımı Dənizkənarı Milli Parkda kiçik Venesiya şəhərciyinin ərazisinə də baxdılar. Burada yeni yer örtüyü salınıb, əlavə ağaclar əkilib, ətraf abadlaşdırılıbdır.*

*Bu gün eyni zamanda, həm Avropa, həm də Şərq arxitektura koloritini özündə birləşdirən Bakı gözəlliyinə görə dünyada diqqət çəkən, turistlərin səyahət üçün seçdiyi şəhərlərdən biridir. Bakının tarixi rəmzlərindən biri olan «Qu quşları» fəvvarələr kompleksinin yenidən ilkin görkəminə qaytarılması paytaxtımızın hüsnünə yaraşıq verməklə yanaşı, ənənələrin yaşadılması, müasir memarlıqda tarixi izlərin qorunub saxlanılması baxımından da əhəmiyyətlidir.*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SOORONBAY JEENBEKOVA**

Hörmətli cənab Prezident!

Qırğız Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın qarşılıqlı maraqlarına uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qırğızıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2018-ci il*

**MALAYZİYANIN XV ALİ BAŞÇISI
ƏLAHƏZRƏT SULTAN
V MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Malayziya münasibətləri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2018-ci il*

**TRİNİDAD VƏ TOBAQO RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI XANIM POLA-MEY UİKSƏ**

Hörmətli xanım Prezident!

Trinidad və Tobaqo Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2018-ci il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDREY KİSKAYA**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Slovakiya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2018-ci il*

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ YARADILMIŞ BAKI KİTAB MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 28-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılmış Bakı Kitab Mərkəzinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Mərkəzin direktoru Günel Rzayeva burada yaradılan şərait barədə məlumat verdi. Paytaxtın Üzeyir Hacıbəyli və Qoqol küçələrinin kəsişməsində yerləşən bu mərkəzin sahəsi 2500 kvadratmetrə yaxındır. Fəaliyyətində əsas məqsədi mütaliəyə marağın artırılması olan Bakı Kitab Mərkəzində Azərbaycan və digər dillərdə dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitablar, musiqi kitabları və notlar da satılacaq. Burada müxtəlif dillərdə və janrlarda 10 mindən çox adda kitab təqdim olunacaq. Mərkəzdə oxucular Azərbaycan dili ilə yanaşı, rus, ingilis, alman, fransız, ispan və ərəb dillərində nəşrlər də əldə edə bilərlər.*

*Mərkəzin layihəsi üzərində işlənilərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını xoş keçirmələri üçün hər bir məqama xüsusi diqqət yetirilib. Kitab satışı ilə bərabər, burada «Coffeemood» adlı kafe də fəaliyyət göstərir. Qonaqlar kafedə istirahət edərkən mərkəzdə təqdim olunan kitab və jurnallarla tanış ola biləcəklər. Şəhər mənzərəsinə açılan pəncərələrin önündə çay süfrəsi arxasında mütaliə kitabsevərlərə xüsusi zövq verəcəkdir.*

*Bakı Kitab Mərkəzinin qonaqları burada müxtəlif nəşrlərlə yanaşı, «İ love Baku» milli brendinin Azərbaycana dair suvenirləri və «Azərmarka»nın məhsullarını da əldə edə biləcəklər.*

*Mərkəzdə quraşdırılan monitorlarda yeni kitablar haqqında məlumatlar veriləcək. Eyni zamanda, kitabsevərlər sensor ekranlarda mərkəzdə satılan kitablar haqqında da məlumatlar alacaqlar. Burada, həmçinin oxu zalı, elmi fəaliyyətlə məşğul olanlar üçün tədris guşəsi də vardır.*

*Görmə qabiliyyəti məhdud şəxslər, uşaqlar üçün guşələr, müxtəlif ədəbi və mədəni xarakterli təqdimat tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulan məkan kitabsevərlərin ixtiyarına veriləcəkdir.*

*Burada mütəmadi olaraq, müxtəlif kitab təqdimatları, məşhur yazıçılar, şairlər, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri olacaq. Bundan başqa, mərkəzdə uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bakı Kitab Mərkəzinin 3 dildə saytı fəaliyyət göstərəcək və oxucular bu internet səhifəsi vasitəsilə kitablar sifariş edə biləcəklər.*

*Mərkəzdə oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir. Fondun ulu öndər Heydər Əliyev, tariximiz, mədəniyyətimiz, incəsənətimiz, görkəmli şəxsiyyətlərimiz haqqında bir-birindən maraqlı müxtəlif dillərdə olan nəşrləri ölkəmizin təbliği baxımından mühüm rol oynayır.*

*Azərbaycanda vaxtilə kitaba böyük maraq göstərilib, mütaliə sevənlərin sayı isə digər ölkələrlə müqayisədə dəfələrlə çox olub. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzi intellektual səviyyəni yüksəltmək, bilik və savad almaq üçün ən mühüm şərt olan mütaliə mədəniyyətini yaşatmaq və gələcək nəsillərə ötürmək kimi vacib məsələyə böyük töhfə verir. Bu mərkəzin istifadəyə verilməsi kitaba marağı yenidən bərpa etməklə yanaşı, uşaq və yeniyetmələrdə kitaba*

*olan sevgini artıracaqdır, onlara mütaliə etmək vərdişləri aşılayacaqdır. Bütün bunlar gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsinə xidmət edir ki, bu məsələyə də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi diqqət yetirir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Nizami Gəncəvinin 1941-ci ildə nəşr olunmuş «İsgəndərnamə» əsəri və Dubrovinin 1866-cı ildə çap edilmiş «Zakavkazye» adlı tarixi əsərinin siqnal nüsxələrinə baxdılar.*

*Mərkəzlə tanış olan dövlət başçısı və xanımı Bakı Kitab Mərkəzinin fəaliyyətinə uğurlar arzuladılar.*

## GÜRCÜSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ZURAB PATARADZE İLƏ GÖRÜŞ

*29 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Gürcüstanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Zurab Pataradzenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Zurab Pataradze Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Zurab Pataradze etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin zəngin tarixə malik olduğunu vurğulayaraq, dostluq münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstanın fəal əməkdaşlığı nəticəsində həyata keçirilən bir sıra mühüm qlobal layihələrin təkcə bölgə üçün deyil, daha geniş məkanda böyük önəm daşıdığını diqqətə çatdırdı.*

*Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirərək, səfirə gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Zurab Pataradze qeyd etdi ki, o, dost Azərbaycana səfir vəzifəsinə təyin olunmasından şərəf hissi duyur. Azərbaycanın Gürcüstan üçün mühüm strateji tərəfdaş olduğunu vurğulayan Zurab Pataradze iki ölkə arasında qardaşlıq münasibətlərinin daim möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

*Səfir fəaliyyəti dövründə siyasi, iqtisadi, ticari, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi istiqa-*

*mətində səylərini əsirgəməyəcəyini, iki dost və qonşu ölkə arasında hərtərəfli münasibətlərin daha da gücləndirilməsi üçün çalışacağını bir daha əminliklə bildirdi.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Binəli Yıldırıma Türkiyə Böyük Millət Məclisinin Sədri vəzifəsinə seçilməsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev Binəli Yıldırımın Baş Nazir və digər vəzifələrdə çalışdığı dövrlərdə Türkiyə–Azərbaycan qardaşlıq əlaqələrinin möhkəmlənməsinə, Bakı–Tbilisi–Qars layihəsinin reallaşması işinə öz töhfəsini verdiyini vurğuladı.*

*Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə qlobal layihələrin, o cümlədən Bakı–Tbilisi–Ceyhan, TANAP, Bakı–Tbilisi–Qars layihələrinin böyük önəm daşıdığını qeyd etdi. Dövlət başçısı bildirdi ki, Türkiyə və Azərbaycan bütün dövrlərdə bir-birinə dəstək olub və bu gün də bir yerdədir. Prezident İlham Əliyev Binəli Yıldırımın Türkiyə Böyük Millət Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə də parlamentlərarası əlaqələrimizin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, ona bu vəzifədə uğurlar arzuladı.*

*Xoş sözlərə və təbriklərə görə minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin Sədri Binəli Yıldırım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Binəli Yıldırım Türkiyə–Azərbaycan dostluq*

*və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Türkiyə Böyük Millət Məclisinin Sədri kimi, ilk rəsmi səfərini Azərbaycana həyata keçirməsindən məmnunluğunu bildirən Binəli Yıldırım qeyd etdi ki, onun Azərbaycanda birinci dəfə 15 il bundan əvvəl olduğu dövrlə müqayisədə ölkəmiz çox böyük inkişafa nail olub və Azərbaycanın tərəqqisi Türkiyədə böyük sevinc hissi doğurur.*

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ**

Hörmətli Şavkat Miromonoviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün qardaş Özbəkistan müstəqillik yolu ilə inamla irəliləyərək, dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafı sahəsində mühüm nailiyyətlər qazanır. Özbəkistanın beynəlxalq aləmdə nüfuzu daim artır.

Ölkələrimiz arasındakı əlaqələr ortaq milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlətlərarası münasibətlərimizin belə möhkəm təməllər üzərində inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi məmnunluq doğurur.

İnanıram ki, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi və daha da dərinləşməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Şavkat Miromonoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2018-ci il*

## XARİCİ ÖLKƏLƏRLƏ DOSTLUQ ÜZRƏ ÇİN XALQ ASSOSİASİYASININ SƏDRİ Lİ SYAOLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 avqust 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Çinin Azərbaycan üçün etibarlı tərəfdaş və dost ölkə olduğunu vurğulayaraq, özünün Çin Xalq Respublikasına rəsmi səfərini və ölkə rəhbərliyi ilə görüşlərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev həmin səfərdən keçən dövr ərzində ikitərəfli münasibətlərimizin bütün istiqamətlərdə daha da inkişaf etdiyini, Çinin yüksək səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfər etdiklərini vurğuladı. Dövlət başçısı qeyd etdi ki, bu dövr ərzində siyasi və iqtisadi əlaqələrimiz daha da möhkəmlənib. Prezident İlham Əliyev xanım Li Syaolinin Azərbaycana səfərinin maraqlı və səmərəli keçəcəyinə, ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin Azərbaycana ilk dəfə səfər etdiyini qeyd edərək, Prezident İlham Əliyevlə görüşməsindən böyük şərəf hissi duyduğunu vurğuladı. O bildirdi ki, Bakıya gəldikləri qısa müddət ərzində paytaxtda gördüyü inkişaf prosesləri nümayəndə heyətinin üzvlərinə dərin təəssürat bağışlayıb. Xanım Li Syaolin rəhbərlik etdiyi qurum haqqında dövlətimizin başçısına məlumat verdi. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişaf etdiyini və bunun hər yerdə hiss*

*olunduğunu qeyd etdi. Qonaq Heydər Əliyev Fondu ilə birgə fəaliyyəti haqqında məlumat verdi, maraqlı layihələrin həyata keçirilməsi ilə bağlı imkanların mövcud olduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı iqtisadi, humanitar sahələrdə əməkdaşlıq xüsusi vurğulandı, çinli turistlərin Azərbaycana böyük maraq göstərdikləri qeyd olundu.*

# QEYDLƏR

**1. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 5, 26, 37, 138, 179, 270.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir.

1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5, 6, 26, 157, 204, 280, 284, 295, 318.

**3. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 7, 49.

**4. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 7.

**5. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 8, 37, 154, 224.

**6. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 8, 37.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 8, 40, 83, 87, 89, 95, 116, 120, 137, 138, 157, 160, 172, 174, 187, 188–195, 215, 216, 224, 230, 267, 268, 271, 272, 273.

**8. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 8, 116, 174, 271, 273.

**9. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 8, 37, 43, 45, 75, 84, 91, 117, 119, 136, 144, 174, 269, 271, 274, 275.

**10. Yaqub Eyyubov,** Y a q u b  A b d u l l a  o ğ l u (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş Nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş Nazirinin birinci müavinidir. Rusiya Federasiyasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 10–25.

**11. Nazim Məmmədov,** N a z i m  T i m u r  o ğ l u (d.1953) – fizika-riyaziyyat elmləri doktoru, AMEA-nın həqiqi üzvü, AMEA Fizika İnstitutunun direktorudur. – 10–25.

**12. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 10–25.

**13. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994–2019-cu illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri olmuşdur. 2019-cu il iyun ayından Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibidir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 10–25.

**14. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 10–25.

**15. Zakir Qaralov,** Z a k i r B a k i r o ğ l u (d.1956) – Azərbaycan Respublikasının Baş prokuroru, birinci dərəcəli Dövlət Ədliyyə müşaviridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 10–25.

**16. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 14, 25, 49, 50, 107, 196, 225–240, 271, 278.

**17. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$,

əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 14, 25, 333–334.

**18. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır. – 14, 126, 228, 318.

**19. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 338,4 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 28–29.

**20. Sauli Niinistö** (d.1948) – Finlandiyanın dövlət və siyasi xadimi. 2012-ci ildən Finlandiya Respublikasının Prezidentidir. – 29.

**21. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 29, 33, 34, 45, 70, 76, 144, 228.

**22. Meksika,** Meksika Birləşmiş Ştatları – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon $km^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 32.

**23. Andres Obrador** (d.1953) – Meksikanın siyasi xadimi. 2018-ci ildən Meksika Birləşmiş Ştatlarının Prezidentidir. – 32.

**24. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 33, 43, 45, 75, 84, 89, 117, 145, 275, 335.

**25. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 33, 45, 47, 53, 228.

**26. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilən konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıb. Mənzil-qərargahı Vaşinqtonda yerləşir. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 33.

**27. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 km$^2$, əhalisi 82,5 min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Qədim, Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirilib və qəza mərkəzinə çevrilibdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 37, 41, 70, 194.

**28. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 40, 83, 116, 137, 192, 215, 216, 230, 269, 274.

**29. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri

olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 49–50, 150, 151, 212, 213, 296, 305.

**30**. **Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 52.

**31. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 52.

**32. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 52.

**33. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 58.

**34. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq»

yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 75.

**35. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 75.

**36. Bakı–Supsa** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılışı mərasimi olmuşdur. – 75, 275.

**37. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 77.

**38. Xaltmaaqiyn Battulqa** (d.1963) – idmançı. 2017-ci ildən Monqolustanın Prezidentidir. – 77.

**39. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 79–87, 96, 248, 271, 278, 335–336.

**40. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 79–87, 96, 247, 336.

**41. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 87, 88–98, 102, 117, 121, 137, 186, 191.

**42. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 88–98.

**43. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 89–91, 115, 116, 117, 121, 137, 139, 160, 186–187, 191, 228, 269, 271, 272, 274.

**44. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş Naziri, 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 89–91, 186.

**45. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin rəisi, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 90, 213.

**46. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a- s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 92–93, 96–98, 218, 224, 247, 272.

**47. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 92–93, 247.

**48. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. «Soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 95, 115, 116, 120, 138, 216.

**49. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 99, 108, 154, 156–176.

**50. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və lideridir. – 99, 108, 156, 173–176.

**51. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 104–105, 225–240, 271, 278.

**52. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 104, 105.

**53. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,7 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 106, 250.

**54. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 106.

**55. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 107, 196, 225–240.

**56. Xorvatiya,** Xorvatiya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 109.

**57. Kolinda Qrabar-Kitaroviç** (d.1968) – Xorvatiyanın dövlət və siyasi xadimi. 2015-ci ildən Xorvatiya Respublikasının Prezidentidir. – 109.

**58. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. –110.

**59. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 111–155, 244, 274.

**60. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 111–155.

**61. Gülçöhrə Məmmədova,** Gülçöhrə Hüseyn qızı (d.1953) – professor. 2000–2005-ci illərdə Azərbaycan Respublikası ikinci çağırış Milli Məclisinin üzvü olmuşdur, hal-hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorudur. – 114.

**62. Cavid Qurbanov,** Cavid Qənbər oğlu (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 114.

**63. Azərbaycan Diplomatik Akademiyası** (ADA Universiteti), – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 120.

**64. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 120, 136, 153, 195, 262, 280–282, 290–292, 323–324, 330–332, 339.

**65. «Maire Tecnimont»** – layihələşdirmə, inşaat, texnologiyaların lisenziyalaşdırılması, energetika və istehsalın təşkili sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətlər qrupu. – 122, 126, 128–130, 148.

**66. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 126–128, 212, 318.

**67. Bakı Ali Neft Məktəbi** (BANM) – Azərbaycanda dövlət ali təhsil müəssisəsi. 2011-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibində yaradılmışdır. Bu ali məktəb beynəlxalq standartlara uyğun ən müasir tədris proqramları və tədris texnologiyaları əsasında sənayenin müasir tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislər hazırlayır.

BANM 3 ixtisas üzrə – Neft-qaz mühəndisliyi; Kimya mühəndisliyi; Proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mütəxəssislər hazırlayır. – 130.

**68. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan

Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 134, 135, 141, 153, 188, 195, 262, 280, 282, 288,

290, 291, 292, 293, 309, 310, 311, 313, 316, 317, 320, 322, 323–325, 330–332.

**69. Ağqoyunlu** (1378–1508) – Ağqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin (1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdir. – 136.

**70. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 136, 323, 332.

**71. Şah İsmayıl Xətai** (1487–1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi; dövlət xadimi, sərkərdə və şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 137, 153–155.

**72. Şah Təhmasib** (1514–1576) – Şah İsmayıl Xətainin oğlu. 1524–1576-cı illərdə Səfəvilər dövlətinin şahı olmuşdur. – 137, 153, 154.

**73. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 144.

**74. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 145, 229, 243, 271, 275, 335.

**75. Memarlıq və İnşaat Universiteti –** Azərbaycan Memarlıq və İnşaat Universiteti müxtəlif profilli (memarlıq və inşaat istiqamətləri üzrə) inşaat mühəndisləri hazırlayan ali məktəbdir. 1975-ci ildə Ç.İldırım adına Politexnik İnstitutunun əsasında Azərbaycan İnşaat Mühəndisləri Universiteti (1992), Azərbaycan Memarlıq və İnşaat Universiteti (2000) adlanmışdır. Universitetdə 7 fakültə (memarlıq, inşaat, su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri, nəqliyyat, inşaat-texnologiya, tikinti-iqtisad, mexanikləşdirmə və avtomatlaşdırma), 2 hazırlıq fakültəsi, 46 kafedra, 5 elmi-tədqiqat laboratoriyası, kitabxana vardır. – 145.

**76. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 154.

**77. NAVAL** – hərbi gəmilərin inşası ilə məşğul olan fransız müdafiə şirkətlər qrupu. Fransa Müdafiə Nazirliyi şirkətin əsas sifarişçisidir. Şirkətlər qrupunda dövlətin payı 64 faizdir. – 158.

**78. Jerar Larşe** (d.1949) – fransız siyasətçisi. Mühafizəkarlar (Respublikaçılar) Partiyasının üzvü. 2008–2011 illərdə, 2014-cü ildən indiyə qədər Fransa Respublikası Senatının Sədridir. – 159–160.

**79. Total S.A.**– məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 161.

**80. Airbus S.A.S.** – dünyada ən böyük aviasiya kampaniyası. Keçən əsrin 60-cı illərində Avropanın bir neçə avia istehsalçılarının birləşməsi nəticəsində yaradılmışdır. Airbus markası ilə sərnişin, yükdaşıma və hərbi-nəqliyyat təyyarələri istehsal edilir. Mənzil-qərargahı Blanyak (Fransa) şəhərində yerləşir. 2001-ci ildə Fransa qanunvericiliyinə uyğun olaraq S.A.S. Səhmdar Cəmiyyəti ilə birləşdirildi. Şirkət əsasən Avropanın 4 (Fransa, Almaniya, Böyük Britaniya, İspaniya) ölkəsində cəmlənib və 129,4 min nəfər işçisi vardır. Avadanlığın yekun montajı kampaniyanın Tuluza (Fransa) və Hamburq (Almaniya) şəhərlərində həyata keçirilir. – 162.

**81. GDF S.A. Suez** – Fransada ən böyük enerji və qaz şirkəti 2008-ci ildə «Gaz de France» və «Suez» şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır və əsasən Fransa hökumətinə (35,7% səhmlərinə) məxsusdur. Şirkət elektrik enerjisinin ötürülməsi, neftin çıxarılması, təbii qazın nəqli ilə alternativ enerji mənbələrinin fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkət Engie S.A. adlanır. – 163.

**82. Fransua de Rüji** (d.1973) – fransız siyasətçisi. «İrəli, Respublika» Partiyasının üzvü. 2017–2018-ci illərdə Fransa Milli Assambleyasının Sədri olmuşdur. – 171–172.

**83. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 177.

**84. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 177.

**85. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 178–179, 218.

**86. Maldiv,** M a l d i v  R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 km$^2$, əhalisi 402 min nəfərdir. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 180.

**87**. **Abdul Qəyyum** (d.1959) – 2013–2018-ci illərdə Maldiv Respublikasının Prezidenti olmuşdur. – 180.

**88. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpa-

latalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 183.

**89. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 183.

**90. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-in 4-cü enerji blokunda qəza baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radioaktiv çirklənməyə məruz qaldı və nəticədə AES-in 30 km-lik radiusda yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 188.

**91. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 190, 200, 203, 215, 218, 249.

**92. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı

Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 197, 245.

**93. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 197, 245.

**94. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 724,2 $km^2$, əhalisi 5,9 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 198.

**95. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 200, 216, 218.

**96. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 205–223.

**97. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 205–223.

**98. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları

Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 212.

**99. Ceyhun Bayramov,** C e y h u n Ə z i z o ğ l u (d.1973) – iqtisadçı-hüquqşünas, 2018-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. – 212, 310.

**100. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 216.

**101. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 216.

**102. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 225–240.

**103. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi, Millət lideri. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə

eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 225–240.

**104. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 225–240.

**105. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 225–240.

**106. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 242.

**107. Qabon,** Q a b o n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 267,7 min $km^2$, əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Librevil şəhəridir. – 246.

**108. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə Baş komissar olmuşdur. 2017-ci il yanvarın 1-dən BMT-nin Baş katibidir. – 249.

**109. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – Həcc mərasimlərinin yerinə yetirilməsi və Allahın bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 251–252.

**110. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i - k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 264–279.

**111. Angela Merkel** (d.1954) – Almaniyanın siyasi və dövlət xadimi. Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 264–279.

**112. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası,

Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. Qərargahı Strasburqda yerləşir. – 272, 273.

**113. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 274.

**114. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 299.

**115. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 299.

**116. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 323.

**117. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 326.

**118. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 326.

**119. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 327.

**120. V Məhəmməd** (d.1969) – 2016–2019-cu illərdə Malayziyanın Sultanı olmuşdur. – 327.

**121. Slovakiya,** Slovakiya Respublikası – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislava şəhəridir. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 329.

**122. Andrey Kiska** (d.1963) – Slovakiyanın ictimai xadimi. 2014–2019-cu (15 iyun) illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. – 329.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 126–128, 212, 318
**Abdullayev Yusif** – 211
**Adler Mark** – 169
**Ağayev Asif** – 280
**Alışanov Arif** – 211
**Andriye Borina** – 164
**Anis Məhəmməd** – 201–202
**Annan Kofi** – 249
**Aslanov Zöhrab** – 296
**Aşqeyrsdottir Berqlind** – 255–256
**Babayev Sahil** – 188
**Battulqa Xaltmaaqiyn** – 77
**Bayramov Ceyhun** – 212, 310
**Berdıməhəmmədov Qurbanqulu**– 225–240
**Berse Alen** – 184
**Blez Silvan** – 167
**Bozumbayev Kanat** – 225
**Cukanoviç Milo** – 78
**De Montbrial Tyerri** – 157
**De Rotşild Devid** – 166
**De Rüji Fransua** – 171–172
**Delonay Silver** – 162
**Di Amato Fabrizio** – 128–130
**Dikarlo Rozmari** – 95
**Dodon İqor** – 261
**Eskinazi Rafael** – 165
**Eyyubov Yaqub** – 10–25
**Al Abdulla İbrahim** – 199–200
**Əhmədzadə Əhməd** – 50–55
**Əhmədzadə Məmməd** – 114

**Əl-Xəlifə Həməd** – 200
**Ələkbərov Anar** – 262, 324
**Əliyev Heydər** – 5, 6, 26, 157, 204, 280, 284, 295, 318
**Əliyev Nəzər** – 320
**Əliyev Zahir** – 288
**Əliyeva Mehriban** – 134, 135, 141, 153, 188, 195, 262, 280, 282, 288, 290, 291, 292, 293, 309, 310, 311, 313, 316, 317, 320, 322, 323–325, 330–332
**Ərdoğan Rəcəb Tayyib** – 79–87, 96, 247, 336
**Əs-Sisi Əbdülfəttah** – 177
**Filipp** *(Belçika kralı)* – 110
**Gəncəvi Nizami** – 136, 323, 332
**Giyu Erve** – 158
**Gebreyesus Tedros** – 30–31
**Haqverdili Hikmət** – 316–317
**Haşimi Həsən** – 104–105
**Heydərov Kəmaləddin** – 10–25
**Hüseyn Məmnun** – 106
**Hüseynov Qorxmaz** – 10–25
**Hüseynov Zaur** – 10–25
**Xamralizoda Farrux** – 211
**Xətai Şah İsmayıl** – 137, 153–155
**İbrahim İssiradjou** – 257–258
**İbrahimov Zakir** – 55–60
**İmran Xan** – 250
**İzzətbəyoviç Bəkir** – 96
**Jeenbekov Sooronbay** – 326
**Kamilzadə Hüseynağa** – 317–318
**Kim Çen In** – 203, 204
**Kim Hen Cun** – 203–204
**Klaar Toivo** – 186–187

**Kornexo Martin** – 182
**Kiska Andrey** – 329
**Kravford Rik** – 224
**Kovind Ram** – 253
**Küfner Mixaela** – 271–272
**Qani Məhəmməd** – 92–93, 247
**Qaralov Zakir** – 10–25
**Qarayev Qara** – 323
**Qəyyum Abdul** – 180
**Qrabar-Kitaroviç Kolinda** – 109
**Quliyev Elçin** – 212
**Qurbanov Cavid** – 114
**Quterreş Antonio** – 249
**Lavşe Jerar** – 159–160
**Lölo Patrik** – 170
**Lukaşenko Aleksandr** – 7
**Li Syaolin** – 338–339
**Makron Emmanuel** – 99, 108, 156, 173–176
**Massari Auqusto** – 114
**Mattarella Laura** – 134, 135, 141, 153
**Mattarella Sercio** – 111–155, 244
**Merkel Angela** – 264–279
**V Məhəmməd** – 327
**VI Məhəmməd** – 183
**Məmmədov İlqar** – 272
**Məmmədov Saleh** – 294, 304
**Məmmədova Gülçöhrə** – 114
**Məmmədyarov Elmar** – 90, 213
**Məmmədov Nazim** – 10–25
**Mikayılova Sevil** – 276
**Mirziyoyev Şavkat** – 337
**Moqerini Federika** – 90
**Mustafayev Şahin** – 45–50, 150, 151, 212, 213, 296, 305

**Milanesi Enzo** – 134
**Muxtarlı Əfqan** – 272
**Nazarbayev Nursultan** – 225–240
**Nəbizadə Kamran** – 211
**Nines Devin** – 224
**Niinistö Sauli** – 29
**Nqo Duk Manh** – 259–260
**Ondimba Ali** – 246
**Obrador Andres** – 32
**Pataradze Zurab** – 333–334
**Pirverdiyev Etibar** – 10–25
**Pavlopulos Prokopis** – 181
**Poroşenko Petro** – 254
**Putin Vladimir** – 107, 196, 225–240
**Puyane Patrik** – 161
**Remi Jil** – 168
**Rəhman Emoməli** – 205–223
**Rəhmonəli Rəcəbəli** – 212
**Ruhani Həsən** – 225–240
**Rüstəmov Elşən** – 273–274
**Rzayev Balababa** – 10–25
**Said Nuriddin** – 212
**Sirisena Maytripala** – 201, 202
**Sarkisyan** – 38
**Şah Təhmasib** – 137, 153, 154
**Şassod Jan** – 163
**Şerali Kabir** – 211, 212
**Şirəliyev Oqtay** – 10–25
**Şmidt Hayke** – 153
**Şnayder-Ammonn** – 33–34
**Sücəddinov Murad** – 324
**Şoxiyon Maxmadsaid** – 212
**Talon Patris** – 185
**Tramp Donald** – 8, 37

**Tusk Donald** – 89–91, 186
**Uiks Pola-Mey** – 328
**Usubov Ramil** – 10–25
**Vilp Kristian** – 274
**Vikramasinqxen Ranil** – 202, 203
**Virolaynen Anne-Mari** – 28–29
**Vudodo Coko** – 197, 245
**Yaqub Həlimə** – 198
**Yıldırım Binəli** – 335–336

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 53
**Ağcabədi** – 52
**Ağdam** – 299
**Ağqoyunlu dövləti** – 136
**Aktau** – 225–240
**Almaniya** – 264–279
**Altıağac** – 46
**Amerika Birləşmiş Ştatları** – 8, 37, 154, 224
**Aralıq dənizi** – 139, 144, 275
**Araz çayı** – 51
**Asiya** – 145, 221
**Astara** – 12
**Avrasiya** – 144, 275
**Avropa** – 8, 31, 37, 145, 221, 271, 272, 278
**Belarus** – 7, 49
**Belçika** – 88–98, 110
**Benin** – 185, 257–258
**Bəhreyn** – 199–200
**Biləsuvar** – 52
**Birləşmiş Ərəb Əmirlikləri** – 49
**Bosniya və Herseqovina** – 96
**Böyük Britaniya** – 154
**Brüssel** – 87, 88–98, 186, 272
**Cəbrayıl** – 52
**Cənubi Qafqaz** – 186, 219
**Cocuq Mərcanlı** – 52
**Çernobıl** – 188
**Çin** – 49, 338–339

**Dağlıq Qarabağ** – 8, 40,83,87,89, 95, 116, 120, 137, 138, 157, 160, 172, 174, 187, 188–195, 215, 216, 224, 230, 267, 268, 271, 272, 273
**Daşkəsən** – 56
**Əfqanıstan** – 92–93, 96–98, 218, 224, 247, 272
**Əskişəhər** – 85, 117
**Finlandiya** – 28–29
**Florensiya** – 153
**Fransa** – 99, 108, 154, 156–176
**Füzuli** – 52
**Genuya** – 244
**Gəncə** – 71
**Goranboy** – 51, 70
**Göygöl** – 58
**Gürcüstan** – 14, 25,333–334
**Hacıqabul** – 52
**Həştərxan** – 50
**Hindistan** – 253
**Horadiz** – 299
**Xaçmaz** – 12, 46
**Xəzər dənizi** – 119, 144, 146, 150, 221, 225–240, 274, 275
**Xızı** – 46
**Xocalı** – 274
**Xorvatiya** – 109
**İndoneziya** – 197, 245
**İran** – 104–105, 225–240, 271, 278
**İslandiya** – 255–256
**İsmayıllı** – 294–308
**İsveçrə** – 33–34, 184
**İtaliya** – 111–155, 244, 274

**Koreya Xalq Demokratik Respublikası**– 203–204
**Krasnoyarsk** – 196
**Kurık** – 236
**Kür çayı** – 51, 52
**Qabon** – 246
**Qafqaz** – 210
**Qara dəniz** – 144, 150, 275
**Qazax** – 70
**Qazaxıstan** – 225–240
**Qəbələ** – 223
**Qırğız Respublikası** – 326
**Quba** – 12, 70
**Qobu** – 70, 190
**Qobustan** – 70
**Lahıc** – 309–322
**Latviya** – 49
**Lökbatan** – 241–243
**Lyanyunqan** – 236
**Malayziya** – 327
**Maldiv** – 180
**Masallı** – 47
**Mastinq** – 106
**Meksika** – 32
**Meysəri** – 282–289
**Mərakeş** – 183
**Mərkəzi Asiya** – 216, 222
**Milan** – 120
**Mingəçevir** – 10–25, 46
**Misir** – 177
**Moldova** – 261
**Monqolustan** – 77
**Monteneqro** – 78
**Moskva** – 318
**Naxçıvan** – 37, 41, 70, 194

**Naxçıvan Muxtar Respublikası**– 58
**Neapol** – 136
**Neapol Krallığı** – 136
**Neftçala** – 47,52
**Orta Asiya** – 275
**Özbəkistan** – 337
**Pakistan** – 106, 250
**Paris** – 149
**Peru** – 182
**Roma** – 120, 136
**Rusiya** – 14, 25, 49, 50, 107, 196, 225–240, 271, 278
**Sabirabad** – 47
**Sinqapur** – 198
**Slovakiya** – 329
**Sumqayıt** – 12, 70
**Şabran** – 299
**Şamaxı** – 280–293
**Şəki** – 12
**Şəmkir** – 70, 299
**Şərqi Avropa** – 49
**Şirvan** – 12
**Şri-Lanka** – 201–202
**Tacikistan** – 205–223
**Trinidad və Tobaqo** – 328
**Türkiyə** – 79–87, 96, 248, 271, 278, 335–336
**Türkmənistan** – 225–240, 274
**Ukrayna** – 49, 254
**Venesiya Respublikası** – 136
**Vyetnam** – 259–260
**Yunanıstan** – 181

# MÜNDƏRİCAT

AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASI POLİS ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

*29 iyun 2018-ci il*............................................................................5

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*30 iyun 2018-ci il*............................................................................6

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*2 iyul 2018-ci il*............................................................................8

ÖLKƏNİN ENERJİ SİSTEMİNDƏ YARANMIŞ VƏZİYYƏTLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ İŞTİRAK

*4 iyul 2018-ci il*............................................................................10

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN 20 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ KONSTİTUSİYA MƏHKƏMƏSİNİN KOLLEKTİVİNƏ

*5 iyul 2018-ci il*............................................................................26

FİNLANDİYA RESPUBLİKASININ XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ ANNE-MARİ VİROLAYNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyul 2018-ci il*............................................................................28

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU TEDROS ADHANOM GEBREYESUS İLƏ GÖRÜŞ

*5 iyul 2018-ci il*............................................................................30

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRES MANUEL LOPES OBRADORA

*6 iyul 2018-ci il*.........................................................................................*32*

İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL MÜŞAVİRİ YOHANN ŞNAYDER-AMMANNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*9 iyul 2018-ci il*.........................................................................................*33*

NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*9 iyul 2018-ci il*.........................................................................................*35*

YEKUN NİTQİ

*9 iyul 2018-ci il*.........................................................................................*60*

MONQOLUSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XALTMAAQİYN BATTULQAYA

*9 iyul 2018-ci il*.........................................................................................*77*

MONTENEQRO PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLO CUKANOVİÇƏ

*10 iyul 2018-ci il*.......................................................................................*78*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 iyul 2018-ci il*.......................................................................................*79*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 iyul 2018-ci il*.......................................................................................*80*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*10 iyul 2018-ci il*.......................................................................................*81*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*10 iyul 2018-ci il*......................................................................................*82*

BELÇİKA KRALLIĞINA SƏFƏR

*10 iyul 2018-ci il*......................................................................................*88*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD
TUSK İLƏ GÖRÜŞ

*11 iyul 2018-ci il*......................................................................................*89*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*11 iyul 2018-ci il*......................................................................................*92*

NATO-ya MÜTTƏFİQ VƏ TƏRƏFDAŞ ÖLKƏLƏRİN
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI ÜÇÜN TƏŞKİL
OLUNMUŞ QƏBULDA İŞTİRAK

*11 iyul 2018-ci il*......................................................................................*94*

BMT BAŞ KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ
MÜAVİNİ ROZMARİ DİKARLO İLƏ GÖRÜŞ

*12 iyul 2018-ci il*......................................................................................*95*

NATO-nun ƏFQANISTANDA QƏTİYYƏTLİ
DƏSTƏK MİSSİYASI ÜZRƏ ŞİMALİ ATLANTİKA
ŞURASININ GÖRÜŞÜNDƏ İŞTİRAK

*12 iyul 2018-ci il*......................................................................................*96*

**F**RANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

*11 iyul 2018-ci il*......................................................................................*99*

RESPUBLİKANIN HÜQUQ-MÜHAFİZƏ ORQANLARI
RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 iyul 2018-ci il*..........................................................................................*100*
İRAN İSLAM RESPUBLİKASININ SƏHİYYƏ, MÜALİCƏ VƏ
TİBBİ TƏHSİL NAZİRİ
HƏSƏN QAZİZADƏ HAŞİMİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyul 2018-ci il*..........................................................................................*104*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*14 iyul 2018-ci il*..........................................................................................*106*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*16 iyul 2018-ci il*..........................................................................................*107*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

*16 iyul 2018-ci il*..........................................................................................*108*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*16 iyul 2018-ci il*..........................................................................................*109*

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

*18 iyul 2018-ci il*..........................................................................................*110*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
SERCİO MATTARELLANIN RƏSMİ QARŞILANMA
MƏRASİMİ

*18 iyul 2018-ci il*..........................................................................................*111*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
SERCİO MATTARELLA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*18 iyul 2018-ci il*..........................................................................................*112*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*18 iyul 2018-ci il*......................................................................................*113*
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*18 iyul 2018-ci il*......................................................................................*114*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
SERCİO MATTARELLA İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*18 iyul 2018-ci il*......................................................................................*115*

SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «SOCAR POLYMER»
LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLMİŞ POLİPROPİLEN
ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*18 iyul 2018-ci il*......................................................................................*122*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
SERCİO MATTARELLANI «HEYDƏR ƏLİYEV» ORDENİ
İLƏ TƏLTİFETMƏ MƏRASİMİ

*18 iyul 2018-ci il*......................................................................................*134*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ
İŞTİRAK

*18 iyul 2018-ci il*......................................................................................*135*

AZƏRBAYCAN–İTALİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*19 iyul 2018-ci il*......................................................................................*141*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ ŞAH İSMAYIL XƏTAİYƏ HƏSR
EDİLMİŞ SƏRGİ İLƏ TANIŞLIQ

*19 iyul 2018-ci il*......................................................................................*153*

FRANSA RESPUBLİKASINA SƏFƏR

*19 iyul 2018-ci il*......................................................................................*156*

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN İCRAÇI SƏDRİ TYERRİ DE MONTBRİAL İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................157*

«NAVAL» QRUPUNUN SƏDRİ VƏ BAŞ DİREKTORU ERVE GİYU İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................158*

FRANSA RESPUBLİKASI SENATININ SƏDRİ JERAR LARŞE İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................159*

TOTAL S.A. ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANE İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................161*

«AİRBUS» ŞİRKƏTİNİN AVRASİYA ÜZRƏ VİTSE-PREZİDENTİ SİLVER DELONAY İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................162*

«SUEZ GROUP»UN BAŞ İCRAÇI DİREKTORU JAN LUİ ŞASSOD İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................163*

«VİLMOTTE & ASSOCİÉS ARCHİTECTES» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU BORİNA ANDRİYE İLƏ GÖRÜŞ

*19 iyul 2018-ci il...........................................................................164*

«THALES INTERNATIONAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ RAFAEL ESKİNAZİ İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il...........................................................................165*

«ROTHSCHİLD AND CO» ŞİRKƏTİNİN MÜŞAHİDƏ ŞURASININ SƏDRİ DEVİD DE ROTŞİLD İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il...........................................................................166*

«IVECO FRANCE» ŞİRKƏTİNİN PREZİDENTİ
SİLVAN BLEZ İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il..........................................................................................167*

«CIFAL» QRUPUNUN PREZİDENTİ JİL REMİ İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il..........................................................................................168*

«BOUYGUES TRAVAUX PUBLİCS» ŞİRKƏTİNİN BAŞ İCRAÇI
KATİBİNİN MÜAVİNİ MARK ADLER İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il..........................................................................................169*

SADE ŞİRKƏTİNİN PREZİDENTİ PATRİK LÖLO
İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il..........................................................................................170*

FRANSA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ
SƏDRİ FRANSUA DE RÜJİ İLƏ GÖRÜŞ

*20 iyul 2018-ci il..........................................................................................171*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL
MAKRONUN ADINDAN
AZƏRBAYCAN PREZİDENTİNİN
ŞƏRƏFİNƏ VERİLMİŞ NAHARDA İŞTİRAK

*20 iyul 2018-ci il..........................................................................................173*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 iyul 2018-ci il..........................................................................................175*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*20 iyul 2018-ci il..........................................................................................177*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İŞTİRAKÇISI OLAN
DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ
İCLAS İŞTİRAKÇILARINA

*20 iyul 2018-ci il..........................................................................................178*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA YAMİN ABDUL
QƏYYUMA

*23 iyul 2018-ci il*.......................................................................................*180*
YUNANISTAN RESPUBLİKASININ REZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*24 iyul 2018-ci il*.......................................................................................*181*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MARTİN VİZKARRA KORNEXOYA

*25 iyul 2018-ci il*.......................................................................................*182*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*27 iyul 2018-ci il*.......................................................................................*183*

İSVEÇRƏ KONFEDERASİYASININ REZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEN BERSEYƏ

*27 iyul 2018-ci il*.......................................................................................*184*

BENİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PATRİS TALONA

*27 iyul 2018-ci il*.......................................................................................*185*

AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO
KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*30 iyul 2018-ci il*.......................................................................................*186*

QARABAĞ, İKİNCİ DÜNYA MÜHARİBƏLƏRİ, ÇERNOBIL
ƏLİLLƏRİ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ MƏNZİLLƏRİN VƏ
AVTOMOBİLLƏRİN VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*1 avqust 2018-ci il* .................................................................................*188*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*4 avqust 2018-ci il* .......................................................................... *196*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*6 avqust 2018-ci il* .......................................................................... *197*
SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
XANIM HƏLİMƏ YAQUBA

*6 avqust 2018-ci il* .......................................................................... *198*

BƏHREYN KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ EBRAHİM YUSUF
AL ABDULLA İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il* .......................................................................... *199*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
MƏHƏMMƏD ŞƏRİF ANİS İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il* .......................................................................... *201*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
KİM HEN CUN İLƏ GÖRÜŞ

*8 avqust 2018-ci il* .......................................................................... *203*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ
RƏHMONUN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 avqust 2018-ci il* ........................................................................ *205*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ
RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 avqust 2018-ci il* ........................................................................ *206*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*10 avqust 2018-ci il* ........................................................................ *108*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 avqust 2018-ci il* .......................................................................... *211*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*10 avqust 2018-ci il* .......................................................................... *214*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*10 avqust 2018-ci il* .......................................................................... *220*

ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 avqust 2018-ci il* .......................................................................... *224*

QAZAXISTAN RESPUBLİKASINA SƏFƏR

*12 avqust 2018-ci il* .......................................................................... *225*

XƏZƏRYANI DÖVLƏTLƏRİN DÖVLƏT BAŞÇILARININ V ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*12 avqust 2018-ci il* .......................................................................... *226*

«XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYA»NIN İMZALANMASI MƏRASİMİ

*12 avqust 2018-ci il* .......................................................................... *232*

V ZİRVƏ TOPLANTISINDA MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 avqust 2018-ci il* .......................................................................... *233*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*12 avqust 2018-ci il* .......................................................................... *236*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*12 avqust 2018-ci il* ........................................................................*238*

DÖVLƏT BAŞÇILARININ KÖRPƏ NƏRƏ BALIQLARININ XƏZƏR DƏNİZİNƏ BURAXILMASI MƏRASİMİNDƏ İŞTİRAK

*12 avqust 2018-ci il* ........................................................................*239*

V ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*12 avqust 2018-ci il* ........................................................................*240*

ABŞERON LOGİSTİKA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*13 avqust 2018-ci il* ........................................................................*241*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*14 avqust 2018-ci il* ........................................................................*244*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*14 avqust 2018-ci il* ........................................................................*245*

QABON RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*14 avqust 2018-ci il* ........................................................................*246*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*16 avqust 2018-ci il* ........................................................................*247*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*18 avqust 2018-ci il* ........................................................................*248*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB ANTONİO QUTERREŞƏ

*18 avqust 2018-ci il ............................................................................249*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İMRAN XANA

*18 avqust 2018-ci il ............................................................................250*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*20 avqust 2018-ci il ............................................................................251*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM NAT KOVİNDƏ

*20 avqust 2018-ci il ............................................................................253*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PETRO POROŞENKOYA

*21 avqust 2018-ci il ............................................................................254*

İSLANDİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BERQLİND ASQEYRSDOTTİR İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il ............................................................................255*

BENİN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İSSİRADJOU GOMİNA İBRAHİM İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il ............................................................................257*

VYETNAM SOSİALİST RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NQO DUK MANH İLƏ GÖRÜŞ

*23 avqust 2018-ci il ............................................................................259*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA

*24 avqust 2018-ci il* ........................................................................ *261*

XƏTAİ RAYONUNDA SALINMIŞ İDMAN-ƏYLƏNCƏ PARK
KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*24 avqust 2018-ci il* ........................................................................ *262*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
KANSLERİ ANGELA MERKELİN
RƏSMİ QARŞILANMA MƏRASİMİ

*25 avqust 2018-ci il* ........................................................................ *264*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*25 avqust 2018-ci il* ........................................................................ *266*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
KANSLERİ ANGELA MERKEL İLƏ
BİRGƏ MƏTBUAT KONFRANSINDA İŞTİRAK

*25 avqust 2018-ci il* ........................................................................ *268*

İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*25 avqust 2018-ci il* ........................................................................ *277*

ŞAMAXI RAYONUNA SƏFƏR

*26 avqust 2018-ci il* ........................................................................ *280*

ŞAMAXI RAYONUNDA HEYDƏR ƏLİYEV FONDUNUN
TƏŞƏBBÜSÜ İLƏ İNŞA EDİLMİŞ DƏMİRÇİ ARXEOLOGİYA
MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*26 avqust 2018-ci il* ........................................................................ *290*

İSMAYILLI RAYONUNA SƏFƏR

*25 avqust 2018-ci il* ........................................................................ *294*

LAHIC QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ TAM ORTA MƏKTƏB BİNASININ AÇILIŞI MƏRASİMİ

*26 avqust 2018-ci il*................................................................................................ *309*

LAHIC QƏSƏBƏSİNƏ TƏBİİ QAZIN VERİLMƏSİ MƏRASİMİNDƏ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*26 avqust 2018-ci il*................................................................................................ *313*

BAKI BULVARINDA YENİDƏN BƏRPA EDİLMİŞ «QU QUŞLARI» FƏVVARƏ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2018-ci il*................................................................................................ *323*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SOORONBAY JEENBEKOVA

*28 avqust 2018-ci il*................................................................................................ *326*

MALAYZİYANIN XV ALİ BAŞÇISI ƏLAHƏZRƏT SULTAN V MƏHƏMMƏDƏ

*28 avqust 2018-ci il*................................................................................................ *327*

TRİNİDAD VƏ TOBAQO RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI XANIM POLA-MEY UİKSƏ

*28 avqust 2018-ci il*................................................................................................ *328*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDREY KİSKAYA

*28 avqust 2018-ci il*................................................................................................ *329*

HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ YARADILMIŞ BAKI KİTAB MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2018-ci il*................................................................................................ *330*

GÜRCÜSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ZURAB PATARADZE İLƏ GÖRÜŞ

*29 avqust 2018-ci il*................................................................................................ *333*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 avqust 2018-ci il*............................................................ *335*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ

*29 avqust 2018-ci il*............................................................ *337*

XARİCİ ÖLKƏLƏRLƏ DOSTLUQ ÜZRƏ ÇİN XALQ ASSOSİASİYASININ SƏDRİ Lİ SYAOLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 avqust 2018-ci il*............................................................ *338*

QEYDLƏR ............................................................ *340*

*Şəxsi adlar göstəriciləri*............................................................ *370*

*Coğrafi adlar göstəriciləri*............................................................ *375*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymət ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.